Tədqiqatın orijinallığı və elmi yeniliyi baxımından, qeyd etmək lazımdır ki, mühüm elmi yenilik kimi yeni şəraitdə bankların kredit portfelinin şaxələndirilməsinin qaçılmaz bir proses olduğunun əsaslandırılmasıdır. Bununla bağlı olaraq, bankların kredit siyasətindəki çatışmazlıqlar və kredit portfelinin şaxələndirilməsi problemləri araşdırılmış və açıqlanmışdır. Müasir dövrdə kredit portfelinin problemlərinə kompleks və sistemli yanaşmanın vacibliyi ön plana çəkilmişdir. Qlobal transformasiyalar və yeni çağırışlar şəraitində Azərbaycanın banklarında kredit portfelinin şaxələndirilməsi istiqamətlərində tövsiyələr hazırlanmış və təkliflər verilmişdir.

Açar sözlər: Azərbaycan, banklar, bank krediti, kredit portfeli, kredit portfelinin şaxələndirilməsi, kredit portfelinin problemləri.

Giriş

Müasir dövrdə Azərbaycanda bankların uğurlu fəaliyyəti düzgün formalaşmış kredit siyasətindən önəmli dərəcədə asılıdır, çünki bankın kredit portfelinin məqbul keyfiyyətinin təmin edilməsi və kreditin qaytarılması onun kreditləşdirmə nəticələrinin effektivliyinə birbaşa təsir göstərir. Müasir bankın kredit portfelinin keyfiyyətinin idarə edilməsinin səmərəliliyinin artırılması, artan kreditləşdirmə həcmi kontekstində onun kredit fəaliyyətinin keyfiyyətini yüksəltməyin yollarından biridir. Azərbaycan iqtisadiyyatının hazırkı şəraitində mükəmməl formalaşmış optimal kredit portfeli və risklərin idarə edilməsi sisteminin formalaşdırılması əsas şərtlərdəndir. Bu yollarla bankların kreditləşdirmə fəaliyyətini aktivləşdirmək mümkündür. Bankların kreditləşmə fəaliyyətini aktivləşdirmək məqsədilə, ilk öncə, tövsiyə olunur: banklar üçün vergitutma sisteminin təkmilləşdirilməsi, məcburi ehtiyatlar üzrə siyasətə dəyişikliklərin edilməsi; real sektora kommersiya bankları tərəfindən verilən kreditlərin yenidən maliyyələşdirilməsi təcrübəsinin inkişafı; bank kreditləşdirilməsinin stimullaşdırılması strategiyasının reallaşdırılması çərçivəsində bank fəaliyyətinin risklərinin azaldılması; bank kreditlərinə tələbatın artırılması məqsədilə şəraitin təmin edilməsi mexanizminin hazırlanması və tətbiqi və s. [5, s.21].

Müasir dövrdə Azərbaycan iqtisadiyyatında bankların kredit fəaliyyətinin əhəmiyyəti artır. Bu, əsasən ölkədə makroiqtisadi vəziyyət nəticəsində bankların resurs bazasının artması, kredit bazarı-

nın inkişafı, sahibkarlıq subyektlərinin maliyyə vəziyyətinin yaxşılaşması, kiçik və orta biznesin tamhüquqlu subyekt bazarı kimi fəaliyyət göstərməsi ilə bağlıdır. Məlumdur ki, bank fəaliyyəti müxtəlif risk növləri ilə xarakterizə olunur ki, bunlardan biri kredit riskidir. Kredit riski artan kredit həcmləri şəraitində öhdəliklərin ödənilməməsi ilə əlaqədardır, sistemli önəm daşıyır və digər risklərə səbəb olur. Bu risk növü kreditin tam və ya qismən qaytarılmaması və ya kreditin ödənilməsinin təxirə salınması şəklində özünü göstərir.

Bankların kredit portfelinin şaxələndirilməsi problemlərinin tədqiqi

Qeyd edək ki, verilmiş kreditlərin qaytarılmaması və ya vaxtında ödənilməməsi və faizlərin ödənilməməsi səbəbindən bankların kredit fəaliyyətində qeyri-müəyyənlik səviyyəsi xeyli dərəcədə artır, yəni kredit riski artır. Kredit portfelinin riskinin qarşısını almaq üçün lazımdır: kreditləşmə şərtlərinin təhlili; borcalanların diqqətlə seçilməsi; borcalanların maliyyə vəziyyətinə, onların krediti ödəmək qabiliyyətinə (istəklərinə) daim nəzarət. Bütün bu tələblər yerinə yetirildikdə, bank əməliyyatı, yəni kreditləşmə uğurla reallaşdırılır.

Kredit riski bu və ya digər dərəcədə kredit kapitalı bazarında daimi dövriyyəyə malik olduğuna görə hər hansı bank təşkilatına və bank olmayan kredit təşkilatına xasdır. Kommersiya bankında kredit riskləri ilə uğurlu iş bir çox amillərdən asılıdır: düzgün tərtib edilmiş kredit siyasəti, borcalanların kredit qabiliyyətinin qiymətləndirilməsi üsulları, mümkün kredit itkiləri üçün məcburi ehtiyatların formalaşdırılması tələblərinə uyğunluq, habelə kredit portfelinin diversifikasiyası. Qeyd etmək lazımdır ki, kredit riskinin səviyyəsi kredit verən təşkilatlar arasında əhəmiyyətli dərəcədə dəyişir. Bir tərəfdən istehlak kreditləşməsinin artımı kredit portfelinin diversifikasiyasına imkan verir, digər tərəfdən isə bank üçün əlavə təhlükələr yaradır, çünki istehlak kreditlərində vaxtı keçmiş kreditlərin səviyyəsi korporativ kreditləşmə ilə müqayisədə xeyli yüksək olur. Bu onunla bağlıdır ki, istehlak kreditlərinin əsas girov mənbəyi vətəndaşların likvid olmayan şəxsi əmlakıdır və buna görə satışı çətinləşir. Bundan əlavə, borcalanların müflisləşməsi ilə bağlı qanunvericilik bazası olmadığı halda, bankın borcunu ödəməyənlərlə məşğul olması və müvafiq olaraq borcun tənzimlənməsi prosedurunu təmin etmək çətindir. Beləliklə, kreditləşmənin payının artması bankın kredit riski səviyyəsinin artmasına səbəb olur [9, s.49]. Qeyd edək ki, Azərbaycanın Mərkəzi Bankının idarə heyətinin kredit riskləri ilə bağlı müvafiq qərarı da vardır ki, həmin qərarda borcalan və ya borcalan qrupları üçün kredit risklərinin maksumum miqdarı ilə bağlı tələblər müəyyənləşdirilmişdir [4].

Kredit riski anlayışı kredit portfelinin keyfiyyəti ilə sıx bağlıdır və həmin portfelin formalaşdırılması kredit təşkilatlarının fəaliyyətində əsas elementlərdən biridir. Kredit təşkilatlarının fəaliyyətinin maliyyə nəticəsi, onların bazarda sabit mövqeyi və işgüzar nüfuzu kredit portfelinin keyfiyyətindən və strukturundan əhəmiyyətli dərəcədə asılıdır. Bank təşkilatı fiziki və hüquqi şəxslərə kreditlərin verilməsi üçün öz kredit portfelini yaradır. Tədqiqatçıların əksəriyyəti kredit portfelinin mahiyyətinin müəyyənləşdirilməsi prosesində onun tərkib hissələrinin təsnifləşdirilməsində yeganə meyar kimi yalnız kredit riskinə istinad edirlər. Kredit portfelinin mahiyyətini ən dəqiq başa düşmək üçün ona birbaşa təsir edə biləcək bir sıra amillərə, yəni kredit portfelinin likvidlik dərəcəsinə və gəlirlilik səviyyəsinə diqqət yetirməyə dəyər. Xarici iqtisadi ədəbiyyatda verilən kreditlərin strukturunun və keyfiyyətinin xüsusiyyətləri müəyyən meyarlar əsasında, qarşıya qoyulmuş idarəetmə məqsədi əsasında təsnifləşdirilən kredit portfeli kimi nəzərdən keçirilir. Yəni xarici iqtisadçılar kredit portfellərinin mahiyyətinin müəyyənləşdirilməsində kredit idarəçiliyinin bir sıra komponentlərini daxil edirlər.

Kredit portfeli təkcə ən böyük aktiv və əsas gəlir mənbəyi deyil, habelə istənilən bankın sabitliyi və təhlükəsizliyi üçün ən böyük risk mənbələrindən biri hesab olunur. Qeyd edək ki, kredit portfelinin keyfiyyət göstəricisinin səviyyəsi kredit riskinin səviyyəsi ilə tərs mütənasibdir, yəni kreditin keyfiyyəti nə qədər yüksək olarsa, onun ödənilməməsi və ya gecikdirilməsi ehtimalı bir o qədər azdır [10, s. 167]. Odur ki, kredit portfelinin keyfiyyətinin yüksəldilməsi zəruri şərtdir ki, bunun üçün risklərin minimallaşdırılması tələb olunur. Bankda kredit risklərinin minimuma endirilməsinin əsas üsullarından biri kredit portfelinin diversifikasiyasıdır. Bu metod tənzimləmə üsulu kimi

müxtəlif kateqoriyalı borcalanlara kreditlərin verilməsini, habelə müştərilərə kreditin verilməsi şərtlərini nəzərdən keçirərkən onlara fərqli yanaşmanı nəzərdə tutur ki, bu da bir-biri ilə əlaqəli olmayan kredit obyektləri arasında riskin bölüşdürülməsinə kömək edir [11, s.74].

Kredit portfelinin diversifikasiyası dedikdə, kredit riskini minimuma endirmək üçün kreditlərin müxtəlif kateqoriyalar üzrə, o cümlədən borcalanlar, regionlar, təminat şərtləri, girov növləri, kredit alətləri, risk dərəcəsi, fəaliyyət növləri, habelə bir sıra digər amillər üzrə bölüşdürülməsi başa düşülür. Diversifikasiya kredit risklərini azaltmaqla yanaşı, həm də banklara bir borcalan tərəfindən kreditin ödənilməsinin gecikdirilməsi nəticəsində yarana biləcək mümkün itkiləri borc öhdəliklərini vaxtında yerinə yetirən digərləri hesabına kompensasiya etməyə imkan verir. Kredit portfelinin diversifikasiyası heç də həmişə risklərin minimuma endirilməsinə səbəb olmur, bəzən isə əksinə, onun artmasına kömək edə bilər. Xüsusilə, kifayət qədər yaxşı diversifikasiya edilmiş bank kredit portfeli ilə yüksək konsentrasiyanı müşahidə etmək olar. Kredit təşkilatları kredit portfelinin konsentrasiya səviyyəsinə nəzarət etməlidirlər, çünki hər bir bank əksər hallarda müəyyən bazar seqmentini təmsil edə bilən sabit müştəri bazası təşkil edir. Bununla əlaqədar olaraq, kredit təşkilatları öz kredit strategiyasını müəyyənləşdirərkən keyfiyyətini yaxşılaşdırmaq və kredit risklərini minimuma endirmək üçün kredit portfelinin orta səviyyədə təmərküzləşməsindən və diversifikasiyasından çıxış etməlidirlər.

Diversifikasiya təkcə sektorlar üzrə riskin yayılması deyil, həm də müxtəlif növ borcalanlar arasında riskin yayılmasıdır. Banklara korporativlər, kiçik bizneslər və fiziki şəxslər kimi müxtəlif risk profillərinə malik borcalanlara kredit vermək onların bir seqmentdən asılılığını azaltmağa kömək edir. Bankın kredit portfelinin diversifikasiyası əsasən bazar şərtləri, yəni bank xidmətlərinə tələb və təklif və onların qiymətləri arasında mövcud əlaqə ilə müəyyənləşdirilir. Bu prosesin qaydalarını bankın kredit siyasətinin hazırlanması, kredit məhsullarının inkişafı, eləcə də onun dəstəklənməsi və keyfiyyətinin yenidən qiymətləndirilməsi mərhələsində nəzərə almaq vacibdir. Portfelin diversifikasiyası xərcləri əməliyyat və monitorinq xərclərinin cəmi kimi müəyyənləşdirilə bilər. Kredit portfelinin diversifikasiyası kreditləşmənin prioritet istiqamətlərini, ölkənin sabit iqtisadi vəziyyətini dəstəkləmək üçün hansı sahəyə daha çox vəsait ayırmağa kömək edir. Kredit riskini azaltmaq üçün bank kredit siyasətinin təkmilləşdirilməsinə, yəni daha az riskli kreditləşmənin aparılmasına, müəyyən və zəmanətli təminatlı kreditlərin verilməsinə, bacarıqların artırılmasına diqqət yetirməlidir [7, s.70]. Kredit portfelinin diversifikasiyası aşağıdakı istiqamətlər üzrə aparıla bilər: fəaliyyət sahələrinə, coğrafi əraziyə, kreditlərin həcminə, kreditlərin verilməsi müddətinə, ödəmə müddətinə, sənaye xüsusiyyətlərinə, valyutaların növlərinə, qəbul edilən girovlara görə və s..

Fəaliyyət sahələri üzrə diversifikasiya sənaye, ticarət, nəqliyyat, tikinti və s. sahələr üzrə kreditlərin bölüşdürülməsini nəzərdə tutur. Diversifikasiyanın bu istiqamətində müştərilərin qiymətləndirilməsi və monitorinqinin təkmilləşdirilməsi üçün investisiya tələb edilə bilər. Kredit portfelinin sənaye diversifikasiyası iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən müştərilər arasında kreditlərin strukturlaşdırılması yolu ilə reallaşdırılır. Aydındır ki, kredit portfelinin optimal strukturu müvafiq kredit məhsullarının təşviqində məqsədli bazarlar və təklif üstünlükləri ilə sıx bağlıdır. Odur ki, bankın davranışı və kredit siyasətinin strategiya və taktikasına əsaslanaraq, iqtisadiyyatın bank üçün ən çox gəlir gətirə bilən sektorlarına üstünlük verilə bilər [8, s.189]. Kredit portfelinin ödəmə müddətləri üzrə diversifikasiyası xüsusi önəm daşıyır, çünki müəyyən müddət üçün nəzərdə tutlmuş kreditlər üzrə faiz dərəcələri daimi dalğalanmalara məruz qalır. Onu da bildirək ki, kredit müddəti artdıqca bankın fərdi kredit riskinin səviyyəsi artır. Əgər bank uzunmüddətli kreditləşdirməyə yönəlibsə, onun strukturunu tarazlaşdıracaq qısamüddətli kreditlərin kredit portfelinə daxil edilməsi faydalı hesab olunur. Kreditlər üzrə qəbul edilmiş girovun diversifikasiyası banka kredit üzrə girov rolunu oynayan borcalanın əmlak aktivlərindən istifadə etməklə kredit itkilərinin ödənilməsinə şərait yaradır. Məlum olduğu kimi, kredit portfelini təşkil edən kreditlər təminatlı, kifayət qədər təminatlı və təminatsız bölünür. Kreditlər arasında aztəminatlı və təminatsızların üstünlük təşkil etməsi bank üçün zərər ehtimalını artırır. Təminatlı kreditlər isə

girovun keyfiyyətindən, növlərindən və icra imkanlarından asılı olaraq dəyişir.

İnvestisiya portfelinin diversifikasiyası o zaman təzahür edir ki, onun tərkibində bir deyil, bir neçə növ qiymətli kağız var. Üstəlik, hər halda, diversifikasiya ilə, müxtəlif maliyyə aktivləri qruplarının seçiminə şaxələndirilmiş yanaşma səbəbindən risklər tamamilə yox olmur; Əsas məqsəd investisiya riskini dağıtmaqdır, baxmayaraq ki, investisiya riskini tamamilə aradan qaldırmaq mümkün deyil. Bu onunla bağlıdır ki, investisiya qoyuluşu zamanı iqtisadiyyatın ümumi vəziyyəti və ya konkret maliyyə bazarı ilə bağlı olan qeyri-şaxələndirilmiş (sistematik) risklər də yaranır. Diversifikasiya olunmamış risklərin müəyyənedici amilləri müharibələr, inflyasiya, ölkənin pul-kredit siyasətində dəyişikliklər, vergi qanunvericiliyi və s.Belə ki, investisiya portfeli formalaşdıqdan sonra portfelə daxil olan qiymətli kağızların xüsusiyyətləri xarici amillərin təsiri altında dəyişə bilər və buna görə də investor portfelin tərkibini və strukturunu (portfelin dəyərində qiymətli kağızların payını) daim dəyişməli, yəni onu diversifikasiya etməlidir.

Müasir dövrdə Azərbaycanda banklarin kredit portfelinin vəziyyəti və şaxələndirilməsi istiqamətləri

Azərbaycanda bank kreditlərini, demək olar ki, bütün regionlar və onların ev təsərrüfatları, sənaye, ticarət və xidmət müəssisələri, daşınmaz əmlak və icarə ilə əməliyyatlar aparan müəssisələr və s. cəlb edib. 2023-cü ildə Azərbaycanda bankların kredit portfeli 23979,1 milyon manat təşkil edib ki, bunun əsas hissəsi, yəni 13604,6 milyon manatı və ya 56,7%-i ev təsərrüfatlarının payına düşür (şəkil 1).



Şəkil 1. Ev təsərrüfatları üzrə kredit portfelinin həcmi, mln. manat

(Mənbə: AMB-nin statistik məlumat bazası əsasında tərtib olunub- https://uploads.cbar.az/)


Şəkil 1-dən görürük ki, Azərbaycanda bankların ev təsərrüfatları üzrə kredit portfeli qeyri-bərabər artmışdır, lakin buna baxmayaraq tədqiq olunan dövlər ərzində onların ölkənin banklardakı kredit portfelindəki həcmi ən çox xüsusi çəkiyə malikdir. Bankların ev təsərrüfatları üzrə kredit portfeli 2023-cü ildə ən çox olmuşdur ki, bu da 2015-ci ilə görə 61,6%, 2020-ci ilə görə 2 dəfə, 2022-ci ilə görə isə 24,1% çoxdur [1].

Digər tərəfdən isə əhali tərəfindən banklara qoyulmuş əmanətlərin həcmində də artım müşahidə olunub (şəkil 2).

Şəkil 2-dən görünür ki, tədqiq olunan dövrlərdə Azərbyacanda əhalinin banklara qoyduğu əmanətlərin həcmində bəzi illər istisna olmaqla artım davamlı olaraq olmuşdur. Belə ki, 2010-cu ildən başlayaraq artım olmuş, 2015-ci ildə manatın devalvasiyası səbəbindən 2016-cı ildə özündən əvvəlki ilə görə 21,4% azalmış, daha sonra yenidən artmağa başlamışdır. 2020-ci ildə isə COVİD-19 səbəbindən əhali gəlirləri azalmış, bu isə onların banklardakı əmanətlərinin həcminin əvvəlki ilə nisbətdə 5,3% azalmasına səbəb olmuşdur.

Kredit portfelinin regional diversifikasiyasını inkişaf etdirmək üçün regionlarda bankların və sahibkarlıq subyektlərinin inkişafına böyük önəm verilməlidir. Azərbaycanda bankların və onların

kredit portfelinin əsas hissəsinin Bakı şəhərində yerləşməsi digər regionlardakı müəssisələrin fəaliyyətinə mənfi təsir göstərə bilir.



Şəkil 2. Əhalinin banklardakı əmanətləri, mln. manat

(Mənbə: ARDSK https://www.stat.gov.az)

Çünki, regionlardakı bankların az olması buradakı müəssisələrin maliyyə-iqtisadi vəziyyətini Bakıdakı iri bankların siyasətindən asılı edir [6, s.15]. Beləliklə, bankların kredit portfelinin əsasən Bakı şəhərində yerləşdirildiyini nəzərə alaraq, onun digər regionlar üzrə də diversifikasiyasının sürətləndirilməsi əsas şərtlərdəndir. Lakin kredit porteflinin diversifikasiyasını elə reallaşdırmaq lazımdır ki, onun keyfiyyəti aşağı düşməsin.

Banklar arasında maliyyə balansının pozulması dövlətin kredit sisteminə ümumi inamı azaldır və bu, iqtisadiyyatın digər sahələrində də hiss olunur. İqtisadiyyatın bazar iqtisadiyyatına keçidindən sonra kommersiya banklarının mənfəətini artırmaq və risklərini minimuma endirmək məqsədilə kredit portfelinin idarə edilməsi mexanizminin hazırlanması və təkmilləşdirilməsi problemi aşkar əhəmiyyət və aktuallıq qazanmışdır. Müəyyən meyarlara cavab verən kredit portfelinin olması yalnız bankın kredit siyasətinin keyfiyyətini deyil, habelə hesabat dövrü üçün kredit fəaliyyətinin nəticələrini proqnozlaşdırmağa imkan verir. Kredit portfelinin keyfiyyətinə çox diqqət yetirilməlidir. Keyfiyyətsiz kredit portfeli, əsassız kreditlər (kredit siyasətinin müddəalarının pozulması ilə verilmiş) və etibarsız borcalanlara kreditlərin verilməsi banklarda maliyyə balansının pozulmasına səbəb ola bilər.

Kredit portfelinin keyfiyyətinin aşağı düşməsi istiqamətində formalaşan tendensiya, yəni vaxtı keçmiş borcların bir qədər artması və nəticədə kreditlər üzrə faiz gəlirlərinin azalması bankı potensial borcalanlara qarşı tələbləri sərtləşdirməyə sövq edir. Kredit portfelinin diversifikasiyası yalnız onu təşkil edən kreditlər bir-birindən müstəqil olduqda və ya çoxistiqamətli əlaqə olduqda portfel riskini azaltmağa imkan verir. Beləliklə, portfel bir-biri ilə minimal və ya müxtəlif istiqamətlərdə əlaqəli olan sənayelərdən formalaşmalıdır. Bu portfel strukturu sənayelərdən birində neqativ hallar baş verdikdə itkilərin minimuma endirilməsini təmin edəcək.

Optimal kredit portfelini formalaşdırmaq üçün bankın müvafiq kredit siyasətini işləyib hazırlaması - bazar seqmentlərini düzgün seçmək və fəaliyyət strukturunu müəyyənləşdirmək vacibdir. Bu və ya digər tədbirlər banklara rəqabətqabiliyyətliliyini və davamlı inkişafını təmin edə bilər. Rəqabətqabiliyyətli mövqeyini itirməmək üçün banka hüquqi şəxslər üçün kredit məhsulları xəttini genişləndirməklə kredit portfelini diversifikasiya etmək də tövsiyə oluna bilər. Bu tədbir kreditlər üzrə faiz gəlirlərini artırmağa və bankın fərdi müştərilərin loyallığından asılılığının dərəcəsini azaltmağa kömək edəcək. Bundan əlavə, likvid olmayanları dərhal xidmətlər siyahısından çıxarmaq və marketinq üsulları vasitəsilə populyar məhsulların cəlbediciliyini artırmaq üçün kredit məhsullarının gəlirliliyinə mütəmadi olaraq nəzarət etməyə dəyər.

Nəticə

Kredit portfelinin diversifikasiyası istiqamətlərinin səmərəli şəkildə reallaşdırılması tələb olunur ki, bu da məhz kredit siyasətindən xeyli asılıdır. Bu qeyd olunanlar baxımından, kredit siyasətinin təkmilləşdirilməsi tələb olunur ki, bu da bir qrup istiqamətlərdə tədbirlərin görülməsini şərtləndirir:

- borcalanların kredit qabiliyyətinin qiymətləndirilməsi metodologiyasının təkmilləşdirilməsi və kreditləşmə şərtlərinin hazırlanması zamanı onun nəticələrinin nəzərə alınması;
- əlavə təminatların alınmasına və kredit risklərinin azaldılmasına imkan verən kreditlərin ödənilməsinin təmin edilməsinin optimal formalarının tətbiqi;
- portfelin daha çox şaxələndirilməsi məqsədilə kredit resurslarının investisiya istiqamətlərinin və verilən kreditlərin məqsədyönlülüyünün dəyişdirilməsi;
- borcalanların kredit müqavilələrinin şərtlərinə əməl etməsinə ilkin və sonrakı nəzarətin gücləndirilməsi;
- kredit prosesinin təşkili elementlərinin təkmilləşdirilməsi və s..

ƏDƏBİYYAT

1. AMB-nin statistik məlumat bazası əsasında tərtib olunub: [Elektron resurs] / https://uploads.cbar.az/assets/aa13eadd83ce9ae4392736ec0.pdf .
2. AMB-nin statistik məlumat bazası: [Elektron resurs] / https://uploads.cbar.az/assets/52238f3796853677ac57679d8.pdf /.
3. ARDSK: [Elektron resurs] / https://www.stat.gov.az/source/finance/ARDSK.
4. Kredit riskləri, o cümlədən iri kredit riskləri ilə bağlı prudensial normativ və tələblərə dair Qaydanın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin Qərarı. – Bakı, – 22 iyul 2022.
5. Mirzəzadə, F.A. Azərbaycan iqtisadiyyatında modernləşmə prosesinin maliyyə-bank mexanizmlərinin təkmilləşməsi. Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dis. Avtoreferatı./ – Bakı, 2018. – 26 s.
6. Musayev, S.İ. Real iqtisadiyyat sektorunda kommersiya banklarının rolunun artırılması. İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dis. işinin avtoreferatı./ – Bakı, 2018. – 24 s.
7. Воробьева, Е.И. Оценка кредитного портфеля коммерческого банка / Е.И. Воробьева, Д. Кутьина // Науковий вісник: фінанси, банки, інвестиції. – 2014. № 2(27), – с. 67-71.
8. Идрисова, С.К. Формирование и управление кредитным портфелем банка в современных условиях / С.К. Идрисова // Финансовые инструменты устойчивого экономического развития регионов РФ: сборник статей Второй Всероссийской научно-практической конференции, – Махачкала, – 03 мая 2017, – с. 187-191.
9. Назекова, М.Т. Анализ качества кредитного портфеля и оценка кредитного риска / М.Т. Назекова, А.С. Советбекова // М. Рыскулбеков атындагы Кыргыз экономикалык университетинин кабарлары. – 2022. № 3(56), – с. 47-50.
10. Ноздрина, А.Н. Кредитный риск как важнейший показатель оценки кредитной деятельности банка / А.Н. Ноздрина, И.Н. Третьякова // Актуальные вопросы устойчивого развития современного общества и экономики: Сборник научных статей 2-й Всероссийской научно-практической конференции. В 3-х томах, – Курск, – 27–28 апреля 2023. – с. 166-169.
11. Рабаданова, Д.А. Управление кредитным портфелем коммерческого банка / Д.А. Рабаданова, Р.М. Хидирова // Экономика и управление: проблемы, решения. – 2018. – Т. 6, № 8, – с. 71-75.

Лала Абдулрахим кызы Шахбазова
Диссертант Лянкоранского Государственного Университета,
Азербайджанская Республика,
E-mail: shahbazova1995@gmail.com

Пути диверсификации кредитного портфеля банков Азербайджана

Резюме

Цель исследования заключается в определении путей диверсификации кредитного портфеля банков Азербайджана.

Методологии исследования. В ходе подготовки статьи автором использовались методы анализа, синтеза, сравнения и обобщения. Наряду с этим были даны ссылки на научные работы и аналитические материалы по проблемам диверсификации кредитного портфеля банков Азербайджана.

Практическое значение исследования в текущий период связано с улучшением структуры и разработкой более эффективных механизмов кредитного портфеля банков.

Результаты исследования – полученные результаты могут быть полезны при разработке более эффективных мер и механизмов в части совершенствования кредитной политики банков и диверсификации существующей структуры кредитного портфеля в период глобальных вызовов.

Оригинальность и научная новизна исследования. Значимым научным новшеством является обоснование того, что диверсификация кредитного портфеля банков является неизбежным процессом в новых условиях. В связи с этим были исследованы и объяснены недостатки кредитной политики банков и проблемы диверсификации кредитного портфеля. В современное время на первый план выходит важность комплексного и системного подхода к проблемам кредитного портфеля. В конце статьи были даны рекомендации и предложения в направлении диверсификации кредитного портфеля банков Азербайджана в условиях глобальных преобразований и новых вызовов.

Ключевые слова: Азербайджан, банки, банковский кредит, кредитный портфель, диверсификация кредитного портфеля, проблемы кредитного портфеля.

Lala Abdulrahim Shahbazova,
Doctoral student of Lankaran State University,
Azerbaijan Republic,
E-mail: **shahbazova1995@gmail.com**

Ways to diversify the loan portfolio of banks in Azerbaijan

Summary

The purpose of the research - consists of identifying ways to diversify the loan portfolio of banks in Azerbaijan.

Research methodology - The methods of analysis, synthesis, comparison and generalization were used in the article. Along with this, references were given to scientific works and analytical materials on the problems of diversification of the loan portfolio of banks in Azerbaijan.

The applied significance of the research - in the current period is associated with improving the structure of the banks' loan portfolio and developing more effective mechanisms for the loan portfolio.

The results of the research – it can be noted that the obtained results can be useful in developing more effective measures and mechanisms in terms of improving the credit policy of banks and diversifying the existing structure of the credit portfolio during the period of global challenges.

Originality and scientific novelty of the research - it should be noted that as an important scientific innovation, it is a justification for the fact that diversification of the loan portfolio of banks is an inevitable process in the new conditions. In this regard, the shortcomings of the credit policy of banks and the problems of diversification of the loan portfolio were investigated and explained. In modern times, the importance of a comprehensive and systematic approach to the problems of the loan portfolio comes to the fore. In the context of global transformations and new challenges, recommendations and proposals were given in the direction of diversification of the loan portfolio in the banks of Azerbaijan.

Key words: Azerbaijan, banks, bank loan, loan portfolio, loan portfolio diversification, loan portfolio problems.

UOT 339.9

İlham Siracəddin oğlu CABBARLI
doktorant, BDU
ilham.jabbar@gmail.com
https://doi.org/10.30546/4.71.73001.2024.004.08

QLOBAL İQLİM ÖHDƏLİKLƏRİ KONTEKSTİNDƏ AZƏRBAYCAN İQTİSADİYYATINA XARİCİ İNVESTİSİYALARIN ARTIRILMASININ STRATEJİ İSTİQAMƏTLƏRİ

Xülasə

Tədqiqatın məqsədi Azərbaycanın iqtisadi siyasətini qlobal iqlim öhdəlikləri və davamlılıq məqsədlərinə uyğunlaşdırmaqla xarici investorlar üçün cəlbediciliyini artırmaq üçün strategiyaları araşdırmaq və müəyyən etməkdir.

İşin metodologiyası məlumat toplamaq, təhlil etmək və şərh etmək üçün çoxşaxəli yanaşmanı əhatə edir.

Tədqiqatın tətbiqi əhəmiyyəti Azərbaycana xarici sərmayələri cəlb etməkdə, eyni zamanda qlobal iqlim məqsədlərinə sadiqliyini artırmaqda və bununla da dayanıqlı iqtisadi artımı təşviq etməkdə kömək edə biləcək fəaliyyətə yararlı fikirlər və siyasət tövsiyələrinin təmin edilməsindən ibarətdir.

Tədqiqatın nəticələri Azərbaycanın investisiya mühitinin qlobal davamlılıq standartlarına uyğunlaşdırılması üçün əsas strategiyaları vurğulayır, belə uyğunlaşmanın ölkənin xarici investorlar üçün cəlbediciliyini əhəmiyyətli dərəcədə artıra biləcəyini və uzunmüddətli iqtisadi dayanıqlığı gücləndirə biləcəyini nümayiş etdirir.

Tədqiqatın orijinallığı və elmi yeniliyi onun davamlı inkişaf təcrübələri vasitəsilə xarici investisiyaları cəlb edən yeni strategiyalar formalaşdırmaqla Azərbaycanın iqtisadi artımı və iqlim öhdəliklərinə eyni vaxtda yanaşılmasına inteqrativ yanaşmasındadır.

Açar sözlər: xarici investisiya, qlobal iqlim, davamlılıq strategiyası.

Giriş

Strateji cəhətdən Avropa və Asiyanın kəsişməsində yerləşən Azərbaycan öz iqtisadi inkişafını artırmaq üçün xarici investisiyaların cəlb edilməsi istiqamətində fəal iş aparır. Bu illər ərzində ölkədə xarici investorlar üçün daha əlverişli mühit yaratmaq məqsədilə müxtəlif islahatlar həyata keçirilib, investisiya landşaftının genişləndirilməsi istiqamətində mühüm addımlar atılıb.

Azərbaycan iqtisadiyyatında ənənəvi olaraq neft-qaz sektoru üstünlük təşkil edib və bu sektor birbaşa xarici investisiyaların (BXİ) əsas hissəsini cəlb edib. Ölkənin böyük karbohidrogen ehtiyatları qlobal enerji nəhənglərinin marağına səbəb olub, kəşfiyyat, hasilat və infrastrukturun inkişafına əhəmiyyətli investisiyaların qoyulmasına səbəb olub. Azərbaycan Dövlət Neft Fondu (ARDNF) neft sektorundan daxilolmaların idarə olunmasında, makroiqtisadi sabitliyin təmin edilməsində, irimiqyaslı infrastruktur layihələrinin maliyyələşdirilməsində mühüm rol oynamışdır [3].

Son illərdə Azərbaycan davamlı və inklüziv artımın zəruriliyini dərk edərək öz iqtisadiyyatını neft və qazdan kənarda şaxələndirməyə çalışır. Kənd təsərrüfatı, turizm, informasiya texnologiyaları, bərpa olunan enerji, istehsal kimi sektorlar xarici investisiyaların cəlb edilməsi üçün əsas sahələr kimi müəyyən edilib. Hökumət bu qeyri-neft sektorlarına investisiyaların cəlb edilməsini təşviq etmək üçün müxtəlif güzəştlər, o cümlədən vergi güzəştləri, sadələşdirilmiş tənzimləmə prosedurları və xüsusi iqtisadi zonalar tətbiq edib. Məsələn, Ələt Azad İqtisadi Zonasının yaradılması investorlara əlverişli şərait və regional bazarlara strateji çıxış təklif etməklə logistika, istehsal və ticarət sahələrinə sərmayələri cəlb etmək məqsədi daşıyır. Bununla belə, bu səylərə baxmayaraq, qeyri-neft sektorları hələ də ümumi XBİ-nin nisbətən kiçik hissəsini təşkil edir ki, bu da bu sektorların xarici investorlar üçün daha cəlbedici olması üçün əlavə işlərin görülməsinə ehtiyac olduğunu göstərir.

Azərbaycanda xarici investorlar investisiya qərarlarına təsir edə biləcək bir sıra problemlərlə üzləşirlər. Əsas problemlərdən biri ölkənin tənzimləmə mühitidir ki, son təkmilləşdirmələrə baxmayaraq, hələ də mürəkkəb və gözlənilməz kimi qəbul edilə bilər. İnvestorlar Azərbaycanda qeyri-müəyyənlik yarada və biznesin aparılması riskini artıra bilən bürokratik əngəllərlə, qanunların ardıcıl olmayan icrası və mülkiyyət hüquqları ilə bağlı məsələlərlə qarşılaşa bilərlər. Bundan əlavə, tam inkişaf etmiş maliyyə bazarının olmaması irimiqyaslı layihələri maliyyələşdirmək istəyən xarici investorlar üçün problem yarada bilər. Kapitala çıxış məhdud olaraq qalır və inkişaf etməmiş bank sektoru həmişə xarici investorların ehtiyaclarını ödəyə bilmir. Korrupsiya potensial investorları çəkindirə biləcək başqa bir problemdir, çünki bu, xərclərin artmasına və investisiya prosesini çətinləşdirə bilər.



Şəkil 1. Qlobal iqlim öhdəliklərinə diqqət yetirməklə Azərbaycan iqtisadiyyatına xarici investisiyaların artırılmasının strateji istiqamətlərini əks etdirən görüntü

Mənbə: https://www.aic.az

Bu çağırışlara baxmayaraq, Azərbaycan xarici investorlar üçün mühüm imkanlar təqdim edir. Ölkənin strateji yerləşməsi, zəngin təbii sərvətləri və artan infrastrukturu investisiyalar üçün möhkəm zəmin yaradır. Hökumətin iqtisadiyyatın şaxələndirilməsinə sadiqliyi və biznes mühitinin yaxşılaşdırılması səyləri bərpa olunan enerji, kənd təsərrüfatı və turizm kimi sektorlarda imkanlar yaratmışdır. Azərbaycanın Ümumdünya Ticarət Təşkilatı (ÜTT) və Müstəqil Dövlətlər Birliyi (MDB) kimi müxtəlif beynəlxalq təşkilatlara üzvlüyü də daha böyük bazarlara çıxış təmin etməklə və ticarəti asanlaşdırmaqla investisiya məkanı kimi cəlbediciliyini artırır [8].

Qlobal İqlim Öhdəlikləri

Azərbaycanın qlobal iqlim öhdəlikləri onun investisiya strategiyaları ilə getdikcə daha çox aktuallaşır. Paris Sazişini imzalayan ölkə kimi Azərbaycan parnik qazları emissiyalarını azaltmaq və daha dayanıqlı, aşağı karbonlu iqtisadiyyata keçid öhdəliyi götürüb. Bu öhdəliyin xarici investisiyalar üçün, xüsusən də külək, günəş və su-elektrik enerjisi kimi bərpa olunan enerji mənbələrinə artan diqqətin olduğu enerji sektorunda əhəmiyyətli təsirləri var. Hökumətin dayanıqlılığa diqqət yetirməsi yaşıl iqtisadiyyata yeni investisiya imkanları yaratmışdır. Məsələn, Azərbaycan öz enerji kompleksində bərpa olunan enerjinin payını artırmaq üçün iddialı hədəflər qoyub ki, bu da bərpa olunan enerji texnologiyaları sahəsində təcrübəyə malik xarici investorlar üçün qapı açıb. Enerjiyə qənaət edən binalar və dayanıqlı nəqliyyat sistemləri kimi yaşıl infrastrukturun inkişafı həm də ölkənin iqlim məqsədlərinə uyğun olaraq xarici investisiyalar üçün imkanlar təqdim edir.

Bundan başqa, Azərbaycanın qlobal iqlim məqsədlərinə sadiqliyi davamlı və ekoloji cəhətdən məsuliyyətli investisiya imkanlarına beynəlxalq investorlar arasında artan tələbatla üst-üstə düşür. İqlim mülahizələrini investisiya strategiyalarına inteqrasiya etməklə Azərbaycan davamlılığı prio-

ritet hesab edən və iqlim dəyişikliyi ilə mübarizə üzrə qlobal səylərə töhfə verməyə çalışan xarici investorlar üçün cəlbediciliyini artıra bilər.

Qlobal İqlim Öhdəliklərinin İnvestisiya Strategiyalarına Təsiri

Azərbaycan, dünyanın bir çox ölkələri kimi, iqtisadi artım strategiyalarının qlobal iqlim öhdəlikləri ilə uzlaşdırılmasının vacibliyini dərk etmişdir. Paris Sazişini və digər beynəlxalq iqlim sazişlərini imzalayan Azərbaycan istixana qazlarının emissiyalarını azaltmaq və davamlı inkişafı təşviq etmək öhdəliyinə sadiqdir. Bu öhdəliklər getdikcə ölkənin iqtisadi siyasətini və investisiya mühitini formalaşdırır, xarici investorlar üçün həm çətinliklər, həm də imkanlar yaradır.

Azərbaycanın iqlimlə bağlı öhdəlikləri, ilk növbədə, ölkənin istixana qazlarının emissiyalarının azaldılması üzrə hədəflərini əks etdirən Paris Sazişinə əsasən, Milli Müəyyənləşdirilmiş Töhfələri (MHM) rəhbər tutur. Hökumət enerji səmərəliliyini artırmaq, bərpa olunan enerji mənbələrinə keçid və davamlı torpaq idarəçiliyi təcrübələrini həyata keçirməklə karbon emissiyalarını azaltmaq üçün iddialı məqsədlər qoyub. Bu öhdəliklər ölkənin daha geniş iqtisadi siyasətlərinə getdikcə daha çox inteqrasiya olunur, investisiya və inkişaf strategiyalarının istiqamətinə təsir göstərir [1].

Bu iqlim öhdəliklərinin Azərbaycanın investisiya mühitinə təsiri əhəmiyyətlidir. Hökumət davamlı və yaşıl texnologiyalara investisiyaları təşviq edən siyasət mühiti yaratmaq üçün fəal işləyir. Məsələn, Azərbaycan bərpa olunan enerjinin inkişafı üzrə milli strategiya hazırlayıb və bu strategiya 2030-cu ilə qədər enerji kompleksində bərpa olunan mənbələrin payını 30%-ə çatdırmağı hədəfləyir. Bu siyasət çərçivəsi təkcə qlobal iqlim məqsədlərinə uyğun gəlmir, həm də xarici investorlara siqnallar verir [5].

Bundan əlavə, Azərbaycanın iqlimlə bağlı öhdəlikləri hökumətin iqtisadiyyatın diversifikasiyasına yanaşma tərzinə təsir göstərir. Ənənəvi olaraq neft-qaz sektorundan asılı olan Azərbaycan hazırda davamlı inkişaf prinsiplərinə uyğun gələn sektorları təşviq etməklə öz iqtisadiyyatını şaxələndirməyə çalışır. Bu dəyişiklik ətraf mühitin davamlılığına, enerji səmərəliliyinə və karbon emissiyalarının azaldılmasına töhfə verən investisiyalara getdikcə daha çox üstünlük verən ölkənin iqtisadi siyasətlərində əks olunur.

Davamlı İnvestisiya İmkanları

Azərbaycanın iqtisadi siyasətinin qlobal iqlim öhdəliklərinə uyğunlaşdırılması davamlı və iqlimə uyğun investisiyalar üçün zəngin imkanlar yaratmışdır. Ən perspektivli sektorlardan biri bərpa olunan enerjidir. Azərbaycanın zəngin təbii sərvətləri, o cümlədən günəş, külək və hidroelektrik potensialı onu bərpa olunan enerji layihələrinə investisiyalar üçün ideal məkana çevirir. Hökumətin enerji kompleksində bərpa olunan mənbələrin payını genişləndirmək öhdəliyi təmiz enerji texnologiyaları sahəsində təcrübəsi olan xarici investorlar üçün əhəmiyyətli imkanlar təqdim edir [2].

Bərpa olunan enerji ilə yanaşı, digər sektorlar davamlı investisiyalar üçün cəlbedici imkanlar təklif edir. Məsələn, kənd təsərrüfatı sektoru davamlı torpaq idarəçiliyi təcrübələrini təşviq etməyə və kənd təsərrüfatı fəaliyyətlərinin karbon izini azaltmağa yönəlmiş transformasiyadan keçir. Ekoloji əkinçilik, suya qənaətcil suvarma sistemləri və iqlimə davamlı bitkilər kimi davamlı kənd təsərrüfatına investisiyalar getdikcə daha çox təşviq olunur.

Davamlı investisiya üçün əhəmiyyətli potensiala malik digər sektor yaşıl infrastrukturdur. Azərbaycan öz infrastrukturunu modernləşdirməyə davam etdikcə ekoloji cəhətdən təmiz tikinti təcrübələrinə və enerjiyə qənaət edən binalara tələbat artır. Davamlı şəhərsalma, ağıllı şəhərlər və ekoloji cəhətdən təmiz nəqliyyat sistemləri kimi yaşıl infrastruktur layihələrinə investisiyalar həm ölkənin iqlim öhdəliklərinə, həm də davamlı urbanizasiyaya doğru qlobal tendensiyaya uyğun gəlir [7].

Tənzimləyici və Həvəsləndirici Strukturlar

İqlim üzrə öhdəliklərinə uyğun gələn xarici investisiyaları cəlb etmək üçün Azərbaycan davamlı inkişafı dəstəkləmək üçün nəzərdə tutulmuş bir sıra tənzimləyici və həvəsləndirici strukturlar həyata keçirmişdir. Hökumət bərpa olunan enerji və digər yaşıl sektorlara investisiyaları təşviq etmək üçün vergi güzəştləri, subsidiyalar və aşağı faizli kreditlər də daxil olmaqla müxtəlif stimullar tətbiq edib. Məsələn, 2020-ci ildə qəbul edilmiş Bərpa Olunan Enerji Qanunu bərpa olunan

enerji layihələrinin inkişafı üçün hüquqi baza təmin edir və bu sektorda investorlara maliyyə stimulları təklif edir.

Cədvəl 1.

Azərbaycanın qlobal iqlim öhdəliklərinə uyğun xarici investisiyaları cəlb etmək üçün həyata keçirdiyi strateji tədbirlər

Strateji istiqamət	Əsas Fəaliyyətlər	Gözlənilən Nəticə
İqlim Məqsədlərinin İqtisadi Strategiyalarla İnteqrasiyası	Milli yaşıl inkişaf strategiyasının hazırlanması	İnvestisiyaların qlobal davamlılıq standartlarına uyğunlaşdırılmasının artırılması
	Bərpa olunan enerji və yaşıl sənayelərə investisiyaları təşviq etmək	İqlim şüurlu investorların cəlb edilməsi
Dövlət-Özəl Tərəfdaşlıq (PPPs)	İqlimlə bağlı layihələr üçün milli PPP çərçivəsinin yaradılması	Dövlət və özəl sektorlar arasında əməkdaşlığın gücləndirilməsi
	PPP vasitəsilə texnologiya transferini asanlaşdırmaq	Davamlı layihələrin sürətləndirilmiş inkişafı
Beynəlxalq Əməkdaşlıq və Ən Yaxşı Təcrübələr	Qlobal iqlim təşəbbüslərində iştirak	İqlim baxımından şüurlu investisiya məkanı kimi artan etibarlılıq
	Korporativ idarəetmə və davamlı maliyyə sahəsində qabaqcıl beynəlxalq təcrübələri qəbul etmək	Qlobal standartlara riayət etməklə xarici investorların cəlb edilməsi
Davamlı İnvestisiyalar üçün Həvəsləndirici Strukturlar	Yaşıl texnologiyalar üçün vergi güzəştləri və subsidiyaların təklifi	Enerji səmərəliliyi və dayanıqlılığa investisiyaların təşviqi
	Davamlı layihələr üçün aşağı faizli kreditlərin həyata keçirilməsi	Yaşıl texnologiyanın tətbiqinin artması
Yaşıl Sənayelərin Təşviqi	Bərpa olunan enerji, davamlı kənd təsərrüfatı və ekoloji cəhətdən təmiz infrastruktur kimi sektorlarda imkanların vurğulanması	Diversifikasiya olunmuş iqtisadi artım
		Davamlı sektorlara xarici investisiyaların artması

Mənbə: https://www.aic.az

Maliyyə stimullarından əlavə, Azərbaycan şəffaflığı, ətraf mühitin mühafizəsini və davamlılığı təşviq edən tənzimləyici çərçivələr də yaratmışdır. Hökumət tənzimləmə proseslərini sadələşdirməyə və bürokratik maneələri azaltmağa çalışır ki, bu da xarici investorların bazara daxil olmasını və iqlimə uyğun layihələrə töhfə verməsini asanlaşdırır. Bundan əlavə, Azərbaycanın Kioto Protokolu və Paris Sazişi kimi beynəlxalq ekoloji sazişlərdə iştirakı onun tənzimləyici çərçivəsinin etibarlılığını artırır və qlobal iqlim məqsədlərinə sadiqliyini göstərir.

Gələcəyə baxsaq, davamlı investisiyaların cəlb edilməsi üçün tənzimləyici və həvəsləndirici strukturların daha da inkişafı üçün potensial mövcuddur. Yaşıl istiqrazların, karbon ticarəti mexanizmlərinin və davamlılığa yönəlmiş dövlət-özəl tərəfdaşlıqların yaradılması iqlimə uyğun investisiyaların cəlb edilməsi üçün əlavə imkanlar təmin edə bilər. Öz tənzimləyici və həvəsləndirici çərçivələrini davamlı olaraq təkmilləşdirməklə Azərbaycan özünü davamlı investisiyalar sahəsində lider kimi göstərə və ətraf mühitin mühafizəsinə sadiq qalan xarici investorların yeni dalğasını cəlb edə bilər.

Azərbaycanın qlobal iqlim öhdəlikləri onun iqtisadi siyasətlərinin və investisiya strategiyalarının formalaşmasında getdikcə daha mühüm rol oynayır. İnvestisiya mühitini qlobal iqlim məqsədlərinə uyğunlaşdırmaqla Azərbaycan davamlı və iqlimə uyğun investisiyalar üçün əlverişli mühit yaradır. Bərpa olunan enerji, dayanıqlı kənd təsərrüfatı və yaşıl infrastruktur kimi sektorlarda xarici investorlar üçün imkanlar əhəmiyyətlidir və bu, artan tənzimləyici və həvəsləndirici strukturlarla dəstəklənir. Azərbaycan iqlim fəaliyyətinə sadiqliyini gücləndirməkdə davam edərkən, təkcə iqtisadi artıma təkan verən deyil, həm də qlobal davamlılıq səylərinə töhfə verən investisiyaları cəlb etmək üçün yaxşı mövqedədir.

Müasir qlobal iqtisadiyyatda birbaşa xarici investisiyalar (BXİ) iqtisadi artımın, innovasiyaların

və inkişafın kritik sürücüsüdür. Təbii sərvətlərlə zəngin və strateji cəhətdən yerləşmiş ölkə olan Azərbaycan üçün xarici investisiyaların cəlb edilməsi təkcə iqtisadi inkişafın davam etdirilməsi üçün deyil, həm də uzunmüddətli davamlılıq məqsədlərinə nail olmaq üçün vacibdir. Dünya iqlimə əsaslanan iqtisadi siyasətlərə getdikcə daha çox üstünlük verdiyi üçün Azərbaycan öz investisiya strategiyalarını qlobal iqlim öhdəlikləri ilə strateji cəhətdən uyğunlaşdırmalıdır [4].

İqlim Məqsədlərinin İqtisadi Strategiyalarla İnteqrasiyası

Həm iqtisadi artıma, həm də qlobal iqlim öhdəliklərinə uyğun gələn xarici investisiyaları cəlb etmək üçün Azərbaycan daha geniş iqtisadi siyasətləri ilə iqlim məqsədlərinin strateji inteqrasiyasını həyata keçirməlidir. Bu, davamlılığı prioritetləşdirən və eyni zamanda iqtisadi inkişafı təşviq edən siyasət mühitinin yaradılmasını nəzərdə tutur. Bu inteqrasiyaya nail olmaq üçün əsas yanaşmalardan biri yaşıl sənayelərin və bərpa olunan enerji layihələrinin təşviqidir. Azərbaycan günəş, külək və su-elektrik enerjisi kimi sektorlarda əhəmiyyətli potensiala malikdir ki, bu da təkcə istixana qazları emissiyalarının azaldılmasına töhfə verməklə yanaşı, həm də iqlimə uyğun layihələr axtaran xarici investorlar üçün cəlbedici imkanlar təklif edir.

Azərbaycan davamlı sərmayələr üçün xüsusi hədəfləri və stimulları əks etdirən milli yaşıl inkişaf strategiyasını hazırlamaqla iqlim məqsədlərini iqtisadi strategiyalarla daha da birləşdirə bilər. Bu strategiya aşağı karbonlu iqtisadiyyata keçidin vacibliyini vurğulamalı və sənayelərin ətraf mühitə təsirini azaltmaq üçün əməl etmələri üçün aydın təlimatlar müəyyən etməlidir. İnvestisiya siyasətlərini qlobal davamlılıq standartlarına uyğunlaşdırmaqla Azərbaycan investisiya qərarlarında ekoloji, sosial və idarəetmə (ESG) meyarlarına üstünlük verən xarici investorlar üçün cəlbediciliyini artıra bilər.

Bundan əlavə, hökumət vergi güzəştləri, qrantlar və subsidiyalar vasitəsilə enerji səmərəliliyinə, dayanıqlı kənd təsərrüfatına və ekoloji cəhətdən təmiz infrastruktura investisiyaları stimullaşdıra bilər. Bu stimullar Azərbaycanın iqtisadi artımını iqlim öhdəlikləri ilə daha da uyğunlaşdıraraq innovasiyaları və yaşıl texnologiyaların tətbiqini təşviq etmək üçün hazırlanmalıdır. Azərbaycan həm iqtisadi, həm də ekoloji məqsədləri dəstəkləyən əlverişli investisiya mühiti yaratmaqla özünü davamlı inkişafda lider kimi göstərə və yeni xarici investisiya dalğasını cəlb edə bilər. Xüsusilə də Azərbaycan kimi inkişaf etməkdə olan bazarlarda dayanıqlı investisiyaların cəlb edilməsində dövlət-özəl tərəfdaşlıqları (PPP) mühüm rol oynayır. PPP-lər dövlət və özəl sektorlar arasında resursların, təcrübənin və risklərin bölüşdürülməsinə imkan verir ki, bu da təkcə hökumət və ya özəl qurumlar tərəfindən həyata keçirilməsi çətin ola biləcək irimiqyaslı davamlı layihələrin uğurla həyata keçirilməsinə imkan verir. Azərbaycanda PPP-lər yaşıl infrastrukturun, bərpa olunan enerji layihələrinin və davamlı şəhər inkişafı təşəbbüslərinin inkişafında mühüm rol oynaya bilər.

Azərbaycan üçün strateji yanaşmalardan biri xüsusi olaraq iqlimlə bağlı layihələri hədəfləyən milli PPP çərçivəsinin yaradılmasıdır. Bu çərçivə ətraf mühitə təsirin qiymətləndirilməsi, risklərin bölüşdürülməsi mexanizmləri və uzunmüddətli davamlılıq məqsədləri üçün müddəalar daxil olmaqla, PPP-lərin formalaşdırılması və fəaliyyəti üçün aydın təlimatlar təqdim etməlidir. PPP-lər üçün dəstəkləyici mühit yaratmaqla Azərbaycan ortaq iqlim və iqtisadi məqsədlərə nail olmaq üçün hökumətlə tərəfdaşlıq etməkdə maraqlı olan xarici investorları cəlb edə bilər.

Bundan əlavə, PPP-lər texnologiya transferini və potensialın yaradılmasını asanlaşdıra bilər ki, bu da Azərbaycana beynəlxalq şirkətlərin təcrübəsindən və innovasiyalarından faydalanmağa imkan verir. Məsələn, bərpa olunan enerji sahəsində qlobal liderlərlə tərəfdaşlıq Azərbaycana bərpa olunan enerji sektorunun inkişafını sürətləndirməyə kömək edə bilər, davamlı kənd təsərrüfatı sahəsində əməkdaşlıq isə məhsuldarlığı və ətraf mühitə nəzarəti artıran qabaqcıl texnika və təcrübələri tətbiq edə bilər. PPP vasitəsilə Azərbaycan davamlı sərmayələri idarə etmək və iqlimlə bağlı məqsədlərinə nail olmaq üçün həm dövlət, həm də özəl sektorun güclü tərəflərindən istifadə edə bilər [6].

Azərbaycanda xarici investisiyaların artırılmasının strateji istiqamətləri iqlim məqsədlərinin iqtisadi strategiyalarla inteqrasiyasına, dövlət-özəl tərəfdaşlıqdan səmərəli istifadəyə və güclü beynəlxalq əməkdaşlığa əsaslanmalıdır. İnvestisiya mühitini qlobal davamlılıq tendensiyalarına

uyğunlaşdırmaqla və qabaqcıl təcrübələri mənimsəməklə Azərbaycan təkcə iqtisadi artıma təkan verən deyil, həm də ölkənin uzunmüddətli ekoloji və sosial məqsədlərinə töhfə verən xarici investisiyaları cəlb edə bilər. Azərbaycan aşağı karbonlu iqtisadiyyata qlobal keçidin çağırışlarını və imkanlarını idarə edərkən, bu strateji yanaşmalar firavan və davamlı gələcəyin təmin edilməsində mühüm əhəmiyyət kəsb edəcək.

Nəticə

Nəticə etibarilə, Azərbaycanın xarici investisiya siyasətinin qlobal iqlim öhdəlikləri ilə strateji uyğunlaşması ölkə üçün transformativ imkan yaradır. İqlim məqsədlərini iqtisadi strategiyalarına inteqrasiya etməklə Azərbaycan iqtisadiyyatın şaxələndirilməsini və dayanıqlılığını təşviq edən davamlı investisiyaları cəlb edə bilər. Dövlət-özəl tərəfdaşlıq beynəlxalq əməkdaşlıqla birlikdə yaşıl infrastrukturun və bərpa olunan enerji layihələrinin inkişafının asanlaşdırılmasında bu keçidin idarə edilməsində mühüm rol oynayacaq. Ən yaxşı qlobal təcrübələrin və tənzimləyici çərçivələrin mənimsənilməsi Azərbaycanın iqlimə diqqət yetirən investorlar üçün cəlbediciliyini daha da artıracaq. Nəticə etibarı ilə bu strateji istiqamətlər Azərbaycanın iqtisadi artımına töhfə verməklə yanaşı, uzunmüddətli rifahı və ətraf mühitin mühafizəsini təmin edərək, ölkəni regionda davamlı inkişafda lider kimi yerləşdirəcək.

ƏDƏBİYYAT

1. Dünya Bankı Qrupu (2021). Azərbaycan: Dayanıqlı İqtisadi Gələcəyin qurulması. [Dünya Bankı] (https://www.worldbank.org).
2. Azərbaycan Energetika Nazirliyi (2020). Azərbaycan üçün Bərpa Olunan Enerji Strategiyası. (https://minenergy.gov.az).
3. Beynəlxalq Enerji Agentliyi (IEA) (2021). Azərbaycanın Enerji Siyasətinin İcmalı. (https://www.iea.org).
4. Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi üzrə Konvensiyası (UNFCCC) (2019). Paris Sazişinə əsasən Azərbaycanın Milli Müəyyən edilmiş Töhfələr (MHM). [UNFCCC] (https://unfccc.int).
5. Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) (2022). Azərbaycanda İnvestisiya İmkanları: Yaşıl İnkişaf və İqlim Dayanıqlılığına Diqqət. [EBRD] (https://www.ebrd.com).
6. OECD (2021). Enerji Sektoruna Birbaşa Xarici İnvestisiya: Azərbaycan nümunəsi. OECD Nəşriyyatı.
7. Azərbaycan İnvestisiya Şirkəti (2020). Strateji İnvestisiya Prioritetləri: Qlobal İqlim Məqsədlərinə uyğunlaşma. (https://www.aic.az).
8. Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı (UNDP) (2021). Azərbaycanda Davamlı İnkişaf: Tərəqqi və Perspektivlər. [UNDP] (https://www.undp.org).

Ильхам Сираджеддин Джаббарлы
докторант, БГУ
ilham.jabbar@gmail.com

Стратегические направления увеличения иностранных инвестиций в экономику Азербайджана в контексте глобальных климатических обязательств

Резюме

Цель исследования-является изучение и определение стратегий по повышению привлекательности Азербайджана для иностранных инвесторов путем приведения его экономической политики в соответствие с глобальными климатическими обязательствами и целями устойчивого развития.

Методология работы-включает мультидисциплинарный подход к сбору, анализу и интерпретации данных.

Прикладная значимость исследования-заключается в предоставлении практических идей и рекомендаций по вопросам политики, которые могут помочь Азербайджану привлечь иностранные инвестиции и одновременно повысить свою приверженность глобальным целям в области климата, тем самым способствуя устойчивому экономическому росту.

Результаты исследования-подчеркивают ключевые стратегии приведения инвестиционного климата Азербайджана в соответствие с мировыми стандартами устойчивого развития, демонстрируя, как такое приведение может значительно повысить привлекательность страны для иностранных инвесторов и способствовать долгосрочной экономической устойчивости.

Оригинальность и научная новизна исследования-заключается в его комплексном подходе к одновременному решению задач экономического роста Азербайджана и выполнения обязательств по борьбе с изменением климата путем разработки новых стратегий, привлекающих иностранные инвестиции посредством практики устойчивого развития.

Ключевые слова: иностранные инвестиции, глобальный климат, стратегия устойчивого развития.

Ilham Sirajaddin Jabbarli
PhD student, BSU
ilham.jabbar@gmail.com

Strategic directions of increasing foreign investments in the economy of Azerbaijan in the context of global climate obligations

Summary

The purpose of the study-is to explore and identify strategies to enhance Azerbaijan's attractiveness to foreign investors by aligning its economic policies with global climate commitments and sustainability goals.

The methodology of the work-includes a multidisciplinary approach to data collection, analysis and interpretation.

The applied significance of the study - lies in providing actionable insights and policy recommendations that can help Azerbaijan attract foreign investment while simultaneously advancing its commitment to global climate goals, thereby promoting sustainable economic growth.

The results of the study - highlight key strategies for aligning Azerbaijan’s investment climate with global sustainability standards, demonstrating how such alignment can significantly enhance the country's appeal to foreign investors and foster long-term economic resilience.

The originality and scientific novelty of the study - lies in its integrative approach to simultaneously addressing Azerbaijan's economic growth and climate commitments by formulating novel strategies that attract foreign investment through sustainable development practices.

Key words: foreign investment, global climate, sustainability strategy.

UOT 657.6

Rahib Nadir oğlu KAZIMOV,
iqtisad elmləri namizədi, dosent
Azərbaycan Dövlət İqtisad Universiteti
E-mail: kazimov-r.n@mail.ru
https://doi.org/10.30546/4.71.73001.2024.004.09

VERGİ AUDİTİ: MƏQSƏDİ, FUNKSİYALARI VƏ İNKİŞAF PERSPEKTİVLƏRİ

Xülasə

Tədqiqatın məqsədi - respublikanın iqtisadi subyektlərində vergi auditinin təşkili və aparılmasının müasir vəziyyətini qiymətləndirmək və onun təkmilləşdirilməsi istiqamətlərini müəyyən etməkdir.

- innovativ münasibətlərin inkişafı nəticəsində yaranan innovasiyalara tələbatın daha çox olduğu istehlakçı davranışı. İnnovativ fəaliyyətlə məşğul olan müəssisə üçün bu amili nəzərə almaq yeni məhsula, xidmətə, texnologiyaya gələcək istehlakçı tələbatının yaradılmasından ötrü əlavə səylər tələb edir. İqtisadi kateqoriya kimi innovativ fəaliyyət üçsəviyyəli iqtisadi sistemin: makrosəviyyənin - dünya bazarında digər ölkələrlə müqayisədə ölkənin innovativ fəaliyyətinin; mezosəviyyənin – regional, sənaye səviyyəsinin; eləcə də mikrosəviyyənin - təşkilatın səviyyəsinin kompleks xarakteristikasıdır. [4, s.13].

Qeyd etmək lazımdır ki, istənilən innovativ fəaliyyət sahibkarlıq xarakteri daşıyır, çünki o, yeni ideyaların axtarışına (yeni məhsuldan yeni struktura qədər) və onların qiymətləndirilməsinə; lazımi resursların axtarışına; müəssisənin yaradılması və idarə edilməsinə; pul gəliri və əldə edilən nəticələrdən şəxsi məmnunluq əldə etmyə əsaslanır. Bununla belə, hər cür sahibkarlıq innovasiya sahibkarlığı kimi tanınmır, yalnız innovativ məhsulun yaradılması, istifadəsi və ya yayılması nəticəsində gəlir əldə etməyə imkan verən sahibkarlıq fəaliyyətləri belə tanınır.

İqtisadi ədəbiyyatda innovasiya sahibkarlığının beş əsas növü var:

- texnoloji innovasiyalar;
- istehsalat innovasiyaları;
- iqtisadi innovasiyalar;
- ticarət innovasiyaları;
- sosial innovasiyalar;
- idarəetmədə innovasiyalar.

İnnovasiya sferasının dinamik inkişafı innovasiya iqtisadiyyatının əsas komponentlərindən biridir.

Kiçik innovasiya sahibkarlığının inkişafına sistemli metodoloji yanaşma

Nəzəri iqtisadiyyatda kiçik biznes sahəsində innovativ fəaliyyətin idarəetmə sisteminin təhlili xüsusi yer tutur. Bu mövzunun öyrənilməsinə metodoloji yanaşma dedikdə isə biz kiçik sahibkarlıq innovasiyalarının idarə edilməsinin məntiqindən, prinsiplərindən və metodlarından istifadənin tək, vahid istiqamətini başa düşürük. İqtisadi münasibətlər sistemində innovasiyaların idarə edilməsini əks etdirən tətbiqi sistemli yanaşma bir neçə formada həyata keçirilir: a) sistemli kompleks yanaşma; b) sistemli normativ yanaşma; c) sistemli proqram yanaşma; d) sistemli dinamik yanaşma; e) sistemli multiplikator yanaşma. İdarəetmə sistemlərinin, kiçik innovasiya sahibkarlığının da daxil olduğu ümumi fəaliyyət qanunauyğunluqları, onların xassələri sistemli təhlilin öyrənilməsi predmetidir [5, s.4]. Fikrimizcə, kiçik müəssisənin innovativ fəaliyyətinin təhlili sistemlərin strukturlaşdırılmasına və alternativlərin kəmiyyətcə müqayisəsinə əsaslanan problemlərin həlli metodologiyasıdır. Sistemli metodoloji yanaşmadan istifadə özündə biliklər nəzəriyyəsinin innovasiya sahəsində baş verən proseslərin öyrənilməsinə tətbiqi formasını xarakterizə edir. Onun mahiyyəti böyük və mürəkkəb sistem qismində fəaliyyət göstərən obyektlər kimi kiçik sahibkarlığın biliklərini özündə ehtiva edən ümumi sistemlər nəzəriyyəsinin tələblərinin həyata keçirilməsindən ibarətdir. Bu proses siyasi-iqtisadi təhlilin müxtəlif aspektlərindən istifadəni əhatə edir **[10].**

Kiçik sahibkarlığın inkişafının müqayisəli təhlili göstərir ki, son 4 ildə Azərbaycanda mikro, kiçik və orta sahibkarlığın (MKOS) ümumdaxili məhsuldakı (ÜDM) payı 3 faiz artaraq 23,5 %-dən 26,5 %-ə çatıb. [11]. Təbii ki, bu çox azdır. Belə ki, hələ ötən illərin statistikasına görə bu göstərici inkişaf etmiş ölkələrdə - Çində 60.0%, İsraildə 62.3%, ABŞ-da isə 56%-dir. Ölkəmizdə 2015-2022-ci illər ərzində mikro, kiçik və orta müəssisələrdə muzdla işləyənlərin ölkə iqtisadiyyatında xüsusi çəkisi isə 18,7%-dən 41,8%-ə çatmışdır. Müqayisə üçün aparıcı ölkələrin iqtisadiyyatını nəzərdən keçirdikdə görürük ki, Çində kiçik sahibkarlıq sahəsində işləyənlərin xüsusi çəkisi 83.0%, Yaponiyada 72.0%, İsraildə 68.7% təşkil edir (Cədvəl 1).

İqtisadçıların fikrincə, 1990-cı illərdə kiçik və orta biznes SSRİ Dövlət Plan Komitəsi tərəfindən idarə olunan genişmiqyaslı sovet istehsalını əvəz etməli idi. Lakin, təəssüf ki, bu baş vermədi. Keçmiş böyük ölkənin iqtisadiyyatı dağıldıqdan sonra kiçik sahibkarlığın inkişafı üçün yetərli

sahibkarlıq mühiti formalaşmadı, istehsal fəaliyyətinin stimullaşdırıcılarından lazımi səviyyədə istifadə edilmədi və bu sahəyə dövlət dəstəyinin səviyyəsi kifayət qədər olmadı.

Cədvəl 1.

Aparıcı ölkələrin iqtisadiyyatında kiçik sahibkarlıq [3]

Ölkələr	ÜDM-də kiçik sahibkarlığın payı, %-lə	Kiçik sahibkarlıq sahəsində işləyənlərin xüsusi çəkisi, %-lə
Çin	60.0	83.0
Yaponiya	55.0	72.0
İsrail	62.3	68.7
Almaniya	43.0	57.0
ABŞ	56.0	52.0
Azərbaycan	26.5	41.8

Hal-hazırda isə innovativ kiçik sahibkarlığın inkişafında irəliləyiş olsa da bir sıra problemlər də mövcuddur [7, s. 820]:

- bir çox normativ-hüquqi aktların təkmilləşdirilməməsi;
- kiçik sahibkarlığın dəstəklənməsi üçün maliyyə-kredit mexanizminin kifayət qədər inkişaf etdirilməməsi;
- kiçik innovasiya sahibkarlığının inkişafı üçün maddi və resurs təminatının zəif olması;
- ədalətsiz rəqabətin mövcud olması;
- inzibati maneələrin mövcudluğu;
- kiçik sahibkarlığa informasiya dəstəyi sisteminin inkişaf etməməsi;
- innovasiya proqramlarının kadr təminatı problemləri və s.

Kiçik innovasiya sahibkarlığının inkişafına sistemli metodoloji yanaşma aşağıdakı struktur elementləri əhatə edir:

- innovasiyaların idarə edilməsi subyektinin əldə etdiyi hədəflər sisteminin formalaşdırılması;
- innovasiyaların idarə edilməsi obyektinin, xüsusilə, onun innovasiya fəaliyyətinə başlamazdan əvvəlki vəziyyətinin təhlili [8, s.40];
- idarəetmə subyektinin bazar imkanlarının, bazar ehtiyaclarının həcminin və strukturunun araşdırılması;
- istifadə olunan resursların həcminin və strukturunun müəyyən edilməsi;
- idarəetmə qərarlarının qəbulu.

Kiçik biznesin inkişafına sistemli metodoloji yanaşmanı bilik və dialektika nəzəriyyəsinin innovasiya proseslərinin öyrənilməsinə tətbiqi forması kimi səciyyələndirərək qeyd etmək lazımdır ki, elmi nəzəri yanaşmalardan istifadə kiçik sahibkarlıq sistemində innovasiyaların idarə edilməsinin səmərəliliyini təmin etməyə imkan verir. Kiçik müəssisənin innovasiya fəaliyyətinin idarə edilməsi sistemini qurarkən həmin müəssisənin missiyasının və məqsədlərinin onun inkişafında mühüm rol oynayacağı bir alqoritm hazırlamaq lazımdır (Cədvəl 2). Bu işdə xüsusi yeri kiçik müəssisənin innovativ məqsədlərə nail olmaq qabiliyyətinə təsir göstərə bilən xarici və daxili mühitin kritik elementlərini müəyyən etmək üçün kiçik müəssisənin inkişaf amillərinin təhlili tutur.

Kiçik innovasiya sahibkarlığının inkişaf aspektləri milli innovasiya sisteminin səmərəliliyinin göstəricisi kimi

İqtisadi inkişafın hazırkı mərhələsi dünya iqtisadi münasibətlərində əsaslı dəyişikliklərlə səciyyələnir ki, bu da rəqabətin artması və yeni elmtutumlu iqtisadiyyatın - “bilik iqtisadiyyatı”nın fəal formalaşdırılması əsasında milli iqtisadi sistemlərin dərin transformasiyası ilə müşayiət olunur. Dünya iqtisadi sistemində bu tendensiyaların əsasında duran obyektiv qanunauyğunluqlar məhsuldar qüvvələrin inkişaf səviyyəsinə, əmək ehtiyatlarının keyfiyyətinə, ictimai istehsal amillərinin strukturuna və istehsal prosesinin təşkilinə, milli iqtisadiyyatın institusional mühitinə müvafiq tələblər qoyur. Bu tələblərə əməl olunması milli istehsalın səmərəliliyini və rəqabət qabiliyyətini

təmin edir. Bu gün hamı başa düşür ki, ölkəmizin innovasiya (bilik) iqtisadiyyatına keçid etməsinə və milli innovasiya sisteminin (MİS) yaradılmasına ehtiyacı var.

Cədvəl 2

Kiçik müəssisənin innovasiya fəaliyyəti şəraitində idarəetmə hərəkətlərinin alqoritmi

İnnovasiya fəaliyyətinin idarəetmə sisteminin elementləri	Kiçik sahibkarlıqda innovasiyaların idarə edilməsi strategiyasının elementlərinin xüsusiyyətləri
1. Kiçik innovativ müəssisənin missiyası	Təşkilatın fəlsəfəsinin və məqsədinin müəyyən edilməsi. Missiyanın xüsusi əhəmiyyəti: birincisi, missiya təşkilatın bütün planlaşdırma qərarları üçün əsasdır və dayaq nöqtəsidir; ikincisi, missiya işçilərin səylərini innovativ məhsul və texnologiyaların hazırlanmasına və tətbiqinə yönəltməyə kömək edir.
2. İnnovasiya fəaliyyətinin idarəetmə məqsədləri	Planlaşdırma dövründə təşkilatın tam şəkildə əldə edilməsi gözlənilən ən ümumi fəaliyyət istiqamətlərinin hazırlanması. İnnovasiya mühitində tapşırıqların yerinə yetirilməsi formasını və vaxtını müəyyən edən konkret, kəmiyyətcə ölçülə bilən meyarlar kimi əsaslandırılması.
3. Kiçik innovativ müəssisələrin resurslarının daxili və xarici mühit amillərinin təhlili	Kiçik müəssisələrin innovasiya fəaliyyətinə təsir edən ən mühüm amillərin nəzərə alınması. Təşkilatın fəaliyyəti haqqında müsbət rəyin yaradılması. İnnovasiya fəaliyyətinin informasiya-kommunikasiya təminatı.
4. Kiçik müəssisələrin innovativ fəaliyyətinin inkişafı üçün strateji istiqamətlərin həyata keçirilməsi	Elmtutumlu istehsalın dəstəklənməsinə, innovasiya menecmentinin müasir sistemlərinin tətbiqinə yönəldilən investisiya qoyuluşu. Təqdim edilən məhsul və xidmətlərin keyfiyyətinin yaxşılaşdırılması və çeşidinin artırılması, yüksək gəlirli fəaliyyət sahələrinin genişləndirilməsi və xərclərinin minimuma endirilməsi.

Nisbətən yeni sosial-iqtisadi institut olan milli innovasiya sistemi bazar iqtisadiyyatı şəraitində sənaye cəmiyyətindən postsənaye cəmiyyətinə (bilik iqtisadiyyatına) keçid mərhələsində təbii olaraq sahibkarlıq fəaliyyəti zamanı yaranır. Ümumiyyətlə, MİS-in müxtəlif tərifləri var. Məşhur Qərb alimi R.Nelson milli innovasiya sistemini “qarşılıqlı əlaqəsi milli firmaların innovativ fəaliyyətini... müəyyən edən institutlar şəbəkəsi” kimi xarakterizə edir [9, s.17]. Professor A.Amosovun fikrincə isə “MİS özündə fundamental elmin inkişafını, təhsil müəssisələrində kadr hazırlığını, tətbiqi ETTKİ-ni (elmi-tədqiqat və təcrübi- konstuktor işlərini), vençur sahibkarlığını, marketinqi, mühəndisliyi, innovativ istehsalı birləşdirir” [6, s.9].

MİS-in ən məşhur şərhlərinin təhlili inkişaf etmiş bazar iqtisadiyyatına malik ölkələrin müasir milli innovasiya sistemlərinin aşağıdakı əsas komponentlərini müəyyən etməyə imkan verir:

1) iqtisadiyyatın özəl və dövlət sektorlarında fəaliyyət göstərən və qarşılıqlı əlaqədə olan, yeni biliklərin, məhsulların və texnologiyaların yayılmasına təşəbbüs göstərən, yaradan, dəyişdirən və töhfə verən sosial-iqtisadi institutlar (təşkilatlar) şəbəkəsi;

2) milli iqtisadiyyat daxilində yeni biliklərin, məhsulların və texnologiyaların istehsalçıları və istehlakçıları arasında qarşılıqlı münasibətlər;

3) rəqabəti, çoxsaylı təşəbbüs mənbələrini və resursların yenidən bölüşdürülməsini təmin edən bazar mexanizmi;

4) səmərəli və keyfiyyətli iqtisadi artımın əsası kimi sürətləndirilmiş innovativ inkişafa yönəlmiş MİS çərçivəsində dövlətin elmi-tədqiqat və texnologiya siyasəti.

Əsasən nəzərə almaq lazımdır ki, dövlətin iştirakı olmadan effektiv milli innovasiya sistemi mümkün deyil. Lakin müasir şəraitdə belə iştirak üstünlük təşkil etməməli, paritet tərəfdaşlıq şəklində olmalıdır. Dövlət sahibkarların innovativ rəqabətinə mane olmamalı, onların inkişafına kömək etməlidir, çünki məhz innovasiyaları kommersiyalaşdırmağa çalışan sahibkarlıq MİS-in əsasını təşkil edir.

Deyilənləri ümumiləşdirərək belə nəticəyə gəlmək olar ki, milli innovasiya sistemi dövlətin, özəl və digər təşkilatların institusional motivlər şəbəkəsini, qaydaları, fəaliyyət strategiyalarını və paritet əlaqələri özündə birləşdirir və bu da ölkənin rəqabətədavamlı və sosial cəhətdən səmərəli inkişafını təmin edən innovasiyaların yaradılmasına və geniş yayılmasına yönəldilib.

XXI əsrin əvvəllərində inkişaf etmiş ölkələrdə MİS-in təkamül təcrübəsi tədqiq olunan sahənin

yüksək dinamizmindən xəbər verir. Qeyri-müəyyən və sürətlə dəyişən iqtisadi şəraitdə innovativ firmaların rolu artır, onların klasterləşməsi baş verir, elm, biznes və dövlət arasında innovasiyanın inkişafına yönəlmiş qarşılıqlı əlaqələrin effektivliyi çoxalır.

Məlum olduğu kimi, mikrosəviyyədə MİS-in fəaliyyətinin və effektivliyinin ən mühüm göstəricisi kiçik innovasiya sahibkarlığının inkişafıdır. Hər bir ölkə üçün yalnız yeni iş yerləri yaratdığına görə deyil, həm də ÜDM-in elmtutumluluğunu (ÜDM-də ETTKİ xərclərinin payını), ölkənin elmi-texniki və innovativ potensialını, rəqabət qabiliyyətini artırdığı və dünya birliyində onun mövqeyini möhkəmləndirdiyi üçün iqtisadiyyatın müasirləşdirilməsinin bu mərhələsi cəlbedicidir.

Ümumiyyətlə, kiçik innovasiya sahibkarlığının inkişafı müasir iqtisadiyyatın vacib aspektlərindən biridir. Bu sahə yeni texnologiyaların tətbiqi, yaradıcı yanaşmaların inkişaf etdirilməsi və iqtisadi rəqabətliliyin artırılması baxımından mühüm əhəmiyyət daşıyır. Bu inkişafın aşağıda verilmiş əsas aspektlərini nəzərdən keçirək.

▪ **Maliyyə dəstəyi və investisiyalar**

Startap maliyyələşməsi: Kiçik innovasiya sahibkarlığının inkişafı üçün dövlət və özəl sektor tərəfindən maliyyə dəstəyi çox vacibdir. Bu, inkubasiya mərkəzləri, texnoloji parklar və startap fondları vasitəsilə həyata keçirilir.

Vergi güzəştləri: İnnovativ layihələr üçün dövlət tərəfindən vergi güzəştlərinin və subsidiya proqramlarının tətbiqi böyük əhəmiyyət daşıyır.

▪ **Təhsil və bacarıqların inkişafı**

İnnovasiya ekosisteminin yaradılması: Təhsil müəssisələri ilə biznes sektorunun əməkdaşlığı innovasiya bacarıqlarını gücləndirir.

Təlim proqramları: Sahibkarların texnoloji və idarəetmə biliklərini artırmaq üçün təlim və mentorluq proqramları həyata keçirilir.

▪ **Texnoloji infrastrukturun inkişafı**

İnnovasiya mərkəzləri: Texnoparklar, laboratoriyalar və digər innovativ platformalar kiçik sahibkarlıq subyektlərinə texnoloji dəstək verir.

Rəqəmsallaşma: Rəqəmsal texnologiyaların tətbiqi biznes proseslərinin optimallaşdırılmasına və xərclərin azalmasına kömək edir.

▪ **Tənzimləyici və institusional mühit**

Hüquqi çərçivə: İnnovasiya bizneslərini təşviq edən qanunvericilik və sahibkarlıq fəaliyyəti üçün əlverişli mühitin yaradılması vacibdir.

Dövlət dəstəyi proqramları: İxraca yönəlik innovasiya layihələrini dəstəkləyən dövlət proqramları və qrantlar sahibkarlığı stimullaşdırır.

▪ **Beynəlxalq əməkdaşlıq və bazara çıxış**

Əməkdaşlıq şəbəkələri: Xarici ölkələrdə fəaliyyət göstərən innovasiya mərkəzləri ilə əməkdaşlıq təcrübə mübadiləsini artırır və yeni bazarlara çıxış imkanı yaradır.

Eksport imkanları: Kiçik sahibkarlar məhsullarını xarici bazarlara çıxarmaları üçün xüsusi dəstək mexanizmləri ilə təmin olunmalıdırlar.

▪ **İstehlakçı tələbatının öyrənilməsi**

Bazar araşdırmaları: İnnovasiya sahəsində fəaliyyət göstərən kiçik bizneslər üçün məqsədli bazar təhlilləri vacibdir.

Məhsul uyğunlaşması: Müştərilərin tələbatına uyğun olaraq innovativ məhsulların inkişaf etdirilməsi daha yüksək satış potensialı yaradır.

Bu aspektlər kiçik innovasiya sahibkarlığının inkişafı üçün əsas şərtlərdir və onların kompleks şəkildə tətbiqi iqtisadiyyatın innovativ transformasiyasını sürətləndirə bilər.

Nəticə

Ölkəmizdə sahibkarlığın innovasiya fəaliyyəti sahəsində mövcud vəziyyət bütün tədarük edilən məhsullarda innovativ məhsulların payının nəzərəçarpacaq dərəcədə dəyişdirilməsini (iqtisadiyyatın innovativ fəaliyyətinin əsas göstəricisi olaraq) zəruri edir. Kiçik innovasiya müəssisələrinin

daxili iqtisadiyyat üçün yüksək əhəmiyyətini, eləcə də onların vəziyyətini nəzərə alsaq, bu gün ən çox tədarük edilən məhsulların ümumi həcmində innovativ məhsulların artırılmasına, innovativ fəaliyyətin stimullaşdırılması istiqamətində tədbirlərin görülməsinə böyük ehtiyac var. Bu baxımdan dövlət, adətən, elmi-texniki sahədə sahibkarlığın inkişafını daha çox təşviq edir, bunun üçün xüsusi infrastruktur yaradır, müəyyən iqtisadi güzəştlər edir; təhsil sistemi çərçivəsində kadrların, alim və mütəxəssislərin hazırlanması təmin olunur. Bununla belə, təəssüflə qeyd etməliyik ki, ölkəmizdə texnoloji innovasiyalar həyata keçirən təşkilatların sayı çox azdır. Kiçik sahibkarlığın innovasiya fəaliyyəti də ölkədə səmərəli iqtisadi artımın təmin edilməsi tələblərinə və qəbul edilmiş standartlara tam cavab vermir.

Nəzərə alsaq ki, kiçik innovasiya sahibkarlığının inkişaf etdirilməsi iqtisadiyyatın şaxələndirilməsi, rəqabətqabiliyyətliliyinin artırılması, bir sözlə, iqtisadi tərəqqi üçün əhəmiyyətlidir, ölkəmizdə bu sahənin inkişafını stimullaşdırmaqdan ötrü bir sıra tədbirlərin həyata keçirilməsini məqsədəuyğun hesab etmək olar. Fikrimizcə, aşağıda irəli sürdüyümüz təkliflər kiçik innovasiya sahibkarlığı sahəsində irəliləyişə töhfə verə bilər.

- **Maliyyə dəstəyi və təşviqlər**

Subsidiyalar və qrantlar: Kiçik innovasiya müəssisələrinə tədqiqat və inkişaf üçün dövlətin və özəl sektorun maliyyə dəstəyini təmin etmək, startap fondları və s. yaratmaq.

Vergi güzəştləri: İnnovasiya layihələrinə investisiya qoyan sahibkarlara vergi güzəştləri tətbiq etmək.

İnkubator və akselerator proqramları: Dövlət və özəl sektor tərəfindən gənc sahibkarlar üçün innovasiya mərkəzləri yaratmaq, startapların sürətli inkişafını təmin edən proqramlar təşkil etmək.

- **Maliyyə resurslarına əlçatanlıq**

Vençur kapitalı və biznes mələkləri: Startaplara ilkin maliyyə dəstəyi üçün vençur fondlarını təşviq etmək.

Bank kreditləri: Kiçik innovasiya sahibkarlığı üçün aşağı faizli kreditlər (o cümlədən mikrokreditlər) təqdim etmək.

Kütləvi maliyyələşdirmə platformaları: Onlayn platformalar vasitəsilə kiçik sahibkarlıq layihələrinə dəstək toplamaq.

- **Texnologiya və təhsil**

İnnovasiya üçün texnoloji dəstək: Rəqəmsal texnologiyaların tətbiqini genişləndirmək və sahibkarları bu sahədə maarifləndirmək.

Universitet-sənaye əməkdaşlığı: Universitetlər və müəssisələr arasında əlaqələri gücləndirərək innovativ tədqiqatların kommersiyalaşdırılmasını dəstəkləmək.

Təlim proqramları: Sahibkarlar üçün innovasiya idarəetməsi, layihə planlaşdırılması və rəqəmsal transformasiya üzrə təlimlər, o cümlədən innovasiya və sahibkarlıqla bağlı kurslar təşkil etmək.

- **İnfrastrukturun yaradılması**

Texnoparklar və innovasiya mərkəzləri: Sahibkarların rahat fəaliyyət göstərə biləcəyi ixtisaslaşmış zonalar yaratmaq.

Rəqəmsal infrastruktur: İnternet və texnoloji avadanlıqların əlçatanlığını artırmaq.

- **Beynəlxalq əməkdaşlıq**

Beynəlxalq layihələrdə iştirak: Kiçik sahibkarların qlobal innovasiya proqramlarına qoşulmasını dəstəkləmək.

Beynəlxalq sərmayələrin cəlb edilməsi və təcrübə mübadiləsi: Xarici investorların diqqətini yerli innovativ layihələrə cəlb etmək üçün təşviq proqramları yaratmaq, yerli sahibkarların xarici ölkələrdə təcrübə keçməsi üçün proqramlar təşkil etmək.

Texnologiya transferi: Xarici innovasiyaların yerli bizneslərə tətbiqini təşviq etmək.

İxracın təşviqi: Yerli innovasiya məhsullarının xarici bazarlara çıxarılmasını asanlaşdırmaq, onlayn platformalar yaratmaq, bu məhsullar üçün sərgilər və əməkdaşlıq forumları təşkil etmək.

- **Qanunvericilik və tənzimləmə**

Sahibkarın normal fəaliyyətini dəstəkləyən qanunlar: Qeydiyyat və idarəetmə proseslərini

sadələşdirmək, sahibkarların bürokratik maneələrini aradan qaldırmaq.

Əqli mülkiyyət hüquqlarının qorunması: İnnovatorların ideyalarının qanuni şəkildə müdafiəsini təmin etmək.

- **Cəmiyyətin maarifləndirilməsi və mədəniyyət dəyişikliyi**

İnnovasiya mədəniyyəti: İnnovasiya və sahibkarlığın cəmiyyətdə daha çox tanıdılması üçün tədbirlər və kampaniyalar keçirmək.

Motivasiya tədbirləri və mentor dəstəyi: Gəncləri innovasiya fəaliyyətlərinə həvəsləndirmək üçün müsabiqələr və mükafatlar təşkil etmək, təcrübəli sahibkarların yeni biznes qurmaq istəyənlərə məsləhətlər verməsi üçün mentor şəbəkəsi yaratmaq.

Yuxarıda sadalanan təkliflərin bəziləri respublikamızda müəyyən qədər həyata keçirilsə də, etiraf edək ki, qənaətbəxş səviyyədə deyildir. Ona görə də, fikrimizcə, bu tədbirlər birgə və yetərincə reallaşarsa, ölkəmizdə kiçik innovasiya sahibkarlığının daha geniş yayılmasına, inkişafına və davamlı tərəqqiyə nail olmağa kömək edə bilər.

ƏDƏBİYYAT

1. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər." Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmişdir.
2. İ.Qasımov, F.Cəbiyev. "İnnovasiya sahibkarlığı və texnoparklar", Bakı Mühəndislik Universiteti, 2017, s.182.
3. M. Tosun, E. Süleymanov, M.Musayeva, İ. Qasımov, M. Rəsulova, U. Seyidov, F. İsmayilzadə "İnnovasiya və sahibkarliq: startap eksosistemi", Bakı – 2023, s. 286.
4. K. İmanov. "İnnovativ inkişafda texnologiyaların kommersiyalaşdırılması və transferi mərkəzləri" (Yaradılması və fəaliyyəti üzrə tövsiyələr). Bakı, 2019, s.20.
5. Гордеев, В.А. Теоретическая экономия: новые идеи к разработке и развитию / В.А. Гордеев. - Текст : электронный // Теоретическая экономика. - 2021 – N 12. - С.4-10. - URL: http://www.theoreticaleconomy.ru
1. Амосов, А. О неоиндустриальном сценарии в концепции развития до 2020 г. /А. Амосов // Экономист. – 2011. – № 6. – с. 3–17.
2. Токаева Б.Б. Токаева А.Б. Инновации в малом и среднем предпринимательстве // Фундаментальные исследования. – 2015. – № 11 (часть 4) – с. 820-823.
3. Коречков Ю.В., Джиоев О.В. Синергетический эффект интеграционных процессов и мультипликация инвестиций в интегрированных организациях // Интернет-журнал Науковедение. 2015. Т. 7. № 2 (27). с. 40.
4. Nelson, R. National Innovation Systems: A Comparatise Analysis / R. Nelson. – N. Y. : Oxford University Press, 1993.
5. G.A. Rodina. «Systemic view on the problems of sustainability of the economic systems and the specificity of performance evaluation of public control in contemporary Russia»/ D.S. Vakhrushev, D.V.Tumanov, // Academy of Strategic Management Journal (ISSN15441458-USA-Scopus). 2018. - №1. – 0,5 p.s.
6. https://report.az/maliyye-xeberleri/azerbaycanda-mkos-un-udm-de-payi-27-e-yaxinlasib/

Рафиг Меджид оглы Рзаев
Старший научный сотрудник
Института Экономики МНО АР
rafiqrzayev74@mail.ru

Аспекты развития малого инновационного предпринимательства

Резюме

Цель исследования – определить аспекты развития малого инновационного предпринимательства.

Методология исследования – в исследовательской работе использовались системный и другие подходы, включая логическое обобщение и сравнительный анализ.

Значимость внедрения исследования - фундаментальные анализы в исследовании имеют возможность создать условия для определения факторов, стимулирующих инновационное предпринимательство, и особенностей его развития.

Результаты исследования - теоретическое рассмотрение факторов, влияющих на аспекты развития малого инновационного предпринимательства и особенностей их формирования, приводит к достижению ряда результатов.

Оригинальность и научная новизна исследования - выявление аспектов развития малого инновационного предпринимательства, важных для диверсификации экономики, повышения конкурентоспособности и экономического прогресса в целом, определяет научную актуальность исследования.

Ключевые слова: инновационное предпринимательство, бизнес-модель, методологический подход, стартап, налоговые льготы, технопарки, наукоемкость, национальная инновационная система.

Rafig Majid Rzayev
Senior Researcher,
Institute of Economics, MSE AR
rafiqrzayev74@mail.ru

Aspects of development of small innovative entrepreneurship

Summary

The purpose of the study is to determine the aspects of development of small innovative entrepreneurship.

Methodology of the research - the research work used systemic and other approaches, including logical generalization and comparative analysis.

Importance of integration of research - fundamental analyses in the study have the ability to create conditions for determining the factors stimulating innovative entrepreneurship and the features of its development.

Results of the research - theoretical consideration of the factors influencing the aspects of development of small innovative entrepreneurship and the features of their formation, leads to the achievement of a number of results.

Originality and scientific innovation of the research - identifying aspects of the development of small innovative entrepreneurship that are important for diversifying the economy, increasing competitiveness and economic progress in general, determines the scientific relevance of the study.

Key words: innovative entrepreneurship, business model, methodological approach, startup, tax incentives, technology parks, knowledge intensity, national innovation system.

UOT 338.24.01

Nərmin Qabil qızı MİRZƏZADƏ
Assistent, Azərbaycan Dövlət Aqrar Universiteti
narminmirzazada@gmail.com
https://doi.org/10.30546/4.71.73001.2024.004.113

TƏŞKİLATLARIN STRATEJİ POTENSİALININ TƏHLİLİNİN ƏSASLARI

Xülasə

Tədqiqatın məqsədi – təşkilatların strateji idarəetmə sistemində xarici və daxili mühitin öyrənilməsinə nəzəri və metodoloji yanaşmanın formalaşdırılması probleminə həsr edilmişdir.

Tədqiqatın metodologiyası – strateji idarəetmənin nəzəriyyəsi və praktikasında mövcud olan metodlar, alətlər, meyarlar və göstəricilər əsasında ardıcıllıq prinsipi əsasında müəssisənin strateji potensialının təhlilinin aparılmasına yanaşmanın işlənib hazırlanmasıdır. Təşkilatın strateji təhlilinin inkişafı və tətbiqi mərhələlərinin müəyyən edilməsi.

Tədqiqatın tədbiqi əhəmiyyəti – təşkilatın davamlı böyüməsi və rəqabət qabiliyyəti əsasən onun inkişafı üçün müəyyən olunan strategiyadan asılıdır. Əgər strategiyanın mahiyyəti bazar konyunkturasının sürətləndirilmiş dinamikası kontekstində qarşıya qoyulan uzunmüddətli məqsədlərə nail olmaqdırsa, strateji təhlilin məqsədi xarici və daxili mühitin qeyri-müəyyənliyini onun daimi dəyişməsi yolu ilə azaltmaqdan ibarətdir.

Tədqiqatın nəticəsi – müasir iqtisadçıların strateji təhlil anlayışının mahiyyətinə və təşkilatın idarəetmə sistemində strateji təhlilin məqsədinə müxtəlif yanaşmaları araşdırılır. Müəssisədə effektiv strateji təhlilin həyata keçirilməsinə mane olan bir sıra problemlər müəyyən edilmişdir.

Tədqiqatın orijinallığı və elmi yeniliyi – təqdim olunan metodoloji yanaşma təşkilatlara biznes proseslərinin strateji idarə edilməsi mexanizmlərini sistemləşdirməyə, investisiya cəlbediciliyini və sahibkarlıq subyektlərinin rəqabətqabiliyyətlilik səviyyəsini yüksəltməyə imkan verəcək.

Açar sözlər: strategiya, proqnozlaşdırma, perspektiv, qloballaşma, kommersiya, innovasiya

Giriş

Strateji təhlil - təşkilatın mövcud bazar mövqeyini, perspektivli inkişaf yolunu müəyyən etmək və strateji məqsədlərinə çatmaq üçün operativ və taktiki idarəetmə qərarlarını əsaslandırmaq üçün xarici biznes mühitindəki amillərin, iqtisadi potensialın və inkişaf strategiyasının sistematik öyrənilməsini özündə təcəssüm edir. Bu, müxtəlif və əhəmiyyətli amillər toplusunun müntəzəm monitorinqi, sınaqları və qiymətləndirilməsi əsasında təşkilatın strateji uğuruna nail olmaq üçün müəyyən strateji qərarların qəbul edilməsi və ya düzəldilməsi zərurəti barədə vaxtında xəbərdarlıq sisteminin strateji idarə edilməsini təmin etməkdən ibarətdir [7, s.85]. Eyni zamanda strateji təhlil strateji qərarları əsaslandırmaq, mövcud vəziyyətin qeyri-müəyyənlik dərəcəsini və onun inkişaf dinamikasını azaltmaq üçün elmi biliklərin fənlərarası inteqrasiyası nəticəsində formalaşır. Strateji təhlil optimal strateji alternativin seçilməsi və həyata keçirilməsi yolu ilə onun perspektiv mövqelərini müəyyən etmək üçün biznesin makro və mikroiqliminin qiymətləndirilməsi daxil olmaqla, müəssisənin inkişafının strateji idarə edilməsinin əsas altsistemidir.

Qısamüddətli perspektivdə, inkişafın qeyri-böhran mərhələlərində belə problemə baxıldıqda bu, tamamilə doğru yanaşmadır. Müasir iqtisadi şəraitdə resursların məhdudluğu və onlara tələbatın artması, bazarın nisbətən yüksək dərəcədə təmin edilməsi potensialın yüksəldilməsi, ən əsası isə ondan səmərəli istifadəni çətinləşdirir.

İqtisadiyyatın qloballaşması, informasiya texnologiyalarının geniş tətbiqi, beynəlxalq bazarlarda maneələrin azaldılması və ya tamamilə aradan qaldırılması, prinsipcə, təşkilatın, eləcə də onun rəqiblərinin dünyanın istənilən regionunun bazarlarına daxil olmasını mümkün edir. Açıq innovasiyaya keçiddə ifadə olunan iqtisadi innovasiyanın keyfiyyətcə yeni mərhələsi şirkətlərarası qarşılıqlı əlaqələr şəbəkəsini daim çətinləşdirir ki, bu da hətta qısamüddətli dövr ərzində iqtisadi fəaliy-

yətin proqnozlaşdırılmasını xeyli çətinləşdirir [2, s.57].

Uzunmüddətli perspektivdə qabiliyyət problemlərinin öyrənilməsinin mürəkkəbliyi dəfələrlə artır. Müəyyən edilmiş trayektoriyalar çərçivəsində iqtisadi inkişaf dövrləri yerdəyişmələrlə kəsilir və çox vaxt hətta onlarda dəyişiklik baş verir. Bu şəraitdə uzunmüddətli perspektivdə aktiv mühitdə təşkilatın davamlı inkişafı, yəni strateji rəqabət qabiliyyətinin təmin edilməsi üçün inteqral amillər toplusunu müəyyən etmək, formalaşdırmaq və səmərəli istifadə etmək son dərəcə çətin bir işdir [16, s.700]. Bir sıra təşkilatlar potensiallarının əhəmiyyətli dərəcədə yenidən qurulmasını həyata keçirməyə, bir sıra aktivlərdən azad olmağa, perspektivsiz fəaliyyət sahələrindən çıxmağa və sağ qalmaq uğrunda mübarizədə bəzən fövqəladə tədbirlər həyata keçirməyə məcbur olurlar.

Strateji təhlilin nəzəri və metodoloji aspektləri

Müasir iqtisadi şəraitdə mövcud bazarlar genişlənir və yeniləri açılır ki, bu da mövcud yeni gələnlərin geniş şəkildə inkişafı üçün müəyyən imkanlar yaradır. Təşkilatların müxtəlif yollarla cavab verdiyi beynəlxalq iqtisadiyyatda böhran dövründə belə imkanlar kəskin şəkildə azalır. Bütün təşkilatlar, bir tərəfdən, hətta aparıcı təşkilatlar üçün təhlükə yaradan və onlardan sağ qalmaq, bütövlüyün qorunması üçün mübarizə aparmağı tələb edən güclü çağırış alır. Digər tərəfdən, problem təkcə öz bazar payını saxlamaq deyil, həm də rəqiblərin bazarının bir hissəsini fəth etmək imkanı yaradır [3, s.150]. Bu şəraitdə təşkilatı əsas rəqibləri üçün mövcud olmayan davamlı rəqabət üstünlükləri ilə təmin edən amilləri axtarmaq həyati əhəmiyyət kəsb edir. Belə spesifik, çətin təqlid olunan amillər getdikcə daha çox təşkilatın biliklərə əsaslanan aktivlərinə çevrilir.

Davamlı rəqabət üstünlüyünü təmin etmək üçün dinamik xarici mühitdə təşkilatların unikal mövqeyi getdikcə qeyri-maddi aktivlərlə təmin edilir [1, s.336]. Nou-hau və brend kimi elementlər yüksək dəyərə malik ola bilər və təşkilatın ümumi aktivlərinin əhəmiyyətli bir hissəsini təşkil edə bilər. Daha mürəkkəb elmi problem təşkilatın aktivlərinin digər mühüm elementinin - idarəetmə səlahiyyətlərinin qiymətləndirilməsidir. Bu cür aktivlərin formalaşması və saxlanılması yeni biliklərin yaradılması prosesinin davamlılığını təmin etmək üçün əhəmiyyətli resurslar tələb edir ki, bu da müasir nəzəri bazaya ehtiyacı aktuallaşdırır [9, s.4].

Hal-hazırda bu məsələyə dair çoxlu sayda nəşrlərdə həm problemlərinə, həm vurğularına, həm də işlənmə dərinliyinə görə əhəmiyyətli dərəcədə fərqlənən bir sıra anlayışları müəyyən etmək olar. Anlayışlar müəyyən dərəcədə rəqabətlidir, lakin daha çox bir-birini tamamlayır. Ən əhəmiyyətli inkişaflara P.Senqenin öyrənmə təşkilatları və açıq innovasiya konsepsiyaları, resurs yanaşması, dinamik imkanlar konsepsiyası və bilik iqtisadiyyatı daxildir. Jr. Çandlerin inteqrasiya olunmuş öyrənmə çərçivəsi, G. Hamel və K. Prahalad tərəfindən əsas səriştələrin təhlili, İ. Nonaka və H. Takeuchi tərəfindən bilik yaradıcısı kimi təşkilatın tədqiqi bu sahədə mühüm rol oynayır [12, s.40].

Ənənəvi olaraq, əsas diqqət texnologiya və nou-hau şəklində həyata keçirilən, kommersiyalaşdırılan və son nəticədə yeni məhsul və xidmətlərdə olan fundamental və tətbiqi tədqiqatların nəticələrinə verilir. Elmi-tədqiqat və texnoloji yeniliklər ilk növbədə təşkilatın özündə ciddi məxfilik şəraitində və yalnız öz resursları hesabına həyata keçirilirdi. Müvəffəqiyyət halında intellektual üstünlüyü saxlamaq, öz inkişaflarını patentlərlə qorumaq məhsulun bazarda inhisarçı mövqeyini, icarə haqqının alınmasını təmin edirdi. Lakin müəyyən müddətdən sonra bu aktivlər ictimaiyyətə açıq olur.

Bilik tutumlu sənayelərdə texnoloji tərəqqi vahid təşkilatın hüdudlarından kənara çıxan davamlı yenilik tələb edir [11, s.65]. Bu, elmi-tədqiqat və inkişaf işlərinin əhəmiyyətli bir hissəsinin kənardan alınması ilə təmin edilir. Daxili və xarici innovasiyaların inteqrasiyası və açıq innovasiyaya keçid köhnə korporasiyaların məhv edilməsi və yenilərinin yaranması, autsorsing, dinamik holdinq strukturlarının qurulması kimi aşağı səviyyədə bürokratikləşməni təmin edən belə təşkilati formalarda həyata keçirilir [13, s.118]. Əsas diqqət innovasiyaların mümkün qədər tez inkişaf etdirilməsi və tətbiqi, gəlirin tərəfdaşlarla bölüşdürülməsidir. Əks halda, yeniliklərin təqlidi və kobud surətinin çıxarılmasından qorunmaq çətindir.

Təşkilatın bilik və səriştələrinin strateji aktivlər kimi şərhi K.Polaninin əsərlərində biliklərin

açıq və gizliyə bölünməsinə əsaslanır. Onlar məhz təqlid edilməsi çətin, nisbətən hərəkətsiz və davamlı rəqabət üstünlüklərinin əsası ola bilən gizli biliklərdir. B. Kogut və U. Zander tədqiqatlarında göstərdilər ki, təşkilatın bazarlarla müqayisədə əsas üstünlüyü təfərrüatlı müqavilələr vasitəsilə opportunizmin məhdudlaşdırılmasında deyil, biliklərin yaradılması və ötürülməsi üçün daha səmərəli proseslərdədir. Təşkilatlar ona görə mövcuddur ki, onlar təşkilati prinsiplərlə strukturlaşdırılmış və fərdin səviyyəsinə endirilə bilməyən sosial hərəkətlər birliyini təmin edirlər [5, s.123].

Biliyin yaradıcıları və qoruyucuları ilk növbədə fərdlərdir. Bilik həm də saxlanılır, təşkilat üzvlərinin bir-biri ilə əməkdaşlıq etdiyi rutinlərdə toplanır və yalnız onu dəyişdirməklə təşkilat özünü yeniləyə bilər [18, s.71]. Kogut və Zanderin digər mühüm tapıntısı ondan ibarətdir ki, təşkilatların öz texnologiyalarının təkrarlanması yolu ilə böyümə səyləri onun yalnız innovasiyalar vasitəsilə davam etdirə biləcəyi təqlid potensialını artırır. Buna görə də, təşkilatın bilik və öyrənmə imkanlarının onun rəqabət mövqeyində rolunu dərk edərək, təşkilatlar arasında biliyə əsaslanan rəqabətin iqtisadi aspektlərini təhlil etmək üçün mövcud və əldə edilmiş biliklərin sintezi, tətbiqi üçün kombinativ qabiliyyətlər anlayışını təqdim etmişlər.

Özünü öyrənən təşkilat anlayışı P. Sengenin əsərləri vasitəsi ilə geniş yayılmışdır [8, s.121]. Öyrənmə təşkilatı insanların istədikləri nəticələri yaratmaq qabiliyyətini daim genişləndirdikləri yer mənasını ifadə edir. Burada böyük yeni düşüncə tərzləri yetişdirilir və insanlar daim birlikdə öyrənirlər. Təhlil nəticəsində beş fənn müəyyən edilir və təhlil edilir, onların birgə, əlaqələndirilmiş inkişafı və tətbiqinin vacibliyi vurğulanır - şəxsi ustalıq, ortaq görmə, komanda öyrənməsi, koqnitiv modellər və sistem düşüncəsi.

I. Nonaka və H. Takeuchi biliklərin idarə edilməsi təhlilinin davranış aspektlərini dərindən araşdırırlar. Bununla onlar fərdi və təşkilati biliklərin inteqrasiyası mexanizmlərinə diqqət yetirirlər. Onlar aşkar ediblər ki, Yaponiya şirkətlərinin avtomobil və elektronika sənayesi, ilk növbədə məişət elektronikası kimi sənayelərdə qlobal liderliyinin əsas səbəblərindən biri onların qeyri-rəsmi bilikləri rəsmiləşdirilmiş biliklərə çevirmək bacarığıdır [14, s.19].

Müasir iqtisadi ədəbiyyatda V. Katkalo qeyd edir ki, [4, s.39] təşkilati öyrənmə adətən rutinlərin işlənib hazırlanması və dəyişdirilməsi, təşkilat yaddaşının saxlanmasında firmanın tarixi təcrübəsindən təsirlənən adaptiv dəyişiklik prosesləri kimi başa düşülür. Təşkilati öyrənmə biliyə əsaslanan strategiyaların xüsusiyyətlərini səmərəli şəkildə araşdırmaq üçün zəruri, lakin yetərli olmayan konsepsiya idi. Təşkilatın rəqabət üstünlüklərinin təmin edilməsi onun bilik bazası ilə deyil, onu yaratmaq və yeniləmək bacarığı ilə bağlıdır. Dinamik imkanlar aktiv kimi bilikdən iqtisadi səmərə əldə etməyin əsas mexanizmini təmsil edir.

Öyrənən təşkilatlar anlayışı, Al Jr. Çandlerin təqdim etdiyi nisbətən sabit strukturları olan böyük korporasiyaların nümunəsindən istifadə edərək təhlil etdiyi inteqrasiya olunmuş təlim bazası kateqoriyası ilə sıx bağlıdır. Uzun müddətdir ki, bu cür korporasiyalar öz sənayelərində və bütövlükdə iqtisadiyyatda lider idilər, onlar, bir qayda olaraq, “elektron dövrün” kompüter istehsalı kimi yeni sahələrinin yaradıcıları idilər. Yalnız böyük korporasiyalar zəruri və kifayət qədər şərtləri təşkil edən bir sıra problemləri həll edə bilərdi. Burada üç bilik qrupunu ayırd etmək mümkündür – texniki qabiliyyətlər, funksional biliklər və idarəetmə qabiliyyətləri.

İnnovativ təşkilatlar göstərilən bilik qruplarının formalaşmasına müxtəlif yollarla yanaşırdılar. Uğurlu təşkilatların ümumi cəhəti biliklərin formalaşması və öyrənmə trayektoriyasının inkişafıdır. Bəzi təşkilatlar texniki qabiliyyətlərin inkişafı prosesində daha uğurlu olurlar. Həm texniki, həm də təşkilati qabiliyyətlər zəruri şərtlərdir.

Çandler biliklər qrupundan yalnız ilk iki qrupu nəzərdən keçirir. O, qeyd edir ki, bu qabiliyyətlər tədqiqatın mərkəzi predmeti deyil. Bunu bir sıra səbəblərlə izah edir. Bununla belə, biliklərin yaradılması və inkişafı probleminin həlli üçün düzgün hərəkətlər həlledici əhəmiyyət kəsb edən bu üçüncü altsistemdəki nailiyyətlərlə dəqiq izah olunur. O, bu qrup idarəçilik qabiliyyətlərini bilavasitə təhlil etmir, baxmayaraq ki, onların əhəmiyyətini vurğulayır.

Çandler, trifektanı həll edən qabaqcıl müəssisəyə əhəmiyyətli dərəcədə diqqət yetirir. Böyük strateji əhəmiyyəti olan biznes təşkilatlarını yaradır və əvvəllər işlənib hazırlanmış məhsulların

kommersiyalaşdırılmasından əldə etdiyi mənfəəti özündə saxlayır, ondan yeni növ məhsulların kommersiyalaşdırılması üçün istifadə edir ki, bu da ona xarici maliyyə mənbələrindən nisbi müstəqillik təmin edir [17, s.103].

Biliklərin idarə edilməsi konsepsiyası, bir sıra müəlliflərin fikrincə, resurs yanaşmasının davamı, xüsusi halıdır və ya ən təkmil versiyada başa düşülən dinamik imkanlar konsepsiyasıdır. Bu konsepsiyanın aparıcı müəlliflərindən biri olan D.J. Teecə [10, s.63] görə, təşkilat texnoloji bacarıqlar, müştərilərin ehtiyacları və təchizatçı imkanları haqqında biliklər də daxil olmaqla, biznes proseslərinə daxil edilmiş biliklərin məcmusudur. Bu texnoloji və idarəetmə səriştələri həm fərdi bacarıq və təcrübəni, həm də təşkilat daxilində işlərin görülməsinin fərqli üsullarını əks etdirir. Buna görə də, təşkilatın mahiyyəti bilikləri aktiv kimi yaratmaq, ötürmək, toplamaq, inteqrasiya etmək və istifadə etmək qabiliyyətindən ibarətdir.

Təşkilatın dinamik bacarıqları, yeni imkanları tanımaq və mənimsəməkdən, öz biliklərini daha səmərəli təşkilati formalardan səriştələr və bir-birini tamamlayan aktivlər kimi yenidən konfiqurasiya etməkdən, resursların müvafiq şəkildə bölüşdürülməsindən və strateji qiymətlərin həyata keçirilməsindən ibarətdir.

Biliyə strateji aktiv kimi baxmaq aydın şəkildə firma strategiyaları üzərində tədqiqatın diqqətini xərclərin minimuma endirilməsindən dəyərin maksimumlaşdırılmasına çevirir. Eyni zamanda, iqtisadi renta nöqteyi-nəzərindən səmərəli olan innovativ proseslərin təşkili yollarının və iqtisadi səmərə əldə etmək üçün şirkətin daxili və xarici aktivlərin sinerji birləşməsində potensialının öyrənilməsi yenilənir [15, s.426].

Bilikləri idarə edərkən şəbəkə və virtual təşkilatlar, konsorsiumlar və strateji ittifaqlar, habelə təşkilati dizayn metodları - tədqiqat qrupları, ağıllı təşkilatlar istifadə olunur, bu da şirkətlərə məlumatı saxlamağa, bilik mübadiləsini yaxşılaşdırmağa, hərəkətlərin və məlumat mənbələrinin təkrarlanmasının qarşısını almağa imkan verir.

Dinamik imkanlar konsepsiyası kontekstində biliklərin idarə edilməsi hazırda təkcə kommersiya deyil, həm də iri qeyri-kommersiya təşkilatlarının - elmi-tədqiqat və universitetlərin, eləcə də aparıcı tibb mərkəzlərinin strateji potensialının öyrənilməsi üçün ən səmərəli metodoloji əsasdır. Avropa və ABŞ-da sonuncular çox vaxt ya universitetlərin strukturunda fəaliyyət göstərir, ya da onlarla sıx əlaqədə ittifaqlar yaradırlar. P.Drukerin [6, s.123] fikrincə, qlobal rəqabət bütün institutların strateji hədəfinə çevrilməlidir. Heç bir müəssisə, istər biznes, istər universitet, istərsə də xəstəxana, dünyanın harasında olmasından asılı olmayaraq, sənaye liderlərinin müəyyən etdiyi standartlara cavab verməsə, uğur qazanmağı bir yana, fəaliyyət belə göstərə bilməz. Eyni zamanda, bu cür təşkilatlar öyrənənlər və səviyyənin hər mərhələsində ən qabaqcıl olanlardır.

Müasir aparıcı universitetlər nəinki kommersiya firmalarının idarəetmə arsenalının fərdi alətlərindən fəal şəkildə istifadə edir, həm də onların strateji potensialının səmərəli formalaşdırılması və istifadəsi üçün kompleks proqramlar hazırlayır, müasir idarəetmə nəzəriyyəsi və praktikasına mühüm töhfə verir.

Qeyri-kommersiya təşkilatlarının, o cümlədən universitetlərin, xüsusən də aparıcı universitetlərin strateji potensialına dünya səviyyəli tədqiqatlar və yüksək ixtisaslı kadrların təkrar istehsalı kimi fundamental üzvi şəkildə bağlı elementlər daxildir. Bu əsasda universitetlərin öz biznes modeli çərçivəsində iqtisadiyyata təsir mexanizmləri hazırlanır. Müasir universitetlərin strateji potensialında, kommersiya təşkilatları kimi, daxili təşkilati resurslar və təşkilati qabiliyyətlər, təşkilatların nəinki sağ qalmasını, həm də lazımi inkişafını təmin edən çoxsahəli maliyyə sistemi həlledici rol oynayır.

Qeyd olunanları nəzərə alaraq təşkilatın strateji təhlilinin inkişafı və tətbiqi mərhələlərinə baxa bilərik:

1. Mikromühitin təhlili (müştərilər, rəqiblər, təchizatçılar);
2. Daxili mühitin təhlili (istehsal, texnologiya, maliyyə, iqtisadiyyat, innovasiya);
3. Müəssisənin güclü və zəif tərəflərinin, imkan və təhdidlərinin təhlili.

Mikromühitin təhlili mərhələsinə aşağıdakıları aid etmək olar:

- alışların tezliyi baxımından müştərilərin qiymətləndirilməsi;
- müştəri loyallığının formalaşması;
- qiymətlərin müəyyən edilməsi, satışın təşviqi sisteminin formalaşdırılması və inkişafı, satışın artırılması və müştəri bazasının genişləndirilməsi üzrə tədbirlərin işlənib hazırlanması;
- rəqabətin kəmiyyət və keyfiyyət xüsusiyyətlərinin qiymətləndirilməsi: rəqabət aparan müəssisələrin sayı, onların satış həcmi və bazar payı; əsas rəqiblərin üstünlükləri;
- satınalmaların həcmi, çeşidin genişliyi, ödəniş şərtləri ilə təchizatçıların qiymətləndirilməsi; sifarişin həcmində tədarükçünün payının müəyyən edilməsi;
- kreditor borcları ilə işləmək;
- təchizatçılarla işin təkmilləşdirilməsi üzrə tövsiyələrin hazırlanması.

İkinci mərhələ olaraq daxili mühitin təhlilinə aşağıdakıları ümumiləşdirmək olar:

- müəssisə texnologiyalarının təhlili, avadanlığın vəziyyətinin qiymətləndirilməsi, onun saxlanılmasına çəkilən xərclərin dinamikası, istehsal proseslərinin səmərəliliyinin artırılması üçün tövsiyələr;
- sənaye və dünya səviyyəli rəqiblər ilə işinin keyfiyyət səviyyəsinin təhlili;
- müştəri şikayətlərinin sayı və qiymətləndirilməsi;
- insan kapitalının idarə edilməsi fəaliyyətinin təhlili: seçim, motivasiya, təlim və qiymətləndirmə, karyera inkişafı, kadr potensialının formalaşdırılması, korporativ mədəniyyətin inkişafı;
- investisiya və innovasiya siyasəti: qiymətləndirmə və proqnoz;
- maliyyə-iqtisadi səmərəliliyinin yüksəldilməsi tədbirləri.

Müəssisənin güclü və zəif tərəflərinin təhlili dedikdə:

- güclü tərəflərin perspektiv inkişaf istiqamətləri kimi səciyyələndirilməsi;
- zəif tərəflərin müəssisənin iş proseslərinə və nəticələrinə təsirinin minimuma endirilməsi yollarının təqdim edilməsi;
- SWOT təhlili;
- matris imkanlarının və təhdidlərinin təhlili və s. başa düşülür.

ABC satış təhlili, qrafik və cədvəl üsulları, situasiya təhlili, mühasibat və statistik sənədlərin qiymətləndirilməsi, müşahidə, sorğu-sual, M.Porterin dəyər zənciri sistemi vasitəsilə təşkilatların strateji potensiallarının qiymətləndirilməsi mərhələlərini təhlil etmək mümkündür.

Nəticə

Strateji təhlil iqtisadi hadisələrin və proseslərin gələcək perspektivi, təşkilatın yerləşdirilməsi və inkişafı perspektivindən öyrənilməsinə yönəlmiş, strateji idarəetmə üçün uçot və analitik dəstəyin elementi olan mürəkkəb bir sistemdir, daxili və iqtisadi amillərin qiymətləndirilməsi prosesidir [19, s.34]. Təşkilatın strateji qabiliyyəti təşkilata rəqabətqabiliyyətli biznes modelini inkişaf etdirməyə, həyata keçirməyə və yenilik etməyə imkan verən qabiliyyətlər, səriştələr və resurslar məcmusudur. Təşkilatın potensialının formalaşması və istifadəsi proseslərinin öyrənilməsi iqtisad elminin ən aktual tədqiqat problemlərindən biridir.

Geniş və yaxşı işlənmiş tədbirlər, alətlər, göstəricilər və metodlar sistemindən istifadəyə əsaslanan strateji təhlilin təşkilinə nəzəri və metodoloji yanaşma müəssisədə uğurlu strateji təhlilin ən vacib şərtidir. Bu metodoloji yanaşmanın istifadəsi aşağıdakılara imkan verəcək:

1. Mövcud olanı tənzimləmək və ya onun inkişafı üçün yeni strategiya hazırlamaq üçün makro və mikroiqlimin, müəssisənin daxili imkanlarının hərtərəfli öyrənilməsini həyata keçirmək.
2. Göstəricilərlə müəssisənin strateji idarəetməsinin və həyatının bütün sahələrini əhatə etmək.
3. Biznesin davamlı inkişafını təmin etməklə, strateji idarəetmə sisteminin səmərəliliyini və rəqabətqabiliyyətlilik səviyyəsini artırmaq.

Təşkilatların strateji potensialının təhlilinin həyata keçirilməsini çətinləşdirən bir sıra problemlər mövcuddur. Onların aradan qaldırılması, minimuma endirilməsi potensialın yüksəldilməsi və inkişafı baxımından vacib şərtlərdəndir. Bu problemlərə aşağıdakı istiqamətləri göstərmək olar:

- strateji təhlilin çoxlu sayda alətləri və metodları, həm menecerə müəyyən bir müəssisə və

zamanda ən uyğun olanı seçmək üçün alternativlər təqdim edir, həm də idarəetmədə çətinliklər yaradır;

- mürəkkəb texnikalardan istifadə etməyə hazır olmaması, təhlilin nəticələrinin düzgün şərh edilməməsinə və strateji seçimə gətirib çıxarır;
- strateji təhlilin aparılması üçün informasiyaya ehtiyac yaranması, həmçinin strateji təhlil apararkən bir sıra təşkilatlarda kifayət qədər məlumat və analitik bazanın olmaması;
- istifadə olunan alətlər və üsullar arasında sistematik əlaqələrin olmaması, təkrarlar, nəticədə görülən işin bir hissəsi lazımsız olur. Eyni zamanda, strateji təhlil prosesinin özü çox əmək tələb edir.

ƏDƏBİYYAT

1. Mirzəzadə N.Q. Aqrar sahədə rəqabətqabiliyyətlilik dayanıqlı inkişaf kontekstində. Yeni dövrdə təhsil və tədqiqat fəaliyyəti: reallıqlar və çağırışlar Beynəlxalq elmi konfrans, II cild. Mingəçevir. 16-17 dekabr 2022. Səh. 334-337
2. Амрахов В.Т., Мамедов И.А. Экономическая важность и эффективность разветвления в сельскохозяйственном производстве. Ozbekiston Respublikasi, Qarshi Muhandislik-Iqtisodiyot Instituti. Innovatsıon texnologıyalar. №2(18). Qarshi-dekabr, 2015. c. 55-58.
3. Блёх Ю., Корсакова Л.Г., Чуйкин А.М., Стратегический потенциал организации и модели программных решений в условиях неопределенности. Вестник Балтийского федерального университета им. И. Канта. 2013. Вып. 9. С. 146 - 153.
4. Катькало В. С. Эволюция теории стратегического управления. СПб.: Издательство СПбГУ, 2006. с. 548
5. Когут Б., Зандер У. Тиражирование технологий // Рос. журнал управления. 2004. № 2 (1). п. 121 - 140.
6. Корсакова Л.Г., Чуйкин А.М. Стратегический потенциал организации: теоретические основания исследования. Вестник Балтийского федерального университета им. И. Канта. 2015. Вып. 9. С. 114 - 127
7. Мрзазаде Н. Формирование стратегических планов развития бизнеса формирование стратегических планов развития бизнеса. «ЖАС ҒАЛЫМДАРДЫҢ ДИАЛОГЫ: SCIENCE TALKS» АТТЫ III ХАЛЫҚАРАЛЫҚ ФОРУМНЫҢ МАТЕРИАЛДАР ЖИНАҒЫ 26-27 қазан, 2023 жыл. стр. 84-86. Казахстан.
8. Сенге П. Построение обучающихся организаций // Вест ник СПбГУ. Сэр. Управление. 2004. Том. 1. п. 113 - 134.
9. Ставенко Ю.А., Громов А.И., Эволюция моделей управления инновационными процессами в организации. БИЗНЕС-ИНФОРМАТИКА №4(22)–2012 г. 3-9
10. Тиес Д. Дж., Пизано Г., Шуен Э. Динамические возможности компании и стратегическое управление // Вестник СПбГУ. Сэр. Управление. 2003. Том. 4. с. 133 - 184.
11. Усачева ИЮ, Демина В.В. Содержание дефиниции «стратегический менеджмент» в процессе развития теории стратегического управления. Вестник Московского государственного областного университета. Серия: Экономика. 2017. № 3. п. 61 - 69.
12. Чуйкин А.М. Концепция открытых инноваций и исследование стратегического потенциала организаций. Вестник Балтийского федерального университета им. И. Канта. 2012. Вып. 3. С. 32 - 41
13. Чуйкин А.М. стратегическая конкурентоспособность организаций в знаниевой экономике. Вестник Балтийского федерального университета им. И. Канта. 2013. Вып. 3. С. 114 - 124.
14. Шерстобитова Т. И. Роль взаимного маркетинга в развитии инновационных сетей // Русский научный мир. 2013. № 2 (2). п. 17 - 28.
15. Amrahov V.T., Mirzazadeh N.G., Guliyeva K.N., Gazanfarova J.V. Economic Effectiveness and Forecasting of Scientific Activity in Azerbaijan. International Journal of Religion 2024.

Volume: 5| Number 7 | pp. 422 – 430
16. Amrahov V.T. The directions of priority for the innovative use of resources in agriculture. European Journal of Scientific Research, 2016, № 1 (13), (January-June). Volume II. "Paris University Press", 2016. P. 697-702.
17. Alfred D. Chandler, Jr. Inventing the Electronic Century The Epic Story of the Consumer Electronics and Computer Industries, With a New Preface. 2005. 321 pages
18. Guerras-Martína L.A., Madhok A., Montoro-Sánchez A. The evolution of strategic management research: Recent trends and current directions. BRQ Business Research Quarterly. Volume 17, Issue 2, April–June 2014, Pages 69-76.
19. Soboleva Y.P., Polyanin A.V., Leonova O.V., Korgina O.A., Merkulov A.V. Strategic approach to performance evaluation of a business entity from the position of analyzing its business potential. Revista ESPACIOS. Vol. 39 (Number 33) 2018, Page 31-46

Нармин Габиль кызы Мирзазаде
Ассистент, Азербайджанский Государственный Аграрный Университет
narminmirzazada@gmail.com

Основы анализа стратегического потенциала организаций

Резюме

Цель исследования - посвящена проблеме формирования теоретико-методологического подхода к исследованию внешней и внутренней среды в системе стратегического управления организациями.

Методология исследования – это разработка подхода к анализу стратегического потенциала предприятия на основе принципа последовательности, основанного на методах, инструментах, критериях и показателях, имеющихся в теории и практике стратегического управления. Определение этапов разработки и реализации стратегического анализа организации.

Прикладное значение исследования - устойчивый рост и конкурентоспособность организации во многом зависят от стратегии, определенной для ее развития. Если суть стратегии заключается в достижении долгосрочных целей, поставленных в условиях ускоренной динамики рыночной конъюнктуры, то целью стратегического анализа является снижение неопределенности внешней и внутренней среды посредством ее постоянного изменения.

Результат исследования - исследуются различные подходы современных экономистов к сущности понятия стратегического анализа и назначению стратегического анализа в системе управления организацией. Выявлен ряд проблем, препятствующих осуществлению эффективного стратегического анализа на предприятии.

Оригинальность и научная новизна исследований - представленный методический подход позволит организациям систематизировать механизмы стратегического управления бизнес-процессами, повысить инвестиционную привлекательность и уровень конкурентоспособности субъектов предпринимательства.

Ключевые слова: стратегия, прогнозирование, перспектива, глобализация, коммерция, инновации

Narmin Gabil Mirzazadeh
Assistant, Azerbaijan State Agrarian University
narminmirzazada@gmail.com

Fundamentals of analysıs of the strategıc potentıal of organızatıons

Summary

The purpose of the study - is devoted to the problem of forming a theoretical and methodological approach to the study of the external and internal environment in the strategic management system of organizations.

Research methodology – is the development of an approach to the analysis of the strategic potential of the enterprise based on the principle of consistency based on the methods, tools, criteria and indicators available in the theory and practice of strategic management. Determining the stages of development and implementation of the organization's strategic analysis.

Applied significance of research - the sustainable growth and competitiveness of the organization mainly depends on the strategy defined for its development. If the essence of the strategy is to achieve the long-term goals set in the context of the accelerated dynamics of the market conjuncture, the purpose of the strategic analysis is to reduce the uncertainty of the external and internal environment through its constant change.

The result of the study - different approaches of modern economists to the essence of the concept of strategic analysis and the purpose of strategic analysis in the organization's management system are investigated. A number of problems preventing the implementation of effective strategic analysis in the enterprise have been identified.

Originality and scientific innovation of research - the presented methodological approach will allow organizations to systematize mechanisms of strategic management of business processes, increase investment attractiveness and the level of competitiveness of business entities.

Key words: strategy, forecasting, perspective, globalization, commerce, innovation.

UOT 330.322.14

Pərvin Elman qızı Muxtarova
Dos., Azərbaycan Dövlət Aqrar Universiteti
parvinmuhtarova@gmail.com

Səkinə Etibar qızı Məhərrəmova
Assistent, Azərbaycan Dövlət Aqrar Universiteti
sekine_1989@mail.ru

Firuzə Aftandil qızı Məmmədova
Assistent, Azərbaycan Dövlət Aqrar Universiteti
firuzamammadova91@gmail.com
https://doi.org/10.30546/4.71.73001.2024.004.015

BİRBAŞA XARİCİ İNVESTİSİYALARIN DİNAMİKALARI: İNVESTİSİYA STRATEGİYALARININ İNKİŞAFINDA YENİ YANAŞMALAR

Xülasə

Tədqiqatın məqsədi qlobal birbaşa xarici investisiyaların dinamikasını və bərpa olunan enerji investisiyalarının rolunu araşdırmaqdır. Bu, investisiya axınlarının geosiyasi, iqtisadi və ekoloji amillərə təsirini anlamaq, bərpa olunan enerji imkanlarını artırmaq və Dayanıqlı İnkişaf Məqsədlərinə uyğun strategiyalar inkişaf etdirməkdən ibarətdir.

Tədqiqatın metodologiyası. Tədqiqat, müxtəliftərəfli yanaşma ilə həyata keçirilir. İlk olaraq, müasir ədəbiyyatın sistematik araşdırması ilə birbaşa xarici investisiyalar (BXİ), bərpa olunan enerji və geosiyasi amillərlə bağlı məlumatlar toplanır. İkinci mərhələdə, kəmiyyət analizi vasitəsilə investisiya axınlarına təsir edən amillər müəyyən edilir.

Tədqiqatın tətbiqi əhəmiyyəti. Tədqiqat, birbaşa xarici investisiyaların (BXİ) təşviqinə yönəlmiş strateji yanaşmalar təqdim edir, investisiya mühitinin yaxşılaşdırılması üçün tövsiyələr verir və geosiyasi amillərin təsirini anlamağa kömək edir.

Tədqiqatın nəticəsi. Tədqiqat, birbaşa xarici investisiyaların (BXİ) inkişaf etdirilməsi üçün ekoloji dayanıqlılıq və strateji diversifikasiyanın vacibliyini vurğulayır. Eyni zamanda, bərpa olunan enerji investisiyalarının artırılması üçün geosiyasi risklərin və tənzimləyici maneələrin aradan qaldırılması lazım olduğunu göstərir.

Tədqiqatın orijinallığı. Tədqiqat, bərpa olunan enerji investisiyaları və geosiyasi gərginliklər arasındakı əlaqəni innovativ şəkildə araşdıraraq, BXİ-nin inkişafında unikal perspektiv təqdim edir. Eyni zamanda, davamlı inkişaf məqsədlərinə uyğun strateji yanaşmaları vurğulayır.

Tədqiqatın elmi yeniliyi. Tədqiqat, bərpa olunan enerji investisiyaları və geosiyasi gərginliklərin iqtisadi nəticələrini araşdıraraq, BXİ sahəsindəki ənənəvi yanaşmalara yeni bir ölçü əlavə edir. Eyni zamanda, davamlı inkişaf və maliyyələşdirmə strategiyalarının birgə təsirini dərindən analiz edərək, investisiya mühitinin inkişaf etdirilməsi üçün innovativ təkliflər irəli sürür.

Açar sözlər: BXİ, bərpa olunan enerji, investisiya strategiyaları, iqtisadi inkişaf, davamlılıq, maliyyələşdirmə, müasir iqtisadiyyat, investorlar, resursların bölüşdürülməsi.

Giriş

BXİ axınlarında sektora xas tendensiyaları və coğrafi variasiyaları başa düşməklə, siyasətçilər investisiyaların təşviqi və resursların bölüşdürülməsi üçün prioritet sahələri müəyyən edə bilərlər. Bu, investisiya mühitinin yaxşılaşdırılması, tənzimləmə proseslərinin sadələşdirilməsi və daha çox xarici kapitalın cəlb edilməsi üçün infrastrukturun təkmilləşdirilməsi üçün islahatların həyata keçirilməsini əhatə edə bilər. İnvestorlar üçün tədqiqat bazar imkanlarını qiymətləndirmək və yaxşı məlumatlandırılmış investisiya qərarları qəbul etmək üçün dəyərli vasitə rolunu oynayır. İnkişaf edən iqtisadi mənzərələri və BXİ-də yaranan tendensiyaları nəzərə alaraq, investorlar riskləri daha

yaxşı idarə edə və müxtəlif regionlar və sektorlardakı artım perspektivlərindən yararlana bilərlər. Bu isə öz növbəsində investorlara risk iştahı və gəlirlilik məqsədlərinə uyğun gələn möhkəm investisiya strategiyaları hazırlamaq üçün dəyərli fikirlər təqdim edir. Bərpa olunan enerji investisiyaları və davamlılıq layihələri investisiya strategiyalarının qlobal davamlılıq məqsədlərinə mühüm əhəmiyyət kəsb edir. Ətraf mühitin davamlılığına sadiq olan investorlar və maraqlı tərəflər investisiyaları təmiz enerji layihələrinə yönəltmək və iqlim dəyişikliyinin azaldılmasına töhfə vermək üçün bu anlayışlardan istifadə edə bilərlər. Bu, təkcə ətraf mühitə nəzarəti təşviq etmir, həm də sürətlə inkişaf edən bərpa olunan enerji sektorunda gəlirli investisiyalar üçün yeni imkanlar açır. [1. 45-78]

Geosiyasi Çağırışlar

2023-cü ildə qlobal Birbaşa Xarici İnvestisiyalar (BXİ) təqribən 1,37 trilyon dollara çataraq 3% cüzi artım yaşadı. Bu artım iqtisadi mənzərələrdə mürəkkəb dəyişiklikləri əks etdirir və xüsusilə inkişaf etməkdə olan ölkələrdə iqtisadi artımın təşviqində XBİ-nin əsas rolunu vurğulayır. Bununla belə, bu ümumi artımın altında qeyri-bərabərlik və çətinliklərin mürəkkəb reallığı yatır. Qeyd edək ki, Avropanın "konduit" iqtisadiyyatları nəzərə alınmadıqda əhəmiyyətli 18% azalma baş verib ki, bu da XBİ axınlarının nüanslı xarakterini və onların iqtisadi göstəricilərə və işçi qüvvəsinin inkişafına təsirini vurğulayır. Bu nüanslı dinamikalar qlobal iqtisadiyyatın daim inkişaf edən təbiətini və XBİ meyillərini başa düşməyin kritik əhəmiyyətini vurğulayır. XBİ-də baş verən dəyişikliklər təkcə rəqəmsal deyil, həm də bütün dünyada iqtisadi strategiyalar və siyasətlər üçün dərin təsirlər daşıyır. XBİ-də 9% azalma ilə üzləşən inkişaf etməkdə olan ölkələr təcili olaraq xarici investisiyaları cəlb etmək və saxlamaq üçün innovativ yanaşmalara ehtiyac duyurlar. 2023-cü il Dünya İnvestisiya Hesabatı bu tendensiyaları araşdıraraq, xüsusən də bərpa olunan enerji və davamlılıq layihələrinə investisiyaların böyümə üçün mühərrik rolunu oynaya biləcəyi və bununla da bu regionlarda iqtisadi və işçi qüvvəsinin inkişafına necə töhfə verə biləcəyi barədə fikirlər təqdim edir. Bundan əlavə, enerji sərmayələri ilə bağlı yüksək kapital xərcləri inkişaf etməkdə olan ölkələr üçün əsas maneə yaradır və onların bərpa olunan enerji layihələri üçün lazımi maliyyəni cəlb etmək imkanlarını məhdudlaşdırır. Bu problemin həlli bərpa olunan enerji investisiyalarını inkişaf etməkdə olan ölkələr üçün daha əlçatan və əlverişli etmək üçün dövlət-özəl tərəfdaşlıq, güzəştli maliyyələşdirmə və çoxtərəfli inkişaf yardımı kimi innovativ maliyyələşdirmə mexanizmlərini tələb edir. Əsas məqsəd BXİ-nin cəlbediciliyinə təsir edən amilləri tədqiq etmək və dəyişkən iqtisadi mənzərə şəraitində XBİ axınının gücləndirilməsində problemlər və həll yolları arasında naviqasiya etmək, bu qlobal XBİ meyillərinin arxasında duran təbəqələri açmaqdır. Bu tendensiyaları tədqiq edərək və onların nəticələrini başa düşməklə, siyasətçilər, investorlar və maraqlı tərəflər davamlı iqtisadi artım və inkişaf üçün XBİ-dən istifadə etmək üçün məlumatlı strategiyalar hazırlaya bilərlər. [2. 67-90]

Geosiyasi gərginlik investisiya modellərini daha da pozub, investisiya münasibətlərində qeyri-sabitliyə və strateji diversifikasiya üçün məhdud imkanlara gətirib çıxarıb. Bu, XBİ-nin qoşulmuş ölkələrin blokları daxilində daha çox cəmləşməsi ilə nəticələndi.

Bu tendensiyalar qlobal XBİ dinamikasının çoxşaxəli xarakterini və onların iqtisadi inkişaf üçün təsirlərini vurğulayır, bərabərsizlikləri aradan qaldırmaq, davamlı investisiyaları təşviq etmək və geosiyasi çağırışları idarə etmək üçün məqsədyönlü strategiyalara təcili ehtiyac olduğunu vurğulayır. Bu inkişaflar investisiya qərarlarına təsir etmək üçün geosiyasi, iqtisadi və tənzimləyici amillərin bir-birinə qarışdığı XBİ meyillərini formalaşdıran mürəkkəb mənzərəni əks etdirir. ÜDM artımı, inflyasiya və işsizlik dərəcələri kimi kritik iqtisadi göstəricilər XBİ modellərinin formalaşmasında mühüm rol oynayır. Sabit ÜDM artımı adətən artan iqtisadiyyatdan xəbər verir və investorlar genişlənən bazarlarda imkanlar axtardıqları üçün daha çox XBİ cəlb edir. Əksinə, yüksək inflyasiya dərəcələri artan iqtisadi qeyri-müəyyənlik və alıcılıq qabiliyyətinin azalması səbəbindən investisiyaların qarşısını ala bilər.[3. 12-35]

İqtisadi Transformasiyalar

İnvestorlar öz sərmayələrini iqlim dəyişikliyi ilə bağlı qlobal səylərlə uyğunlaşdırmağa və eko-

loji cəhətdən məsuliyyətli təcrübələri təşviq etməyə çalışdıqları üçün ekoloji dayanıqlılıq əsas məsələ kimi ortaya çıxdı. Bu amillərin qarşılıqlı təsiri XBİ tendensiyalarının mürəkkəb xarakterini və onları anlamaq və onlara uyğunlaşmağın vacibliyini vurğulayır. İnvestisiya qərarlarına geosiyasi, iqtisadi və ekoloji amillərin təsirini dərk etməklə, maraqlı tərəflər beynəlxalq investisiyaların inkişaf edən mənzərəsini daha yaxşı idarə edə və strateji diversifikasiya və davamlı inkişaf imkanlarını müəyyən edə bilərlər. [4. 100-115]

Tənzimləyici çərçivələr hökumətlərin XBİ cəlb etmək üçün istifadə edə biləcəyi əsas siyasət alətlərindən biridir. Əlverişli vergi rejimləri təklif etməklə və investorlar üçün hüquqi müdafiəni təmin etməklə hökumətlər investisiya üçün əlverişli mühit yarada bilərlər. Bundan əlavə, qanunun aliliyi, güclü institutlar və mülkiyyət hüquqlarının müdafiəsi ilə səciyyələnən iqtisadi azadlıq XBİ üçün əhəmiyyətli cəlbedici rol oynayır. İnvestorların qanuni və institusional çərçivəyə etibar etdikləri və mülkiyyət hüquqlarının qorunduğu ölkələrə kapital qoyma ehtimalı daha yüksəkdir. İnfrastruktur və insan kapitalı XBİ-nin cəlb edilməsinə töhfə verən mühüm aspektlərdir. Keyfiyyətli infrastruktur, o cümlədən nəqliyyat şəbəkələri, enerji sistemləri və kommunikasiya kanalları biznes əməliyyatlarını asanlaşdırmaq və investorlar üçün xərcləri azaltmaq üçün vacibdir. Eynilə, ixtisaslı və təhsilli işçi qüvvəsi XBİ cəlb etmək üçün əvəzolunmazdır, çünki investorlar tez-tez əməliyyat ehtiyaclarını ödəyə bilən istedad fonduna çıxışı olan yerlər axtarırlar. Buna görə də, təhsil və təlim proqramlarına investisiyalar ölkənin insan kapitalını və xarici investorlar üçün cəlbediciliyini artırmaq üçün çox vacibdir. Coğrafi və mədəni yaxınlıq da XBİ-nin cəlb edilməsində mühüm rol oynayır. Böyük bazarlara yaxınlıq nəqliyyat xərclərini azalda, tədarükçülərə və müştərilərə çıxışı asanlaşdıraraq, ölkəni xarici investorlar üçün daha cəlbedici edə bilər. Eynilə, mədəni oxşarlıqlar tranzaksiya xərclərini və mədəni maneələri azalda, ölkənin investisiya məkanı kimi cəlbediciliyini artıra bilər. Proqnozlaşdırıla bilən biznes mühitinin yaradılması XBİ-nin cəlb edilməsi üçün digər vacib amildir. Makroiqtisadi sabitlik və aydın tənzimləyici çərçivələr qeyri-müəyyənliyi və riski azaldaraq potensial investorlarda inam yaradır. Şəffaflığa, ardıcıllığa və qanunun aliliyinə üstünlük verən hökumətlər XBİ axınını daha çox cəlb edir. [5. 88-101]

İşçi qüvvəsinin inkişafı cari iqtisadi ehtiyacları ödəmək və xüsusi bacarıqlara əsaslanan sənayeləri cəlb etmək üçün vacibdir. Təhsil və təlim proqramlarına sərmayələr ixtisaslı işçi qüvvəsi yetişdirə bilər, ölkənin ixtisaslı istedadlara çıxışı olan yerlər axtaran potensial investorlar üçün cəlbediciliyini artırır. Güclü beynəlxalq əlaqələrin qurulması və saxlanması yeni XBİ imkanları açа bilər. Diplomatik əlaqələri inkişaf etdirmək və beynəlxalq əməkdaşlığa cəlb etmək, xüsusən də transsərhəd əməkdaşlığın və tərəfdaşlığın getdikcə daha çox yayıldığı müasir qlobal miqyasda bir-biri ilə əlaqəli bazarda xarici investisiyaların cəlb edilməsinə kömək edə bilər. Digər ölkələr və beynəlxalq təşkilatlarla möhkəm əlaqələr qurmaqla hökumətlər qarşılıqlı faydalı investisiyalar və iqtisadi artım üçün imkanlar yarada bilərlər.[6. 50-67]

İnkişaf etməkdə olan ölkələr 2030-cu ilədək Dayanıqlı İnkişaf Məqsədlərinə (SDGs) nail olmaq üçün investisiya boşluqlarının aradan qaldırılmasında əhəmiyyətli çətinliklərlə üzləşirlər, illik kəsir təxminən 4 trilyon dollardır. Bu heyrətamiz çatışmazlıq infrastrukturun inkişafından tutmuş sosial rifah təşəbbüslərinə qədər aktual inkişaf ehtiyaclarını qarşılamaq üçün tələb olunan böyük investisiya miqyasını vurğulayır.

Üstəlik, təhlükəsizlik və iqtisadi müstəqillik ilə bağlı narahatlıqlar, xüsusən də mühüm infrastruktura xarici dövlət tərəfindən dəstəklənən qurumların investisiyaları ilə bağlı narahatlıqlar böyükdür. İnkişaf etməkdə olan ölkələrin hökumətləri milli maraqları və suverenliyi qoruyarkən iqtisadi artıma təkan vermək üçün xarici sərmayələrin cəlb edilməsi arasında incə balansı idarə etməlidirlər. BXİ-nin inkişaf prosesini effektiv şəkildə dəstəkləməsinin təmin edilməsi, ölkələrdən potensialları inkişaf etdirən, keyfiyyətli iş yerləri yaradan, texnologiyanın ötürülməsini və istehsal kompleksinin şaxələndirilməsini və təkmilləşməsini gücləndirən müvafiq siyasətlərin həyata keçirilməsini tələb edir. Bundan əlavə, XBİ-nin cəlb edilməsi və saxlanması davamlı və inklüziv inkişafa töhfə verəcək şəkildə aparılmalı, iqtisadi faydalarla yanaşı, müsbət sosial və ətraf mühitə təsirlər yaradan investisiyalara üstünlük verilməlidir. Bu strateji tədbirlər xüsusilə inkişaf etməkdə

olan ölkələrdə XBİ-nin cəlb edilməsi ilə bağlı çoxşaxəli problemləri həll etmək və davamlı iqtisadi artım üçün birbaşa xarici investisiyaların potensial faydalarından istifadə etmək üçün nəzərdə tutulub. Bu tədbirləri həyata keçirməklə ölkələr daha möhkəm, əhatəli və ekoloji cəhətdən davamlı gələcəyə yol açа bilər. [7. 57-66]

Təmiz enerji investisiyalarını dəstəkləyən balanslaşdırılmış siyasətlər, strateji investisiyaların planlaşdırılması və kapital xərclərinin həlli kimi XBİ-ni təşviq etmək üçün məqsədyönlü strategiyaların həyata keçirilməsi əhəmiyyətli dərəcədə fərqlənir. Bundan əlavə, dövlət-özəl tərəfdaşlıqların təşviqi və investisiya səylərinin Dayanıqlı İnkişaf Məqsədlərinə (SDGs) uyğunlaşdırılması davamlı iqtisadi artım üçün XBİ-nin potensial faydalarından istifadə etmək üçün mühüm addımlardır. Ümumilikdə, tədqiqat XBİ üçün əlverişli mühitin yaradılmasında fəal siyasətin və beynəlxalq əməkdaşlığın əhəmiyyətini vurğulayır və bununla da bütün dünyada inklüziv və davamlı inkişafa təkan verir.

Əldə edilən məlumatlar, xüsusən də bərpa olunan enerji və davamlılıq layihələrində XBİ axınının artırılmasında strateji yanaşmaların və siyasət innovasiyalarının əhəmiyyətini vurğulayır. XBİ tendensiyalarının mürəkkəbliklərini və onların nəticələrini araşdıraraq, biz investisiya cəlbediciliyinə təsir edən kritik amillərə və ölkələrin iqtisadi inkişafı və işçi qüvvəsinin artımını gücləndirmək üçün tətbiq edə biləcəyi strateji tədbirlərə işıq salmışıq. İrəlilədikcə, həm inkişaf etməkdə olan, həm də inkişaf etmiş dövlətlərin dəyişən iqtisadi mənzərəni səmərəli şəkildə idarə etmək üçün balanslaşdırılmış siyasət çərçivələri, strateji diversifikasiya və təkmil dövlət-özəl tərəfdaşlıq çağırışlarına qulaq asmaları mütləqdir. Davamlı inkişafı təmin etmək, fərqlərin azaldılması və qlobal iqtisadi sabitliyin təşviq edilməsində XBİ-nin potensialını qiymətləndirmək olmaz. Buna görə də, investisiya boşluqlarını aradan qaldırmaq, davamlı investisiyaları təşviq etmək və siyasətləri sadələşdirmək üçün birgə səylər birbaşa xarici investisiyalardan təkcə maliyyə mexanizmi kimi deyil, həm də bütün dünyada davamlı və inklüziv inkişafın təməl daşı kimi istifadə edilməsində mühüm rol oynayacaqdır.

Bərpa olunan enerjiyə investisiyalar iqlim dəyişikliyinin həllində, enerji təhlükəsizliyinin təşviqində və dayanıqlı iqtisadi artımın təşviqində mühüm rol oynayır. Bununla belə, inkişaf etməkdə olan ölkələr bərpa olunan enerji hədəflərinə çatmaq üçün adekvat XBİ cəlb etməkdə tez-tez çətinliklərlə üzləşirlər. Bu, maliyyələşdirməyə məhdud çıxış, tənzimləmə maneələri və siyasi qeyri-müəyyənliklər də daxil olmaqla müxtəlif amillərlə bağlı ola bilər. İnvestisiya qərarlarının uzunmüddətli ekoloji və sosial təsirlərini nəzərə alan daha əhatəli yanaşmanın tərəfdarı olmaqla, XBİ-nin cəlb edilməsi üzrə ənənəvi perspektivlərə meydan oxuyur.

Bundan əlavə, bərpa olunan enerji investisiyalarına yönəldilməsi XBİ ilə bağlı diskursa unikal perspektiv əlavə edir. O, söhbəti ənənəvi sektorlardan kənara çıxarır və daha geniş inkişaf məqsədlərinə nail olmaqda davamlı enerjinin oynadığı mühüm rolu vurğulayır. O, bərpa olunan enerji layihələrinə investisiyaların səfərbər edilməsi və geosiyasi gərginliyin XBİ axınlarına təsirini tədqiq etməklə, tədqiqat siyasi dinamikanın iqtisadi mülahizələrlə necə kəsişdiyinə dair nüanslı anlayışı təmin edir. Bu, təhlilə yeni ölçü əlavə edir, çünki o, sırf iqtisadi amillərdən kənarda XBİ tendensiyalarının mürəkkəbliyini vurğulayır. O, investisiya imkanlarının qiymətləndirilməsində geosiyasi riskləri və qeyri-müəyyənlikləri nəzərə almaq zərurətini, geosiyasət və investisiya modellərinin qarşılıqlı əlaqəsini vurğulayır. Geosiyasi gərginlik investisiya modellərini daha da pozub, investisiya münasibətlərində qeyri-sabitliyə və strateji diversifikasiya üçün məhdud imkanlara gətirib çıxarıb. Bu, XBİ-nin qoşulmuş ölkələrin blokları daxilində daha çox cəmləşməsi ilə nəticələndi. [8. 96-100]

Tədqiqat çoxtərəfli inkişaf banklarının daha böyük həcmdə özəl maliyyə cəlb etmək üçün risk götürməyə yanaşma tərzinin dəyişdirilməsini təklif edir. Fondlardan daha səmərəli istifadə etmək üçün MDB-lər daxilində islahatların aparılmasını müdafiə etməklə, tədqiqat davamlı inkişaf layihələri üçün özəl maliyyənin səfərbər edilməsinə yeni perspektiv təqdim edir. Bu təklif MDB-lərin resursların infrastrukturun inkişafı, yoxsulluğun azaldılması və digər əsas inkişaf məqsədlərinə yönəldilməsində oynadığı mühüm rolu qəbul edir. MDB-lərin risk götürməyə yanaşmasını dəyiş-

dirmək təklifi inkişaf etməkdə olan ölkələrə özəl investisiyaların cəlb edilməsi ilə bağlı problemlərin başa düşülməsini əks etdirir. Risk qavrayışlarını həll etməklə və özəl sektorun iştirakı üçün daha əlverişli şərait yaratmaqla MDB-lər bərpa olunan enerji, infrastruktur və sosial inkişaf kimi sahələrə investisiya üçün yeni imkanlar açа bilər.

Bundan əlavə, tədqiqatın bərpa olunan enerji sərmayəsi, geosiyasi gərginliklər, siyasət nəticələri, Dayanıqlı İnkişaf Məqsədlərinin (SDG) uyğunlaşdırılması və MDB transformasiyasına yönəldilməsi Birbaşa Xarici İnvestisiyalar (BXİ) və onun davamlı iqtisadi inkişafın təşviqində rolu haqqında diskursa yenilik əlavə edir. XBİ-nin bu müxtəlif ölçülərini tədqiq etməklə, tədqiqat investisiya modellərinə və nəticələrinə təsir edən kompleks amillərin hərtərəfli başa düşülməsini təmin edir. Ümumilikdə, tədqiqatın innovativ tövsiyələri və çoxölçülü təhlili XBİ üzrə dialoqun inkişaf etdirilməsinə və onun bütün dünyada inklüziv və davamlı inkişafı təmin etmək potensialına töhfə verir. Tədqiqat əsas problemləri həll etməklə və praktik həllər təklif etməklə, BXİ-nin iqtisadi artıma və rifaha müsbət təsirini maksimum dərəcədə artırmaq istəyən siyasətçilər, investorlar və maraqlı tərəflər üçün dəyərli fikirlər təklif edir.

Təyin edilmiş problemləri həll etmək və sürətli iqtisadi artımı reallaşdırmaq, XBİ-nin potensial faydalarını artırmaq üçün strateji həllər təklif etməyə gərək duyulur. Bura siyasət islahatları, potensialın artırılması təşəbbüsləri və investisiya mühitinin yaxşılaşdırılması səyləri daxil ola bilər. Qeyd etmək istərdim ki, tapıntıların etibarlılığını və bütövlüyünü təmin etmək üçün ciddi keyfiyyət təminatı tədbirləri tətbiq olunur. Buraya bir çox mənbələrdən məlumatların çarpaz istinad edilməsi, həssaslıq təhlillərinin aparılması və metodologiyanın və nəticələrin möhkəmliyini təsdiq etmək üçün həmyaşıdların nəzərdən keçirilməsi proseslərində iştirak daxildir.[9. 20-55]

Nəticə

Nəticə olaraq, Birbaşa Xarici İnvestisiyaların (BXİ) qlobal iqtisadiyyatda rolu ekoloji dayanıqlılıq və geosiyasi amillərlə sıx bağlıdır. İnvestorlar iqlim dəyişikliyi ilə mübarizə və davamlı inkişaf məqsədlərinə çatmaq üçün strateji yanaşmalar qəbul etməlidirlər. Tənzimləyici çərçivələrin gücləndirilməsi, keyfiyyətli infrastrukturun inkişafı və işçi qüvvəsinin təhsili investisiya mühitini daha cəlbedici edir. Eyni zamanda, inkişaf etməkdə olan ölkələr, Dayanıqlı İnkişaf Məqsədlərinə (SDGs) nail olmaq üçün investisiya boşluqlarını aradan qaldırmalı və geosiyasi gərginlikləri nəzərə alaraq effektiv siyasətlər tətbiq etməlidirlər. Bu yanaşmalar, bərpa olunan enerji layihələrinin artırılması və strateji diversifikasiya imkanlarının yaradılması ilə iqtisadi artımı dəstəkləyəcək. Beləliklə, BXİ-nin davamlı və inklüziv inkişaf üçün potensialını maksimum dərəcədə artırmaq ölkələrin uzunmüddətli rifahını təmin edəcək.

ƏDƏBİYYAT

1. Əliyev M. (2019). Birbaşa Xarici İnvestisiyalar: Teoriya və Praktika. Bakı: Elm və Təhsil, 45-78.
2. Rüstəmov R. (2018). Geosiyasi Amillər və İqtisadi İnvestisiyalar. Bakı: İqtisadiyyat Nəşriyyatı, 67-90.
3. Məsimova L. (2021). Davamlı İnkişaf: Konseptual Yaklaşımlar. Bakı: Nurlan, 12-35.
4. Həsənov E. (2017). İnvestisiya Strategiyaları və İqtisadi İnkişaf. Bakı: Qlobal İqtisadiyyat, 100-115.
5. Quliyev F. (2022). Qlobal İqtisadiyyat və İnvesterlər. Gəncə: Ağıllı Nəşriyyat, 88-101.
6. Məmmədov M. (2020). Strateji Diversifikasiya və İnvestisiya Mühiti. Bakı: Elmi Tədqiqat, 50-67.
7. Global Renewable Energy Investment Report. (2023), 57-66.
8. United Nations Conference on Trade and Development (UNCTAD). (2023). World Investment Report 2023, 96-100.
9. Organisation for Economic Co-operation and Development (OECD). (2022). FDI in Figures: November 2022, 20-55.

Парвин Эльман кызы Мухтарова
Асс. профессор, кандидат наук,
Азербайджанский Государственный
Аграрный Университет
parvinmuhtarova@gmail.com

Сакина Этибар кызы Магеррамова
Ассистент, Азербайджанский Государственный
Аграрный Университет
sekine_1989@mail.ru

Фируза Афтандил кызы Мамедова
Ассистент, Азербайджанский Государственный
Аграрный Университет
firuzamammadova91@gmail.com

Динамика прямых иностранных инвестиций: новые подходы в развитии инвестиционных стратегий

Резюме

Цель исследования: Целью данного исследования является изучение динамики глобальных прямых иностранных инвестиций (ПИИ) и роли инвестиций в возобновляемую энергетику, а также понимание того, как инвестиционные потоки влияют на геополитические, экономические и экологические факторы.

Методология исследования: Исследование проводится с использованием многофакторного подхода, начиная с систематического обзора литературы и сбора данных о прямых иностранных инвестициях (ПИИ), возобновляемой энергии и геополитических факторах.

Прикладное значение исследования: В исследовании представлены стратегические подходы, направленные на продвижение прямых иностранных инвестиций (ПИИ), предлагаются рекомендации по улучшению инвестиционной среды и помощи в понимании влияния геополитических факторов.

Результаты исследования: Исследование подчеркивает важность экологической устойчивости и стратегической диверсификации для развития прямых иностранных инвестиций (ПИИ). Также акцентируется необходимость устранения геополитических рисков и регуляторных барьеров для повышения инвестиций в возобновляемую энергетику.

Оригинальность исследования: Исследование инновационно исследует взаимосвязь между инвестициями в возобновляемую энергетику и геополитической напряженностью, представляя уникальную перспективу на развитие ПИИ, акцентируя внимание на стратегических подходах, соответствующих целям устойчивого развития.

Научная новизна исследования: Исследование добавляет новое измерение к традиционным подходам в области ПИИ, рассматривая экономические последствия инвестиций в возобновляемую энергетику и геополитическую напряженность. Кроме того, оно глубоко анализирует совместные эффекты стратегий устойчивого развития и финансирования, предлагая инновационные рекомендации для улучшения инвестиционной среды.

Ключевые слова: ПИИ, возобновляемая энергия, инвестиционные стратегии, экономическое развитие, устойчивость, финансирование, современная экономика, инвесторы, распределение ресурсов.

Parvin Elman Mukhtarova
Ass.Prof.Phd., Azerbaijan State Agricultural University
parvinmuhtarova@gmail.com

Sakina Etibar Maharramova
Assistant, Azerbaijan State Agricultural University
sekine_1989@mail.ru

Firuza Aftandil Mammadova
Assistant, Azerbaijan State Agricultural University
firuzamammadova91@gmail.com

Dynamics of foreign direct investment: new approaches in investment strategies development

Summary

Purpose of the Research: The aim of the research is to investigate the dynamics of global foreign direct investments (FDI) and the role of renewable energy investments, understanding how investment flows are influenced by geopolitical, economic, and ecological factors.

Research Methodology: The research is conducted through a multifaceted approach, starting with a systematic literature review and collecting data on foreign direct investments (FDI), renewable energy, and geopolitical factors.

Applicative Significance of the Research: The research presents strategic approaches aimed at promoting foreign direct investments (FDI), offering recommendations for improving the investment environment, and helping to understand the impact of geopolitical factors.

Research Findings: The study emphasizes the importance of ecological sustainability and strategic diversification for the development of foreign direct investments (FDI). It also highlights the need to eliminate geopolitical risks and regulatory barriers to enhance renewable energy investments.

Originality of the Research: The research innovatively explores the relationship between renewable energy investments and geopolitical tensions, presenting a unique perspective on the development of FDI while emphasizing strategic approaches aligned with sustainable development goals.

Scientific Novelty of the Research: The study adds a new dimension to traditional approaches in the field of FDI by examining the economic impacts of renewable energy investments and geopolitical tensions. Additionally, it deeply analyzes the joint effects of sustainable development and financing strategies, proposing innovative recommendations for enhancing the investment environment.

Keywords: FDI, renewable energy, investment strategies, economic development, sustainability, financing, modern economy, investors, resource allocation.

II BÖLMƏ.
AQRAR SAHƏYƏ DÖVLƏT DƏSTƏYİ VƏ SAHİBKARLIĞIN İNKİŞAFI İSTİQAMƏTLƏRİ

UOT 332

Azər Ağazeynal oğlu QURBANZADƏ
Azərbaycan Kooperasiya Universitetinin
“Beynəlxalq ticarət və logistika” kafedrasının dosenti,
iqtisad elmləri üzrə fəlsəfə doktoru
https://doi.org/10.30546/4.71.73001.2024.004.020

KƏND TƏSƏRRÜFATINA DÖVLƏT DƏSTƏYİNİN TƏKMİLLƏŞDİRİLMƏSİNİN ƏHALİNİN ƏRZAQ TƏMİNATININ YAXŞILAŞDIRILMASINDA ROLU

Xülasə

Tədqiqatın məqsədi. Qlobal çağırışlar nəzərə alınmaqla kənd təsərrüfatına dövlət dəstəyinin müasir reallıqları əsas götürülməklə dövlət dəstəyinin təkmilləşdirilməsi ilə proseslərin ölkənin ərzaq təminatının yaxşılaşdırılmasına təsirinin müəyyənləşdirilməsindən ibarətdir.

Tədqiqatın metodologiyası. Kənd təsərrüfatına dövlət yardımı sisteminin ənənəvi formalarının xüsusiyyətlərinin tədqiq edilməsində və alternativ dövlət yardımı proseslərinin reallaşdırılması ilə bağlı müqayisəli, kompleks və sistemli yanaşma proseslərindən istifadə edilmişdir.

Tədqiqatın tətbiqi əhəmiyyəti. Kənd təsərrüfatına dövlət yardımının alternativ mənbələri və meyarlarının formalaşdırılması və prosesin əhalinin ərzaq təminatının yaxşılaşdırılmasına təsiri ilə bağlı tövsiyə xarakterli müddəaların işlənməsindən ibarətdir.

Tədqiqatın nəticələri. Kənd təsərrüfatına dövlət yardımının təkmilləşdirilməsi ilə bağlı meyarlarda əmtəəlik, məhsul və məhsuldarlıq amilinin çıxış etməsi qənaətinə gəlinir.

Tədqiqatın orijinallığı və elmi yeniliyi. Kənd təsərrüfatına dövlət dəstəyinin, ölkənin ərzaq təminatının yaxşılaşdırılmasında rolu, kənd təsərrüfatına dövlət yardımının ənənəvi meyarlarının spesifik xüsusiyyətləri, qlobal çağırışlar nəzərə alınmaqla ölkənin ərzaq təminatının yaxşılaşdırılmasının strateji əhəmiyyəti, kənd təsərrüfatına dövlət yardımının təkmilləşdirilməsi ilə yeni yanaşma proseslərinin ölkənin ərzaq təminatına təsiri ilə bağlı məsələlər öz əksini tapmışdır.

Açar sözlər: kənd təsərrüfatı, dövlət tənzimlənməsi, kənd təsərrüfatına dövlət yardımı, əmtəəlik, məhsul, məhsuldarlıq, əhalinin ərzaq təminatı.

Giriş

Cəmiyyətdə məhsuldar qüvvələrin və istehsal münasibətlərinin inkişafında baş verən hər hansı dəyişiklik bəşər cəmiyyətinin üzləşdiyi qlobal problemləri arxa plana salmır. Məlum olduğu kimi qlobal problemlər bütün dövrlərdə öz aktuallığını saxlayır və cəmiyyət üzvlərinin mövcudluğu üçün bu və ya digər şəkildə təhdid mənbəyi kimi çıxış edir. Doğrudur, cəmiyyətdə məhsuldar qüvvələr və istehsal münasibətləri inkişaf etdikcə, texnologiyaların inkişafında zəruri dəyişikliklər baş verdikcə qlobal problemlərin sayı və əhatə dairəsi də artır. Lakin bütün bunlara baxmayaraq elə qlobal problemlər vardır ki, həmin qlobal problemlər bəşər cəmiyyətinin mövcud olduğu bütün dövrlərdən hal-hazıradək öz aktuallığını qoruyub saxlamaqdadır. Bu problemə ilk növbədə ərzaq problemi, başqa sözlə, əhalinin ərzaq təminatını şamil etmək olar. Əhalinin ərzaq təminatı ilə bağlı məsələlər hətta ibtidai cəmiyyətdə belə mövcud olmuş, qarşıdurmalara qədər yüksəlmişdir.

Danılmaz həqiqətdir ki, XIX əsrin sonlarından etibarən, bütövlükdə XX əsrdə və eləcə də XXI əsrin əvvəllərində ərzaq təminatının yaxşılaşdırılması, kənd təsərrüfatında mütərəqqi dəyişikliklərin tətbiqi ilə bağlı proseslər gerçəkləşdirilsə də, lakin bütün bunlar bütövlükdə bəşər cəmiyyətində

aclığa qalib gəlmək şanslarını hələ də tam mənası ilə doğrultmamışdır. Ərzaq probleminin həlli, ərzaq təminatının yaxşılaşdırılması sahəsində beynəlxalq təşkilatlar, dövlətlər, siyasətçilər, iqtisadçılar çərçivəsində çoxsaylı araşdırmalar aparılsa da, lakin reallıq bundan ibarətdir ki, dünyanın bir sıra ölkələrində aclıq problemi öz aktuallığını qoruyub saxlayır. Vəziyyəti mürəkkəbləşdirən məqamlardan biri də ondan ibarətdir ki, ərzaq problemi daha çox qlobal iqlim dəyişiklikləri fonunda özünü təzahür etdirdiyindən dünyada baş verən qlobal istiləşmə və digər bu kimi zərərli təmayüllər ərzaq təminatının pisləşməsinə gətirib çıxarır, insanların xeyli hissəsi aclıqdan və aclığın doğurduğu digər dolayı təzahürlərdən dünyasını dəyişir.

Məlum olduğu kimi, ərzaq təminatının yaxşılaşdırılmasında kənd təsərrüfatı əhəmiyyətli rol oynayan sahələrdən biri hesab edilir. Kənd təsərrüfatının inkişaf etdirilməsi, sahənin modernləşdirilməsi ekstensiv inkişafdan intensiv inkişafa transferi özündə birləşdirir. Ərzaq təminatının yaxşılaşdırılması istiqamətində mühüm addımlar bütün hallarda kənd təsərrüfatına dövlət dəstəyinin gücləndirilməsindən asılı olur. Məlum olduğu kimi, kənd təsərrüfatı yalnız sahənin imkanları hesabına inkişaf edə bilmir və bu sahənin riskli olmasından, təbii iqlim şəraitinə bağlı olmasından və digər bu kimi amillərdən qaynaqlanır. Odur ki, kənd təsərrüfatına dövlət yardımlarının göstərilməsi, dövlət dəstəyinin təkmilləşdirilməsi istiqamətində zəruri tədbirlərin həyata keçirilməsi İEOÖ-lər üçün xüsusi ilə aktuallıq kəsb edir. Nəzərə almaq lazımdır ki, dünyanın İEÖ-lərində artıq kənd təsərrüfatı modern sənaye əsasına keçmişdir. Ekstensiv inkişaf demək olar ki, tam mənası ilə öz mahiyyətini itirmiş, hətta dünyanın əksər İEÖ-də orqanik ekoloji təmiz məhsulların istehlakına daha çox üstünlük verilir. Bütün bunlar kənd təsərrüfatının dövlət yardımının yeni növmüxtəlifliklərinin yaranmasına da gətirib çıxarır. Bu baxımdan məqalədə kənd təsərrüfatına dövlət yardımının təkmilləşdirilməsinin ərzaq təminatının yaxşılaşdırılmasına təsiri ilə bağlı məsələlər öz əksini tapmışdır.

Ərzaq təminatında mövcud problemlər və onun yaranmasını şərtləndirən amillər. Dünya təcrübəsi göstərir ki, ərzaq təminatı ərzaq probleminin həllinə yönəldilmiş bütün tədbirlərin məcmusunu özündə əks etdirir. Ərzaq təminatı müasir şəraitdə çoxsaylı amillərin təsirinə məruz qalır. Bu amillər həm logistik problemlərlə, həm əhalinin istehlakında baş verən dəyişikliklərlə, əhalinin həyat səviyyəsindəki mövcud və dəyişən reallıqlarla, eləcə də kənd təsərrüfatının inkişafı ilə, daha doğrusu, ərzaq bazarında tələb və təklif arasında tarazlığın davamlı pozulması ilə sıx bağlı olur. Bir sıra iqtisadçılar və siyasətçilər hesab edirlər ki, ərzaq təminatında yaranan problemlər daha çox iqlim dəyişiklikləri ilə sıx bağlıdır və bu problemi aradan qaldırmaq o qədər də mümkün deyildir. Lakin bununla belə etiraf etmək lazımdır ki, ərzaq təchizatındakı böhran əlamətlərinin mövcudluğu hazırda sənayenin kənd təsərrüfatı üzərində hegemonluğundan deyil, eləcə də dünya iqtisadiyyatında da beynəlxalq münasibətlərin ümumi vəziyyətindən asılıdır. Bununla bağlı əks əlaqə də mövcuddur. Belə ki, dünyada gedən bir çox proseslər uzun illərdir ki, davam edir və dünya ərzaq bazarının fəaliyyətinin səmərəliliyindən asılı olmaqda davam edir. Eyni zamanda dünyada iqtisadi əlaqələrin transformasiyası qlobal və milli səviyyədə ərzaq probleminin həllinə müxtəlif formada təsir göstərmək iqtidarındadır [1].

Əhalinin qida məhsullarına olan tələbatının ödənilməsi səviyyəsini xarakterizə edən arqument olmaqla cəmiyyət üzvlərinin yaşayış imkanlarının nə dərəcədə reallaşdırılması ilə əlaqələndirilir. Bu, əslində, fasiləsiz, davamlı xarakter daşıyır. Odur ki, qida məhsullarının istehsalı dayanıqlı olaraq həyata keçirilməlidir. Məhz bu baxımdan ərzaq təminatının dayanıqlı inkişafı qlobal miqyas almaqla, cəmiyyətin ümumi inkişafında öz aktuallığını saxlamaqdadır [2, s.9]. Mövcud reallıq ondan ibarətdir ki, ərzaq təminatı dayanıqlı şəkildə qurulmadığından, daha doğrusu, ərzaq təminatında davamlı fasilələr baş verdiyindən və prosesə qlobal iqlim dəyişikliklərinin təsirini də nəzərə aldıqda artıq ərzaq təminatından bəhs etmək yersiz görünür və bütün bunlar artıq cəmiyyətdə ərzaq qıtlığının sosial fəlakət həddinə çatmasına səbəb olur. Hazırda klassik qıtlıq sosial fəlakət kimi uzunmüddətli ərzaq qıtlığının yaranmasına səbəb olur və bu da böyük bir regionun əhalisinin kütləvi məhvinə səbəb olur. Qıtlıqla müşayiət olunan və insanların həyatının adi vaxtlarında olmayan ümumi iqtisadi və sosial əlamətlər, xüsusilə qiymət artımı, ərzaq çatışmazlığı fonunda cəmiyyətdə baş verən ixtişaşlar, mülkiyyət cinayətlərinin artması, əhalinin sayının artması, əhalinin miqrasiya-

sının genişlənməsi və davamlı xarakter daşıması ilə səciyyələnir [3, s.6-7]. Məhz bu baxımdan yanaşdıqda hesab etmək olar ki, ərzaq təminatı ilə bağlı problemlərin kəskinlik dərəcəsi ölkələrin inkişaf səviyyəsindən də bilavasitə asılıdır. Ölkələrin iqtisadi inkişaf səviyyəsindəki fərqlər, daha doğrusu, İEÖ-lərlə, İEOÖ-lər arasındakı sərhədlərin daha da böyüməsi ərzaq təminatına da əhəmiyyətli dərəcədə təsir göstərir. Bu baxımdan artıq İEOÖ-də nəinki ərzaq təhlükəsizliyindən bəhs etmək, heç ərzaq təminatının özündən də bəhs etmək mümkün olmur. Bu baxımdan R.R. Qumerov hesab edir ki, ərzaq təhlükəsizliyinin ümumi əlamətləri şəxsiyyətin, cəmiyyətin və dövlətin həyati mənafelərinin daxili və xarici təhlükələrdən qorunması vəziyyəti və öz keyfiyyət xüsusiyyətlərini itirmədən onlara müqavimət göstərmək qabiliyyətidir [4, s.133-141]. İqtisadi inkişaf səviyyəsindəki fərqlər, təbii ki, cəmiyyət üzvlərinin həyat səviyyəsinə də bilavasitə təsir göstərir və eyni zamanda bu təzahürlər ərzaq təminatında daha çox kəskinliyi ilə özünü büruzə verir. Belə ki, inkişaf səviyyəsi aşağı olan ölkələrdə, təbii ki, ərzaq bazarından əhalinin istifadə imkanları çətinləşir. Ərzağın mövcudluğunda problem yaranır. Eyni zamanda ərzağın keyfiyyəti aşağı səviyyədə olur. Bundan əlavə, bu və ya digər qlobal iqlim dəyişiklikləri fonunda yaranan problemləri ölkələr öz üzərindən ata bilmirlər. Bu baxımdan dünyanın 10 İEÖ-si ilə 10 aşağı inkişaf səviyyəsinə malik ölkələri arasında qlobal ərzaq təhlükəsizliyi indeksi aşağıdakı cədvəldə öz əksini tapmışdır.


Aparılmış təhlillər göstərir ki, dünyanın təxminən 9 ölkəsində, o cümlədən, İrlandiyada, Avstriyada, Böyük Britaniyada, Finlandiyada, İsveçrədə, Niderlandda, Kanadada, Yaponiyada, Fransada və ABŞ-da qlobal ərzaq təhlükəsizliyi indeksi yüksəkdir. Bu eyni zamanda ərzaq bazarından istifadə imkanlarının yüksək olması, ərzaq məhsullarının mövcudluğu və ərzaq məhsullarının keyfiyyəti ilə də sıx bağlıdır. Lakin bununla belə qlobal ərzaq təhlükəsizliyi indeksində, demək olar ki, axrıncı yerləri bölüşdürən ölkələrdə qlobal ərzaq təhlükəsizliyi indeksi nəzərəçarpacaq dərəcədə aşağıdır. Bu proses eyni zamanda ərzaq məhsullarına əhalinin əlyetərliliyi, ərzaq məhsullarının mövcudluğu, məhsulun keyfiyyəti və digər amillərin səviyyəsində də öz əksini tapır.

Əhalinin ərzaq təminatına müasir dövrdə qloballaşma proseslərinin təsiri əhəmiyyətli dərəcədə yüksəkdir. Bu xüsusilə qlobal böhranlar və qlobal epidemiyalar fonunda özünü büruzə verir. Lakin bununla belə əhalinin ərzaq təminatına mənfi təsir göstərən klassik amillər də öz rolunu saxlayır və qloballaşma prosesinin təsiri daha da bu problemi kəskinləşdirir. Belə ki, hazırda əvvəlki aqrar-ərzaq böhranının əsas xüsusiyyətlərinə ərzaq məhsullarının qiymətlərinin kəskin dəyişməsini, əhalinin aztəminatlı qruplarının ərzağa çıxış imkanlarının pisləşməsini, eləcə də insanların sayının artmasını, habelə kiçik və orta istehsalçıların daha çox müflisləşməsini şamil etmək olar [5, s.143]. Onu da qeyd etmək lazımdır ki, son illər, xüsusilə, COVID-19 pandemiyasının baş verməsi İEOÖ-nün ərzaq təminatında özünəməxsus zərərli təmayüllər də formalaşdırmışdır. Belə ki, COVID-19 pandemiyasının ilkin mərhələlərində aqrar-ərzaq sektorunda çalışanların 35%-i, o cümlədən qida məhsulları istehsalında 21%, emal, xidmət və paylama sektorunda çalışan insanların 60%-i, nəqliyyat sektorunda çalışanların 40%-i, eləcə də aqrar sahənin elmi tədqiqatı ilə bağlı çalışanların 15%-i bilavasitə risklərə məruz qalmışdır [6]. Beləliklə, yuxarıda qeyd edilənlərdən belə qənaətə gəlmək olar ki, qloballaşma şəraitində ərzaq təminatına kifayət qədər çoxsaylı amillər təsir göstərir. Bu amillər içərisində, xüsusilə, qlobal proseslər, o cümlədən qlobal epidemiyalar və qlobal iqlim dəyişiklikləri də əhəmiyyətli dərəcədə təsir imkanına malikdir. Lakin bütün bunlara baxmayaraq, hesab etmək olar ki, qloballaşma şəraitində əhalinin ərzaq təminatının yaxşılaşdırılmasında ən mühüm amillərdən biri kənd təsərrüfatının inkişafı və eləcə də kənd təsərrüfatına dövlət dəstəyinin gücləndirilməsi hesab oluna bilər.

Kənd təsərrüfatına dövlət dəstəyinin təkmilləşdirilməsinin zəruriliyini əsaslandıran amillər və onun əhalinin ərzaq təminatının yaxşılaşdırılmasında rolunun əsaslandırılması. Kənd təsərrüfatına dövlət dəstəyi dedikdə, kənd təsərrüfatı əmtəə istehsalçılarına bilavasitə və dolayı yolla hökumət və dövlət orqanları, eləcə də yerli özünüidarəetmə orqanları tərəfindən verilən maliyyə və digər dövlət dəstəyi formalarının məcmusu başa düşülür.

Nəzəri tədqiqatlar göstərir ki, bir sıra hallarda kənd təsərrüfatına dövlət dəstəyi anlayışı kənd təsərrüfatının dövlət tənzimlənməsi sistemi ilə, demək olar ki, eyniləşdirilir. Lakin reallıq ondan

ibarətdir ki, dövlət tənzimlənməsi sistemi daha geniş anlayışdır və kənd təsərrüfatı istehsalını, eləcə də bütövlükdə cəmiyyətin inkişafının müxtəlif təsir vasitələrini özündə ehtiva edir. Dövlət tənzimlənməsi dövlət dəstəyi ilə yanaşı, həm də inzibati təsir, hüquqi təsir və digər məhdudlaşdırıcı tədbirlər sisteminin müxtəlif elementlərini özündə əks etdirir [7, s.65-70]. Müəllifin fikirləri ilə razılaşmaqla yanaşı, etiraf etmək lazımdır ki, doğrudan da kənd təsərrüfatına dövlət dəstəyi dövlət tənzimlənməsinin mühüm tərkib hissəsidir. Dövlət tənzimlənməsi daha geniş anlayışdır. Dövlət tənzimlənməsi sistemində lisenziyalaşdırma da, kvotalaşdırma da və digər amillər də əhəmiyyətli rol oynayır. Hesab etmək olar ki, aqrar sahənin mühüm tərkib hissəsini təşkil edən kənd təsərrüfatına dövlət dəstəyinin zəruriliyi ilk növbədə onunla bağlıdır ki, bazar şəraitində sahələrarası azad rəqabət mühitində adıçəkilən sahə müvəffəqiyyətlə iştirak etmək imkanına malik deyildir. Kənd təsərrüfatı əmtəə istehsalçıları istehsalın mövsümiliyi ilə bağlı, eləcə də təbii iqlim şəraitindən asılılıq baxımından müxtəlif təhdidlərə məruz qalırlar. Bu prosesin özünəməxsus səbəbləri isə ilk növbədə kənd təsərrüfatının əmtəə mübadiləsi sistemində qeyri-ekvivalentliyi ilə bağlıdır. Daha doğrusu, iqtisadiyyatın digər sahələri ilə müqayisədə kənd təsərrüfatı qeyri-ekvivalent mübadilə şərtlərinə malikdir. Bundan əlavə, sahənin investisiya cəlbediciliyi və eləcə də ölkə əhalisinin bir sıra hallarda alıcılıq qabiliyyətinin aşağı olması və eləcə də kənd təsərrüfatının neqativ faktorlara daha çox məruz qalması, xüsusilə, ekstensiv faktorların təsir imkanlarının güclənməsi kənd təsərrüfatına dövlət dəstəyinin zəruriliyini şərtləndirir [8, s. 97]. Kənd təsərrüfatına dövlət dəstəyini səciyyələndirən müxtəlif amillər mövcuddur ki, bu ilk növbədə kənd təsərrüfatı sahələrinin dəstəklənməsi ilə bağlıdır. Məlum olduğu kimi, kənd təsərrüfatı əsas etibarı ilə bitkiçilik və heyvandarlıq sahələrinin, eləcə də digər sahələrin dəstəklənməsini özündə əks etdirir. Bundan əlavə, kənd təsərrüfatında infrastruktur sisteminin dəstəklənməsi də kənd təsərrüfatına dövlət dəstəyinin mühüm tərkib hissəsini özündə əks etdirir. Bu baxımdan kənd təsərrüfatına dövlət dəstəyinin əsas istiqamətləri aşağıdakı şəkildə öz əksini tapmışdır:



Şəkil 1. Kənd təsərrüfatına dövlət dəstəyinin əsas istiqamətləri

Mənbə: Şəkil müəllif tərəfindən hazırlanmışdır.

İEÖ-nün təcrübəsi göstərir ki, kənd təsərrüfatına dövlət yardımı kifayət qədər geniş növmüxtəlifliyinə malikdir. Belə ki, bu zaman ilk növbədə istehsalçıların maliyyə nəticələrinin yaxşılaşdırılması, onların xərclərinin azaldılması istiqamətində zəruri tədbirlərin gerçəkləşdirilməsinə xüsusi diqqət yetirilməlidir. Nəzərə almaq lazımdır ki, kənd təsərrüfatı əmtəə istehsalçılarının məhsul istehsalına çəkdikləri xərclərin aşağı salınması, həm də istehsalın rəqabət qabiliyyətinin yüksəldilməsinə xidmət edir. Bu baxımdan əməkdar elm xadimi, iqtisad elmləri doktoru, professor Bəyalı Ataşovun belə bir fikri ilə razılaşmaq mümkündür ki, kənd təsərrüfatına irimiqyaslı investisiya axınının reallaşdırılması üçün yerli fermerlərə əlavə dəyərin yaradılması, birbaşa iştirak etmək imkanı verən alternativ və daha mütərəqqi təsərrüfatçılıq modellərinin tətbiqinə şərait yaradılması dövlətin əsas funksiyalarından biridir. Bu məqsədlə kənd təsərrüfatı və sənaye məhsulları qiymətlərində sonuncunun xeyrinə olmayan prioritetin dövlət tərəfindən tənzimlənməsi, ipoteka kreditləri bazarlarının inkişafı tədbirləri daha fəal surətdə həyata keçirilməlidir[9, s.97-98]. Müəllif fikirləri ilə razılaşmaqla yanaşı eyni zamanda əlavə etmək istərdik ki, dövlət yardımının bir sıra hallarda səmərəsiz xarakter daşıması dövlət büdcəsinin əlavə yüklənməsinə gətirib çıxarmaqla yanaşı, eyni zamanda həmin vəsaitlərin daha çox ekstensiv amillərin bərqərar olmasına yönəldilməsi intensiv inkişafın meyarlarını pozur. Onu da nəzərə almaq lazımdır ki, kənd təsərrüfatına dövlət yardımının səviyyəsi, əslində, ölkələrin inkişaf səviyyəsindən, dövlət büdcəsinin həcmindən, eləcə də ümumi daxili məhsulun həcmindən daha çox asılıdır. Təbii ki, bu zaman analoji olaraq belə bir nəticəyə gəlmək mümkündür ki, İEÖ-də kənd təsərrüfatına dövlət yardımlarının səviyyəsi İEOÖlərlə müqayisədə daha yüksək olacaqdır.

Statistik təhlillərə əsasən 2000-2021-ci illərdə Çində və ABŞ-da kənd təsərrüfatına dövlət yardımının həcmində sürətli artım dinamikası müşahidə edilmişdir. Avropa Birliyinə daxil olan ölkələrdə isə kənd təsərrüfatına dövlət yardımları, demək olar ki, stabil xarakter daşımışdır. Bu təmayül daha çox İsveçrədə və Norveçdə özünü büruzə verməkdədir. İqtisadi əməkdaşlıq və inkişaf Təşkilatının qiymətləndirmələrinə görə 2020-2022-ci illərdə kənd təsərrüfatına dövlət yardımının ümumi həcmi rekord səviyyəyə - ildə 851 milyard dollar səviyyəsinə çatmışdır. Hansı ki, bu təşkilata dünyanın 54 ölkəsi daxildir. 851 milyard ABŞ dolları məbləğində kənd təsərrüfatına yönəldilən dövlət yardımının 518 milyard dolları birbaşa subsidiyalaşdırma tədbirlərinin maliyyələşdirilməsinə, 333 milyard dollar isə bazar qiymətlərinin dövlət tənzimlənməsinə yönəldilmişdir [10].

İnkişaf etmiş ölkələrdə aqrar sahəyə dövlət yardımları dövlət dəstəyinin mühüm tərkib hissəsini təşkil etməklə modern kənd təsərrüfatının yaradılmasına xidmət edir. İnkişaf etməkdə olan ölkələrdən fərqli olaraq inkişaf etmiş ölkələrdə modern kənd təsərrüfatı intensiv istehsalın yaradılmasında önəmli rol oynayır. Məhsuldar bitki sortları və heyvan cinslərinin əmtəə istehsalçılarına verilməsi səmərəli təsərrüfat fəaliyyətinin maliyyə nəticələrinin yaxşılaşdırılmasında mühüm mənbə rolunu oynayır. Fikrimizcə, bu təcrübədən ölkəmizdə də davamlı şəkildə istifadə olunması mühüm əhəmiyyət kəsb edərdi. Bu istiqamətdə silsilə Dövlət Proqramları və Yol Xəritələrinin qəbul edilməsi respublikamızda, demək olar ki, davamlı hal almaqdadır. Bu baxımdan qlobal çağırışlar nəzərə alınmaqla respublikamızda, kənd təsərrüfatının subsidiyalaşdırılmasına 2000-ci illərin əvvəllərində başlanılmışdır. Ümumiyyətlə, 2000-ci illərdən etibarən Azərbaycan Respublikasında regionların sosial-iqtisadi inkişafına yönəldilmiş dövlət proqramları çərçivəsində kənd təsərrüfatı rayonlarının da inkişaf etdirilməsinə istiqamətlənmiş tədbirlər genişlənməkdədir. Bundan əlavə, ölkə prezidentinin sərəncamı ilə kənd təsərrüfatının inkişafı ilə bağlı strateji yol xəritələri də qəbul olunmuşdur.

Məhz Strateji Yol Xəritəsində qarşıya qoyulan hədəflər doğrultusundan çıxış edərək belə qənaətə gəlmək olar ki, kənd təsərrüfatına dövlət yardımlarının təkmilləşdirilməsinə ehtiyac vardır. Bu təkmilləşdirmə prosesində başlıca meyar subsidiyaların torpaq sahəsinə və daha doğrusu, ərazi vahidinə görə deyil, məhsuldarlıq amilinə görə verilməsidir. Son illər kənd təsərrüfatı istehsalçılarına verilən subsidiyaların əhatə dairəsi genişləndirilmişdir. Azərbaycan Respublikası prezidentinin “Heyvandarlığın cins tərkibinin yaxşılaşdırılmasına dövlət dəstəyi haqqında” 19 avqust 2015-ci il tarixli 136 nömrəli Sərəncamına əsasən, suni mayalanma yolu ilə alınmış hər baş buzova görə

heyvan sahiblərinə 100 manat həcmində subsidiyaların verilməsinə başlanılmışdır [11]. Bununla bərabər təkrar əkinlərə görə də istehsalçılara subsidiya verilməsi barədə qərarlar qəbul olunmuşdur. Təkrar əkinlərin subsidiya vasitəsi ilə stimullaşdırılması heyvandarlıqda yem təminatının yaxşılaşdırılmasına müsbət təsir göstərmişdir [12, s.191]. Hesablamalar göstərir ki, Azərbaycan Respublikasında kənd təsərrüfatına dövlət dəstəyinin göstərilməsində mühüm əhəmiyyət kəsb edən subsidiyaların yarıdan çoxu əkin sahəsinə görə verilmişdir. Yüksək məhsuldar toxum sortlarının və yüksək məhsuldar heyvan cinslərinin yetişdirilməsinə yönəldilmiş subsidiyalar isə məcmu supsidiyaların strukturunda təxminən 5-6%-ə qədər xüsusi çəkiyə malikdir. Bütün bunlar isə onu göstərir ki, dövlət büdcəsindən verilən subsidiyaların strukturunun təkmilləşdirilməsinə ehtiyac duyulur. Təkmilləşdirmə mahiyyət etibari ilə istehsalın intensivləşdirilməsinə xidmət etməklə, daha yüksək məhsuldarlığa nail olunmasına imkan verə bilər ki, bu da əhalinin ərzaq təminatının yaxşılaşdırılmasında və eləcə də ölkəyə idxal edilən kənd təsərrüfatı və ərzaq məhsullarının həcminin məhdudlaşdırılmasında əhəmiyyətli rol oynaya bilər.

Nəticə

Tədqiqatın orijinallığı və elmi yeniliyi baxımından qeyd edə bilərik ki, qlobal transformasiyalar şəraitində enerji sektorunun liberallaşdırılması və onun bazar modelinin yaradılması üzrə konseptual yanaşmalar qaçılmazdır və bu istiqamətlərdə islahatların aparılmasının vacibliyi, yeni fəaliyyət mexanizmlərinin hazırlanması və tətbiq edilməsinin zəruriliyi əsaslandırılmışdır. Enerji sektorunun bazar iqtisadiyyatı prinsipləri əsasında inkişaf etdirilməsinin üstün cəhətləri verilmiş və daha səmərəli olması elmi arqumentlərlə nəzərə çatdırılmış, təkliflər və tövsiyələr hazırlanmışdır.

Açar sözlər: energetika, enerji sektoru, enerji sektorunun liberallaşdırılması, bazar modelinin yaradılması, bazar iqtisadiyyatı, enerji sektorunun bazar modeli, enerji sektorunun səmərəliliyi.

Giriş

Qlobal təzyiqlərin artdığı bir dövrdə iqtisadiyyatın müxtəlif sahələrinin mövcud mexanizmlərinin təkmilləşdirilməsi, qlobal təsirə adekvat olan fəaliyyət mexanizmlərinin və iqtisadi alətlərin hazırlanması, tətbiq edilməsi vacib şərtlərdəndir, həm də bir zərurət kimi diqqət çəkir. Xüsusilə, resursların bölüşdürülməsində olan çətinliklər, yeni resurs ehtiyatlarının kəşf edilməsi, mənimsənilməsi, təsdiqlənməsi, istismar proseslərinə əhəmiyyətli investisiyaların yatırılması kifayət qədər mürəkkəb məsələlərdəndir. Digər tərəfdən, dünyada baş verən proseslər, dünya regionları və dövlətləri arasındakı ziddiyyətlər, iqtisadi sanksiyalar enerji resurslarının sabit şəkildə dünya bazarlarına çıxarılmasını əngəlləyir və bu da enerji təchizatında ciddi problemlər üçün əsaslar yaradır.

Bunlarla bərabər, energetika hər bir ölkənin iqtisadiyyatının əsasını təşkil edən aparıcı sahələrdəndir. Buna görə də energetika sahəsinin infrastrukturu, istehsal imkanları, səmərəli şəkildə bölüşdürücü və paylayıcı şəbəkəsinin olması əsas məsələlər kimi xarakterizə olunur. Qeyd olunan

amillər baxımından dünya dövlətləri energetika sahəsinə daha çox diqqət yönəldirlər və bu sahəyə dövlət müdaxiləsi bazar iqtisadiyyatı şəraitində də qalmaqdadır. Dünyanın elə bir ölkəsi yoxdur ki, orada dövlət bu və ya digər dərəcədə energetika sektorunun işinə müdaxilə etməsin, amma bu müdaxilənin sərhədləri və ölçüsü xeyli fərqlənir. Elə ölkələr var ki, energetika sahəsini əhəmiyyətli səviyyədə liberallaşdırmağa nail ola bilmişlər və nəticədə enerji sektorunda sağlam rəqabət mühiti formalaşdıra bilmişlər. Bunun nəticəsində enerji istehsalında və onun bölüşdürülməsində daha səmərəli fəaliyyət göstərən müəssisələr və şirkətlər şəbəkəsinin yaradılması, enerji təchizatı tariflərinin əlçatanlığının təmin olunması, tariflərin (qiymətlərin) diferensiallaşması mümkün olmuşdur.

Qlobal şəraitdə enerji sektorunun liberallaşdırılması və bazar modelinin yaradılması proseslərinin tədqiqi

Qeyd edək ki, elektroenergetika sahəsinin inkişafının təmin olunması, bu sahəyə dövlət müdaxiləsinin azaldılması, özəl sektorun elektrik enerjisinin istehsalı və bölüşdürülməsi proseslərində müstəqil bazar iqtisadiyyatı subyektləri kimi fəaliyyət göstərməsi – enerji sektorunun liberallaşdırılmasının əsas şərtləri və meyarları kimi qiymətləndirilə bilər. Burada başlıca məqsəd enerji sektorunun bazar iqtisadiyyatı prinsipləri əsasında fəaliyyətinin tənzimlənməsi, enerji sahəsində itkilərin azaldılması, əhalinin və sənaye subyektlərinin elektrik enerjisinə olan tələbatının ödənilməsində alternativ xidmətlər paketinin formalaşdırılmasıdır. Buna nail olmaq üçün enerji sektorunda daha çox islahatların aparılması, dövlət statuslu iri energetika müəssisələrinin özəlləşdirilməsi tədbirlərinin görülməsi, alternativ enerji istehsalı mənbələrinin yaradılması tələb olunur. Eyni zamanda, enerji sektorunun fasiləsiz və səmərəli fəaliyyətinin təmin edilməsi tədbirləri sırasında dövlət tərəfindən verilən dotasiya və subsidiyaların yox, bazar iqtisadiyyatı şəraitində tətbiq olunan iqtisadi mexanizmlərin səmərəliliyinin artırılması yer almalıdır. Hər bir enerji sektoru subyekti bazar prinsipləri əsasında inkişaf etdikcə, enerji itkilərinin azaldılmasında, enerji istehlakçılarının daha çox cəlb edilməsində maraqlı olacaqlar və bunun üçün maksimum səmərəli iqtisadi mexanizmlərin işlənərək tətbiq edilməsinə səy göstərəcəklər. Bazar iqtisadiyyatı əsasında inkişaf edən enerji sektoru subyekti digər tərəfdən, istehlakçıların etimadını qazanmaq və uzunmüddətli əməkdaşlığın, əvvəldə qeyd etdiyimiz kimi cəlbediciliyi təmin etmək üçün daha əlverişli şərtlərlə tarif siyasəti formalaşdırmaqda, bununla yanaşı, enerji resurslarına olan qiymətlərin istehlakçıların maddi vəziyyətinə və gəlirlərinə adekvat olaraq müəyyənləşdirilməsində daha çox manevrlik qabiliyyətinə malik ola bilər.

Qeyd edək ki, enerji sektorunun inkişafında yeni tendensiyalar, məsələn, yaşıl enerji infrastrukturunun yaradılması proseslərinin sürətlənməsi baş verir. Bu sırada dövlətlər daha çox dəstək mexanizmləri tətbiq etməkdədirlər. Aparılan tədqiqatlardan belə bir nəticə diqqətimizi cəlb etmişdir ki: “Beynəlxalq təcrübədə enerji səmərəliliyinin təmin edilməsi məqsədilə hökumət tərəfindən bir sıra iqtisadi alətlərdən istifadə edilir. Bu alətlər sırasında fiskal (enerji vergiləri, vergi güzəştləri, əmlak vergisi, ƏDV və s.) alətlərdən istifadə təcrübəsi kifayət qədər geniş yayılmışdır” [1, s. 106]. Energetika sahəsində islahatlar nəticəsində bir çox problemlər üzə çıxa bilər. Buna yol verməmək üçün özəl sektor daha az kapitaltutumlu, tez bir zamanda səmərəli layihələr həyata keçirə bilər və nəticədə ölkənin enerji təhlükəsizliyi ziyan çəkməz. Amma, bunun üçün dövlət tədbirlər görməli, enerji sektorunun, bizim misalda isə energetika sahəsinin liberallaşdırılması proseslərində özəl investorları maksimum stimullaşdırmalıdır. Belə ki, özəl investorların qeyri-iqtisadi müəssisələrə və ya zərərin aradan qaldırılması üçün uzun müddət tələb edən sahələrə investisiya qoyma ehtimalı o qədər də yüksək qiymətləndirilmir. Üstəlik, sərmayələr islahatların baş tutmasını gözləyə bilməz, ancaq dövlət stimullaşdırıcı tədbirlər görərsə, bir qrup investorlar islahatlarda davamlı şəkildə, yəni sona qədər səmərəli iştirak edə bilər [12, s. 500].

Müasir dövrdə energetika sahəsində aparılan islahatlar və enerji sektorunun liberallaşdırılmasının digər mühüm məqsədlərindən biri isə enerji istehsalı və bölüşdürlməsi, son istehlakçılara çatdırılması sahəsində maksimum səmərəliliyin və müştəri məmnunluğunun təmin olunmasıdır [4]. Bunun üçün bir qrup konseptual yanaşmalar xüsusi diqqət mərkəzində saxlanılmalıdır: 1) Nəzərə almaq lazımdır ki, energetika sektoru dövlət və əhali üçün bir tərəfdən strateji, digər tərəfdən isə

istehlak əhəmiyyəti daşıyan həssas və mühüm bir sahədir. Burada fasilələr yolverilməzdir, xidmətin nöqsanlı olması ciddi sosial proteslə qarşılaşa bilər və buna görə də dövlətlər əhalinin, əvvəldə bildirdiyimiz kimi həm də sənaye subyektlərinin, əslində digər bütün enerji istehlakçılarının maraqlarını təmin etməyə borcludur və bunlar dövlətin enerji siyasətinin, enerji təhlükəsizliyinin, ümumilikdə isə istisadi təhlükəsizliyinin əsasında yer almışdır; 2) Elektrik enerjisinin istehsalı və səmərəli, əlçatan şəkildə istehlakçılara çatdırılması prosesləri şəffaf, dürüst, proqnozlaşdırılan olmalıdır, həm də bu sahədə alternativlik təmin olunmalıdır. Yəni hər bir istehlakçı enerji təchizatçısı seçimində sərbəst olmalı, alternativ seçim etmək imkanı qazanmalıdır. Bunun üçün dövlət enerji müəssisələri ilə yanaşı, bazar iqtisadiyyatı əsasında inkişaf etmiş özəl enerji müəssisələri şəbəkəsinin yaradılması bu sahənin liberallaşdırılmasının əsası kimi qiymətləndirilməlidir; 3) Ölkədə enerji sektorunun idarə edilməsi, enerji tariflərinin formalaşdırılması, qiymətlərin müəyyənləşdirilməsi, enerji bölüşdürücü operatorların – dispetçer qovşaqlarının yaradılması prosesləri dövlət-özəl sektor əməkdaşlığı çərçivəsində təmin olunmalı və bunun üçün müvafiq fəaliyyət mühiti, bazar iqtisadiyyatı şərtlərini özündə ehtiva edən iqtisadi fəaliyyət mühiti olmalıdır; 4) İstehlaçıların tələblərinin yüksək səviyyədə ödənilməsi və ölkədə maksimum müştəri məmnunluğunun təmin olunması məqsədilə enerji sektorunda sağlam rəqabət mühiti formalaşdırılmalı, inhisarçılığın mənfi təsirinin azaldılması istiqamətində əlavə tədbirlər görülməlidir; 5) Dövlət tərəfindən enerji sektorunun fəaliyyətinin sabitləşdirilməsi mexanizmləri və tətbiq olunan dövlət dəstəyi alətləri stimullaşdırıcı xarakter daşımalı və sahənin bazar iqtisadiyyatı prinsipləri əsasında inkişafına təkan verməlidir.

Liberallaşdırma proseslərinin sürətləndirilməsi, bu istiqamətdə islahatların aparılması, fəaliyyət mexanizmlərinin tətbiq edilməsi məqsədilə, ilk növbədə dövlətin enerji sektoru üzrə siyasətinin və uzun müddətli dövr üçün hədəflərinin konseptual yanaşmaları müəyyənləşdirilməli, bununla bağlı fəaliyyət strategiyaları və ya konsepsiyaları hazırlanmalıdır. Eyni zamanda, hesab edirik ki, mühüm məsələlərdən biri də enerji sektorunun liberallaşdırılmasının hüquqi əsaslarının formalaşdırılmasıdır. Bunun üçün isə müvafiq ölkə qanunları hazırlanmalı və qəbul edilməlidir. Enerji sektoru kifayət qədər liberallaşan ölkələrin təcrübəsindən yanaşmaqla, idarəetmə sistemi və mexanizmləri hazırlanmalı, ölkədə elektrik enerjisinin istehsalı və bölüşdürülməsini tənzimləyən normalar müəyyənləşdirilməli, müvafiq şəbəkə yaradılmalıdır və s..

Qlobal çağırışlara uyğun şəkildə enerji sektorunun liberallaşdırılması üzrə bazar modelinin formalaşdırılması üzrə fəaliyyət istiqamətləri

Qlobal enerji təchizatındakı problemlər və enerji resurslarının bölüşdürülməsindəki çətinliklər, enerji istehsalının artırılması üçün lazım olan resursların tükənməsi, qlobal iqlim dəyişikliklərindən yaranan problemlər, tükənməkdə olan enerji resurslarından daha çox istifadə edilməsi nəticəsində istixana effekti yaradan qaz emissiyalarının artması, enerji itkilərinin çoxalması, alternativ və bərpa olunan enerji infrastrukturunun yaradılmasına yönəldilən investisiyaların məhdudluğu və s. səbəblərdən dövlətlər ölkənin enerji təhlükəsizliyinin gücləndirilməsi məqsədilə daha çox səylər göstərməli və tədbirlər görməlidirlər [6].

Qeyd olunan qlobal problemlər kontekstində istehlakçıların elektrik enerjisi ilə təchizatı məsələlərinin yüksək səviyyədə təşkil olunması, bununla bağlı işlək və səmərəli bazar iqtisadiyyatı mexanizmlərinin tətbiq edilməsi, bazar iqtisadiyyatı mühitinin yaradılması əsas şərtlər və mühüm fəaliyyət istiqamətləri kimi qiymətləndirilməlidir. Dövlətlər enerji sektorunda zəruri bazar iqtisadiyyatı infrastrukturunu və rəqabət mühitini formalaşdırmaqda qarşıya qoyulan vəzifələrə nail olmadıqda, hesab edirik ki, enerji istehsalı və təchizatında problemlərin yaranması qaçılmazdır [11]. Məsələn, belə bir şəraitdə elektrik enerjisi və onun bölüşdürlməsini həyata keçirən subyektlər arasında rəqabət mühiti şərtləri səmərəli olmaya bilər, nəticədə bazar iqtisadiyyatı mexanizmləri zərurət olduğu qədər məhsuldar işləməyəcəkdir. Digər tərəfdən, istehlakçıların enerji sektorunun liberallaşdırılmasından müsbət gözləntiləri baş tutmaya bilər [10]. Elektrik enerjisinin son istehlakçıları üçün əsas şərtlərdən və meyarlardan biri əvvəldə qeyd etdiyimiz kimi enerji tarifləri və onun qiymətləridir. Elektrik enerjisinin qiymətlərinin azalması üçün onun fasiləsiz və optimallaşdırılmış məsrəflərlə istehsalı ilə yanaşı, həm də maksimum səmərəli paylayıcı şəbəkənin

yaradılması, burada fəaliyyət göstərən elektrik enerjisi istehsalçısı və bölüşdürücü subyektləri arasında sağlam rəqabət mühitinin təmin olunmasıdır.

Ölkənin enerji sektorunun liberal bazar iqtisadiyyatı şərtləri əsasında inkişaf etdirilməsi və bununla bağlı tədbirlərin görülməsi kifayət qədər mürəkkəb məsələdir, eyni zamanada əsas istehlakçıların əhalinin olduğu baxımdan sosial-həssas məsələdir [13]. Dövlətin qarşısında bir tərəfdən, enerji sektorunun gücləndirilməsi və onun fasiləsiz şəkildə etibarlı olaraq fəaliyyət göstərməsi vəzifəsi dururs a, digər tərəfdən mühüm vəzifələrdən biri də bu sahənin səmərəliliyinin təmin olunmasıdır [9]. Məlumdur ki, təkcə dövlət qurumlarının və dövlət statuslu energetika müəssisələrinin fəaliyyəti hesabına bu vəzifələrin öhdəsindən gəlmək qeyri-mümkündür.

Hazırda dünyanın iqtisadi cəhətdən inkişaf etməkdə olan ölkələrinin əksəriyyətində (Azərbaycan da bu sırada yer almışdır) dövlətin enerji sektorunda iştirakı və müdaxiləsi əhəmiyyətli səviyyədədir. Maraqlıdır ki, əksər dövlətlər islahatlar aparmağa risk etməkdə çətinlik çəkirlər və liberal enerji sektoru modelinin yaradılmasını ləngidirlər. Yəni, bununla dövlət enerji sektorunda sabitliyi təmin etdiyi qənaətindədir, başqa sözlə, bazar iqtisadiyyatı mexanizmlərinə keçməkdə tələsik addımlar atmağa meyilli deyillər. Lakin bunun mənfi cəhətləri daha çoxdur, belə ki, dünya iqtisadiyyatı yeni problemlər sırasında daha çox enerji təchizatı problemi ilə üz-üzədir, bu sektorda alternativliyin təmin olunması, alternativ enerji istehsalı infrastrukturunun yaradılması, özəl enerji şirkətlərinin təşkili və inkişaf etməsi, son nəticədə isə liberal bazar modelinin formalaşmasına imkan verən sağlam rəqabət mühitinin təşkil olunması gərəkdir.

Liberal bazar modelinin üstün amilləri və proqnozlaşdırılan nəticələri baxımından bir qrup məsələlər daha çox diqqət çəkir: 1) enerji sektorunun liberallaşdırılması və bu sahədə istehsalçı – bölüşdürücü şirkət və müəssisələrin sayının artırılması qaçılmaz bir zərurət kimi yaranmışdır; 2) enerji sektorunun səmərəli və daha etibarlı şəkildə fəaliyyət göstərməsi üçün dünya təcrübəsində müsbət baxımdan özünü təsdiq etmiş fəaliyyət mexanizmlərinin tətbiqi ön plana çıxmalıdır; 3) enerji sektorunun inkişafı dövlət dəstəyi mexanizmləri hesabına yox, ilk növbədə müasir dövrün çağırışlarına uyğun şəkildə yəni, bazar iqtisadiyyatı mexanizmlərinə - iqtisadi stimullaşdırıcı mexanizmlərə əsaslanmalıdır; 4) müasir enerji problemləri və bu sahədəki inkişaf tendensiyaları fəal şəkildə beynəlxalq əməkdaşlığı şərtləndirir və dünya təcrübəsinin dərindən öyrənilməsi, buna müvafiq şəkildə dövlətin enerji siyasətinin təkmilləşdirilməsi, liberal enerji modelinin hazırlanması və həyata keçirilməsi qarşıda duran mühüm vəzifələrdəndir və s. [5].

Yaxın perspektivdə enerji sektorunda baş verə biləcək qlobal problemlərin mənfi fəsadlarını daha geniş spektrdə proqnozlaşdırmaq çətindir. Amma, bir məsələnin mürəkkəbliyi və həssaslığa xüsusi yanaşmanı tələb edir. Enerji resurslarının qiymətlərinin artımı ilə əhalinin gəlirləri arasında qeyri-mütənasiblik, demək olar ki, əksər dünya ölkələri üçün xarakterikdir [2]. Bu baxımdan dövlətlərin siyasətində başlıca məsələlərdən biri enerji sektorunda sabit fəaliyyətin təmin olunması və bununla əlaqədar zəruri tədbirlərin görülməsidir. Başqa sözlə, ölkədə daha çox elektrik enerjisi istehsalına imkan verən istehsal və enerji infrastrukturunun yaradılması, rəqabət qabiliyyətli enerji istehsalçısı və bölüşdürücü müəssisələr şəbəkəsinin yaradılmasıdır. Burada başlıca iqtisadi stimullaşdırıcı mexanizmlər kimi bunlar daha çox diqqət çəkirlər: 1) enerji sektoru subyektinin mənfəətlə işləməsi və inkişaf etməsi üçün iqtisadi stimullaşdırıcı fəaliyyət mexanizmləri olmalıdır; 2) qeyd etdiyimiz kimi, heç bir əsaslı dövlət müdaxiləsi olmayan sərbəst enerji sektoru bazarı formalaşdırılmalı və sağlam rəqabət mühiti yaradılmalıdır; 3) dövlətin gördüyü tədbirlərin əsasında son enerji istehlakçılarının maraqları mütləq şəkildə nəzərə alınmalıdır, yəni dövlət əsas etibarı ilə elektrik enerjisi qiymətlərinin azalmasına imkan verən siyasət aparmalı, bürokratik tariftənzimləyici qurumları ləğv etməli və ya onların səlahiyyətləri məşvərətçi səviyyədən irəli getməməlidir; 4) özəl enerji sektoru subyektlərinin fəaliyyətinə əsassız müdaxilələrin minimuma endirilməsi və ya tamamilə yol verilməməsi mexanizmləri təmin olunmalıdır; 5) enerji istehsalı və istehlakını tənzimləyən hüquqi əsaslar, qanunlar, normativlər istehlakçılar arasında narazılıqla qarşılanmamalıdır, yəni istehlakyönlü tarif (qiymət) siyasətinin aparılması mütləq yanaşmalardan olmalıdır və s..

Liberal bazar iqtisadiyyatı modelinin formalaşdırılması və inkişaf etdirilməsi heç də bütün

iqtisadiyyat sahəsində asan başa gələn məsələ deyildir. Xüsusilə, təbii inhisar əsaslı xidmətlərin, o cümlədən elektrik enerjisi ilə təminatın infrastrukturunun yaradılması və bazar iqtisadiyyatına keçidinin təmin edilməsi üçün ilk növbədə bazar iqtisadiyyatı mexanizmlərinə və alətlərinə keçid təmin olunmalıdır. Bundan sonrakı proseslərdə isə elektrik enerjisinin istehsalı ilə bağlı kifayət qədər etibarlı bazanın formalaşdırılması və inkişaf etdirilməsi tələb olunur. Daha sonra istehsal olunan enerjinin istehlakçılara çatdırılmasını təmin edən müəssisələr şəbəkəsinin yaradılması və rentabelliyin proqnozlaşdırılan səviyyədə olması hədəfi ilə bu müəssisələrin bazar iqtisadiyyatı prinsipləri əsasında inkişaf etdirilməsi mühiti yaradılmalıdır. Nəzərə almaq lazımdır ki, elektrik enerjisinin qiymətləri və onun istehlakına qoyulan müxtəlif tənizmləyici alətlər, məsələn, limitlərin müəyyənləşdirilməsi, qiymətlərin diferensiallaşması heç də bütün hallarda müştəri məmnunluğuna səbəb ola bilməz. Bu baxımdan enerji sektorunda müxtəlif statuslu bazar iştirakçılarının fəaliyyətinin təmin olunması vacib şərtlərdəndir. Digər tərəfdən, enereji sektoruna yüksələn vergi dərəcələrinin boğuculuğunun aradan qaldırılması və bu istiqamətdə münasibətlərin daha çox stimullaşdırıcı alətlər əsasında formalaşdırılması səmərə verə bilər.

Qeyd edək ki, bir sıra postsovet respublikalarında elektroenergetika sahəsində islahatlar keçirilməsi prosesləri diqqət mərkəzindədir. Məsələn, Belarusda elektroenergetika sahəsində özəl sektorun inkişafı konsepsiyası irəli sürülür, amma onun reallaşdırılması hələ ki, real görünmür [3]. Qazaxıstanda isə iqtisadiyyatın ümumilikdə liberallaşdırılmasının dərinləşdirilməsi istiqamətlərində enerji sektorunun liberallaşdırılması da əsas hədəflərdən hesab olunur [7]. Bu amillər baxımından ölkəmizdə də son vaxtlar mütəmadi olaraq elektroenergetika sahəsində bazar iqtisadiyyatının inkişafına çağırışlar diqqət çəkir [8]. Hazırda ölkəmizdə alternativ və bərpa olunan elektrik enerjisi infrastrukturunun yaradılmasında özəl xarici investorlar və şirkətlər iştirak edirlər və layihələrin icrasına başlanılmışdır. Buna görə də yerli şirkətlərin, ümumilikdə isə özəl sektorun elektroenergetika sahəsində daha fəal iştirakına imkan verən qanunvericiliyin formalaşdırılması və investisiya mühitinin cəlbediciliyi təmin edilməlidir.

Nəticə

Beləliklə, enerji sektorunun qlobal transformasiyalarından qaynaqlanan inkişaf tendensiyaları və enerji sektorunun liberallaşdırılması ilə bağlı yaranan problemlər əsas götürülməklə, enerji sektorunda müasir dövrün tələblərinə cavab verən bazar modelinin təşkili dövrümüzün tələblərindən biri kimi ortaya çıxmışdır. Bu reallığı inkar etmək, əslində qlobal enerji bazarında baş verən proseslərə biganə qalmaq, ildən-ilə artan enerji problemlərinin, o cümlədən əhalinin enerji resurslarına olan tələbatının müştəri məmnunluğu səviyyəsində ödənilməsinə soyuq münasibətin ifadəsi kimi qiymətləndirilə bilər. Hesab edirik ki, dövlətlər enerji sektorunun iqtisadi bazar mexanizmləri əsasında inkişaf etməsi ilə bağlı reallıqları dəyərləndirməli və adekvat tədbirlər görməlidirlər. Eyni zamanda, enerji resurslarına olan tələbatın fasiləsiz şəkildə yerinə yetirilməsi, alternativ enerji istehsalı infrastrukturunun yaradılması, ölkənin ümumi enerji istehsalı strukturunda bərpa olunan elektrik enerjisinin xüsusi çəkisinin artırılması istiqamətlərində daha dərin və fundamental tədqiqatlar aparılmalıdır.

Bu qeyd olunanlar baxımından bir qrup məsələləri ümumiləşdirmək mümkündür:

- müasir qlobal çağırışlar baxımından, dünya dövlətlərində enerji sektorunun liberallaşdırılması və bazar modelinin yaradılması həllini gözləyən mürəkkəb problemlərdəndir, amma, bu problemin həlli yolunun tapılması və islahatların aparılması qaçılmaz bir prosesdir;
- ölkənin enerji sektorunun liberallaşdırılması və sabit enerji istehsalı infrastrukturunun yaradılması, əhalinin və digər istehlakçıların fasiləsiz, etibarlı şəkildə elektrik enerjisi ilə təmin edilməsi proseslərində dövlət-özəl sektor əməkdaşlığının gücləndirilməsi daha çox səmərə verə bilər;
- ölkədə enerji sektorunun bazar iqtisadiyyatı prinsipləri əsasında inkişafının təmin olunması üçün bu sahədə yaxın və uzaq perspektivləri özündə ehtiva edən fəaliyyət strategiyasının hazırlanması və tələb olunan tədbirlərin mərhələlər şəklində həyata keçirilməsi daha məqsədəuyğundur;
- enerji sektorunda islahatların aparılması mexanizmləri hazırlanarkən əhalinin həssas təbəqələrinin maddi vəziyyətinin nəzərə alınması, ölkədə mövcud sosial-iqtisadi durumun obyektiv ola-

raq dəyərləndirilməsi, ümumilikdə əhalinin gəlirlərinin enerji tarifləri ilə müqayisəsinin aparılması, sosial gərginliyə səbəb ola biləcək tarif siyasətinə yol verilməməsi xüsusi diqqət mərkəzində saxlanılmalıdır;

- enerji sektorunun liberallaşdırılması və daha qısa dövr ərzində bu sektorda bazar modelinin yaradılması üçün sağlam rəqabət mühitinin formalaşdırılması, qanunvericilik aktlarının qəbul edilməsi, hüquqi əsasların təkmilləşdirilməsi, islahatların tarazlı və səmərəli şəkildə aparılmasına imkan verən fəaliyyət mexanizmlərinin hazırlanması və idarəetmə strukturlarının təşkili mütləq şəkildə nəzərə alınmalıdır və s..

ƏDƏBİYYAT

1. Yaşıl inkişaf: Enerji səmərəliliyi və alternativ mənbələr. Azərbaycan Respublikasının Prezidenti Yanında Strateji Araşdırmalar Mərkəzi. – Bakı. – 2014. – 144 s.
2. Анализ влияния цен и инвестиций в электроэнергетике на развитие экономики России и регионов. Докл. к XXIII Ясинской (Апрельской) междунар. науч. конф. по проблемам развития экономики и общества, Москва, 2022 г. / Е.В. Яркин (науч. ред.); И.А. Долматов, С.В. Сасим, М.А. Панова и др.; Нац. исслед. ун-т «Высшая школа экономики». — Москва: Изд. дом Высшей школы экономики, 2022. — 41 с.
3. Вертай, С.П., Хмельницкий В.И. Реформирование и интеграция электроэнергетической отрасли Республики Беларусь. // БІЗНЕСІНФОРМ № 8, 2018. – с. 38-43.
4. Гительман, Л.Д., Ратников, Б.Е. Энергетический бизнес. Москва, Дело, 2006.–600 с.
5. Кавешников, Н.Ю. Развитие внешней энергетической политики Европейского союза// Вестник МГИМО-Университета. - Москва, 2013. № 4. - С. 82-91.
6. Лисин, Е.М. Методология обеспечения энергетической безопасности при многоуровневом управлении территориальными общеэнергетическими системами. Автореферат дис. на соискание ученой степени доктора экономических наук. Москва – 2018. – 40 с.
7. О мерах по либерализации экономики 10 мая 2024 года. Указ Президента Республики Казахстан. Астана, Акорда, 8 мая 2024 года, №542.
8. Остапенко, Е. Электроэнергетика Азербайджана на пути к рыночной модели. https://euneighbourseast.eu/ru/news/stories/elektroenergetika-azerbajdzhana-na-puti-k-rynochnoj-modeli/.
9. Стратегия деятельности в секторе энергетики. Документ Европейского Банка Реконструкции и Развития. Утверждена на заседании Совета директоров 10 декабря 2013 года.
10. Троицкий П. Либерализация и координация энергетического рынка ЕС // Вестник Института экономики Российской академии наук. 2009. №3- с.1-4.
11. Шафиев, Р.М. Формирование энергетического и финансового рынка ЕАЭС / Р.М.Шафиев // Россия: тенденции и перспективы развития. Ежегодник. Вып. 11. / РАН. ИНИОН. Отд. научн. сотрудничества; Отв. ред. В.И. Герасимов - Москва, 2016. - Ч. 1. - с. 207 – 210.
12. Bhattacharyya, S.C. Energy Economics Concepts, Issues, Markets and Governance Springer London Dordrecht Heidelberg New York, Springer-Verlag London Limited, – 2011. – 673 s.
13. Jones, Ch.W., Kettlewell W.J. The internal energy market. Deventer: Claeys & Casteels Publishing, 2021, 1595 p.

Ниджат Заур оглы Абдурахманов
Докторант Азербайджанского Университета Кооперации,
E-mail: nicatabd@gmail.com

Вопросы либерализации энергетического сектора и создания рыночной модели

Резюме

Цель исследования - изучить процессы либерализации энергетического сектора и создания рыночной модели в современную эпоху и сделать обобщения по данному направлению.

Методология исследования - основана на методах анализа, синтеза, сравнительного

анализа и обобщения. Наряду с этим в работе ссылалось на научные работы ученых, проводивших исследования по проблемам либерализации энергетического сектора.

Практическое значение исследования - заключается в организации программ и определении мер развития реформ энергетического сектора на основе рыночной экономики в условиях современных глобальных давлений.

Результаты исследования - в текущий период и в перспективе имеются возможности использования научных положений и предложений, содержащихся в статье при подготовке механизмов либерализации энергетического сектора.

Оригинальность и научная новизна исследования - можно отметить, что в условиях глобальных трансформаций неизбежны концептуальные подходы к либерализации энергетического сектора и созданию его рыночной модели, а также важность проведения реформ в этих направлениях обоснована необходимость разработки и внедрения новых механизмов действий. Приведены преимущества развития энергетической отрасли на основе принципов рыночной экономики и подготовлены предложения и рекомендации по рассматриваемым проблемам.

Ключевые слова: энергетика, энергетический сектор, либерализация энергетического сектора, создание рыночной модели, рыночная экономика, рыночная модель энергетического сектора, эффективность энергетического сектора.

Nijat Zaur Abdurahmanov
Doctoral student of Azerbaijan Cooperation University,
E-mail: nicatabd@gmail.com

Issues of liberalizing the energy sector and creating a market model

Summary

The purpose of the research is to examine the processes of liberalization of energy sector and creation of market model in the modern era and make generalizations in this direction.

Research methodology is based on the methods of analysis, synthesis, comparative analysis and generalization. Along with this, the work referred to the scientific works of scientists who conducted research on the problems of liberalization of the energy sector.

The practical significance of the research is to organize programs and identify measures for the development of energy sector reforms on the basis of market economy in the current global pressures.

The results of the research - in the current period and in the future there are opportunities to use scientific provisions and proposals contained in the article in the preparation of mechanisms for the liberalization of the energy sector.

The originality and scientific novelty of the research - it can be noted that in the conditions of global transformations inevitable conceptual approaches to the liberalization of the energy sector and the creation of its market model, as well as the importance of reforms in these directions substantiated the need for the development and implementation of new mechanisms of action. Advantages of the energy sector development on the basis of market economy principles are given and proposals and recommendations on the problems under consideration are prepared.

Key words: energy, energy sector, liberalization of the energy sector, creation of a market model, market economy, market model of the energy sector, efficiency of the energy sector.

UOT 339.5

Sevda Məzahim qızı SÜLEYMANLI
doktorant, AKU
https://doi.org/10.30546/4.71.73001.2024.004.029

DAXİLİ BAZARIN MƏİŞƏT ƏŞYALARI İLƏ TƏCHİZ EDİLMƏSİNİN TƏŞKİLATİ-İQTİSADİ MEXANİZMLƏRİNİN BEYNƏLXALQ TƏCRÜBƏSİNİN ÖYRƏNİLMƏSİ

Xülasə

Tədqiqatın məqsədi məişət texnikası üzrə daxili bazarın səmərəli idarə edilməsi və inkişafı üzrə qlobal təcrübə və strategiyaların təhlili və qiymətləndirilməsidir.

İşin metodologiyası məişət təsərrüfatları üçün daxili bazar tədarük zəncirlərinin optimallaşdırılması üçün effektiv strategiyaların müəyyən edilməsi üçün qabaqcıl dünya təcrübələrinin müqayisəli təhlilini, statistik qiymətləndirmələri və nümunə araşdırmalarını əhatə edir.

Tədqiqatın tətbiqi əhəmiyyəti onun daxili məişət malları bazarlarının səmərəliliyini və rəqabət qabiliyyətini artırmaq üçün sübut edilmiş beynəlxalq strategiyaların qəbul edilməsində siyasətçiləri və biznesləri istiqamətləndirmək potensialından ibarətdir.

Tədqiqatın nəticələri daxili bazara təsərrüfat mallarının tədarükünün təşkilati və iqtisadi mexanizmlərini təkmilləşdirmək üçün qabaqcıl logistika, şaxələndirilmiş təchizat zəncirləri və strateji dövlət-özəl tərəfdaşlığı kimi qabaqcıl beynəlxalq təcrübələrin inteqrasiyasının səmərəliliyini vurğulayır.

Tədqiqatın orijinallığı və elmi yeniliyi onun beynəlxalq təcrübənin müqayisəli təhlili və onların yerli məişət malları sektorunun unikal sosial-iqtisadi və bazar şərtlərinə uyğunlaşdırılmasında, səmərəliliyin və davamlılığın artırılması üçün xüsusi tövsiyələrin verilməsindədir.

Açar sözlər: daxili bazar, məişət əşyaları, beynəlxalq təcrübə.

Giriş

Məişət malları bazarlarının təşkili və iqtisadi strukturlaşdırılması sahəsində beynəlxalq təcrübənin öyrənilməsi öz daxili bazarlarını genişləndirmək istəyən ölkələr üçün böyük əhəmiyyət kəsb edir. Qloballaşma ticarət və istehlakçı gözləntilərini yenidən formalaşdırdığı üçün beynəlxalq modellərdən innovativ təcrübələrin qəbul edilməsi bazarın səmərəliliyini, davamlılığını və əlçatanlığını əhəmiyyətli dərəcədə yaxşılaşdıra bilər.

Azərbaycanda məişət malları bazarı yerli sənayenin dəstəklənməsində və istehlakçı tələbatının ödənilməsində mühüm rol oynayır. Bununla belə, tədarük zəncirinin idarə edilməsində, qiymət strategiyalarında və bazarın təşkilində səmərəsizlik çox vaxt irəliləyişə mane olur. Beynəlxalq modellərin öyrənilməsi təkcə bu çağırışların həllini təmin etmir, həm də ölkənin iqtisadi dayanıqlığını artırır. Bu sahələr üzrə tədqiqatlar “Azərbaycan 2030: Sosial-İqtisadi İnkişaf üzrə Milli Prioritetlər” (2021) kimi strateji siyasət çərçivələrində qeyd olunduğu kimi, ölkənin iqtisadiyyatın şaxələndirilməsi və davamlı inkişafı ilə bağlı daha geniş məqsədlərinə uyğundur.

Məişət mallarına artan tələbata baxmayaraq, bir çox daxili bazarlar istehlakçı ehtiyaclarını səmərəli şəkildə ödəmək imkanlarına mane olan səmərəsizliklərlə mübarizə aparır. Əsas problemlərə qeyri-adekvat təchizat zənciri infrastrukturu, yüksək əməliyyat xərcləri, texnologiyadan məhdud istifadə və sürətlə dəyişən istehlakçı seçimlərinə uyğunlaşmaq qabiliyyətinin olmaması daxildir. Məsələn, gecikdirilmiş paylayıcı şəbəkələr və ya rəqabətsiz qiymətlər istehlakçıların narazılığına və idxaldan asılılığa səbəb ola bilər ki, bu da öz növbəsində ticarət balansına təsir göstərir [4].

Azərbaycanda bu məsələlər istehsalçılar, distribyutorlar və siyasətçilər arasında məhdud koordinasiya ilə mürəkkəbləşir. Yerli istehsalçılar tez-tez texnologiya və təcrübə əldə etməkdə maneələrlə üzləşirlər, bu da optimal olmayan istehsal üsullarına gətirib çıxarır. Bundan əlavə, möhkəm tənzimləyici çərçivələrin olmaması ədalətli rəqabətə və bazar şəffaflığına xələl gətirir. Bu səmərəsizliklər təkcə bazar sabitliyini pozmur, həm də məişət malları sektorunda innovasiya və

artım potensialını məhdudlaşdırır.

Digər kritik problem daxili bazarın ekoloji davamlılığı ilə bağlıdır. Dünyada bir çox məişət malları sənayesi ekoloji cəhətdən təmiz istehsal və təchizat təcrübələrinə doğru dəyişir. Bununla belə, beynəlxalq təcrübəyə və innovativ təşkilati modellərə çıxışı olmayan Azərbaycan bazarı davamlı təcrübələri qəbul etməkdə geri qalmaq riski ilə üzləşir. Məsələn, təkrar emal və tullantıların azaldılması kimi dairəvi iqtisadiyyat prinsiplərinin inteqrasiyası yerli istehsal və paylama şəbəkələrində hələ də inkişaf etməmişdir.

Bazarın təşkilinin mürəkkəbliklərini və məişət mallarının tədarükü üçün iqtisadi mexanizmləri başa düşmək möhkəm nəzəri baza tələb edir. Bazarların təşkili və iqtisadi mexanizmlər tədarük zəncirinin idarə edilməsi, iqtisadi səmərəlilik və bazar strukturunun əsas nəzəriyyələrinə əsaslanır. Bu konsepsiyaların əsasında səmərəli resurs bölgüsü və möhkəm infrastruktur vasitəsilə tələb və təklif arasında tarazlığa nail olmaq ideyası dayanır. David Ricardo tərəfindən təklif olunan müqayisəli üstünlüklər nəzəriyyəsi bazarın səmərəliliyini artırmaq üçün istehsalın və ticarətin optimallaşdırılmasının vacibliyini vurğulayır. Bu konsepsiya xüsusilə ev təsərrüfat malları bazarları üçün aktualdır, burada millətlər səmərəsizlikləri aradan qaldırarkən öz güclü tərəflərindən yararlana bilərlər.

Maykl Porterin “Millətlərin Rəqabətli Üstünlüyü”, rəqabətli bazarların sütunları kimi innovasiyaları, texnologiyanın mənimsənilməsini və tənzimləyici çərçivələri vurğulayan başqa bir vacib çərçivə təqdim edir. Porterin almaz modeli dinamik bazar mühitinin yaradılması üçün vacib olan firma strategiyası, strukturu, rəqabəti və hökumət dəstəyi kimi amilləri vurğulayır. Bu prinsiplər beynəlxalq təcrübələrin daxili bazarın təşkilinə və iqtisadi mexanizmlərə necə təsir göstərə biləcəyinin təhlilində mühüm əhəmiyyət kəsb edir.

Bundan əlavə, tədarük zəncirinin dayanıqlılığı nəzəriyyəsi COVID-19 pandemiyası kimi qlobal pozuntular qarşısında ön plana çıxdı. Bu nəzəriyyə təchizat sistemlərində riskləri azaltmaq üçün uyğunlaşma və texnoloji inteqrasiyanın vacibliyini vurğulayır. Məsələn, blokçeyn və qabaqcıl analitika kimi rəqəmsal vasitələrin daxil edilməsi şəffaflığı və səmərəliliyi artıra, məişət malları bazarlarında zəifliklərı azalda bilər [5, s. 89].

Məişət təsərrüfatlarının təchizat sistemlərində beynəlxalq təcrübələr

Məişət təsərrüfatlarının təchizat sistemlərində beynəlxalq təcrübələr texnologiyadakı irəliləyişlər, dəyişən istehlakçı davranışları və davamlılıq imperativləri ilə əhəmiyyətli dərəcədə inkişaf etmişdir. Almaniya, Yaponiya və ABŞ kimi inkişaf etmiş iqtisadiyyatlar səmərəlilik, davamlılıq və müştəri məmnuniyyətini ön planda tutan innovativ modellər qurmuşlar.

*Almaniya*nın təchizat zənciri sistemləri dəqiqlik və rəqəmsallaşma ilə xarakterizə olunur. Ölkə istehsal və paylamanı sadələşdirmək üçün IoT (Əşyaların İnterneti), robototexnika və proqnozlaşdırıcı analitika kimi texnologiyaları birləşdirən Sənaye 4.0 prinsiplərini qəbul etmişdir. Bu yanaşma tullantıları minimuma endirir və bazar tələblərinə cavabvermə qabiliyyətini artırır və onu bazarın səmərəli təşkili üçün bir model halına gətirir.

Yaponların “kaizen” (davamlı təkmilləşdirmə) və arıq istehsal konsepsiyası məişət malları bazarlarında təchizat zəncirinin idarə edilməsində inqilab etdi. Əməliyyat səmərəsizliyinin azaldılmasına, məhsulun keyfiyyətinin yaxşılaşdırılmasına və maraqlı tərəflər arasında əməkdaşlığın təşviqinə diqqət yetirərək, Yaponiya effektiv bazar təcrübələri üçün bir meyar yaratmışdır [7, s.54].

Amerika Birləşmiş Ştatları istehlakçıların məişət mallarına çıxışını yenidən müəyyən etmək üçün Amazon kimi platformalardan istifadə edərək e-ticarətə əsaslanan təchizat zəncirlərini müdafiə etdi. Qabaqcıl logistika şəbəkələri, real vaxt rejimində izləmə və müştəri mərkəzli strategiyalar şirkətlərə yüksək dinamik bazarlarda rəqabət üstünlüklərini qoruyub saxlamağa imkan verib.

Qlobal tendensiyalar da davamlılığa artan diqqəti əks etdirir. Avropa və Asiya ölkələri təkrar emalı, ekoloji cəhətdən təmiz qablaşdırmanı və tullantıların azaldılmasını təşviq edərək dairəvi iqtisadiyyat prinsiplərini qəbul edirlər. Bu cür təcrübələr iqtisadi səmərəliliyi qoruyarkən ətraf mühitə təsirin azaldılması üzrə qlobal məqsədlərə uyğun gəlir.

Cədvəl 1.

Daxili bazarın məişət malları ilə təchiz olunmasının təşkilati və iqtisadi mexanizmlərində beynəlxalq təcrübələr

Ölkə	Təşkilati mexanizmlər	İqtisadi Mexanizmlər	Əsas Xüsusiyyətlər
Almaniya	Mərkəzləşdirilmiş təchizat zənciri şəbəkələri, möhkəm pərakəndə tərəfdaşlıqlar	Effektiv qiymət strategiyaları, davamlı məhsullar üçün subsidiyalar	Davamlılığa və dairəvi iqtisadiyyata güclü diqqət
Amerika Birləşmiş Ştatları	Elektron ticarətə əsaslanan paylama, geniş miqyaslı pərakəndə şəbəkələr	Yaşıl texnologiyalar, dinamik qiymət modelləri üçün vergi güzəştləri	Texnologiyanın və rəqəmsal platformaların sürətlə mənimsənilməsi
Yaponiya	Təkmil inventar idarəetmə sistemləri, tam vaxtında (JIT) təchizat	Enerjiyə qənaət edən məhsullarda Ar-Ge üçün hökumətin maliyyələşdirilməsi	Texnoloji yeniliklərə və səmərəliliyə diqqət yetirilməsi
Cənubi Koreya	Ağıllı logistika sistemlərinin inteqrasiyası, təchizat zəncirində qabaqcıl AI	Maliyyələşdirmə üçün dövlət-özəl tərəfdaşlıq, ekoloji cəhətdən təmiz məhsul təşviqi	Məişət malları bazarında güclü innovasiya ekosistemi
İsveç	Yerli istehsala diqqət yetirməklə, yerli, mərkəzləşdirilməmiş təchizat modelləri	Yerli istehsalçılar üçün subsidiyalar, ədalətli ticarət təcrübələrinə vurğu	Davamlılığa və etik istehsala güclü vurğu
Çin	Elektron ticarət və logistika mərkəzlərinə diqqət yetirməklə mərkəzləşdirilmiş paylama	İstehsalın səmərəliliyinə və ekoloji təmiz texnologiyalara dövlət dəstəyi	Təchizat zəncirində sürətli miqyas və texnoloji inteqrasiya

Mənbə: *Chopra, S. və Meindl, P. (2021). Təchizat Zəncirinin İdarə Edilməsi: Strategiya, Planlaşdırma və Əməliyyat. Pearson Təhsili*

Qlobal modellər zəngin biliklər təqdim etsə də, onların Azərbaycanın məişət malları bazarına tətbiqi həll edilməli olan kritik boşluqları vurğulayır. Bu boşluqlar bazarın istehlakçı tələblərini ödəmək və beynəlxalq rəqabət qabiliyyətinə kollektiv şəkildə təsir edən infrastruktur, tənzimləyici çərçivələr və texnoloji inteqrasiyaya aiddir.

- *Texnoloji İnteqrasiya:* Aparıcı iqtisadiyyatlardan fərqli olaraq, Azərbaycan öz təchizat zənciri sistemləri daxilində rəqəmsal alətləri qəbul etməkdə çətinliklərlə üzləşir. Qabaqcıl texnologiyalara məhdud çıxış istehsal və paylama şəbəkələrində səmərəliliyin və şəffaflığın artırılması səylərinə mane olur.
- *Tənzimləyici Çərçivələr:* Ədalətli rəqabəti, innovasiyanı və davamlılığı dəstəkləmək üçün möhkəm siyasətlərin olmaması əhəmiyyətli maneə olaraq qalır. Məsələn, beynəlxalq bazarlar yaşıl təcrübələri vurğulasa da, yerli sənayelər çox vaxt oxşar tədbirləri qəbul etmək üçün stimul və infrastrukturdan məhrumdurlar.
- *Bazarın təşkili:* Parçalanmış təchizat zəncirləri və istehsalçılar və distribyutorlar arasında qeyri-adekvat koordinasiya bazar sabitliyini pozur. Almaniyanın sadələşdirilmiş sistemlərindən və ya Yaponiyanın sadə şəbəkələrindən fərqli olaraq, Azərbaycan bazarı xərcləri artıran və malların çatdırılmasını gecikdirən səmərəsizliklərdən əziyyət çəkir.
- *Dayanıqlılıq Təcrübələri:* Davamlılıq qlobal tendensiya olsa da, Azərbaycanın məişət malları sektorunda onun tətbiqi minimaldır. Ekoloji cəhətdən təmiz istehsal proseslərində məhdud məlumatlılıq və investisiyalar uzunmüddətli ekoloji və iqtisadi məqsədlərə nail olmaq yolunda irəliləyişə mane olur.

Bu boşluqları aradan qaldırmaq üçün tədqiqat müvafiq beynəlxalq təcrübələri yerli kontekstə uyğunlaşdırmaqla mənimsəməyin vacibliyini vurğulayır. Məsələn, arıq istehsal prinsiplərinin lokallaşdırılmış strategiyalarla inteqrasiyası sərfəli qiymətə güzəştə getmədən səmərəliliyi artıra

bilər. Eynilə, rəqəmsal təchizat zənciri alətlərinə sərmayə qoymaq bazarın həssaslığını və şəffaflığını artıra bilər.

Nəzəri əsas və qlobal təcrübə məişət malları bazarlarının transformasiyasında innovasiya, tənzimləmə və texnologiyanın kritik rolunu vurğulayır. Beynəlxalq modellər səmərəsizliyi aradan qaldırmaq, davamlılığı təşviq etmək və istehlakçı tələblərini ödəmək üçün dəyərli dərslər təklif edir. Bununla belə, Azərbaycanın daxili bazarında aşkar edilən boşluqlar fərqləri aradan qaldırmaq və qlobal standartlara uyğunlaşdırmaq üçün məqsədyönlü müdaxilələrə ehtiyac olduğunu göstərir. Arıq istehsal və təchizat zəncirinin davamlılığı kimi sübut edilmiş konsepsiyalardan istifadə etməklə Azərbaycan getdikcə qloballaşan iqtisadiyyatda rəqabət qabiliyyətini təmin edərək, məişət malları bazarını gücləndirə bilər.

Tədqiqat məişət mallarının tədarükü sistemlərinin təşkili və iqtisadi strukturlaşdırılması üçün aparıcı bazarlarda istifadə olunan müxtəlif innovativ modelləri və strategiyaları ortaya qoydu.

Təchizat Zəncirlərində Rəqəmsal İnteqrasiya: Almaniya və ABŞ kimi inkişaf etmiş ölkələr təchizat zəncirinin səmərəliliyini optimallaşdırmaq üçün Əşyaların İnterneti (IoT), süni intellekt və blokçeyn kimi qabaqcıl texnologiyalardan istifadə edirlər. IoT-ni dəstəkləyən qurğular inventarları real vaxt rejimində izləyir, ehtiyatların tükənməsini və həddindən artıq istehsalı azaldır. Blockchain, xüsusilə ekoloji cəhətdən təmiz məhsul xətlərində şəffaflıq və izlənilmə təmin edir [8, s.101].

Dairəvi İqtisadiyyat Prinsipləri: Bir çox qlobal bazarlar tədarük zəncirində resursların təkrar istifadə olunduğu və təkrar emal edildiyi dairəvi iqtisadiyyat modelləri vasitəsilə davamlılığı vurğulayır. Məsələn, Yaponiya istehsalçıları məhsulun utilizasiyası və təkrar emalına görə məsuliyyət daşıyan genişləndirilmiş istehsalçı məsuliyyəti (EPR) proqramlarını həyata keçirir. Bu yanaşma tullantıları minimuma endirir və ekoloji cəhətdən təmiz istehsalı təşviq edir.

Elektron ticarətə əsaslanan paylama: Elektron ticarət platformaları məişət mallarının paylanmasını yenidən müəyyənləşdirdi, bu da birbaşa istehlakçıya satışa imkan verir və ənənəvi pərakəndə satış kanallarından asılılığı azaldır. Çin və ABŞ kimi ölkələr güclü logistika infrastrukturu və istehlakçı məlumatlarının analitikası ilə dəstəklənən bu modelin effektivliyini nümayiş etdirir.

Dövlət-Özəl Tərəfdaşlıqlar (PPPs): Hökumətlər və özəl qurumlar arasında birgə səylər bazarın təşkilinin gücləndirilməsində uğurlu olduğunu sübut etdi. Skandinaviya ölkələrində PPP-lər texnoloji təkmilləşdirmələri maliyyələşdirir və məişət malları sektorunda innovasiyaya şərait yaradan tənzimləyici çərçivələr yaradır [6].

Daxili Bazarın Təhlili

Azərbaycanın məişət malları bazarının qiymətləndirilməsi həm qlobal tendensiyalara uyğunluğu, həm də onlardan fərqliliyi aşkar edir.

Texnoloji İnteqrasiya: Onlayn pərakəndə platformalar və inventar idarəetmə sistemləri kimi rəqəmsal vasitələrin qəbulunda irəliləyişlər olsa da, Azərbaycan blokçeyn və IoT kimi qabaqcıl texnologiyaların geniş tətbiqində geri qalır. Texniki infrastrukturun və ixtisaslı işçi qüvvəsinin olmaması tərəqqiyə mane olur.

Davamlılıq Təcrübələri: Azərbaycan dairəvi iqtisadiyyat prinsiplərini qəbul etmək üçün məhdud səylər göstərmişdir. Əksər məişət mallarının istehsalı və paylanması modelləri minimum təkrar emal və ya təkrar istifadə təşəbbüsləri ilə xətti olaraq qalır. Bununla belə, hökumətin yaşıl iqtisadiyyat siyasətlərinə artan diqqəti gələcək təkmilləşdirmə üçün bir fürsət təqdim edir.

Bazarın Parçalanması: Təkmilləşdirilmiş təchizat zəncirləri nümayiş etdirən qlobal bazarlardan fərqli olaraq, Azərbaycanın məişət malları bazarı parçalanmadan əziyyət çəkir. Kiçikmiqyaslı istehsalçılar tez-tez logistika səmərəsizliyi və yüksək xərclər səbəbindən daha böyük bazarlara daxil olmaqda çətinliklərlə üzləşirlər.

İstehlakçı Davranışı: Azərbaycan istehlakçıları qlobal tendensiyaları əks etdirən ekoloji cəhətdən təmiz və yüksək keyfiyyətli məişət mallarına daha çox meyil edirlər. Bununla belə, bu cür məhsulların məhdud əlçatanlığı və əlçatanlığı bazarın böyüməsini məhdudlaşdırır.

Cədvəl 2.

Azərbaycanın məişət malları bazarı üçün qlobal modellər

Sahələr	Təsvir	Azərbaycanda çağırışlar	Potensial həllər
Texnoloji İnteqrasiya	Təchizat zənciri sistemlərində rəqəmsal alətlərin və qabaqcıl texnologiyaların tətbiqində çətinlik	İstehsal və paylamada səmərəlilik və şəffaflığa mane olan qabaqcıl texnologiyalara məhdud çıxış	Bazar uyğunlaşmasını və əməliyyat səmərəliliyini artırmaq üçün rəqəmsal təchizat zənciri alətlərinə investisiya edin
Tənzimləyici Çərçivələr	Ədalətli rəqabət, innovasiya və davamlılığı dəstəkləmək üçün möhkəm siyasətlərin olmaması	Yaşıl təcrübələr üçün güclü siyasətlərin və stimulların olmaması, davamlı təcrübələrin inkişafını məhdudlaşdırır	Qlobal standartlara uyğun olaraq davamlı təcrübələri və innovasiyaları təşviq edən siyasətlər qurun
Bazarın təşkili	Parçalanmış təchizat zəncirləri və istehsalçılar və distribyutorlar arasında zəif koordinasiya	Səmərəlilik xərcləri artırır və məhsulun çatdırılmasını gecikdirir.	Almaniya və Yaponiyadakı kimi sadələşdirilmiş sistemləri qəbul edin və maraqlı tərəflər arasında koordinasiyanı gücləndirin
Davamlılıq Təcrübələri	Davamlılığa doğru qlobal tendensiya, lakin Azərbaycanın məişət malları sektorunda minimal qəbul	Ekoloji cəhətdən təmiz istehsal proseslərində məhdud məlumatlılıq və investisiya.	Yaşıl istehsal və davamlı biznes modellərində məlumatlılığı və investisiyaları artırın.

Mənbə: *İnternet resursları əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Tənzimləyici mühit: Azərbaycan yerli istehsalı təşviq etmək və idxaldan asılılığı azaltmaq üçün islahatlara başlasa da, qeyri-ardıcıl tənzimləmə siyasəti və icranın olmaması mühüm maneələr olaraq qalır.

Azərbaycanda qabaqcıl beynəlxalq təcrübənin effektiv tətbiqinə mane olan bir sıra problemlər və təkmilləşdirmə imkanları aşağıdakılardır:

- *İnfrastruktur çatışmazlığı:* Güclü maddi-texniki və texnoloji infrastrukturun olmaması bazarın innovativ modelləri qəbul etmək imkanlarını məhdudlaşdırır.
- *Maliyyə Məhdudiyyətləri:* Məişət malları sektorunda bir çox kiçik və orta müəssisələr (KOB) qabaqcıl texnologiyalara və ya davamlı təcrübələrə investisiya etmək üçün maliyyə maneələri ilə üzləşirlər.
- *Tənzimləmə boşluqları:* Siyasətlərdəki qeyri-müəyyənliklər və zəif icra mexanizmləri innovasiyalar üçün əlverişli mühitin yaradılmasına mane olur.
- *Bacarıqlı işçi qüvvəsi çatışmazlığı:* İnkişaf etməkdə olan texnologiyaları bilən təlim keçmiş kadrların çatışmazlığı əhəmiyyətli darboğaz yaradır.
- *Siyasi islahatlar:* Aydın və dəstəkləyici tənzimləyici çərçivələrin tətbiqi bazarın təşkilini asanlaşdıra və məişət malları sektoruna xarici investisiyaları cəlb edə bilər.
- *Texnologiyanın mənimsənilməsi:* Rəqəmsal transformasiya üçün hökumətin stimulları bazarı qlobal standartlara uyğunlaşdıraraq, KOM-ları qabaqcıl texnologiyalardan istifadə etməyə təşviq edə bilər.
- *Dövlət-Özəl Tərəfdaşlıq:* Hökumət və özəl qurumlar arasında əməkdaşlıq layihələri infrastrukturun inkişafına təkan verə və davamlı təcrübələri təşviq edə bilər.
- *İstehlakçıların Maarifləndirilməsi Kampaniyaları:* İstehlakçıların ekoloji cəhətdən təmiz və yerli istehsal olunan malların faydaları haqqında maarifləndirilməsi tələbi artıra bilər, istehsalçıları bu üstünlüklərə uyğunlaşmağa təşviq edə bilər.

Nəticə və Təkliflər

Nəticələr aparıcı iqtisadiyyatlarda müşahidə olunan innovativ təcrübələri tətbiq etməklə Azərbaycanın məişət malları bazarının qlobal tendensiyalara uyğunlaşmaq üçün əhəmiyyətli potensialını vurğulayır. İnfrastruktur boşluqları, maliyyə məhdudiyyətləri və tənzimləmə problemləri kimi problemlər davam etsə də, transformasiya imkanları çoxdur. Texnologiyadan istifadə etməklə, davamlılığı gücləndirməklə və dövlət-özəl əməkdaşlığı inkişaf etdirməklə Azərbaycan təşkilati və iqtisadi mexanizmlərini təkmilləşdirə, nəticədə daxili bazarı gücləndirə və uzunmüddətli artımı təmin edə bilər.

ƏDƏBİYYAT

1. Azərbaycan hökuməti. (2021). “Azərbaycan 2030: Sosial-İqtisadi İnkişafın Milli Prioritetləri”
2. Azərbaycan Dövlət Statistika Komitəsi. (2023). Məişət Malları Bazarı Hesabatı
3. Chopra, S. və Meindl, P. (2021). Təchizat Zəncirinin İdarə Edilməsi: Strategiya, Planlaşdırma və Əməliyyat. Pearson Təhsili
4. Dünya Bankı. (2023). Qlobal Rəqabət Qabiliyyəti və Bazar Dinamikası. Dünya Bankının Nəşrləri
5. İvanov, D., & Dolgui, A. (2021). Rəqəmsal Təchizat Zəncirinin Dayanıqlığı: İnkişaf etməkdə olan Perspektivlər və Problemlər. Springer
6. İƏİT. (2020). Dövlət-Özəl Tərəfdaşlıq vasitəsilə Bazar Təşkilatının Təkmilləşdirilməsi. OECD Nəşriyyatı
7. Liker, J. K. (2021). Toyota Yolu: Dünyanın Ən Böyük İstehsalçısından İdarəetmə Prinsipləri. McGraw-Hill Təhsili
8. Porter, M. E. (1990). Millətlərin Rəqabət Üstünlüyü. Azad Mətbuat

Севда Мазахим Сулейманлы
докторант, АУК

Изучение международного опыта организационно-экономических механизмов обеспечения внутреннего рынка хозяйственными товарами

Резюме

Цель исследования – проанализировать и оценить мировые практики и стратегии эффективного управления и развития отечественного рынка бытовой техники.

Методология работы включает сравнительный анализ ведущих мировых практик, статистические оценки и тематические исследования для определения эффективных стратегий оптимизации цепочек поставок на внутреннем рынке для домохозяйств.

Прикладная значимость исследования заключается в том, что оно может помочь политикам и предприятиям принять проверенные международные стратегии по повышению эффективности и конкурентоспособности внутренних рынков товаров для дома.

Результаты исследования подчеркивают эффективность интеграции передового международного опыта, такого как развитая логистика, диверсификация цепочек поставок и стратегическое государственно-частное партнерство, для совершенствования организационно-экономических механизмов поставок сельскохозяйственной продукции на внутренний рынок.

Оригинальность и научная новизна исследования заключаются в сравнительном анализе международной практики и ее адаптации к уникальным социально-экономическим и рыночным условиям местного сектора товаров для дома, а также в предоставлении конкретных рекомендаций по повышению эффективности и устойчивости.

Ключевые слова: внутренний рынок, товары для дома, международный опыт.

Sevda Mazakhim Suleymanlı
PhD-student, ACU

Studying international experience of organizational and economic mechanisms of supplying the domestic market with household goods

Summary

The purpose of the study is to analyze and evaluate global practices and strategies for the effective management and development of the domestic market for household appliances.

The methodology of the work includes a comparative analysis of advanced world practices, statistical assessments and case studies to identify effective strategies for optimizing domestic market supply chains for households.

The applied importance of the research lies in its potential to guide policymakers and businesses in adopting proven international strategies to increase the efficiency and competitiveness of domestic household goods markets.

Açar sözlər: nəqliyyat infrastrukturu, turist axınının artımı, turistlərin daşınması, təhlükəsizlik, xidmətlər.

Anar Ali Azizov
Doctor of Economic Sciences,
Azerbaijan Cooperation University,
E-mail: anar.azizov71@mail.ru

Transport services for tourists in Azerbaijan

Summary

The purpose of the study is to analyze the main types of transport, the organization of their services in tourism and, on this basis, to develop recommendations for improving these processes in accordance with modern requirements.

Research methods - comprehensive, systemic and comparative analysis, methods of logical generalization and statistical, interpretation.

The practical significance of the study - the recommendations can be used by travel companies, firms, entrepreneurs, as well as transport organizations serving tourists in order to provide high-quality and safe transport services.

The results of the study found that tourism is fully connected and largely depends on transport services, ensuring its safety and comfort provided to tourists during travel. The development of transport in tourism is determined by the availability of vehicles.

The originality and scientific novelty of the study is a scientifically substantiated proposal that high-quality transport services in tourism significantly influences the improvement of international relations, allowing for mutually beneficial exchanges between countries, and, as a result, affects the growth of tourist flows. It has been established that a dynamically developing transport infrastructure is of great importance for regions where tourism is one of the main strategic issues.

Key words: transport infrastructure, growth of tourist flow, transportation of tourists, safety, services.

UOT 379

Günay Cahangir qızı ƏSƏDOVA
Azərbaycan Dövlət İqtisad Universitetinin
doktorantı
Günay.asadova30@gmail.com
https://doi.org/10.30546/4.71.73001.2024.004.047

OTEL BİZNESİNDƏ İDARƏETMƏ UÇOTUNUN XÜSUSİYYƏTLƏRİ

Xülasə

Tədqiqatın məqsədi - respublikanın otel biznesində idarəetmə uçotunun müasir vəziyyətini qiymətləndirmək və onun təkmilləşdirilməsi istiqamətlərini müəyyən etməkdir.

Tədqiqatın metodologiyası - sistemli yanaşma, təhlil və sintez, induksiya, deduksiya.

Tədqiqatın tətbiqi əhəmiyyəti – mehmanxana komplekslərinin rəqabət qabiliyyətinin və göstərdikləri xidmətlərin keyfiyyətinin yüksəldilməsi məqsədi ilə idarəetmə uçotunun təşkili praktikasında istifadə imkanları.

Tədqiqatın nəticələri – qonaqpərvərlik sənayesində, xüsusi ilə mehmanxana müəssisələrində idarəetmə uçotunun təkmilləşdirilməsi istiqamətləri qiymətləndirilmişdir.

Tədqiqatın orijinallığı və elmi yeniliyi – Mehmanxana komplekslərində idarəetmə uçotunun metodologiyasının və metodikasının təkmilləşdirilməsi.

Açar sözlər: otel biznesi, idarəetmə uçotu, xərclər, kalkulyasiya, maya dəyəri.

Giriş

İdarəetmə baxımından otel sferası xidmətlə əlaqəli bir çox funksiyaları həyata keçirir. Əsas məqsəd qonaqların ehtiyaclarına uyğun yaşayışın təmin olunmasıdır. Bu xidmətin göstərilməsi üçün nömrələrin sifarişi, giriş zamanı sənədlərin qeydiyyatı, ödənişin variantları, ətraflı xidmət prosedurları kimi müxtəlif xidmətlərin təminatı mövcuddur.

Bu səbəbdən istər respublika, istərsə də dünya ölkələri mütəxəssislərinin idarəetmə uçotunun mahiyyəti və məzmunu ilə bağlı müxtəlif yanaşmaları araşdırılmış, mühasibat uçotu sisteminin tərkibi kimi idarəetmə uçotunun strateji uçot, istehsalat uçotu və kontrolinqlə oxşar və fərqli yanları, həmçinin də bu sferada onun beynəlxalq prinsiplərə uyğunluğu qiymətləndirilmişdir. Bununla yanaşı, məqalədə beynəlxalq təcrübədə idarəetmə uçotunda geniş yer almış xərclərin təsnifatı, qruplaşdırılması, onların formalaşması yerləri və məsuliyyət mərkəzləri üzrə bölüşdürülməsi metodu, həmçinin də maya dəyərinin kalkulyasiyası metodlarının standart-kost və direct-kostinq sisteminin respublikanın uçot praktikasında tətbiqinin mümkünlüyü dəyərləndirilmişdir.

Son illərdə “idarəetmə uçotu” termini çox məşhurlaşmışdır. XİX-XX əsrlərdə transmilli korporasiyaların yaradılması və fəaliyyət göstərməsi, kapitalın təmərküzləşməsinin, rəqabətin, istehsalın kooperativləşməsi və kombinəşləşməsi və digər proseslərin dərinləşməsi şəraitində mühasibat uçotunun təşkilinə və aparılmasına tələblər dəyişmişdir. Məsələyə bu prizmadan yanaşaraq qeyd etmək yerinə düşər ki, uçot sahəsində mövcud çatışmazlıqlar kalkulyasiya uçotunda özünü aydın göstərirdi. Belə ki, son məhsulun bir neçə qarışıq sex, bəzən də müəssisələr tərəfindən hazırlanması, eləcə də məhsulların müxtəlif ölkələrə və regionlara satışı zamanı son məhsulun orta maya dəyəri haqqında məlumatlar məhsulun maya dəyərinin səmərəli idarə olunmasını təmin etmirdi.

İdarəetmə uçotunun mahiyyəti və iqtisadi məzmunu

Qeyd edək ki, idarəetmə uçotu anlayışı ilə əlaqədar vahid fikir yoxdur və bu sahədə iqtisadçı alimlərin yanaşmaları müxtəlifdir. Uçot sahəsində tanınmış iqtisadçılar mühasibat informasiya sistemində idarəetmə uçotunun mahiyyəti və rolu, onun məqsədi və vəzifələri haqqında müxtəlif fikirlər irəli sürürlər. Onlar idarəetmə uçotu mexanizmini idarəetmə uçotunu aparan bölmələrin quruluşunu, sənəd dövriyyəsi cədvəlinin tərtib edilməsi ilə məşğul olan maliyyə strukturunu müəyyən edən bir bölmədə birləşdirirlər. Əlbəttə, elmi araşdırmalarda idarəetmə uçotu məqsədi ilə uçot

siyasətinin texniki aspektinin elementləri detallaşdırılmır. Bunları nəzərə alaraq uçotun texnikası dedikdə uçot prosesinin həyata keçirilməsi məqsədi ilə istifadə olunan hesablama avadanlıqları, alətləri, üsul və metodları başa düşülür.

Tədqiqat göstərir ki, uçota aid müasir iqtisadi ədəbiyyatlarda təşkilatın səmərəli idarə olunmasına şərait yaradan idarəetmə uçotu elementlərinə yanaşmalar müxtəlifdir. Belə ki, bəziləri idarəetmə uçotunun üç əsas hissəsini fərqləndirir: istehsal uçotu, planlaşdırma və təhlildən ibarət olduğunu vurğulayır. [12]. Fikrimizcə, elementlərin bu siyahısı uçotun sonrakı mərhələlərdə aparılması və idarəetmə informasiyasının təmin edilməsi baxımından tam hesab oluna bilməz.

Karpov T.P. belə hesab edir ki, idarəetmə uçotu elementlərinə planlaşdırma, proqnozlaşdırma, stimullaşdırma, istehsalın idarə olunması, qiymətqoyma, texnika və texnologiya, informasiya təminatı kimi elementləri [5], digərlərinə görə büdcələşdirmə, seqmentar uçot və hesabat, idarəetmə nəzarəti və təhlil daxildir [10]. Vurğulamaq lazımdır ki, yuxarıdakı yanaşmalar təşkilatın idarə edilməsinin bütün spektrini səciyyələndirsə də, təşkilati-texniki tərəfi nəzərə almır.

Xüsusi qeyd olunmalıdır ki, uçot sisteminin elementlərinin vahidliyi səbəbindən uçotun metodikası, texnikası və təşkili üzrə sərhədləri müəyyən etmək çətindir. Bu səbəbdən uçotun təşkilati aspektinə müxtəlif məsələləri aid edilir: orta rəhbərlik baxımından məsuliyyət mərkəzlərinin formalaşdırılması, xidmətlər arasında əlaqə və qarşılıqlı münasibətlərin müəyyən edilməsi, göstəricilər sisteminin və daxili hesabat formalarının yaradılması [7], məsuliyyət mərkəzlərinin formalaşdırılması, sənəd dövriyyəsi, avtomatlaşdırma, daxili hesabat [8].

Problemin həlli baxımından kalkulyasiya uçotunun təkmilləşdirilməsi məqsədi ilə bir sıra inkişaf etmiş ölkələrdə istehsala xərclərin uçotunun və kalkulyasiya edilməsinin yeni metodlarının tətbiqinə keçdilər. Bura kalkulyasiya uçotunu istehsal uçotu sisteminin mühüm elementinə çevirən məsuliyyət mərkəzləri üzrə xərclərin uçotu, maya dəyərinin standart-kost və direkt-koctinq sistemi üzrə kalkulyasiya eddilməsini aid etmək olar. İstehsalat uçotu sisteminin gələcək inkişafı prosesində idarəetmənin uçotla yanaşı digər funksiyalarının-planlaşdırma, nəzarət, təhlil, qərarın qəbul edilməsi funksiyalarının tətbiqi istehsalat uçotu sistemini idarəetmə uçotu sisteminə çevirmişdir [14].

İdarəetmə uçotunun yarandığı və inkişafı dövründə onun mahiyyəti, məqsəd və funksiyaları ilə bağlı müxtəlif fikirlər formalaşmışdır. Uçot sahəsində xüsusi ədəbiyyatların təhlili göstərir ki, “idarəetmə uçotu” ilə bağlı vahid tərif, vahid yanaşma mövcud deyildir. Belə ki, V.B.İvaşkeviç hesab edir ki, idarəetmə uçotu maliyyə və qeyri-maliyyə informasiyalarının identifikasiyası, ölçülməsi, toplanması, təhlili, hazırlanması, interpretasiyası və təqdim olunması prosesidir ki, onların əsasında müəssisənin rəhbərliyi operativ və strateji qərarlar qəbul edir. İdarəetmə uçotu iki komponentdən ibarətdir: istehsal uçotu və maliyyə uçotunun təşkilatın maliyyə fəaliyyətinin idarə olunmasına xidmət edən hissəsi [7, s.26]. Müəllif fikrini davam etdirərək idarəetmə uçotunu kontrolinqə əks qoymadan operativ idarəetmə uçotu və kontrolinq, strateji uçotla kontrolinq arasında paralellər apararaq qeyd edir: “Strateji uçot və kontrolinq üzvi şəkildə idarəetmə uçotu sisteminə daxildir, birincisi, ona görə ki, şirkətin idarə olunması üçün nəzərdə tutulmuşdur, ikincisi, idarəetmə məqsədi ilə vahid cari, qeyri-strateji uçot üçün xərc və nəticə artımına, marjinal gəlir, fəaliyyətin seqmentləri üzrə uçot və s. istiqamətlənmiş üsul və metodlardan istifadə olunur. Bununla yanaşı, burada iqtisadi-riyazi modellərdən, proqnozlaşdırma, diskontlaşdırma metodlarından və bu qəbildən digər vasitələrdən istifadə olunur” [7, s.43].

İdarəetmə uçotunun tərifi ilə bağlı digər fikir də maraqlıdır: “İdarəetmə uçotu– uçot, planlaşdırma, nəzarət və onun fəaliyyətinin qiymətləndirilməsi təşkilati işlər, stimullaşdırma və davranışların koordinasiyası üzrə informasiya əlaqələr funksiyalarından istifadə etməklə təşkilat daxilində baş verən prosesdir” [3, s.9].

Belə ki, bəzi iqtisadçılar hesab edirlər ki, istehsalat uçotu idarəetmə uçotundan fərqlidir [3], bəzilərinə görə istehsalat uçotu idarəetmə uçotunun komponentlərindən biridir [7], bəzilərinə görə istehsalat uçotu idarəetmə uçotundan daha məhduddur [2, s.30-31]. Deyilənlərə rəğmən, belə bir fikir irəli sürmək olar ki, müəyyən ziddiyyət və çatışmazlıqlara baxmayaraq bir qrup iqtisadçı [5; 6] tərəfindən idarəetmə uçotunun mahiyyəti daha dolğun açıqlanmış, daha doğrusu, müəssisənin

bölmələrinin idarə olunması, operativ, taktiki və strateji idarəetmə qərarlarının hazırlanması üçün məlumatların toplanması, ölçülməsi, sistemləşdirilməsi və ötürülməsini təmin edən informasiya sistemi kimi səciyyələndirilmişdir [2, s.33-34; 3; 5].

Y.V.Sokolovun fikrinə görə, idarəetmə uçotu ilk növbədə əsas istehsalın analitik uçotu, xərclərin kalkulyasiyası, müəssisə agentlərinin xərclərinin qeyd olunması, ikincisi, əsasən təsərrüfat fəaliyyətinin perspektiv təhlilidir. Müstəqil elmi-praktiki istiqamət kimi idarəetmə uçotunun meydana gəlməsi səhvdir. Alimin fikrincə, termin ingilis dilindən (management accounting) düzgün tərcümə edilməmişdir. O öz fikrini belə tamamlayır: “İdarəetmə uçotu mifdir, ona həqiqət kimi inanırlar, lakin onda həqiqət yoxdur” [13].

Digər qrup alimlər, əksinə, idarəetmə uçotu ilə istehsal uçotu arasında fərqlərin mövcud olduğunu iddia edirlər. Belə ki, S.S.Satubaldin iddia edir ki, “idarəetmə uçotu məmulat növləri və məsrəflərin məsuliyyət mərkəzləri və ya mənfəət mərkəzləri üzrə xərclərin təsnifləşdirilməsi, yazılışların tərtibi, maya dəyərinin müəyyən olunması, xərclər haqqında smeta və hesabatın tərtib edilməsi, optimal idarəetmə qərarlarının seçilməsi və qəbul edilməsi məqsədi ilə rəhbərlik üçün informasiyanın hazırlanması ilə əlaqədardır [4]. Qeyd olunan fikirlərin mahiyyəti onu xarakterizə edir ki, idarəetmə uçotu hazırkı və gələcək istehsal xərclərinin uçotu və təhlilini özündə birləşdirir. İdarəetmə uçotunun belə konsepsiyası onun bir sıra mühüm funksiyalarını nəzərə almadığından onun məzmununu daraldır.

Mehmanxana müəssisələrində idarəetmə uçotunun təşkilinin müasir vəziyyətinin qiymətləndirilməsi

Müasir otellər geniş çeşiddə xidmətlər təklif edir. Əslində, otel kompleksi işgüzar turizm və istirahət sənayesi ilə sıx bağlıdır. Turizm biznesi inkişaf etmiş otellər şəbəkəsi və onlara xidmət göstərən şirkətlər olmadan praktiki olaraq mövcud ola bilməz. Bu biznesin inkişafı onun üçün müvafiq xərclərin artması ilə əlaqələndirilir ki, bu da təklif olunan xidmətlərin çeşidini artırır və xidmət keyfiyyətinin artmasına səbəb olur.

Bu gün otellər təkcə gecələmə üçün deyil, həm də camaşırxana xidmətlərindən istifadə edə biləcəyiniz, duş qəbul edə biləcəyiniz, otağınızda nahar sifariş edə biləcəyiniz və ya restorana baş çəkə biləcəyiniz yerlər kimi nəzərdə tutulub. Mehmanxanalarda göstərilən xidmətlərin müxtəlifliyi yalnız tələb olunan xidmət keyfiyyətinin monitorinqini və işçilərin işinə nəzarət etməyi deyil, həm də bütün mümkün xərclərin uçotunun aparılmasını tələb edir. Bu, ilk növbədə, otel kompleksinin sahiblərinə öz pullarına qənaət etməyə imkan verir. Avtomatlaşdırılmış uçot sistemləri bu problemi ən səmərəli şəkildə həll etməyə kömək edir. Onlar bütün mövcud otel xidmətlərinin xərcləri və gəlirləri üzərində nəzarəti vahid elektron avtomatik idarəetmə sisteminə birləşdirə bilirlər.

Normativ sənədlər sahibkarlıq fəaliyyətinin müxtəlif sahələri üçün ayrıca uçotun aparılmasını nəzərdə tutur. Bu, həm də mehmanxana sənayesinə aiddir, burada mövcud xidmətlərin hər bir fərdi növünün öz mühasibat şöbəsi olmalıdır. Buna görə də, sahibləri otellərini təşkil edərkən müəyyən edilmiş maliyyə qanunvericiliyinə riayət etməlidirlər.

Beləliklə, həmin dövrlərdə idarəetmə uçotunun mahiyyəti ilə bağlı fikirlərin sistemləşdirilməsi və ümumiləşdirilməsi əsasında onları dörd qrupa bölmək olar.

Birinci qrupa daxil olan mütəxəssislər idarəetmə uçotunu istehsal (retrospektiv və perspektiv) uçotu kimi qəbul edirlər.

İkinci qrup alimlər idarəetmə uçotunu təşkilatın idarə olunması sisteminin tərkib hissəsi hesab edir və və onların fikrincə o, mühasibat uçotu ilə yanaşı təhlil, normalaşdırma, planlaşdırma, proqnozlaşdırma və s. məsələləri də özündə birləşdirməlidir.

Üçüncü qrupa idarəetmə və mühasibat uçotunu müstəqil informasiya sistemi kimi xarakterizə edən mütəxəssisləri aid etmək olar.

Dördüncü qrup alimlər hesab edirlər ki, idarəetmə uçotu istehsal uçotunun müasir interpretasiyasıdır və onu uçotun müstəqi növü kimi fərqləndirmək düzgün deyildir.

Beləliklə, idarəetmə uçotu iqtisadi subyekt tərəfindən fəaliyyətin planlaşdırılması, nəzarət, təhlili və idarə olunması məqsədi ilə özünün və struktur bölmələrinin təsərrüfat fəaliyyəti haqqında

informasiyanın toplanması, qeyd edilməsi, ümumiləşdirilməsi və təqdim edilməsi məqsədi ilə yaratdığı sistemdir.

Təşkilatın təsərrüfat fəaliyyəti haqqında informasiyanın toplanması təsərrüfat əməliyyatlarının və digər iqtisadi əhəmiyyətli hadisələrin sonradan idarəetmə uçotu sistemində əks etdirilməsi məqsədi ilə müəyyən edilməsi, təsnifləşdirilməsi, qiymətləndirilməsi və ölçülməsidir. Məlumatların qeyd olunması təsərrüfat əməliyyatlarının və digər iqtisadi əhəmiyyətli hadisələrin qaydaya salınması və ardıcıl olaraq ilkin sənədlərdə və uçot registrlərində əks etdirilməsidir. İnformasiyanın ümumiləşdirilməsi onların təhlili, hazırlanması və interpretasiyasıdır. İnformasiyanın təhlili prosesində istifadəçilərə təqdim edilən informasiyanın tərkibinin müəyyən edilməsi, təşkilatın fəaliyyətinin müxtəlif göstəricilər arasında qarşılıqlı əlaqə, göstəricilərin iqtisadi əhəmiyyətli hadisələrdən və situasiyalardan asılılığı müəyyən edilir. İnformasiyanın hazırlanması və interpretasiyası prosesi zəruriyyət yarandıqda analitik və proqnoz nəticələri özündə əks etdirən məntiqi əlaqədə plan, uçot və digər informasiyanın təqdim edilməsini xarakterizə edir. Hazırlanmış informasiya cədvəl, qrafik və tekst formasında istifadəçilərə təqdim edilir [2; 8].

Hazırkı dövrə qədər elm aləmində strateji idarəetmə uçotuna vahid baxışlar sistemi mövcud deyildir. İdarəetmə uçotunun strateji və cari (idarəetmənin daxili tələbatı üçün) olmaqla iki növə ayrılması daha geniş yayılmış mövqe hesab olunur [4; 7, s. 42; 9; 10]. Vurğulamaq yerinə düşər ki, həmin yanaşmalarda strateji idarəetmə uçotunun həm geniş, həmçinin də, dar çərçivədə traktovkasına rast gəlinir.

Birinci halda, strateji idarəetmə uçotu strateji istiqamət (strateji menecment) kəsb edən təşkilati-informasiya sistemi kimi nəzərdən keçirilir [9; 10]. İkinci halda, strateji idarəetmə uçotu "balanslaşdırılmış göstəricilər sistemi əsasında strateji qərarların informasiya təminatıdır... məsuliyyət mərkəzləri nöqteyi-nəzərindən müəssisənin necə səmərəli işlədiyini müəyyən edən informasiyalar" kimi başa düşülməlidir [3]. Qeyd olunan tərifl ərdə strateji idarəetmə uçotunun məzmununun daraldılması həm uçot obyekti üzrə (məsuliyyət mərkəzləri), həmçinin də onun alətləri üzrə (balanslaşdırılmış göstəricilər sistemi) əlaqədardır.

Fikrimizcə, strateji idarəetmə uçotunun obyektləri və alətlərinin genişləndirilməsinə ehtiyac duyulur. Birinci halda, bura, kənar mühitin, bazarların, müştəri bazasının, biznes-proseslərin indiqatorları, ikinci məsələ üzrə fəaliyyət növləri üzrə xərclərin uçotu– activity-based kosting, ABC, iqtisadi əlavə dəyər modeli, eləcə də, dəyərlərin həlqələrinin təhlili əlavə olunmalıdır. Burada iqtisadi-riyazi modelləşdirmə öz layiqli yerini tutmalıdır. Belə bir məsələni də qeyd etmək yerinə düşər ki, uçot və təhlil arasında sıx əlaqə mövcuddur, məntiq baxımından hesab etmək olar ki, bütövlükdə idarəetmə uçotu, o cümlədən, strateji idarəetmə uçotu strateji təhlilin sələfi olmalıdır, sonuncunun məqsədi strateji alternativin axtarılması və seçilməsidir.

İdarəetmə uçotu üzrə ölkə alimlərinin nəşr olunmuş müasir ədəbiyyatlarında müəssisənin xərclərinin öyrənilməsinə, onların əsas təsnifatına, xərclərin qruplaşdırılması və xərclərin yerinə və onların formalaşması mərkəzlərinə görə bölüşdürülməsi metodlarına, müxtəlif metodların – direkt-kostinq və standart-kostinq sisteminin tətbiqi şəraitində xərclərin ölçülməsi və uçotuna aksent edilir [1; 2; 10]. Başqa sözlə, təşkilatın xərcləri haqqında informasiyaların işlənməsinin müxtəlif metodları – "ölməz uçotun" özünəməxsus idarəetmə modifikasiyası diqqət mərkəzindədir. Ədalət naminə qeyd etmək lazımdır ki, həmin ədəbiyyatlarda büdcələşdirməyə həsr edilmiş bölmə mövcuddur. Lakin həmin bölmənin son məqsədi göstəricilərin faktiki kəmiyyətinin büdcə səviyyəsindən kənarlaşmasının müəyyən edilməsi və təhlilidir ki, bu da, analitiki yenə təşkilatın tarixinə aparır.

Qeyd etmək lazımdır ki, idarəetmə uçotu üzrə elmi əsərlərdə və monoqrafiyalarda üstəlik xərclərin kalkulyasiya obyektləri arasında bölüşdürülməsi və yenidən bölüşdürülməsinin daha dəqiq metodlarının seçilməsi problemi, xərclərin uçotu və kalkulyasiyasının təşkilati-metodiki təminatı, mühasibat hesablarında idarəetmə və maliyyə mühasibatlığının əlaqə formalarının axtarılması ön plana çıxmışdır [2; 12]. Belə ki, idarəetmə uçotunda kalkulyasiya prosesinin sistemli əks etdirilməsini təmin edən məcmu hesabatların hazırlanması və onda maliyyə nəticələrinin müəyyən edilməsi mühüm əhəmiyyət kəsb edir.

Otel biznesi respublikada sürətlə inkişaf edən sahələrdən biridir. Qonaqlarına dünya standartlarına uyğun keyfiyyətli, komfort və rahatlıq təqdim edən otel sahibləri biznes üçün də müəyyən xidmətlər (rəsmi tədbirlərin keçirilməsi üçün konfrans zalları, valyutadəyişmə məntəqələri, nəqliyyat xidmətləri və digərləri) təqdim etməlidir ki, onlar vaxta qənaət etsinlər Belə şəraitdə idarəetmə uçotu otel biznesi müəssisələrində xərclərin uçotunun və xidmətlərin kalkulyasiya edilməsinin mühüm aləti hesab olunur.

Otel biznesində idarəetmə uçotunun təşkili məsələlərində ekspertlər belə hesab edirlər ki, kalkulyasiyalaşdırma otel xidmətlərinin maya dəyərinin müəyyən edilməsi, nömrə fondunun rentabelliyi üzərində idarəetmə nəzarəti və otellərin işinin səmərəliliyinin daxili qiymətləndirilməsi üçün istifadə etməlidirlər. Onların fikrinə əsasən nömrə fondunun səviyyəsindən asılı olaraq birbaşa və dəyişən xərclərin bölüşdürülməsi nömrə fondunun maya dəyərinin kalkulyasiyasında ən mürəkkəb aspektdir [11].

Mövcud normativ-hüquqi bazanın, xüsusi ədəbiyyatların, otel biznesi müəssisələrinin fəaliyyətinin təhlili otellərdə xərclərin uçotunun təşkilinin bir sıta nəzəri və metodiki çatışmazlıqlarının müəyyən edilməsinə imkan verir. Həmin çatışmazlıqlar aşağıdakılardır:

- otel biznesi sferasında xidmətlərin göstərilməsi ilə əlaqədar vahid sistemli anlayış aparatının olmaması;
- otel biznesi müəssisələrində xərclərin uçotda sistemləşdirilməsi üçün bazanın yaradılmasına imkan verən otel xidmətlərinin əsaslandırılmış təsnifatının olmaması;
- otel xidmətlərinin xüsusiyyətləri, onların idarə olunması və xərclərin uçotu praktikası arasında əsaslandırılmış qarşılıqlı əlaqənin olmaması;
- otel üçün xərclərin uçotunun və maya dəyərinin (xərc daşıyıcılarının) vahid obyektinin olmaması;
- otel biznesi müəssisələrində istifadə olunan xərc maddələrinin təkmil olmaması;
- xidmət göstərilməsi üzrə otelin əsas və köməkçi bölmələrinin xərclərinin ayrıca aparılmaması;
- idarəetmənin informasiya təminatını formalaşdıran daxili hesabat sisteminin təkmil olmaması.

Nəticə

Müasir dövrdə otel biznesi müəssisələrində xərclərin uçotunun və idarəetmənin informasiya təminatının formalaşdırılması sisteminin təkmilləşdirilməsi məqsədi ilə aşağıdakı mühüm vəzifələrin həll edilməsi zəruridir:

- otel biznesi sferasında istifadə olunan anlayış aparatını dəqiqləşdirmək;
- otel biznesi müəssisələrində xərclərin uçotda sistemləşdirilməsi bazası kimi otel xidmətlərinin təsnifatını dəqiqləşdirmək;
- otel biznesi müəssisələrində xərclərin təsnifatını dəqiqləşdirmək;
- otel biznesi müəssisələrində xərclərin uçotu və otel xidmətlərinin maya dəyərinin hesablanması metodikasının təkmilləşdirilməsi üzrə təkliflər hazırlamaq;
- idarəetmənin informasiya təminatını formalaşdıran daxili hesabatın struktur sisteminin yaradılması üzrə təklifləri əsaslandırmaq.

Beləliklə, müasir otel biznesi müəssisələrində idarəetmə uçotunun vacibliyi ilə bağlı belə bir fikir formalaşdırmaq olar ki, rəqabət şəraitində xüsusi olaraq hazırlanmış informasiya olmadan onların peşəkar idarə edilməsi mümkün deyildir. İdarəetmə uçotu təsərrüfat subyektinin idarə olunması qarşısında duran mühüm vəzifələrin həll edilməsində, daxili istifadəçilərin məlumat və göstəricilərlə təmin olunmasında, idarəetmə prosesinin təkmilləşdirilməsi üzrə əsaslandırılmış optimal qərarların qəbul edilməsində mühüm rol oynayır.

ƏDƏBİYYAT

1. Abbasov Q.Ə. Mühasibat uçotu. Dərslik. – Bakı: İqtisad Universiteti. 2015. – 485.s.
2. Səbzəliyev S.M., Quliyev V.M. İdarəetmə uçotu. Bakı. Elm və təhsil. 2014.

3. Грибовский В.М.Бухгалтерский управленческий учет: учебное пособие /под ред.Е.И.Костюковой. – М.: КноРус. 2014. – 266 с.
4. Вахрушина М.А., Сидорова М.И., Борисова Л.И. Стратегический управленческий учет. Учебник. – М.: Национальное образование. КноРус. 2013. 2019– 672 с.
5. Карпова Т.П. Управленческий учет: Учебник для вузов. М.: Юнити-Дана. 2017. 351 с.
6. Кондраков Н.П. Бухгалтерский управленческий учет. М.: Перспектив. 2021, 512 с.
7. Ивашкевич В.Б. Бухгалтерский управленческий учет. М.: Магистр. 2019, 448 с.
8. Малиновская Н.В. Интегрированная отчетность-инновационная модель корпоративной отчетности // Международный бухгалтерский учет. 2013. №38. – с. 12-17
9. Николаева О.Е. Классический управленческий учет: учебник для вузов. – М.: Эдиториал УРСС. 2014. – 400 с.
10. Плотников В.С., Плотникова О. В. Бизнес учет и интегрированная отчетность // Международный бухгалтерский учет. 2014. №13. – с. 25-34
11. Самопальникова Ю.Н. Влияние особенностей услуг гостиниц и организации управления ими на построение бухгалтерского учета затрат. //Современные аспекты экономики. Санкт-Петербург. № 7(74). 2015. с.142-159.
12. Сергеева И.А. История становления и развития управленческого учета //Инновационная наука. 2015 №1. с.150-154
13. Соколов Я.В., Бутынец Ф.Ф., Горецкая Л.Л., Панков Д.А. Бухгалтерский учет в зарубежных странах, М.: Проспект, 2007. - 672 с.
14. Энтони А.Аткинсон, Банкер Раджив Д., Янг Марк С., Каплан Роберт С.. Управленческий учет. Пер. с англ. М.: Вильямс. 2019. 880 с.

Гюнай Джахангир кызы Асадова
докторант Азербайджанского Государственного Университета

Особенности управленческого учета в гостиничном бизнесе

Резюме

Цель исследования – оценить современное состояние управленческого учета в гостиничном бизнесе республики и определить направления его совершенствования.

Методология исследования – системный подход, экономический анализ, синтез, индукция и дедукция.

Практическая значимость исследования – возможность использования в организации управленческого учета в целях повышение конкурентоспособности и качества услуг гостиничных предприятий.

Результаты исследования – оценено направлений совершенствование управленческого учета в промышленности гостеприимства.

Оригинальность и научная новизна исследования - совершенствования методологии и методики управленческого учета в гостиных комплексах Азербайджана.

Ключевые слова: гостиничный бизнес, управленческий учет, расходы, калькуляция, себестоимость.

Gunay Jahangir Asadova
Doctoral student Azerbaijan Cooperation University

Features of management accounting in the hotel business

Summary

The purpose of the study is - assess the current state of management accounting in the hotel business of the republic and determine areas for its improvement.

The methodology of the research – systems approach, economic analysis, synthesis, induction and deduction.

The practical importance of the research –- the possibility of using management accounting in the organization in order to increase the competitiveness and quality of services of hotel enterprises.

The results of the research - areas for improving management accounting in the hospitality industry were assessed.

The originality and scientific novelty of the research - improving the methodology and techniques of management accounting in hotel complexes in Azerbaijan.

Key words: hotel business, management accounting, expenses, calculation, cost price.

UOT 379.004

Taley Vidadi oğlu AĞAZADƏ
Azərbaycan Turizm və Menecment Universitetinin
"Menecment" kafedrasının doktorantı
Taleh.aghazada@gmail.com
ORCID №: 0009-0003-3491-2593
https://doi.org/10.30546/4.71.73001.2024.004.049

RƏQƏMSAL İNNOVASİYALARIN AZƏRBAYCANDA TURİZMİN DAVAMLI İNKİŞAFINA TƏSİRİ

Xülasə

Məqalənin məqsədi rəqəmsal texnologiyaların və müasir marketinq strategiyalarının Azərbaycanda turizm sənayesinin inkişafına təsirini təhlil etmək və Azərbaycanda turizm sənayesinin uzunmüddətli davamlı inkişafı üçün tövsiyələrin hazırlanmasıdır.

Tədqiqat metodologiyasına elmi ədəbiyyatın nəzəri icmalı və sənaye hesabatlarından və beynəlxalq turizm tədqiqatlarından əldə edilən məlumatların sistemli təhlili daxildir. Tədqiqat metodları arasında statistik, müqayisəli və ümumiləşdirmə üsullarından istifadə edilmişdir.

Tədqiqatın tətbiqi əhəmiyyəti.Tədqiqat göstərir ki, qabaqcıl marketinq texnologiyalarının tətbiqi və dövlət tənzimləməsinin təkmilləşdirilməsi Azərbaycanın turizm sənayesində təcrübələri əhəmiyyətli dərəcədə yaxşılaşdıra bilər. İşdə turizmə dəstək üçün təklif olunan viza prosedurlarının sadələşdirilməsi və vergi güzəştləri kimi tədbirlər respublikada həm daxili, həm də beynəlxalq turizmi stimullaşdıra bilər.

Dövlət qurumları və xalq təsərrüfatında çalışanlar üçün tövsiyələr turizm sənayesinin davamlı inkişafını dəstəkləmək üçün infrastrukturun və tənzimləmə mexanizmlərinin daha da inkişaf etdirilməsi zərurətini vurğulayır.

Tədqiqatın nəticələri rəqəmsal texnologiyaların milli turizm sənayesinin xidmətlərinin keyfiyyətinin yaxşılaşdırılmasına və onun rəqabət qabiliyyətinin artırılmasına əhəmiyyətli təsir göstərdiyini təsdiq edir. Tədqiqat həmçinin turizmdə innovasiyaların dəstəklənməsində dövlət tənzimlənməsinin əsas roluna işarə edir.

Tədqiqatın orijinallığı və elmi yeniliyi Azərbaycanda turizmin davamlı inkişafı kontekstində əşyaların İnterneti, süni intellekt və blokçeyn kimi rəqəmsal marketinq modelləri və texnologiyalarının inteqrasiyası ilə bağlıdır.

Məqalənin **elmi yeniliyi** Azərbaycanın turizm sənayesinin milli xüsusiyyətləri kontekstində texnoloji innovasiyalar və marketinq strategiyaları arasındakı əlaqələrin tədqiqinə kompleks yanaşmadan ibarətdir.

Açar sözlər: turizmdə rəqəmsal texnologiyalar, süni intellekt, əşyaların interneti, turizmdə blokçeyn, turizmdə marketinq strategiyaları, turizmin davamlı inkişafı, turizmin dövlət tənzimlənməsi.

Giriş

Müasir dövr dünya iqtisadiyyatının əsas sahələrindən birinə çevrilən turizm sənayesinin dinamik inkişafı ilə xarakterizə olunur. Turizm təkcə ölkələrin iqtisadi artımına töhfə vermir, o, həm də mədəni mübadilə, beynəlxalq əməkdaşlığın gücləndirilməsi və yerli icmaların inkişafında mühüm rol oynayır. Bu kontekstdə zəngin mədəni və təbii irsə malik olan Azərbaycan qlobal turizm bazarında öz layiqli yerini tutmağa çalışır.

Azərbaycanda turizmin dövlət tənzimlənməsi həm iqtisadi, həm də sosial-mədəni aspektləri nəzərə almaqla bu sahənin davamlı inkişafına yönəlib. Bunu həm iqtisadi, həm də sosial-mədəni aspektləri özündə birləşdirən bir sıra təşəbbüslər və layihələr təsdiqləyir. Məsələn, dayanıqlı turizmin inkişafı Strategiyasına əsasən, ölkədə təbiətin mühafizəsi, yerli icmaların dəstəklənməsi, tullantıların və çirklənmənin azaldılmasına yönəlmiş layihələr həyata keçirilir ki, bu da ölkədəki daha

geniş davamlı inkişaf strategiyasının bir hissəsidir [1,12].

Bundan əlavə, Azərbaycan BMT ilə əməkdaşlıq çərçivəsində 2021-2025-ci illər üçün Əməkdaşlığa dair Çərçivə Proqramını imzalayıb ki, bu da inklüziv inkişaf, ictimai və sosial xidmətlərin daha yaxşı çatdırılması institutlarının gücləndirilməsi, ətraf mühitin qorunması və iqlim dəyişikliyi ilə mübarizə, həmçinin, gender bərabərliyinə nail olmaq kimi prioritet sahələri əhatə edir [13]. Bu təşəbbüslər həm ani iqtisadi təsirləri, həm də uzunmüddətli sosial-mədəni və ətraf mühitə təsirləri nəzərə alan turizmin inkişafına kompleks yanaşmanı nümayiş etdirir.

Qloballaşma və beynəlxalq turizm mübadiləsinin intensivləşdiyi müasir şəraitdə turizm istiqamətləri arasında rəqabət getdikcə artır ki, bu da turistlərin cəlb edilməsi və turist axınının artırılması üçün innovativ marketinq yanaşmalarının və effektiv dövlət tənzimləməsinin tətbiqi məsələlərini xüsusilə vacib edir[4, s.93].

Turizm sənayesinin əsas hərəkətverici qüvvələri

Ümumdünya Turizm Təşkilatının (UNWTO) və digər mənbələrdən, o cümlədən OECD hesabatlarından əldə edilən araşdırmalar beynəlxalq turizmin artımını və istehlakçıların üstünlüklərində dəyişiklikləri, xüsusən də turizm xidmətlərinin davamlılığı və rəqəmsallaşması istiqamətində olduğunu təsdiqləyir. Belə ki, UNWTO turizm istiqamətlərinin davamlılığının yaxşılaşdırılmasında rəqəmsal texnologiyaların əhəmiyyətini vurğulayır [15]. Əşyaların İnterneti, süni intellekt və blokçeyn kimi texnologiyalar davamlı inkişafı təmin edən və təyinat idarəçiliyini təkmilləşdirən daha cəlbedici, səmərəli və inklüziv turizm təklifləri yaratmağa kömək edir.

UNWTO-nun son məlumatlarına görə, beynəlxalq turizm 2023-cü ilin sonuna qədər pandemiyadan əvvəlki səviyyənin 88%-nə çatıb və onun tam bərpası 2024-cü ildə gözlənilir [16]. Bu bərpa sektorun dayanıqlığını və dinamizmini vurğulayaraq artan hava nəqliyyatı ilə əlçatanlığı və tələbatın yenilənməsi ilə dəstəklənir.

OECD hesabatı rəqəmsal texnologiyaların turizm sənayesində əsas rolunu nümayiş etdirir [11,s.221]. Turizmdə texnologiyalara əsaslanan yeniliklər sektorun müəssisələrinə ənənəvi maneələri dəf etməyə və rəqabət qabiliyyətini artırmağa kömək edir. Hesabatda rəqəmsallaşmanın yeni imkanlar açdığı və yeni biznes modellərinin inkişafına töhfə verdiyi kiçik və orta sahibkarlığa xüsusi diqqət yetirilir.

Bütün bunlar daha çox davamlılıq və rəqəmsallaşmaya can atan müasir dünyada artımı dəstəkləmək və dəyişən istehlakçı seçimlərinə uyğunlaşmaq üçün turizm sənayesi üçün yeni texnologiyalar və davamlı təcrübələrin inteqrasiyasının nə qədər vacib olduğunu göstərir. O, həmçinin rəqəmsal texnologiyaların və davamlı təcrübələrin turizm sənayesinə inteqrasiyasının artan əhəmiyyətinə işarə edir ki, bu da Azərbaycanın qlobal rəqabət mühitində uğuru üçün əsas amil ola bilər. Bu qlobal tendensiyalar Azərbaycanın qlobal turizm bazarının dəyişən şərtlərinə uyğunlaşmasının təhlili üçün əsas rol oynayır.

Müasir marketinq strategiyalarının, rəqəmsal texnologiyaların və davamlı təcrübələrin Azərbaycanın turizm sənayesinin inkişafına inteqrasiyası məsələləri

Müasir turizm ona həsr olunmuş tədqiqatlara kompleks yanaşma tələb edən çoxölçülü bir institutdur. Bu prosesdə marketinq mühüm rol oynayır. Onun məqsədi təkcə turistləri cəlb etmək deyil, həm də turizm məkanının davamlı imicini yaratmaq, ziyarətçilərin tələbatını ödəmək və hər hansı bir regiona iqtisadi fayda verməkdir.

Turizmdə marketinq yanaşmalarının inkişafına əhəmiyyətli təsir göstərmiş əsas tədqiqatlar arasında turizm xidmətləri bazarının öyrənilməsinə, istehlakçıların seqmentləşdirilməsinə və turizm istiqamətlərinin yerləşdirilməsi strategiyalarına həsr olunmuş tədqiqatları qeyd etmək olar. O cümlədən, bu tədqiqatlarda istehlakçı davranışının təhlilinə, onların üstünlüklərinin və səyahətdən gözləntilərinin öyrənilməsinə diqqət yetirilir ki, bu da hədəf auditoriyanın ehtiyaclarına ən yaxşı cavab verən təkliflər yaratmağa imkan verir.

“Yunanıstanda turizm istiqamətlərini ziyarət edən insanların Aralıq dənizi pəhrizinə münasibətləri və motivasiyaları” məqaləsi rəqəmsal marketinqin Yunanıstanın turistlər üçün cəlbediciliyinə təsirini araşdırır [9,s.21]. Bu tədqiqat innovativ marketinq yanaşmalarının regionun turizm

cəlbediciliyini necə artıra biləcəyini nümayiş etdirir.

Oxşar üsullar Azərbaycanda, xüsusən də turistləri cəlb etmək üçün sosial şəbəkələrdən və digər rəqəmsal platformalardan istifadə kontekstində tətbiq oluna bilər. Bu araşdırma turizm istiqamətlərinin seçimində qastronomik üstünlüklərin vacibliyini vurğulayır.

Bu məqalədə aparılan təhlillər göstərir ki, kulinariya xüsusiyyətləri bir bölgənin turizm cəlbediciliyini əhəmiyyətli dərəcədə artıra bilər. Bu qənaətlər yerli mətbəxin beynəlxalq turistlərin cəlb edilməsində mühüm amilə çevrilə biləcəyi Azərbaycan üçün maraq doğurur. Bu araşdırmada göstərildiyi kimi, şübhəsiz ki, böyük potensiala malik olan Azərbaycanda qastronomik turizmin inkişafına daha çox diqqət yetirmək lazımdır [2,s.274;3,s.57;17].

Respublika sağlam qidalanmaya və orijinal kulinariya təcrübələrinə artan marağı nəzərə alaraq, beynəlxalq ziyarətçiləri cəlb etmək üçün unikal üstünlük kimi öz kulinariya ənənəsindən daha geniş istifadə etməlidir. Fikrimizcə, strateji mövqeləşmənin və mövsümiliyin nəzərə alınması həm də ölkənin turizm məkanı kimi cəlbediciliyini artıra bilər. Bu üsullar Azərbaycanda təbiət və mövsümi turizmin inkişafı üçün uyğunlaşdırıla bilər.

“Turizm sənayesinin dayanıqlı inkişafı və qlobal rəqəmsallaşması kontekstində münasibətlər üzrə marketinq” tədqiqatında əlaqələr marketinqinin əhəmiyyəti və onun turizmin davamlı inkişafına verdiyi töhfə vurğulanır[10]. Bu tədqiqat rəqəmsal texnologiyadan istifadənin müştəri ilə qarşılıqlı fəaliyyəti necə yaxşılaşdıra və turist məmnunluğunu artıra biləcəyini, bununla da onların sədaqətini artıra və istiqamətlərə uzunmüddətli marağı qoruya biləcəyini göstərir. Bu işin təhlili Azərbaycanın turizm təşkilatlarına marketinq kommunikasiyalarını optimallaşdırmaq və müştəri münasibətlərini idarə etmək üçün müasir informasiya texnologiyalarını tətbiq etməyi tövsiyə etməyə imkan verir.

“Turizm sektorunda bazar strukturları, strategiyaları və innovasiyaları” adlı əsərdə bazar strukturu ilə innovasiya strategiyalarının seçimi arasında əlaqə açıqlanır [8]. O, coğrafi təmərküzləşmə və bazar şəraitinin turizm müəssisələrinin innovativ fəaliyyətini necə stimullaşdıra və ya məhdudlaşdıra biləcəyini nümayiş etdirir. Bu təhlil əsasında belə qənaətə gəlmək olar ki, Azərbaycanda milli turizm sektorunun rəqabət qabiliyyətini gücləndirmək üçün dəyişən bazar şəraitindən asılı olaraq çevik yanaşmaları uyğunlaşdırmağa ehtiyac var.

Təbii və mədəni sərvətlərin əsas rol oynadığı Azərbaycan kontekstində dayanıqlı təcrübələrin tətbiqi turizmin cəlbediciliyini və iqtisadi faydalarını əhəmiyyətli dərəcədə artıra bilər. Bu yanaşmaya misal olaraq turizmin ətraf mühitə və cəmiyyətə təsirini nəzərdən keçirən, ekoloji standartların turizmin inkişaf strategiyalarına inteqrasiyası zərurətini vurğulayan “Turizm sənayesində struktur və davamlılığın qiymətləndirilməsinə ekoloji yanaşma” tədqiqatını göstərmək olar[9].

Cədvəl 1-də Azərbaycanda turizmin təhlilində iqtisadi, sosial-mədəni və ekoloji yanaşmaların əhəmiyyəti göstərilir.

Cədvəl 1

Azərbaycanın turizm sənayesi üçün iqtisadi, sosial-mədəni və ekoloji yanaşmanın əhəmiyyəti

İqtisadi yanaşma	Turizmi əsas gəlir mənbəyi və iş yerlərinin yaradılması kimi vurğulayır ki, bu da Azərbaycan kimi öz iqtisadiyyatlarını şaxələndirmək istəyən ölkələr üçün xüsusilə vacibdir.
Sosial-mədəni yanaşma	Mədəni irsə hörmət və mühafizənin vacibliyini vurğulayaraq, turizmin yerli mədəniyyətlərə və cəmiyyətlərə təsirini anlamağa kömək edir.
Ekoloji yanaşma	Turizmin davamlı inkişafının zəruriliyini vurğulayır. Bu, bizə təbii və mədəni sərvətləri gələcək nəsillər üçün qoruyub saxlamağa imkan verir. Turizm sənayesinin inkişafına ekoloji cəhətdən davamlı yanaşmanın vacibliyi qeyd olunur.

Mənbə: müəllif tərəfindən tərtib edilmişdir.

Təhlillərə əsasən belə qənaətə gəlmək olar ki, Azərbaycanın turizm sənayesinin inkişafına müasir marketinq strategiyaları və davamlı təcrübələrin inteqrasiyası zərurəti yaranmışdır. Bu yanaş-

maların tətbiqi ölkənin beynəlxalq səviyyədə turist cəlbediciliyini artırmaqla yanaşı, davamlı iqtisadi inkişafına da töhfə verəcək.

“Turizm sənayesində əşyaların interneti və rəqəmsallaşmanın effektivliyinin təhlili” [5, s.31] adlı tədqiqatda əşyaların interneti (IoT) texnologiyalarının turizm sənayesində transformasiyaya necə təkan verdiyinə daha yaxından nəzər salınır. Bu, IoT-nin daha fərdiləşdirilmiş və inteqrasiya olunmuş səyahət təcrübələrinin yaradılmasında əsas rol oynadığını, “ağıllı” cihazlar və servislər vasitəsilə müştərilərlə qarşılıqlı əlaqəni yaxşılaşdırmaq imkanlarını təmin etdiyini ortaya qoyur. Məsələn, istifadəçilərin smartfonlar vasitəsilə idarə edə biləcəyi avtomatlaşdırılmış otaq idarəetmə sistemlərinə malik ağıllı otellər və ya toplanmış məlumatlar əsasında turistlərin fərdi seçimlərinə uyğunlaşan fərdiləşdirilmiş turlar müştəri məmnuniyyətini əhəmiyyətli dərəcədə artırır.

Turizm sənayesində IoT-dən istifadə təkcə müştəri xidmətini yaxşılaşdırmır, həm də əməliyyat proseslərini optimallaşdırmağa, xərcləri azaltmağa və işçilərin əməyinin səmərəliliyini artırmağa kömək edir. Məsələn, ağıllı resursların idarə edilməsi sistemlərinin istifadəsi otellərə enerji və su istehlakını azaltmağa kömək edir, nəticədə əməliyyat xərclərini azaldır və ekoloji cəhətdən davamlı əməliyyatları dəstəkləyir.

Zəngin mədəni irsə və inkişaf edən turizm infrastrukturuna malik ölkə olan Azərbaycan kontekstində IoT texnologiyalarının tətbiqi beynəlxalq səviyyədə ölkənin rəqabət qabiliyyətinin artırılmasında mühüm rol oynaya bilər. Müasir texnologiyaların turizm sənayesinə inteqrasiyası təkcə ölkəyə səfər təəssüratını yaxşılaşdırmayacaq, həm də innovativ və rahat səyahət həlləri ilə maraqlanan turistlərin yeni seqmentlərini cəlb edəcək. Bu, ölkənin bütün iqtisadiyyatının inkişafına, xarici sərmayələrin daxil olmasını stimullaşdırmağa, turizm sənayesi və əlaqəli sənaye sahələrində yeni iş yerlərinin yaradılmasına töhfə verəcək.

“Turizm müəssisələrinin fəaliyyətində süni intellekt texnologiyalarından istifadə təcrübəsi və perspektivləri” [6,s.285] tədqiqatı çərçivəsində turizm sənayesində xidmət keyfiyyətinin və əməliyyat səmərəliliyinin yüksəldilməsi üçün süni intellektdən istifadə məsələsi ətraflı araşdırılır. Tədqiqat süni intellektin turizmə əhəmiyyətli təsir göstərə biləcəyi əsas sahələri, o cümlədən xidmətlərin fərdiləşdirilməsi, istehlakçı meyillərinin proqnozlaşdırılması və qiymətlərin optimallaşdırılmasını vurğulayır. Süni intellekt turizm şirkətlərinə müştərilərin seçimləri və davranışları haqqında böyük həcmdə məlumatları təhlil etməyə imkan verir ki, bu da fərdiləşdirilmiş təkliflər və xidmətlər yaratmağa kömək edir. Məsələn, maşın öyrənmə alqoritmləri müştərinin əvvəlki hərəkətlərini təhlil edir və onların əsasında fərdiləşdirilmiş turlar və ya konkret istifadəçi üçün maraqlı ola biləcək əlavə xidmətlər təklif edir.

İstehlak meyillərini təhlil etmək üçün süni intellektdən istifadə turizm operatorlarına məhsul və xidmətlərini dəyişən bazar şərtlərinə uyğunlaşdırmağa kömək edir. Buraya müəyyən istiqamətlər üçün tələbin proqnozlaşdırılması daxildir ki, bu da yükləmələrin optimallaşdırılması və zəif aktivlik dövrlərinin minimuma endirilməsi üçün vacibdir. Süni intellekt real vaxtda tələb və təklifdəki dəyişikliklərə cavab verən dinamik qiymətin əmələ gəlməsindən istifadə etməklə qiymətləri daha səmərəli idarə etməyə imkan verir. Belə sistemlər turlar və xidmətlər üçün qiymətləri avtomatik tənzimləməyə, mənfəəti maksimuma çatdırmağa və təkliflərin rəqabət qabiliyyətini artırmağa imkan verir.

Azərbaycanın turizm sənayesinə süni intellekt texnologiyalarının tətbiqi ölkənin beynəlxalq səviyyədə rəqabət qabiliyyətini əhəmiyyətli dərəcədə artıra bilər. Turistlərin davranışlarını və üstünlüklərini təhlil etmək üçün süni intellektdən istifadə turizm məhsullarını ziyarətçilərin fərdi ehtiyaclarına uyğunlaşdırmağa kömək edəcək ki, bu da artan rəqabət və dəyişən istehlak tələbləri şəraitində xüsusilə vacibdir. Təkliflərin fərdiləşdirilməsi, eləcə də xidmətlərin keyfiyyətinin və əlçatanlığının yaxşılaşdırılması müştəri məmnuniyyətini artıracaq və ölkəyə turist axınının artmasına töhfə verəcək. Bundan əlavə, qiymətlərin optimallaşdırılması və gəlirlərin effektiv idarə edilməsi turizm operatorlarına və otellərə öz resurslarından maksimum istifadə etməyə, mənfəəti artırmağa və xərcləri azaltmağa imkan verəcək.


Qlobal turizm bazarında öz mövqeyini möhkəmləndirməyə çalışan Azərbaycan üçün süni intellektin tətbiqi turizm sənayesinin inkişaf strategiyasının əsas elementinə çevrilir.

"Turizm sektorunda biznes proseslərinin inkişafı və optimallaşdırılması üçün blokçeyn texnologiyasından istifadə" [7,s.52] məqaləsində blokçeynin turizm sektoruna təsiri və onun əməliyyatlarının şəffaflığı təhlil edilir. Müəlliflər blokçeyn texnologiyalarının istehlakçıların səyahət xidmətlərinə inamını necə artıra biləcəyini, identifikasiya və bronlaşdırma prosedurlarını sadələşdirə və vasitəçilərdən asılılığı əhəmiyyətli dərəcədə azalda biləcəyini nümayiş etdirir ki, bu da son istehlakçılar üçün qiymətlərin aşağı düşməsinə və əməliyyatların şəffaflığının artmasına səbəb ola bilər.

Turizm sənayesində blokçeynin əsas dəyəri məlumatların və ödənişlərin davamlı mübadiləsini, təhlükəsiz əməliyyatları və saxtakarlığa qarşı müqaviməti təmin edə bilən mərkəzləşdirilməmiş platformaların yaradılmasındadır.

Azərbaycanın turizm sənayesinə blokçeynin tətbiqi ölkəyə müasir, səmərəli və təhlükəsiz turizm xidmətləri sisteminin yaradılmasında irəliyə doğru böyük addım atmağa imkan verəcək.

Azərbaycan üçün blokçeyn tətbiqinin rasionallığı və əhəmiyyəti bir neçə amil ilə müəyyən edilir (bax Şəkil 1-ə).



Şəkil 1. Azərbaycanda blokçeyn tətbiqinin rasionallıq amilləri

Mənbə: müəllif tərəfindən tərtib edilmişdir.

Şəkil 2-də göstərilən yanaşmaların həyata keçirilməsi Azərbaycanın regionda innovativ texnologiyalar üzrə lider olmasına, turistlərin yeni seqmentlərinin cəlb edilməsinə və yerli turizm biznesinin inkişafını stimullaşdırmağa kömək edə bilər.

Müasir marketinq strategiyalarının və texnologiyalarının respublikanın turist cəlbediciliyinin artırılmasına təsiri

Rəqəmsallaşma və davamlı inkişafa əsaslanan müasir marketinq strategiyalarının Azərbaycanın turizm məkanı kimi cəlbediciliyinin və rəqabət qabiliyyətinin güclənməsinə necə təsir göstərə biləcəyinə nəzər salaraq, aşağıdakıları qeyd etmək olar.

Birincisi, əşyaların interneti (IoT), süni intellekt (AI) və blokçeyn daxil olmaqla rəqəmsal texnologiyaların tətbiqi inteqrasiya olunmuş və fərdiləşdirilmiş səyahət təcrübələri yaratmağa kömək edir. Bu da öz növbəsində turizm istiqamətləri və servislərinin idarə edilməsini təkmilləşdirə bilər.

Azərbaycan üçün belə inteqrasiya təkcə innovativ xidmətlər göstərmək imkanı deyil, həm də istehlakçı barədə məlumatların toplanması və təhlili üçün zəmin yaradılması deməkdir ki, bu da marketinq kampaniyalarının dəqiqliyini və müştəri münasibətlərinin idarə edilməsinin səmərəliliyini artırır.

İkinci əsas məqam – rəqəmsal texnologiyaların istifadəsindən ayrılmaz olan davamlı inkişafdır. Turizmdə ekoloji cəhətdən təmiz və sosial məsuliyyətli təcrübələrə can atmaq qlobal səviyyədə getdikcə görünən nəzərəçarpan trenddir. Azərbaycan öz təbii və mədəni irsinin unikallığını vurğulamaq və turistlərə bu ehtiyatların mühafizəsində iştirak etmək imkanı verməklə cəlbediciliyini artırmaq üçün bu trenddən istifadə edə bilər.

Turizm istiqamətlərinin təşviqi və turistlərin cəlb edilməsi üçün güclü vasitə kimi xidmət edən sosial şəbəkələrin və rəqəmsal platformaların rolunu da qeyd etmək lazımdır. Azərbaycanda sosial media və rəqəmsal platformalardan ünvanlı marketinq, ölkə haqqında məlumatlılığın artırılması və zəngin kulinariya mədəniyyətinə görə turistlərin cəlb edilməsində əsas amil ola biləcək qastronomik turizmin inkişafı üçün istifadə oluna bilər.

Ümumiyyətlə, Azərbaycan üçün müasir marketinq strategiyaları və texnologiyalarından istifadə onun turizm bazarında mövqeyini möhkəmləndirmək, xidmət keyfiyyətini yüksəltmək və təkliflərin fərdiləşdirilməsini dərinləşdirmək üçün yeni imkanlar açır. Bu, təkcə ölkəyə turistlərin yeni seqmentlərini cəlb etməyə kömək etməyəcək, həm də artıq səyahət üçün Azərbaycanı seçmiş şəxslərlə daha dərin qarşılıqlı əlaqə yaradacaq. Bu yeniliklərin strateji tətbiqi və dövlət qurumlarının dəstəyi ölkənin daha da inkişafına və qlobal turizm sənayesinə inteqrasiyasına təkan verə bilər.

Qlobal meyillər kontekstində Azərbaycanın turizm sənayesi həm ölkənin unikal aspektlərini, həm də ümumbəşəri istiqamətləri əks etdirən imkanlar və çağırışlarla üzləşir. Bu aspektlərin müqayisəsi Azərbaycanın beynəlxalq miqyasda rəqabət aparmaq və inkişaf etmək üçün öz xüsusiyyətlərindən necə istifadə edə biləcəyini daha geniş təhlil etməyə imkan verir.

Qlobal trendlər rəqəmsallaşma və davamlı inkişafın vacibliyini vurğulayır. Zəngin mədəni və təbii irsi olan Azərbaycan turizm xidmətləri təkliflərini təkmilləşdirmək və təbliğ etmək üçün rəqəmsal texnologiyalardan istifadə edə bilər. Bu, səyahət üçün maneələri azaltmaq və turizm operatorlarına inamı artırmaq üçün qlobal hərəkətlə üst-üstə düşür.

Kulinariya turizminə qlobal maraq Azərbaycanın özünəməxsus mətbəxindən turistləri cəlb etmək vasitəsi kimi istifadə etmək imkanı yaradır [17]. Qastronomik marşrutların və festivalların inkişafı, onların marketinq kampaniyaları və sosial media ilə inteqrasiyası turist axınını əhəmiyyətli dərəcədə artıra və ölkənin mədəni müxtəliflik mərkəzi kimi imicini gücləndirə bilər.

Ekoloji davamlılığa və təbii ehtiyatların qorunmasına diqqətin yönəldilməsi iqlim dəyişikliyi ilə mübarizə və yaşıl turizmi təşviq etmək üçün qlobal səylərlə üst-üstə düşür. Azərbaycan davamlı təcrübələri turizm sektoruna fəal şəkildə inteqrasiya etməklə özünü digər turizm istiqamətlərindən fərqləndirə bilər. Eyni zamanda, respublika qlobal turist axını kontekstində xüsusi qeyd edilə bilən unikal mədəni və təbii sərvətlərə malikdir. Tarixi abidələr, qoruqlar və yerli adət-ənənələr kimi bu sərvətlərin fəal şəkildə təbliği ölkənin dünya turizm xəritəsindəki mövqeyini gücləndirə bilər. Azərbaycan öz xüsusiyyətlərindən qlobal tendensiyaları özünəməxsus şəraitə uyğunlaşdırmaq üçün istifadə edə və bununla da turizm sənayesinin böyüməsini və inkişafını təmin edə bilər. Dövlət siyasəti və özəl sektorun strategiyaları yeni texnologiyaların və davamlı təcrübələrin inteqrasiyasını, mədəni irsin təşviqini, xidmətlərin keyfiyyətinin yüksəldilməsini və beynəlxalq arenada ölkənin əlverişli imicinin yaradılmasını diqqət mərkəzində saxlamalıdırlar.

Respublikada turizm sənayesinin dövlət tənzimlənməsinin səmərəliliyinin artırılması

Dövlət tənzimlənməsinin rolunu və onun Azərbaycanda turizm sənayesinin inkişafına təsirini təhlil edərkən, dövlət tədbirlərinin ya innovasiyaları və turizmin cəlbediciliyini sürətləndirə, ya da onun inkişafına maneələr yarada biləcəyini nəzərə almaq vacibdir. Cədvəl 2-də Azərbaycanda turizm sənayesinin cəlbediciliyinin artırılmasında dövlət tənzimlənməsinin rolunun bir neçə aspekti araşdırılır.

Bütövlükdə götürsək, dövlət tənzimləməsinin tədqiqatda müəyyən edilmiş müasir tendensiyalara və çağırışlara uyğunlaşdırılması Azərbaycanda turizm sənayesinin uğurlu inkişafının, onun rəqabət qabiliyyətinin artırılmasının və bu sahədə uzunmüddətli dayanıqlı artıma nail olunmasının mühüm amili, açarı ola bilər.

Cədvəl 2

Azərbaycanda turizm sənayesinin cəlbediciliyinin artırılmasında dövlət tənzimlənməsinin rolu

Rəqəmsallaşma və innovasiya	Rəqəmsallaşmanın stimullaşdırılması üzrə hökumət təşəbbüsləri Azərbaycanda turizm sənayesinin rəqabət qabiliyyətini əhəmiyyətli dərəcədə artıra bilər. IoT və süni intellekt layihələrinin dəstəklənməsi bizneslərə resursları daha səmərəli idarə etməyə, ziyarətçilərə fərdi təcrübələr təklif etməyə və istehlakçı davranışını təhlil etməyə imkan verə bilər. Dövlət texnoloji startaplara investisiya yatırmaq və innovativ turizm məhsullarının yaradılması üçün stimullar tətbiq edə bilər.
Davamlı inkişaf	Azərbaycan ekoloji məsuliyyətin qlobal standartlarına cavab verən davamlı təcrübələri turizm sənayesinə inteqrasiya etməyə davam etməlidir. Dövlət tənzimləyiciləri təbii ehtiyatlardan istifadəni tənzimləməklə, turizm bizneslər üçün ekoloji standartları müəyyən etməklə və ekoturizmin inkişafı üçün stimullar tətbiq etməklə bu prosesi asanlaşdıra bilər.
Tənzimləmə	Viza qaydaları, vergilər və daxili səyahətlər üçün təşviqlər sahəsində siyasət turizmin əlçatanlığına təsir göstərir. Dövlət vizaların alınması prosesini sadələşdirə və xarici turistləri cəlb etmək üçün vergi güzəştləri yarada, həmçinin dövlət proqramları və subsidiyalar vasitəsilə daxili turizmi stimullaşdıra bilər.
Blokçeyn və əməliyyat texnologiyaları.	Blokçeyn texnologiyalarının tətbiqinə dövlət dəstəyi turizm əməliyyatlarının şəffaflığını artıra və vasitəçilərdən asılılığı azalda bilər ki, bu da öz növbəsində istehlakçılar üçün xidmətlərin dəyərinin azalmasına səbəb olacaq. Dövlət tənzimləyiciləri turizm əməliyyatlarında kriptovalyutaların və blokçeyn platformalarının istifadəsi üçün normativ baza yaratmağa kömək edə bilər.
İstiqamətin marketinqi və brendinqi.	Marketinq və ölkənin turizm məkanı kimi tanıtımı sahəsində dövlət siyasəti həlledici əhəmiyyət kəsb edir. Azərbaycanın unikal mədəni və təbii sərvətlərinə diqqət yetirən effektiv marketinq kampaniyaları onun beynəlxalq cəlbediciliyini artıra bilər.

Mənbə: müəllif tərəfindən tərtib edilmişdir.

Nəticə

Apardığımız araşdırma Azərbaycanın turizm sənayesinin inkişafında müasir marketinq strategiyalarının və dövlət tənzimlənməsinin rolu ilə bağlı bir sıra mühüm məqamları üzə çıxarıb. Əşyaların interneti, süni intellekt və blokçeyn kimi rəqəmsal texnologiyaların istifadəsi bu texnologiyalardan istifadə edən ölkələrə turizm istiqamətlərinin davamlılığını və uyğunlaşma qabiliyyətini əhəmiyyətli dərəcədə yaxşılaşdırmağa imkan verib. Bu, beynəlxalq turizmin dünyada artımı fonunda, o cümlədən, UNWTO-nun proqnozlarına görə, 2024-cü ilə qədər pandemiyadan əvvəlki dövr səviyyəsinin tam bərpa olunacağı gözlənilən Azərbaycanda çox vacibdir [16].

Marketinq innovasiyaları, xüsusilə sosial şəbəkələrdən və digər rəqəmsal platformalardan istifadə turistlərin tələbat və üstünlüklərindəki dəyişiklikləri nəzərə alaraq, onları səmərəli şəkildə cəlb etməyə imkan verir. Bu da turizm sənayesini fəal şəkildə inkişaf etdirən ölkəmiz üçün xüsusilə vacibdir.

Həmçinin qeyd olunmuşdur ki, Azərbaycanın qastronomik və təbii xüsusiyyətlərini nəzərə alan strategiyalar ölkənin turizm məkanı kimi cəlbediciliyini artırmağa kömək edir.

Dövlət tənzimləməsi turizm müəssisələri üçün viza qeydiyyatını, vergitutma və güzəştləri sadələşdirməklə turizm sənayesinin dəstəklənməsində əsas rol oynayır. Bu, təkcə daxili və gəlmə turizmin artırılması üçün deyil, həm də sənayeyə investisiyaların stimullaşdırılması üçün əlverişli mühit yaradır.

Gəlin maraqlı tərəflər - Azərbaycanın turizm sektorunun fəaliyyəti ilə birbaşa və ya dolayısı ilə əlaqəli əsas iştirakçılar üçün tövsiyələri formalaşdıraq. Bu tövsiyələr turizm bazarının müxtəlif iştirakçıları arasında sinerjinin formalaşmasına şərait yaradır, Azərbaycanın beynəlxalq aləmdə mövqeyinin artmasına və möhkəmlənməsinə töhfə verir və bütövlükdə turizm sənayesinin uzunmüddətli davamlı inkişafını təmin edir.

Birincisi, hökumət turizm və mehmanxana xidmətlərinə çıxışı asanlaşdırmaq üçün rəqəmsal infrastruktur da daxil olmaqla infrastruktur layihələrini inkişaf etdirməli və dəstəkləməlidir. Müa-

sir texnologiyalardan istifadə etməklə turizm startapları və innovativ layihələr üçün vergi və maliyyə stimulları tətbiq edilməlidir. Tranzaksiyaların etibarının və təhlükəsizliyinin artırılmasına töhfə verən blokçeyn texnologiyalarının və digər innovasiyaların turizm sektorunda tətbiqinə hüquqi dəstək göstərilməlidir. Azərbaycanın turizm məkanı kimi unikallığına və müxtəlifliyinə diqqət yetirməklə ölkə marketinqi və brendinqi strategiyaları hazırlanmalı və həyata keçirilməlidir.

İkincisi, özəl sektor yeni texnologiyalar və müştərilərə xidmət sahələrində turizm sənayesi işçilərinin hazırlanmasına və bacarıqlarının inkişafına investisiya qoymalıdır. Xidmət prosesinə fərdiləşdirilmiş və innovativ yanaşmaların tətbiqi yolu ilə xidmətlərin keyfiyyəti və müştəri məmnunluğu artırılmalıdır. Qabaqcıl təcrübə mübadiləsi üçün beynəlxalq və yerli turizm təşkilatları ilə əməkdaşlıq gücləndirilməlidir. Turizmin davamlı inkişafına yönəlmiş dövlət proqram və təşəbbüslərində özəl sektor fəal iştirak etməlidir.

Üçüncüsü, akademik ictimaiyyət yeni texnologiyaların turizm sənayesinə təsiri, onların turizm destinasiyalarının rəqabət qabiliyyətinin yaradılmasında rolu ilə bağlı araşdırmalar aparmalıdır. Davamlı və rəqəmsal turizmə diqqət yetirməklə tələbələr və sənaye mütəxəssisləri üçün təhsil proqramları və kurslar təşkil edilməlidir. Analitik tədqiqat məlumatları əsasında turizm sahəsində dövlət siyasəti və strateji planlaşdırma üçün tövsiyələr hazırlanmalıdır. Tədqiqat işlərinin praktiki tətbiqinə töhfə verən birgə layihələrin həyata keçirilməsi üçün turizm sənayesi müəssisələri ilə tərəfdaşlıq əlaqələri qurulmalıdır.

Turizmdə texnoloji həllərin rəqəmsallaşdırılması və standartlaşdırılması sahəsində tənzimləmə bu sektorun davamlı inkişafı üçün etibarlı zəmin yarada bilər. Bu zəmində hökumət və özəl sektor, təkcə təkmilləşdirilmiş infrastruktur və xidmətləri deyil, həm də yeni texnologiyalara və qlobal tendensiyalara yönəlmiş marketinq fəaliyyətlərini əhatə edəcək inteqrasiya olunmuş turizmin inkişafı strategiyalarını hazırlamaya bilər.

ƏDƏBİYYAT

1. “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 2 fevral 2021-ci il.
2. Rəhmanov.F.P. Sosial Sfera və Sosial Siyasət. “MSV NƏŞR”, Bakı, 2021, 436 səh.
3. Rəhmanov.F.P., Süleymanov. E.B. Azərbaycan iqtisadiyyatı: makroiqtisadi analiz. “MSV NƏŞR”, Bakı, 2021, səh-408.
4. К вопросу о государственном регулировании сферы туризма на региональном уровне: теоретические аспекты и результаты практической деятельности / М. А. Гурина, Т. И. Сокольская, О. В. Гончарова [и др.] // Сервис в России и за рубежом. – 2021. – Т. 15, № 4(96). – С. 90-109. – DOI 10.24412/1995-042X-2021-4-90-109. – EDN GNXXHA. https://www.elibrary.ru/item.asp?id=47256447
5. Лысак, О. Г. р. Анализ эффективности применения IoT и цифровизации в индустрии туризма / О. Г. р. Лысак // Интеграция туризма в экономическую систему региона: перспективы и барьеры: Материалы IV Международной научно-практической конференции, Орёл, 08 декабря 2022 года. – Орёл: Орловский государственный университет имени И.С. Тургенева, 2023. – С. 29-34. – EDN UKBRTT. www.elibrary.ru/download/elibrary_54288830_62962014.pdf
6. Шпырня, О. В. Опыт и перспективы использования технологий искусственного интеллекта в деятельности туристских предприятий / О. В. Шпырня // Цифровизация экономики и общества: проблемы, перспективы, безопасность: Материалы IV международной научно-практической конференции, Донецк, 24 марта 2022 года / Отв. редактор И.П. Подмаркова. – Донецк: Общество с ограниченной ответственностью «Цифровая типография», 2022. – С. 283-288. – EDN RIIIWN. https://www.elibrary.ru/download/elibrary_50365916_54222390.pdf
7. Халфин, А. С. Использование технологии блокчейн для развития и оптимизации бизнес-процессов в сфере туризма / А. С. Халфин, Р. Р. Мухутдинова // Вестник УГНТУ. Наука,

образование, экономика. Серия: Экономика. – 2021. – № 2(36). – С. 50-54. – DOI 10.17122/2541-8904-2021-2-36-50-54.–EDNZTNMYT. https://www.elibrary.ru/download/elibrary_46380604_68808114.pdf
8. Carvalho, L., & Sarkar, S. (2014). Market structures, strategy and innovation in tourism sector. International Journal of Culture, Tourism and Hospitality Research, 8, 153-172. https://consensus.app/papers/market-structures-strategy-innovation-tourism-sector-carvalho/ff962f30bf9a5e6eb135dab8f6285665/?utm_source=chatgpt
9. Mo, Lichun, Jiancheng Chen, and Yi Xie. 2021. "Ecological Approach for the Evaluation of Structure and Sustainability in the Tourism Industry" Sustainability 13, no. 23: 13294. https://www.mdpi.com/2071-1050/13/23/13294
10. Mushtai, V. (2023). Relationship Marketing Within the Concept of Sustainable Development and Global Digitalization of the Tourism Industry. Modern Economics. https://consensus.app/papers/relationship-marketing-within-concept-sustainable-mushtai/f3c3d63b3db551b091a4cf9043e6ddec/?utm_source=chatgpt
11. OECD (2020), OECD Tourism Trends and Policies 2020, OECD Publishing, Paris, 387 pages. https://www.oecd-ilibrary.org/sites/f528d44-en/index.html?itemId=/content/component/f528d444-en
12. https://azerbaijan.travel/sustainable-tourism-strategy
13. https://azerbaijan.un.org/en/114165-un-azerbaijan-sign-new-cooperation-framework-2021-2025
14. 14.https://www.didaktorika.gr/eadd/handle/10442/55843
15. https://www.unwto.org/digital-transformation
16. https://en.unwto-ap.org/resources/worldtourismbarometer-january-2024/
17. https://azerbaijan.travel/attend-a-local-gastronomy-masterclass-guba

Талей Видади оглу Агазада
Докторант кафедры "Менеджмент"
Азербайджанского Университета Туризма и Менеджмента,
Taleh.aghazada@gmail.com
***ORCID №:* 0009-0003-3491-2593**

Влияние цифровых инноваций на устойчивое развитие туристической индустрии в Азербайджане

Резюме

Цель данного исследования заключается в анализе влияния цифровых технологий и современных маркетинговых стратегий на развитие туристической индустрии в Азербайджане и разработка рекомендаций по долгосрочному устойчивому развитию туристической индустрии в республике..

Методология исследования включала теоретический обзор научной литературы и системный анализ данных отраслевых отчетов и международных исследований по туризму. Среди методов исследования использовались статистический, сравнительный и метод обобщения.

Прикладное значение исследования. Исследование показывает, как внедрение передовых маркетинговых технологий и улучшение государственного регулирования могут значительно улучшить практики в туристической индустрии Азербайджана. Предлагаемые в работе меры по поддержке туризма, такие как упрощение визовых процедур и налоговые стимулы, могут стимулировать как внутренний, так и международный туризм.

Рекомендации для государственных органов и практиков подчеркивают необходимость дальнейшего развития инфраструктуры и регулятивных механизмов для поддержки устойчивого роста туристической индустрии.

Результаты исследования свидетельствуют о значительном влиянии цифровых технологий на улучшение качества услуг и увеличение конкурентоспособности национальной туристической индустрии. Исследование также указывает на ключевую роль государственного регулирования в поддержке инноваций в туризме.

Оригинальность и научная новизна исследования обусловлена интеграцией моделей цифрового маркетинга и технологий, таких как Интернет вещей, искусственный интеллект и блокчейн, в контексте устойчивого развития туризма в Азербайджане.

Научная новизна статьи заключается в комплексном подходе к *и*сследованию взаимосвязи между технологическими инновациями и маркетинговыми стратегиями в контексте национальных особенностей туристической индустрии Азербайджана.

Ключевые слова: цифровые технологии в туризме, искусственный интеллект, интернет вещей, блокчейн в туризме, маркетинговые стратегии, устойчивое развитие туризма, государственное регулирование туризма

Taley Vidadi Aqazada
Doctoral student of the Department of Management
Azerbaijan University of Tourism and Management,
Taleh.aghazada@gmail.com
ORCID №: 0009-0003-3491-2593

Impact of digital innovations on sustainable development of tourism industries in Azerbaijan

Summary

The purpose of this study is to analyze the impact of digital technologies and modern marketing strategies on the development of the tourism industry in Azerbaijan and development of recommendations for the long-term sustainable development of the tourism industry in the republic.

The research methodology included a theoretical review of scientific literature and a systematic analysis of data from industry reports and international tourism studies. Among the research methods, statistical, comparative and generalization methods were used.

Applied significance of the research. The study shows how the introduction of advanced marketing technologies and improved government regulation can significantly improve practices in the Azerbaijan tourism industry. The measures proposed in the paper to support tourism, such as simplification of visa procedures and tax incentives, can stimulate both domestic and international tourism.

Recommendations for government agencies and practitioners highlight the need for further development of infrastructure and regulatory mechanisms to support sustainable growth of the tourism industry.

The results of the study indicate the significant impact of digital technologies on improving the quality of services and increasing the competitiveness of the national tourism industry. The study also points to the key role of government regulation in supporting innovation in tourism.

Originality and scientific novelty of the research are due to the integration of digital marketing models and technologies, such as the Internet of Things, artificial intelligence and blockchain, in the context of sustainable tourism development in Azerbaijan.

The scientific novelty of the article lies in an integrated approach to studying the relationship between technological innovation and marketing strategies in the context of the national characteristics of the tourism industry of Azerbaijan.

Keywords: digital technology in tourism, artificial intelligence, internet of things, blockchain in tourism, tourism marketing strategies, sustainable tourism development, government regulation of tourism.

UOT 33

Şirin Cavanşir qızı RAMAZANOVA,
doktorant, Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC),
shirin-ramazanova@unec.edu.az
https://doi.org/10.30546/4.71.73001.2024.004.054

RƏQƏMSALLAŞMA ŞƏRAİTİNDƏ İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ İQTİSADİYYATIN İDARƏ EDİLMƏSİNİN ELMİ -NƏZƏRİ ASPEKTLƏRİ

Xülasə

Tədqiqatın məqsədi - işğaldan azad edilmiş ərazilərdə rəqəmsal iqtisadiyyatın təşəkkül tapması və idarəetmənin iqtisadi-hüquqi bazasının formalaşması prosesinin araşdırılmasıdır. Məqalədə rəqəmsallaşma şəraitində ərazilərin idarə edilməsinin elmi-nəzəri əsasları araşdırılaraq bu sahədə Azərbaycanda təşəkkül tapan iqtisadi - hüquqi mühit təhlil olunmuş, idarəetmənin rəqəmsallaşması perspektivlərinə münasibət bildirilmişdir. Rəqəmsallaşmanın işğaldan azad edilmiş ərazilərdə iqtisadi proseslərin idarə edilməsi sisteminə təsiri tədqiq edilmişdir.

Tədqiqatın metodologiyası - müşahidə, müqaisəli təhlil, məntiqi ümumiləşdirmə üsullarına əsaslanmışdır.

Tədqiqatın tətbiqi əhəmiyyəti - işğaldan azad edilmiş ərazilərin idarə edilməsində rəqəmsal mühitin imkanlarının reallaşdırılmasının konseptual müddəalarının işlənib hazırlanmasından ibarətdir.

Tədqiqatın nəticəsi – rəqəmsallaşma şəraitində işğaldan azad edilmiş ərazilərin iqtisadiyyatının idarə edilməsində istifadə olunan elmi nəzəriyyə araşdırılmışdır.

Tədqiqatın orijinallığı və elmi yeniliyi – işğaldan azad edilmiş ərazilərin rəqəmsallaşması üzrə hüquqi bazanın formalaşması prosesi təhlil olunmuşdur.

Açar sözlər: rəqəmsallaşma prosesi, rəqəmsal iqtisadi mühit, idarəetmə, postmünaqişə əraziləri, blokçeyn, hüquqi baza.

Giriş

Rəqəmsallaşma hazırda dünya ölkələrinin milli prioritetləri sırasında ilk cərgələrdə yer tutur. İlk növbədə biznesin təşkilində tətbiq edilən rəqəmsallaşma daha sonrakı mərhələlərdə ölkənin rəqəmsallaşması üçün zəmin yaradır. İşğaldan azad edilmiş ərazilərin bərpasında yüksək texnologiyalardan istifadə zəruriliyi ali dövlət rəhbərliyi səviyyəsində bəyan edilmişdir. Bu istiqamətdə, habelə rəqəmsal mühitin üstünlüklərindən istifadə istiqamətində sistemli və davamlı tədbirlər həyata keçirilir. Həmin tədbirlərin səmərəliliyinin yüksəldilməsi baxımından elmi təminatın gücləndirilməsinə ehtiyac vardır.

İşğaldan azad edlimiş ərazilərdə rəqəmsal iqtisadi münasibətlərin təşəkkülü

Rəqəmsal iqtisadiyyat - əhalinin həyat keyfiyyətinin yüksəldilməsi, ictimai istehsalın səmərəliliyinin artırılması, iqtisadiyyatın dayanıqlı artımının dəstəklənməsi məqsədi ilə elmi nailiyyətlərə və informasiya-kommunikasiya texnologiyalarına əsaslanan kateqoriyalar sistemidir.

Rəqəmsal iqtisadiyyatın inkişafı üçün əlverişli rəqəmsal mühit formalaşmalıdır. Rəqəmsal mühit digər mühitlərin riyazi qanun və texnoloji modellər əsasında modifikasiya olunmuş formasıdır. Rəqəmsal mühitin inkişafı iqtisadi fəaliyyətin səmərəliliyini artırır. Artan temp və genişlənən əhatə dairəsi lazım olan informasiya bazasını formalaşdırır. İnformasiya bazasından vacib qərarların qəbulu üçün istifadə edilir. İnformasiyanın açıqlığı və əlyetən olması rəqəmsal mühiti formalaşdırır.

Rəqəmsal mühit yaradılarkən bir neçə qiymətləndirmə meyarından istifadə edilir: məşğulluq, məkan, texnoloji, iqtisadi. 1-ci halda rəqəmsal texnologiyaların məşğulluğun strukturuna və səviyyəsinə nə dərəcədə təsir edə bilməsi araşdırılır. Çünki rəqəmsal iqtisadiyyatın gözləntilərindən biri məşğulluğun səviyyəsinin yüksəldilməsidir. 2-ci halda rəqəmsallaşması nəzərdə tutulan ərazinin coğrafi meyarları təhlil edilir. İnformasiya-kommunikasiya texnologiyaları vasitəsi ilə tətbiq edilən

innovasiyaların istifadəçilər üçün əlçatanlığının qiymətləndirilməsi texnoloji meyara aiddir. İqtisadi meyar dedikdə isə sərf olunacaq məsrəflər və əldə ediləcək mənfəət araşdırılır. Ənənəvi iqtisadiyyatda olduğu kimi rəqəmsal iqtisadiyyata keçid zamanı da xərclər əldə ediləcək mənfəəti keçməməlidir.

Rəqəmsal transformasiya – təşkilatın və ya dövlətin fəaliyyətinin bütün sahələrinə rəqəmsal texnologiyaları tətbiq etməklə təqdim etdiyi xidmətləri tamamilə dəyişdiyi bir prosesdir. Rəqəmsal transformasiya həm də bütövlükdə proses və xidmətlər sisteminin yenidən qurulduğu yeni iqtisadi mühiti formalaşdırır. İKT cəmiyyətin bütün sahələrinə nüfuz edərək rəqəmsal transformasiya resurslarından effektiv istifadə edir və innovasiyaların tətbiq edilməsində hərəkətverici qüvvə rolunu oynayır. İnnovasiyalar rəqəmsal iqtisadiyyatın inkişaf tempini və proporsiyalarını şərtləndirən əsas amillərdən birinə çevrilir. “Rəqəmsal iqtisadiyyatda innovasiyalı inkişafın hansı yolla gedəcəyini dəqiq praqnozlaşdırmaq qeyri-mümkün olduğundan, bu hal risklərdən biri kimi qəbul edilir” [10].

“Rəqəmsal iqtisadiyyatın əsas cizgilərinə “hər yerdə olan” mobil internet, daima ucuzlaşan istehsal qurğuları, süni intellekt və öyrədən maşınlar aid edilir” (Schwab, 2017). Göründüyü kimi, rəqəmsal transformasiyanın ilkin şərtlərindən biri fasiləsiz və sürətli internet şəbəkəsinin olmasıdır. Buna görə də ölkə üzrə hər yerdə genişzolaqlı internet şəbəkəsi qurulmalı və ucqar ərazilərdə də rəqəmsal infrastruktur yaradılmalıdır. İnternetə çıxış imkanının kənd və şəhər əhalisi arasında fərq olmamalıdır. İnformasiya uçurumu aradan qaldırılmalıdır.

Rəqəmsal iqtisadiyyatın 3 tərkib hissəsi var. İşgüzar elektron əməliyyatlar, elektron kommersiya, digər tərkib hissələr. İşgüzar elektron əməliyyatlar kompüter şəbəkəsi vasitəsi ilə virtual bazarda mövcud olan iştirakçıların arasında reallaşan biznes münasibətlərini əks etdirir. Elektron kommersiya rəqəmsal iqtisadiyyatın ən iri seqmenti olmaqla internet vasitəsi ilə mal və xidmətlərin hərəkətini ifadə edir. Kommersiya fəaliyyətləri İKT vasitələri ilə rəqəmsal şəbəkədə öz əksini tapır. Kommersiya fəaliyyətlərinin xərcləri azalır, şəbəkə yaratmaq qabiliyyəti elə sürətlə artır ki, bu artım inkişaf deyil, inqilab adlanır. “Rəqəmsal iqtisadiyyatın şəbəkə yaratmaq qabiliyyəti onun səmərəliliyinin və inkişafının mühüm şərtlərindəndir” (Balayev, 2019, Mahiyyət və perspektivlər).

Rəqəmsal iqtisadiyyatın inkişafını kəmiyyət cəhətdən qiymətləndirmək üçün qəbul edilmiş indikatorlar sistemi olmasa da, “İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT) tərəfindən tövsiyə olunan indikatorlar sisteminin təcrübədə tətbiqi məqbul hesab edilir”(Balayev, 2019, Mahiyyət və perspektivlər). Həmin indikatorlara “iqtisadiyyatın yüksək texnologiya sahələrinin inkişafı, onun emal sənayesi məhsulları və xidmətlərində xüsusi çəkisi; elmi layihələrə, proqram təminatının yaradılmasına, təhsilə və əlavə yenidən hazırlığa investisiyalar; informasiya – kommunikasiya avadanlıqlarının işlənib hazırlanması və buraxılışı; elm və yüksək texnologiyalar sahəsində yeni iş yerlərinin yaradılması və s.” aiddir [12].

Rəqəmsallaşan cəmiyyətdən bəhs edərkən şəhərlərin fəaliyyətinin təsirindən yan ötmək olmaz. Şəhər mühiti iqtisadi cəhətdən aktiv zona sayılır. Bu mühit sanki inkişaf üçün poliqon rolunu oynayır. Bu cür şəhərlərin rəqəmsal sahəsi onun fiziki sahəsindən daha tez genişlənir. Bu zaman təhlükəsizlik, açıqlılıq, dayanıqlılıq və ekoloji stabilliyin təmin edilməsi prinsipləri nəzərə alınmalıdır. Dayanıqlı inkişafın dəsklənməsi nöqteyi-nəzərindən informasiya cəmiyyətinin texnoloji imkanları inteqrasiya olunmuş fəaliyyətlər nəticəsində genişlənir. İnteqrasiyanın səviyyəsi rəqəmsal cəmiyyətin formalaşmasının ilkin poliqonu və aktiv iqtisadi zona sayılan iri şəhərlərdə daha yüksək olur. Urbanizasiya rəqəmsallaşma mühitini formalaşdırır və onu genişləndirir. İntensiv urbanizasiya və rəqəmsal mühit texnoloji yeniliklərə zəmin yaradır.

“Rəqəmsal iqtisadiyyat şəhərlərdə inkişaf edir. Eyni zamanda şəhərlərdə müxtəlif problemlər olur. Nəqliyyat və ekoloji problemlər, hər kəsin yaşayışı üçün yaxşı mühitin yaranması, istehsalat müəssisələrini şəhərdən kənara çıxartmaq və s. Bu problemləri kompleks halda həll etmək mümkündür” [8].

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında dayanıqlı məskunlaşmanın təmin edilməsi və əhalinin məşğulluğunun bərpa edilməsi istiqamətində mühüm işlər görülür. “Böyük qayıdış proq-

ramına əsasən 2026-cı ilə qədər Böyük Qayıdış proqramının I mərhələsinin tamamlanacağı və bu mərhələdə 140 min məcburi köçkünün Qarabağ və Şərqi Zəngəzura qayıdacağı planlaşdırılır"[13]. Hal-hazırda İAEƏ-nin 3 şəhərində (Şuşa,Laçın,Füzuli) və 4 kəndində repatriantların məskunlaşdırılması təmin edilmişdir. Zəngilan rayonunun Ağalı kəndi işğaldan sonra əhalinin məskunlaşdığı ilk yaşayış yeridir. Həmçinin 2024-cü il 10 may tarixindən etibarən Laçın rayonunun 3 yaşayış məntəqəsində də (Laçın, Zabux, Sus) azərbaycanlıların məskunlaşdırılması təmin edilmişdir. Bu ərazilərdə "əhalinin yaşayış səviyyəsinin yüksəldilməsi, məişət şəraitinin yaxşılaşdırılması, enerji daşıyıcılarla təminat probleminin həll olunması, müasir yolların çəkilməsi, sosial infrastrukturun qorunması, istehsal infrastrukturunun formalaşması zamanı yüksək və "ağıllı" texnologiyalardan istifadə edilməsinə üstünlük verilir"[7, s. 257].

Postmünaqişə ərazilərində idarəetmənin rəqəmsallaşması

Rəqəmsal texnologiyaların tətbiqi yüksək sürətlə yayılır və rəqəmsallaşma insan həyatının və fəaliyyətinin bütün sahələrinə sürətlə nüfuz edir. Rəqəmsal iqtisadiyyatın formalaşmasından danışarkən dövlətin rolunu unutmaq olmaz. Dövlət tənzimlənməsinin vacibliyi birinci növbədə rəqəmsal proseslərin qlobal xarakter daşımasından irəli gəlir. "İqtisadiyyatda rəqəmsal texnologiyaların kütləvi hal alması rəqəmsallaşmanın insan həyatının bütün sahələrinə nüfuz etməsi, bu proseslərin qloballaşması və qloballaşmanın təşviq edilməsi kimi meyillər göstərir ki, dövlət rəqəmsal iqtisadiyyata biganə qala bilməz" (Balayev, 2019, Dövlətin tənzimləyici təsirləri). Rəqəmsallaşma qlobal proses olduğuna görə onun reallaşması, səmərəli təşkili və tənzimlənməsinə yanaşmalar ayrı-ayrı ölkələrdə müxtəlifdir.

Rəqəmsallaşma proseslərinə dövlət tənzimlənməsinin nə dərəcədə vacib olub-olmaması haqqında müxtəlif yanaşmalar mövcuddur. Rəqəmsal iqtisadiyyatda dövlət tənzimlənməsinin müzakirəsinə daha çox postsovet ölkələrində, ya da rəqəmsallaşma prosesinə yeni başlamış ölkələrdə rast gəlmək olar. Adətən inkişaf etmiş ölkələrdə rəqəmsal iqtisadiyyatın tənzimlənməsi məsələsi müzakirə mövzusu olmur. Çünki bu ölkələrdə normativ-hüquqi baza öz-özünə formalaşır və inkişaf edir.

Rəqəmsal iqtisadiyyatda əsasən aşağıdakı münasibətlərin tənzimlənməsi nəzərdə tutulur: elektron kommersiyanın tənzimlənməsi, texniki xidmət göstərənlərin fəaliyyətinin bir sıra aspektləri, verilənlərin qorunması, rəqəmsal iqtisadiyyatın təhlükəsizliyi, rəqabət münasibətləri və s. Rəqəmsallaşma prosesində dövlət tənzimlənməsinin ən vacib rolu informasiya təhlükəsizliyi və gözlənilən digər təhdidlərdən qorumaq olmalıdır.

Verilənlərin qorunması və təhlükəsizlik baxımından blokçeyn texnologiyasına nəzər salaq. Mərkəzləşdirilmiş sistemlərdən fərqli olaraq (Alibaba, Uber, AirBnb və s.) Blokçeyn "aşkar mərkəzi olmayan" bir şəbəkə kimi başa düşülür. Blokçeyn texnologiyasında verilənlər hər kəs üçün əlçatan olur. Burada saxtalaşdırma halları mümkün olmur. "Eyni şəbəkədə işləyən müxtəlif kompüterlər vasitəsi ilə şifrələnmə prosesi baş tutur. Hesablama prosesinə hər bir kompüterdə eyni nəticə aldıqda bloka unikal rəqəmsal imza atılır. Reyestr yeniləndikdən və onda yeni blok təşkil edildikdən sonra, o dəyişdirilə bilmir. Bununla da onu dəyişdirmək mümkün olmur"(Balayev, 2019, Dövlətin tənzimləyici təsirləri).

Strukturlaşma problemləri qarşıya çıxdıqca, rəqəmsallaşmada dövlətin hüquqi tənzimlənməsi məsələsi daha da aktuallaşır. Bildiyimiz kimi dövlət iqtisadiyyata müəyyən çatışmazlıqları aradan qaldırmaq üçün müdaxilə edə bilər. Məsələn, haqsız rəqabət, inhisarçılıq, kənardan olan mənfi təsirlər, makroiqtisadi qeyri-sabitlik, həddən artıq sürətli inflyasiya, işsizlik, regional inkişaf problemləri və s.

Qeyd etdiyimiz kimi, rəqəmsal iqtisadiyyatın dəstəklənməsində dövlət amilinin rolu böyükdür. Xarici ölkələrin təcrübəsinə baxdıqda rəqəmsal texnologiyaların tətbiq edildiyi sahələri genişləndirməkdə dövlət dəstəyinin müsbət nəticə verdiyini izləmək mümkündür. Bir çox ölkələrdə artıq rəqəmsal xidmətlərin və elektron hökumətin inkişafı sayəsində şəffaflığın və səmərəliliyin artımına nail olunub. Son illərdə Azərbaycan Respublikasının da qarşısında duran əsas məsələlərdən biri iqtisadiyyat və cəmiyyətin rəqəmsal transformasiyasıdır.

Həmçinin AR-nın qarşısında duran əsas vəzifələrdən birincisi İAEƏ-nin ölkə iqtisadiyyatına

reinteqrasiyasıdır. Bu problemin həllinin sürətlənməsi rəqəmsallaşma prosesi vasitəsi ilə həyata keçirilir. Ona görə də rəqəmsal iqtisadi fəaliyyətin nizamlanması üçün normativ-hüquqi bazanın formalaşması prosesinin sürətlənməsi bir zərurətə çevrilib. “Qələbə nəticəsində işğaldan azad edilmiş ərazilərin ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyası, yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin imkanlarından faydalanmaq Azərbaycanın inkişafına böyük təkan verəcəkdir”[3]. Azərbaycan Respublikasının prezidentinin “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair milli prioritetlər” sərəncamında nəzərdə tutlmuş strateji milli prioritetlərdən biri məhz ölkə iqtisadiyyatının bütün sahələrinin rəqəmsallaşmasıdır.

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində “Dördüncü Sənaye İnqilabının Təhlili və koordinasiya Mərkəzi” publik hüquqi şəxsin yaradılması haqqında Azərbaycan Respublikasının prezidentinin Fərmanına əsasən qlobal iqtisadiyyatda cərəyan edən və rəqabət qaydalarını dəyişən dördüncü sənaye inqilabına əsasən AR-nın mövqeyini gücləndirmək və bu sahədə aparıcı ölkələr sırasında yer almasının təmin edilməsi haqqında qərar qəbul edilib[2].

İKT sahəsində infrastruktur quruculuğu, müasir texnologiyaların tətbiqi və modernizasiyası sayəsində mühüm işlər görülməkdədir. Azərbaycan Respublikasının prezidentinin rəqəmsal transformasiya sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında Fərmanında deyilir: “İqtisadiyyatın və dövlət idarəetməsinin səmərəliliyinin, informasiya təhlükəsizliyinin və vətəndaşların yaşayış səviyyəsinin yüksəldilməsi məqsədi ilə İKT infrastrukturunun əsasını təşkil edən genişzolaqlı internet şəbəkəsinin inkişafı, G-cloud(hökumət buludu), BigData(böyük həcmli məlumatlar), Smart city(ağıllı şəhər), Smart village(ağıllı kənd) kimi rəqəmsal təşəbbüslər həyata keçirilir”[4].

Azərbaycan Respublikası Prezidentinin “2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətlərinin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi” haqqında Sərəncamında şəffaflığı artırmaq və vergitutma bazasını genişləndirmək məqsədi ilə beynəlxalq təcrübədə geniş tətbiq edilən rəqəmsal iqtisadiyyatın vergiyə cəlb edilməsi ilə bağlı tapşırıqlar verilmişdir[1]. Dövlətin tənzimləyici təsirləri sırasında əsasən dolayı üsullar, vergi dərəcəsi və gömrük rüsumlarının tənzimlənməsi, dövlətin investisiya siyasəti və s. üstünlük təşkil edir.

“Rəqəmsal iqtisadiyyatın tətbiqi dövlətin iştirakı olmadan bir qədər çətindir. Kommersiya şirkətləri rəqəmsallaşma prosesinə müstəqil formada başlayır, dövlət idarələrində isə rəqəmsallaşma prosesinin başlaması üçün dövlətin təşəbbüsü və qanunvericiliyin dəyişdirilməsi lazımdır” [11, s. 144].

Rəqəmsallaşma prosesinin hüquqi və iqtisadi cəhətdən tənzimlənməsi metodiki və informasiya təminatını formalaşdırır. Tənzimləmə meyarları elə olmalıdır ki, rəqabət mühitinə mənfi təsir etməsin. Bazar iqtisadiyyatında özünütənzimləmə prosesində meydana çıxan problemlərin həllinə kömək edən texnoloji dəstək rolunu oynamalıdır. Bu texnoloji dəstəyin qiymətləndirilməsi metodiki məsələdir. Lakin bu qiymətləndirmənin alqoritmi və ya ona ümumi bir yanaşma yoxdur.

Təəssüf ki, XXI əsrdə hələ də müharibələr baş verir. Müharibənin baş verdiyi ərazilərdə infrastruktur, yollar, yaşayış məntəqələri darmadağın olur. Belə ərazilərdə iqtisadiyyat, demək olar ki, yenidən qurulur. İşğaldan azad edilmiş əraziləri idarə etmək üçün rəqəmsallaşmanın üsul və vasitələrindən istifadə etmək lazım gəlir.

Rəqəmsallaşmanın yaratdığı yeni iqtisadi vəziyyət işğaldan azad edilmiş ərazilərin daha sürətlə inkişaf etməsinə imkan yaradır. Rəqəmsallaşdırma prosesində yenidən strukturlaşma ön planda olur. İşğaldan azad edilmiş ərazilərdə isə bütün infrastruktur yenidən qurulur. Bu dediklərimizi nəzərə alaraq belə nəticəyə gəlmək mümkündür ki, rəqəmsallaşma prosesini işğaldan azad edilmiş ərazilərdə tətbiq etmək yeni bir təcrübə olacaq. Çünki, bu ərazilərdə infrastruktur demək olar ki, sıfırdan, yəni yenidən qurulur. Ona görə də rəqəmsal iqtisadiyyat üçün bu ərazilər bir növ təcrübə meydanıdır. Bu ərazilər startap layihələr üçün açıq meydan rolunu oynaya bilər. Xarici ölkələrin təcrübəsindən bəhrələnmək, investisiya qoyuluşları cəlb etmək olar. Burada bir məqamı da qeyd etmək lazımdır ki, hər hansı bir ərazi nə qədər də texnoloji avadanlıqlarla təchiz olunsa, rəqəmsallaşmanın son nailiyyətləri tətbiq edilsə də, İAEƏ-də iqtisadiyyatın inkişaf etməsi üçün dayanıqlı məskunlaşma olmalıdır.

Rəqəmsal mühitin nüvəsini texnologiyalar təşkil edir. Texnologiyalar isə sürətlə dəyişərək birbirini kəsilməz proses ilə əvəzləyir. Bu prosesi həyata keçirtmək üçün təcrübənin olması önəmlidir. Lakin çox vaxt bu prosesdə təcrübə nəzəriyyəni qabaqlayır və hüquqi bazanın formalaşması ləngiyir. Rəqəmsallaşma iqtisadiyyata sürətlə nüfuz etdiyindən rəqəmsal iqtisadiyyatın nəzəri-metodoloji bazasının formalaşması prosesinin nəzəri hissəsi onun praktiki hissəsindən geri qalır. Ona görə də rəqəmsallaşmanın tənzimlənməsi üzrə normativ-hüquqi baza tədricən formalaşır.

Dayanıqlı inkişaf nöqteyi-nəzərindən informasiya cəmiyyəti iqtisadi, sosial, texnoloji və ekoloji problemlərin birgə qəbul edilmiş qərarlarının dəyişməzliyini təmin etməlidir. Həmçinin, texnoloji inkişaf ekoloji prinsiplər əsasında idarə olunmalıdır. İnformasiya təhlükəsizliyinin qorunması üçün addımlar atılmalı, böyükhəcmli məlumatların qorunmasında kibertəhlükəsizliyə dövlət təminat yaratmalıdır. İnformasiya axtarışı sistemləri, distant təhsil, elektron kommersiya və digər rəqəmsal fəaliyyət sahələri normativ qaydalar əsasında tənzimlənməlidir.

Rəqəmsal iqtisadiyyatın bütün sahələrə nüfuz etdiyi bir dövrdə dövlət rəqəmsallaşmaya biganə qala bilmir. İqtisadi tənzimləmə mexanizmləri rəqəmsal mühitdə adətən texnoloji dəstək formasında daha çox elmtutumlu sahələrdə büruzə verir.

Rəqəmsal iqtisadiyyatın inkişafı hər zaman dövlətçiliyin möhkəmlənməsini, milli iqtisadi təhlükəsizliyin qorunmasını təmin edə bilmir. Lakin rəqəmsal texnologiyaların tətbiqi nəticəsində yaranan iqtisadi mühit bir çox sosial, ekoloji və regional problemləri həll etməyə qadirdir. İnformasiya təhlükəsizliyi və müəllif hüquqlarının qorunması rəqəmsal iqtisadiyyatın məhdudiyyəti olaraq qalır.

Əslində XXI əsrdə işğaldan azad edilmiş və rəqəmsallaşma yoluna qədəm qoymuş bir ərazi və ya ölkə nümunəsi göstərmək bir qədər çətindir. Çünki rəqəmsallaşmanın nəzəriyyəsi və metodologiyası hələ yenicə formalaşmağa başlayır. Belə demək olar ki, bu mövzuda nəzəriyyə hələ pərakəndə formadadır.

Dünya yüksək templə dəyişir. Rəqəmsallaşan dünya inkişaf edir. Biz bu inkişaf tempinə uyğunlaşmaq üçün əlimizdə olan resurslardan maksimum faydalanmalıyıq.

Nəticə

Rəqəmsal iqtisadiyyatın məqsədi insanların rifah halını yüksəltmək və həyat keyfiyyətini yaxşılaşdırmaqdır. Rəqəmsallaşma urbanizasiya olan ərazilərdə daha səmərəli təşkil oluna bilir. Bir növ iri şəhərlər sanki rəqəmsallaşma üçün zəmin yaradır. İşğaldan azad edilmiş ərazilərdə isə əhalinin sayı ilk vaxtlarda yetərli qədər olmur. Lakin rəqəmsal iqtisadiyyatda məkandan asılılıq dəyişir. Dayanıqlı məskunlaşma, eləcə də uzaqdan işləmək, uzaqdan idarə etmək imkanı, həmçinin mütəxəssisləri cəlb etməyin mümkünlüyü bu problemin həllində çıxış yolu ola bilər.

Rəqəmsal iqtisadiyyatın sürətli inkişafı əslində onun tənzimlənməsi prosesini çətinləşdirir. Həmin iqtisadiyyat sürətlə inkişaf etdiyindən lazımi dərəcədə strukturlaşa bilmir. Rəqəmsallaşmada, eləcə də texnologiyada baş verən inkişaf normativ-hüquqi bazanın təşəkkülü prosesinin sürətini üstələdiyindən sistem əməlgətirmə prosesi ləngiyir.

ƏDƏBİYYAT

1. https://e-qanun.az/framework/33468 Azərbaycan Respublikasının prezidentinin 2016-cı il 4 avqust tarixli "2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri"nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında Sərəncamı.
2. https://president.az/az/articles/view/49932 Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 6 yanvar tarixli Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində "Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi" publik hüquqi şəxsin yaradılması haqqında Fərmanı.
3. https://president.az/az/articles/view/50474 Azərbaycan Respublikasının prezidentinin 2021-ci il 2 fevral tarixli "Azərbaycan 2030: sosial iqtisadi inkişafa dair milli prioritetlər" Sərəncamı.
4. https://president.az/az/articles/view/51299 Azərbaycan Respublikasının prezidentinin 2021-ci

il, 27 aprel tarixli “Rəqəmsal transformasiya sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında” Fərmanı.
5. Balayev R.Ə. (2019), Rəqəmsal iqtisadiyyata dövlətin tənzimləyici təsirləri və texnoloji dəstək imkanları haqqında, İl 7, Cild 7, aprel- iyun, 2019, səh. 35 - 44 .
6. Balayev R.Ə. (2019), Rəqəmsal iqtisadiyyat: mahiyyət və perspektivlər, “Kooperasiya” jurn. №2(53), 2019 s. 28-33.
7. Quliyev E.A. (2023), Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının Azərbaycanın davamlı inkişafında rolu, “Kooperasiya”nəşriyyatı.
8. Balayev R.Ə., Alizada M. N., Hacızada S. Z. (2020), Capabilities of Urbanizosiya Processes Resilience in the Digital Environment, THE JOURNAL OF ECONOMIC SCIENCES: THEORY AND PRACTICE, V.77, # 1, 2020, pp. 65-83.
9. Klaus Schwab (2017), The Fourth İndustrial Revolution, 2017, 196 p.
10. Беликова К.М. (2018), Особенности правового регулирования цифровой интеллектуальной экономики,Закон и право. 08, 2018, с.26-30.
11. Махалин В.Н., Махалина О.М. Роль государства и бизнеса в проведении цифровой трансформации в России // Научный форум: Экономика и менеджмент: сб. ст. по материалам XII междунар. науч.-практ. конф. № 10(12). Москва, Изд. «МЦНО», 2017. с. 135-144.
12. Семячков, К.А. (2017), Цифровая экономика и ее роль в управлении современными социально-экономическими отношениями// Современные технологии управления. ISSN 2226-9339. №8 (80). Номер статьи: 8001. Дата публикации: 2017-08-28. Режим доступа: https://sovman.ru/article/8001
13. https://www.yeniazerbaycan.com/Sosial_e86626_az.html

Ширин Джаваншир гызы Рамазанова
Азербайджанский Государственный
Экономический Университет (UNEC),
докторант
shirin-ramazanova@unec.edu.az

Научно-теоретические аспекты управления экономикой на территориях, освобожденных от оккупации, в условиях цифровизации

Резюме

Цель исследования - рассмотреть формирование цифровой экономики на освобожденных территориях и формирование экономико-правовой основы управления. В статье исследованы научно-теоретические основы управления территориями в условиях цифровизации, проанализирована экономическая и правовая среда, сложившаяся в Азербайджане в этой сфере, и выражено отношение к перспективам цифровизации управления. Изучено влияние цифровизации на систему управления экономическими процессами на территориях, освобожденных от оккупации.

Методы исследования основаны на наблюдении, сравнительном анализе, методах логического обобщения. Ограничением исследования является отсутствие исследований и данных с точки зрения оцифровки постконфликтных территорий.

Практическая значимость и научная новизна статьи заключается в разработке концептуальных положений реализации возможностей цифровой среды в управлении территориями, освобожденными от оккупации.

Результат исследования - исследована научная теория, используемая в управлении экономикой территорий, освобожденных от оккупации в условиях цифровизации.

Оригинальность и научная новизна исследования - проанализирован процесс формирования правовой основы цифровизации территорий, освобожденных от оккупации.

Ключевые слова: процесс цифровизации, цифровая экономическая среда, управление постконфликтными, правовые рамки.

Shirin Javanshir Ramazanova
Azerbaijan State University of Economics (UNEC),
doctorate
shirin-ramazanova@unec.edu.az

Scientific-theoretical aspects of economic management in territories freed from occupation in the conditions of digitization

Summary

The purpose of the study is to examine the formation of the digital economy in the liberated territories and the formation of the economic-legal basis of management. In the article, the scientific-theoretical basis of territory management in the conditions of digitalization was investigated, the economic and legal environment formed in Azerbaijan in this field was analyzed, and the attitude towards the prospects of digitalization of management was expressed. The impact of digitization on the management system of economic processes in the territories freed from occupation has been studied.

Research methods are based on observation, comparative analysis, logical generalization methods. A limitation of the study is the lack of research and data in terms of digitization of post-conflict areas.

The practical importance and scientific innovation of the article consists in the development of conceptual provisions for the realization of the possibilities of the digital environment in the management of territories freed from occupation.

The result of the research - the scientific theory used in the management of the economy of territories freed from occupation in the conditions of digitization was investigated.

The originality and scientific novelty of the research - the process of formation of the legal basis for the digitization of territories freed from occupation was analyzed.

Keywords: digitization process, digital economic environment, governance post-conflict areas, blockchain, legal framework.

UOT 338.4

Yusif İsrafil oğlu İSMAYILZADƏ
Azərbaycan Kooperasiya Universiteti, doktorant
https://doi.org/10.30546/4.71.73001.2024.004.056

AZƏRBAYCANDA XİDMƏT SEKTORUNUN PERSPEKTİV İNKİŞAFININ PRİORİTETLƏRİ

Xülasə

Tədqiqatın məqsədi – Azərbaycan Respublikasında xidmət sahəsinin perspektiv inkişaf yollarının müəyyən edilməsidir.

Tədqiqatın metodologiyası - sistemli yanaşma, müqayisəli təhlil.

Tədqiqatın tətbiqi əhəmiyyəti - xidmət sahəsi ilə bağlı tədqiqatlarda elmi mənbə kimi istifadə imkanı.

Tədqiqatın nəticəsi - xidmət sektorunun perspektiv inkişaf yolları ümumiləşdirilmişdir.

Tədqiqatın orijinallığı və elmi yeniliyi - xidmət sektorunun səmərəliləşdirilməsi ilə bağlı dövlət-özəl sektor tərəfdaşlığı istifadə istiqamətlərinin, xidmətlərin ixrac strukturunun təkmilləşdirilməsinin hədəf göstəricilərinin müəyyən edilməsi və elmi cəhətdən əsaslandırılması.

Açar sözlər: xidmət sahəsi, ixrac, inkişaf tempi, nəqliyyat xidmətləri, dövlət-özəl tərəfdaşlığı.

Giriş

Bu gün Prezident İlham Əliyevin xarici ticarətin stimullaşdırılması istiqamətində iqtisadi və ticarət islahatları davam etdirilir. Mal və məhsulların ixracının diversifikasiyası siyasəti respublika iqtisadiyyatı üçün böyük əhəmiyyətə malikdir. İxracın genişləndirilməsi və diversifikasiyası təkcə mal və məhsullar deyil, həm də xidmət sahəsi üçün zəruridir. Pandemiya səbəbindən tələb və təklifin kəskin azalması sona çatdı və milli istehsalatın genişlənməsi sahəsində mal və xidmətlərin ixracının sürətli bərpası başladı. Ümumdünya Ticarət Təşkilatının (ÜTT) bəyanatlarına əsasən, COVID-19 pandemiyasından sonra dünya ticarəti, o cümlədən, xidmətlərin ixracı artıb. Eyni zamanda biz onun daha müxtəlif olduğunu qeyd edə bilərik. Pandemiya zamanı mal və xidmətlərin geniş çeşidləri ilə bağlı xarici ticarət əməliyyatlarının azalmasına paralel olaraq həmçinin nəqliyyat və turizm xidmətlərinin azalması müşahidə olunmuşdur. Qeyd edilən xidmətlərin ölkənin xarici iqtisadi münasibətlərinin mühüm elementlərindən biri olmasını nəzərə alaraq, onun ölkənin ÜDM-də yüksək faiz payına malik olmasını ehtimal etmək çətin deyil. Həmçinin xidmət sahəsində məhdudiyyətlər iqtisadiyyatın digər sahələrinə, məsələn tikinti sektoruna mənfi təsir göstərə bilərdi. Beynəlxalq Valyuta Fondunun (BVF), Avropa Statistika Xidmətinin (Avrostat), İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (İƏİT) statistikasına görə, 2025-ci ildə dünya iqtisadiyyatında xidmətlərin ixracı birinci yeri tutacaq.

Xidmət sektorunun müasir perspektiv inkişafının əsas istiqamətləri

Qeyd edilməlidir ki, pandemiya zamanı ən böyük azalma 2018-ci illə müqayisədə müvafiq olaraq -69% və -14% həddində dəyişən turizm və nəqliyyat xidmətləri sahəsində qeyd alınıb. Lakin, məhsul ixracını dəstəkləyən xidmət seqmentində (məsələn, elektron kommersiya platforması) yalnız 4% azalma qeydə alınıb. Pandemiyanın elektron kommersiya sahəsində məhz onlayn sifarişlərin stimullaşdırılmasına şərait yaratdığını nəzərə alaraq, digər xidmət növləri adı çəkilən sektordan daha çox azalmaya məruz qalıb. Xidmət sektorunun zəifləməsinin ən çox hiss edildiyi əsas ölkələr ABŞ və Kanada olub, həmçinin qismən Avropa İttifaqı zonası, Çin, Yaponiya və Cənubi Koreya zərər çəkib. Beləliklə də, bu ölkələrdə xidmət sektorunda orta hesabla 15-23 faiz azalma müşahidə olunub. Pandemiya zamanı xidmət ticarətinə dəyən zərərin minimuma endirilməsi və yeni texniki reqlamentlərin işlənib hazırlanması hazırda çox aktualdır. Beynəlxalq təcrübəyə əsasən, inkişaf etmiş ölkələrin və bir sıra inkişaf etməkdə olan ölkələrin xarici ticarət göstəricilərinin tədqiqi zamanı onlar xidmət sektoru göstəriciləri ilə eyni qiymətləri nümayiş etdirirlər. Bu gün

dünya iqtisadi sistemində ticarətin dövriyyəsi xidmət sektoru dövriyyəsini üstələyir. Lakin bir sıra Avropa İttifaqı ölkələrində xidmət sektorunun həcmi ixrac xammal məhsulları sektorunun həcminə yaxındır.

Qeyd edək ki, Azərbaycanın xarici ticarətində mal və məhsulların ixracına paralel olaraq xidmətlərin ixracı həyata keçirilir. İqtisadiyyatın bu sektorunda yeni prioritetlərin formalaşdırılmasını başlıca vəzifə hesab etmək olar. Ölkəmizin xidmət ixracı həcmi ölkənin Mərkəzi Bankı tərəfindən aybaay dərc edilən cari ödəniş balansı hesablarının müvafiq statistikası ilə əks olunur. 2022-ci ilin yekunlarına görə Azərbaycanın makroiqtisadi stabilliyi 1,3 milyard ABŞ dolları həcmində nəqliyyat xidmətlərinin qeyri-neft ixracının dayanıqlığını dəstəkləyən xidmət ixracı hesabına da təmin edilmişdir.

Azərbaycanda, dünya ölkələrinin əksəriyyətində olduğu kimi, xidmət ixracında turizm və nəqliyyat-logistika sektoru üstünlük təşkil edir. Bizim ölkəmizdə pandemiya öncəsi dövrdə qeyd edilən sahələr xidmət sektorunun əsas drayverləri olub. Fikrimizcə, Azərbaycanda xidmət ixracı sahəsində hüquqi baza təkmilləşdirilməlidir və bu istiqamətdə nümunə kimi turizm sektorunun stimullarının formalaşmasının ən əlverişli təcrübəsinə nail olmuş qonşu Türkiyənin adını çəkmək olar. Türkiyə Respublikası ilə xarici ticarətin diversifikasiyası miqyaslarının gələcək artırılması məqsədi ilə qanunvericilik sahəsində və ya xidmət sektorunun inkişafının stimullaşdırılması mexanizmi sahəsində müsbət effekt yaradacaq. Türkiyə Respublikasının xidmət sektorunun ənənəvi formalarına turizm, nəqliyyat, səhiyyə, yaradıcılıq (mədəniyyət), vergi və hüquqi konsultasiyalar, mühəndis və memar xidmətləri daxildir.

Etiraf etmək lazımdır ki, respublikada xidmət sahəsi hələ ki, dünya iqtisadiyyatı üçün səciyyəvi olan əhəmiyyət dərəcəsinə çatmayıb. ÜDM-də xidmətlərin xüsusi çəkisinin kifayət qədər yüksək olmaması (təxminən 40%) onların potensialının kifayət qədər açılmamasından xəbər verir [4]. Beləliklə də, hökumətin əsas vəzifəsi kimi maliyyə və sığorta xidmətlərinin, mədəniyyət sahəsində xidmətlərin, əqli mülkiyyətin istifadəsi xidmətlərinin və digər kommersiya və işgüzar xidmətlərin ixracının artırılması çıxış edir (bax cədvəl 1).

Cədvəl 1.

2023-ci ildə Azərbaycan Respublikasında xidmətlərin ixrac strukturunun təkmilləşdirilməsinin hədəf göstəriciləri

Xidmət növləri	2018-ci ildə 2023-cü ilin səviyyəsinə nisbətdə artım, %
Nəqliyyat xidmətləri	310
Tikinti xidmətləri	400
Rabitə, kompüter və informasiya xidmətləri	400
Turizm xidmətləri	350
Təhsil xidəmətləri	300
Maliyyə xidmətləri	300
Biznes-xidmətlər	390

Mənbə: cədvəl müəllif tərəfindən tərtib olunub.

Azərbaycan Respublikasında xidmət sahəsinin inkişafının əsas çatışmazlıqları arasında aşağıdakıları fərqləndirmək olar: kiçik şəhərlər və kəndlərdə xidmətlərin kifayət qədər inkişaf etməməsi, təqdim edilən xidmətlərin məhdudluğu, bu sektorda orta və kiçik sahibkarlığın zəif inkişafı. Qeyd edilməlidir ki, sahələrin əksəriyyətində aşağı innovativ tərkib hissə, dövlət orqanlarının üstünlüyü, sənaye ilə müqayisədə aşağı əmək məhsuldarlığı, kölgə bazarının böyük həcmi müşahidə olunur. Xidmət sahəsinin inkişafının əsas məqsədlərindən biri yeni xidmət bazarının strukturunun təkmilləşdirilməsi və fəal inkişafı hesabına ÜDM-də onun payının artırılmasıdır. Xidmət sektorunun dünya bazarında ölkənin rəqabət qabiliyyətini yüksəldəcək ən perspektiv sahələrinin müəyyən edilməsi üçün A.A.Tompson və A.C.Striklendin portfel təhlili metodikasından istifadə olunub

[2,s.125]. Boston Consulting Group (PCG) tərəfindən işlənib hazırlanmış bu metod şirkətin göstəriciləri ilə münasibətdə “inkişaf templəri – bazar payı” koordinatları üzrə qrafik asılılığın yaradılmasını nəzərdə tutur. Bu halda korporasiyanın strateji biznes vahidləri əvəzinə xidmət sektorunun strateji sahələri, şirkətin biznes portfeli əvəzinə isə ümumi xidmət sahəsinin ümumi portfeli nəzərdən keçirilir. Hər bir sahə dörd kvadrantdan (və ya sərhəddən) biri çərçivəsində olan çevrə ilə təmsil olunub, çevrənin sahəsi isə ölkənin ümumi xidmət sektorunda sahənin payını göstərir. Qarşılıqlı əlaqə qurmaq üçün biz konkret sahənin konsentrasiya əmsalını bir oxun, ölkədə onun artım tempini isə digər oxun üzərinə qoyuruq. “Çox” və “az inkişaf edən” sahələr arasında sərhəd 2017-2022-ci illərdə Azərbaycan Respublikasında xidmət sahəsinin orta inkişaf templəri üzrə çəkilməlidir. Yüksək artım tempinə malik xidmət sahələri “sürətli inkişaf” xanalarına, aşağı artım tempinə malik sahələr isə - “zəif inkişaf” xanalarına düşür (bax cədvəl 2).


Cədvəl 2

“İnkişaf tempi – konsentrasiya əmsalı (bazarda pay)” asılılığının qurulması üçün göstəricilər, %

Parametr	Nəqliyyat xidmətləri	Səfərlər	Telekommunikasiya xidmətləri	Tikinti xidmətləri	Kompüter xidmətləri	Maliyyə xidmətləri	İşgüzar xidmətlər	İnformasiya xidmətləri
Sahənin konsentrasiya əmsalı	26,9	22,2	2,2	23,5	1,4	4,4	11,7	7,7
Sahənin inkişaf tempi	6,1	15,4	0,4	97,6	35,3	-3,2	16,6	5,6

Mənbə: cədvəl müəllif tərəfindən Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları əsasında tərtib edilib [5,s.263].

“İnkişaf – konsentrasiya əmsalı” sxematik asılılığı formalaşdırıldıqdan sonra xidmət sektoru sahələrinin dörd qrupu müəyyən edilə bilər ki, onlarla münasibətdə də diferensiasiya olunmuş strategiyalar qurulmalıdır (bax şək. 1.).



Şəkil 1. “İnkişaf tempi – konsentrasiya əmsalı (bazarda pay)” qrafik asılılığı

Mənbə: şəkil cədvəl 1-in məlumatları əsasında tərtib edilib.

Portfel təhlili terminologiyasında dördüncü yerdə duran kateqoriyalar (soldan yuxarıda) “sual işarələri” və ya “problemli uşaqlar” adlandırılır. Bu cür aktivlər (bu halda xidmətə görə ödənişin),

bir qayda olaraq, silinməli olan hesab edilir. Bu zaman Azərbaycan Respublikasının xidmət sahələrindən heç biri bu kateqoriyaya düşmür. II matrisa kvadrantı (sağdan yuxarıda) respublikada tikinti xidmətlərinin aid olduğu "ulduz" adlandırılan sahələrdən ibarətdir. Bu sahələr adətən bazar payı və sahənin inkişaf tempi baxımından üstün mövqe tuturlar. Onlar böyük maliyyə investisiyası və yardımı tələb edir, lakin adətən öz ehtiyaclarını böyük həcmdə istehsal hesabına ödəyirlər. Bəzən yeni "ulduzlara" onların şəxsi mənfəətlərini üstələyən böyük kapital qoyuluşları tələb olunur, buna görə də regionda əsas investisiyalar məhz bu sahələrə yönəldilməlidir, çünki onlar ölkənin rəqabət qabiliyyətinin əsasını təşkil edirlər. III kvadrantda (sağdan aşağı) sahələr "sağmal inək" adlandırılırlar, çünki onlar adətən təkrar investisiya və inkişaf üçün zəruri olan pul axınından daha böyük pul vəsaiti generasiya edirlər. Bizim ölkəmizdə bu cür "sağmal inəklər" sərnişin və nəqliyyat xidmətləridir. Onların bazarda nisbətən yüksək paya malik olmasını nəzərə alaraq, bu sahələr böyük mənfəət və yüksək satışlar generasiya edə bilirlər. Lakin, bu sahələr aşağı inkişaf tempinə malik olduğundan, əməliyyat mənfəəti adətən onların kapital qoyuluşlarını və rəqabət ehtiyaclarını üstələyir. "Sağmal inəklər" milli gəlirin mühüm generatorlarıdır və milli iqtisadiyyatın struktur dəyişiklikləri üçün vəsaiti təmin edə bilirlər. Bu sahələr daha çox özünü təmin edən və xarici kapital daxilolmalarından daha az asılıdırlar. Lakin bu kvadrantda sahələr hələ də inkişaf üçün əlavə investisiyalara ehtiyac duya bilərlər. "Sağmal inəklər", şübhəsiz, ölkə iqtisadiyyatı üçün qiymətlidir, onların pul vəsaiti yaratmaq qabiliyyətini dəstəkləmək lazımdır. Strateji məqsəd bazarda "sağmal inəklərin" mövqeyinin qorunub saxlanması olmalıdır ki, onlar milli iqtisadiyyatın digər sahələrində istifadə edilmək üçün vəsait yarada bilsinlər. Aşağı nisbi bazar payına və aşağı inkişaf templərinə malik sahələr (IV və ya aşağı sol kvadrant) "köpək" adlandırılır. Bizim ölkəmizdə bu, telekommunikasiya xidmətləri, informasiya xidmətləri, kompüter, işgüzar və maliyyə xidmətləridir. Onların inkişaf perspektivləri qeyri-müəyyən, onların bazar mövqeləri isə qeyri-stabildir. Bu cür müəssisələr üçün satış və ya ləğvetmə strategiyası tövsiyə olunur, lakin bu kateqoriyada güclü bölmələr (bu halda, kompüter və biznes xidmətləri) onların gəlirləri və pul axınları məqbul səviyyədə qalanadək güclü olaraq qala bilər.

Apardığımız tədqiqatlar əsasında biz ölkəmiz üçün zəruri olan xidmət sahələrini müəyyən edə bilərik. Bu öz miqyasından asılı olaraq ölkənin rəqabət qabiliyyətinin əsasını təşkil edən tikinti xidmətləri, turizm, nəqliyyat xidmətləri, kompüter xidmətləri və işgüzar xidmətlərdir. Xidmət sektorunun biznes sahələrinin inkişafında prioritet milli iqtisadiyyatın infrastrukturunu formalaşdıran sahələrin inkişafına verilməlidir. Dünya iqtisadiyyatının qloballaşma proseslərini nəzərə alaraq, prioritet rabitə, kompüterlər və nəqliyyat xidmətlərinin inkişafına verilir. Sonuncunun inkişafı üçün, ilk növbədə, nəqliyyatın effektivliyi və etibarlılığını təmin edən nəqliyyat mərkəzləri yaradılmalıdır.

Xüsusi olaraq, nəqliyyat xidmətlərinin inkişafının aşağıdakı əsas istiqamətləri fərqləndirilməlidir:

• Nəqliyyat infrastrukturunun və müasir tələblərə cavab verən nəqliyyat xidmətləri bazarının inkişaf etdirilməsi;

• Nəqliyyatın potensialının gerçəkləşdirilməsi və nəqliyyat xidmətlərinin ixracının artırılması;

• Dövlət-Özəl sektor tərəfdaşlığı prinsiplərinə müvafiq olaraq investorlarla birlikdə nəqliyyat-logistika mərkəzlərinin tikilməsi;

• Çarpaz subsidiyalaşdırmanın və nəqliyyat şirkətlərinə büdcə subsidiyalarının azaldılması üçün ictimai sərnişin nəqliyyatı xidmətlərinin tariflərinin tədricən artırılması.

Bu gün xidmət sahəsi milli iqtisadiyyatın ən perspektiv və sürətlə inkişaf edən, o cümlədən, biliklərə əsaslanan sahələrindən biridir. Xidmət – insanın ehtiyaclarını təmin edən faydalı effektin yaradılmasına yönəlmiş insan fəaliyyətidir. Əvvəlcə xidmət sahəsinin əsas xarakteristikalarını nəzərdən keçirək:

1. İstehsalat-satış fəaliyyətinin öz fəaliyyəti ilə inteqrasiyası;
2. Əksər sahələr üçün orta giriş baryerləri;
3. Təqdim edilən xidmətin keyfiyyəti xidmət tədarükçüsündən, onun ixtisas dərəcəsindən, şəxsi

keyfiyyətlərindən və emosional vəziyyətindən birbaşa asılıdır;

4. Rəqabət səviyyəsi regional xüsusiyyətlərdən asılıdır;

5. Təklif olunan xidmətlərə tələb və onların mövsümilikdən tam asılılığı;

6. Bazarın seqmentasiyası üzrə xidmətlər çox zaman istehlak malları deyil;

7. Kapitalın yüksək dövriyyəliliyi.

Bu xarakteristikalar bütün xidmət təşkilatları üçün ümumi olsa da, hər birində müxtəlif cür təzahür edə bilər. Ümumilikdə xidmət sahəsi şirkətləri kiçik və orta müəssisələr kimi təsnifləşdirilir. Bu, dəyişən şəraitə tez adaptasiya və istənilən səviyyədə tez qərar qəbul etmək qabiliyyəti ilə bağlıdır. Xidmət bazarı çox sürətlə artır və müştərilərin artan tələb və sorğularına vaxtında reaksiya verə bilməyən şirkətlər bu mühitdə rəqabət apara bilmirlər. Xidmət sahəsi şirkətlərinin qarşılaşdığı əsas problemləri qeyd edək.

Xidmət sahəsinin əsas inkişaf problemlərindən biri, ilk növbədə, Azərbaycanda xidmət sahəsi müəssisələrinin daha dinamik və effektiv inkişafı üçün ölkə hökuməti tərəfindən maliyyə köməyinin olmamasıdır. Xidmət tədarükçüləri əsasən kiçik və orta müəssisələr olduğundan, onlar milli vergi siyasətinin qeyri-çevikliyi və daxili bazarda yaranan digər maneələrlə qarşılaşırlar. Fikrimizcə, bu problemi kiçik biznesə qrantlar və yardım sayəsində həll etmək olar. İkincisi, ölkənin regionlarda xidmət sahəsinin kifayət qədər inkişaf etməməsi problemini qeyd etmək olar. İnkişaf etmiş ölkələrdə regionlar və milli iqtisadiyyatın problemlərinin eyni olduğu halda, burada vəziyyət əslində bir qədər fərqlidir. Regionun coğrafi xüsusiyyətləri, əhalinin sıxlığı və paytaxt və iri regional şəhərlərdən uzaqlıq miqyasa böyük təsir göstərir. Buna görə də xidmətlərin qiymətləri və bəzi regionların yaşayış məntəqələrində gəlirlərdə kəskin fərqlərlə bağlı problemlər yaranır. Bu problemi həll etmək o qədər də asan deyil, çünki o ümumilikdə ölkə regionlarının inkişafına təsir göstərir.

Mümkün həll kiçik biznesə dövlət köməyi ola bilər.

Üçüncüsü, təqdim edilən xidmətin keyfiyyəti məsələsi fərqləndirilə bilər. Xidmət qeyri-maddi olduğundan, onun keyfiyyətini əvvəlcədən qiymətləndirmək mümkün deyil, bunu yalnız xidmət göstərildikdən sonra etmək olar. Bu problemin mümkün həlli konkret xidmətin göstərilməsi sahəsində peşəkarların sertifikatlaşdırılması və onlar üçün müvafiq standartların müəyyən edilməsi ola bilər ki, bu da istehlakçılara xidmətin keyfiyyətində və peşəkarın etibarlığında əmin olmağa kömək edəcək. Bazarın qənaətbəxş inkişafı kiçik biznesin xüsusi marketinq metodlarından istifadə etməyə ehtiyac duymadığını göstərə bilər. Lakin son illər xidmət bazarında peyda olan yeni oyunçuların sayına deyil, həm də dövlətin iştirakı ilə xidmət bazarında payının artırılması məqsədilə françayzinq vasitəsilə xidmət bazarına çıxış imkanının qiymətləndirilməsinə də böyük diqqət yetirilməlidir. Aydındır ki, xidmət sahəsində kiçik müəssisələrin əksəriyyəti üçün yalnız qiymət rəqabəti amillərindən istifadə etməklə bazarda öz payını artırmaq və müştəriləri qoruyub saxlamaq çətindir. Buna görə də bütün (bəzi) əməkdaşlara müntəzəm olaraq marketinq prinsipləri ilə bağlı təlimlər keçirilməlidir:

1. Məqsəd – mənfəətin əldə olunmasıdır. İşçinin bütün fəaliyyəti bu məqsədə tabedir.

2. Marketinqin əsas prinsipi: söhbət satıcını işləməyə məcbur etməkdən getmir; İstifadəçinin bundan nə əldə edəcəyi vacibdir.

Bu, servisin başlıca dəyəridir. Şirkətin bütün əməkdaşları öz müştərilərini tanımalı, onların spesifikasiyasını başa düşməli və onların texniki proseslərini mümkün qədər dərindən dərk etməlidirlər ki, onlara zəruri xidməti vaxtında təqdim edə bilsinlər.

3. Xidmətlərin qiymətləri şirkətin bazarda mövqeyi, rəqabət mühiti, tədarükçülərin, tərəfdaşların təklifləri və maliyyət müəssisələrinin xidmətlərinin qiymətləri nəzərə alınmaqla formalaşdırılmalıdır. Lakin yadda saxlamaq lazımdır ki, qiymət heç vaxt əsassız dəyişməyəcək.

5. Bütün əməkdaşlar arasında kommunikasiyaların effektivliyi – tərəfdaşlar arasında informasiya mübadiləsi nə qədər yaxşı təşkil olunarsa, təşkilat da bir o qədər effektiv olacaq.

6. Xidmət alanın ehtiyacları və istəkləri marketinqin əsas çıxış nöqtəsidir.

Müştəriyə ona lazım olmayan və onu maraqlandırmayan şeyləri təklif etməyin mənası yoxdur. Kiçik biznesin daha konkret marketinq üsullarını fitnes-mərkəzin (səhiyyə xidmətləri) irəli

çəkilməsi nümunəsi üzərində nəzərdən keçirək. Fitnes-industriya hazırda inkişaf etməkdədir və buna görə də tədqiqatlar və investisiyalar üçün ən perspektiv sahələrdən biridir. Fitnes-mərkəzlərin inkişaf etdirilməsi, təqdim edilən xidmətlərin genişləndirilməsi və onların keyfiyyətinin yüksəldilməsi idman klublarının istifadəçilərinin sayının, bədən tərbiyəsinə marağın artmasına və nəticədə, klubların mənfəətinin yüksəlməsinə gətirib çıxarır. İdman-boş vaxt biznesinin inkişaf problemləri və tendensiyalarının sistemləşdirilməsi bu xidmət sahəsinin mühüm biznes funksiyasıdır. Məsələ burasındadır ki, marketinq xidmətləri şirkətin alıcıya müəyyən maddi formaya malik olmayan nəyisə satması ilə mürəkkəbləşir; Satış – alıcı üçün dəyərli bir şey etmək vədidir. Nəzərə alınmalı olan üç məqam var: Xidmət sahəsində marketinq nisbətən yeni haldır; Öz-özlüyündə o heç nə yaratmır, buna görə də onun effektlivliyini qiymətləndirmək çətindir; Xidmət marketinqinin ən mürəkkəb aspekti xidmətlərin göstərilməsi üçün əlverişli şəraitin yaradılmasıdır. Məsələn, idman xidmətləri bazarında kadr çatışmazlığı və sağlam həyat tərzi, bədən tərbiyəsi və idmanın adekvat təbliği məsələsi əvvəlki kimi aktual olaraq qalır. Bundan başqa, bazarda rəqabət kifayət qədər deyil – yəni yeni ideyalar, yeni klub konsepsiyaları uğrunda rəqabət mövcuddur. Yeni layihələr müştərinin ehtiyaclarına deyil, rayonun planına yönəldilib. Onlar nəinki konsepsiyanı təkrarlayır, həm də əməkdaşların ştatını artırır, bəzən əməkhaqqını qeyri-real səviyyəyədək artırır, potensial müştəriləri mənfəət gətirəndən daha aşağı qiymətlərlə aldadır, reklam aksiyalarını və xüsusi təklifləri təkrarlayırlar. Ucuz məhsulu qiymətinə görə keyfiyyətli məhsuldan fərqləndirmək üçün istehlakçılara müəyyən qədər vaxt lazımdır.

Burada qeyd edilməlidir ki, Azərbaycanda xidmət sahəsinin inkişafının prioritet istiqaməti Qarabağ və Şərqi Zəngəzurun azad olunmuş ərazilərində turizmin inkişafı olacaq.

Belə yerlərin sayı çoxdur. Birinci – Kəlbəcər regionudur. Burada təkcə Azərbaycanda deyil, həm də bütün regionda ən iri müasir kurortlardan birini tikmək olar. Ötən əsrin 70-ci illərinin əvvəllərində İstisuda sanatoriya və ildə 20 milyon butulka gücünə malik mineral su qablaşdırma zavodu işləyirdi. Burada ildə 50 min insan müalicə alırdı. Balneoloji sanatoriyadan başqa, burada həmçinin iqlim sanatoriyaları qurula bilər. Müalicə üçün müxtəlif dərman bitkilərindən istifadə etməklə vanna və müalicəvi çaylardan, apiterapiya, sağlamlıq terapiyası, fizioterapiya, pəhriz terapiyası və s. istifadə olunur. Tibbi turizmin inkişafının xeyrinə demək lazımdır ki, bu, ətraf mühitə və yerli əhaliyə ən az mənfi təsir göstərən nadir turizm növüdür.

İkinci – Füzuli rayonudur. Burada açıq səma altında Qobustana bənzər maraqlı muzeylər yaratmaq olar. Bunun üçün Qarakəpək mağarasının ətrafında Füzuli və Azıx şəhərlərini salmaq lazımdır. Mağaranın sahəsi qismən bilavasitə mağaranın içində muzey yaratmağa imkan verir. Bu əla interaktiv şou ola bilər.

Üçüncü – hər birimiz üçün xüsusi olan şəhər, gələcək turistlər üçünsə, əlbəttə ki, Azərbaycanın mədəni paytaxtı olan Şuşadır. Hər bir ev, hər bir küçə və hər bir görməli obyekt təkcə əcnəbi qonaqlara deyil, həm də gənc nəslimizə bu şəhərdə mənəvi mədəniyyət nümunələrimizin, identikliyimizin genlərinin və əcdadlarımızın mədəniyyətinin toplandığını göstərməlidir. Burada artıq Vaqifin məzarı bərpa edilib, Üzeyir Hacıbəyovun və Bülbülün ev-muzeylərinin restavrasiyası aparılır. Yer üzündə heç bir digər yerdə bu qədər incəsənət, ədəbiyyat və musiqi xadimi olmayıb. Burada xalq musiqisinə həsr olunmuş muzeyin yaradılması, onun xarici görünüşü bunu şəksiz əks etdirməlidir. Bu həmçinin Heydər Əliyev Mədəniyyət mərkəzində fəaliyyət göstərən xalq çalğı alətləri muzeyinə analoji olan interaktiv muzey ola bilər.

Qeyd etmək lazımdır ki, Şuşa şəhəri unikal yerdə yerləşib. Burada yüksək sinif klimatik sağlamlıq mərkəzləri qurulmalıdır. Hətta sovet dövründə belə burada müalicə üçün klimatik şərait Davosda (İsveçrə) və ya Kislovodskda (Rusiya) olduğundan daha yaxşı olub.

Xidmət sahəsində dövlət –özəl tərəfdaşlığın inkişaf potensialı

Vurğulanmalıdır ki, yeni reallıqda turizmin dayanıqlı inkişaf strategiyasının yalnız dövlət hakimiyyəti ola bilməyəcəyi və dövlət və biznes arasında əlaqələndirici həlqə kimi xidmət etməli olması aydındır. Dövlət-özəl sektor tərəfdaşlığı (DÖT) bu cür qarşılıqlı əlaqənin ən yaxşı forması kimi nəzərdən keçirilir. Azərbaycan Respublikasında ixtisaslaşdırılmış turizm sektorunun inkişa-

fına dair strateji təlimatda, turizm sektorunun “İmkanlar” bölməsində təqdim edilmiş SWOT-təhlilində ayrılmış istiqamətlərdən biri turizm sənayesinin xüsusi sektoruna dövlət-özəl sektor tərəfdaşlığı vasitəsilə və formasında yardımın göstərilməsidir [1,s.10]. Turizmdə dövlət-özəl sektor tərəfdaşlığı onu ənənəvi əməkdaşlıq formaları ilə müqayisədə daha cəlbedici edən bir sıra üstünlüklərə malikdir.

Turizmdə DÖT-nin əsas üstünlüklərindən biri iqtisadi səmərədir. Dövlət-özəl sektor tərəfdaşlığı müqavilələri adətən ənənəvi maliyyələşdirmə formaları ilə müqayisədə iqtisadi baxımdan daha səmərəli olurlar. Tədqiqatlar göstərir ki, DÖT layihələrinin orta hesabla 30%-dən çoxu bəyan edilmiş maliyyələşdirmə həcmləri çərçivəsində göstərilir. Bundan başqa, DÖT layihələrinin gerçəkləşdirilmə dəyərinin orta hesabla 4% artdığı halda, ənənəvi layihələr üçün bu göstərici 18% təşkil edir.

Turizmdə DÖT həmçinin layihələrin həyata keçirilmə müddətlərinin qısalmasına yardım edir. Tədqiqatlara əsasən, DÖT layihələrinin həyata keçirilməsi müddətləri ənənəvi layihələrlə müqayisədə 22% azdır. Bu dövlət və özəl sektor arasında daha effektiv qarşılıqlı əlaqə, eləcə də layihələrin həyata keçirilməsi prosesinə yaxşılaşdırılmış nəzarət və onun əlaqələndirilməsi ilə şərtlənib.

Turizmdə DÖT formalarından biri maliyyə tərəfdaşlığıdır. Bu model çərçivəsində dövlət və xüsusi təşkilatlar turizm sahəsində layihələrin həyata keçirilməsi üçün öz maliyyə resurslarını birləşdirirlər. Maliyyə tərəfdaşlığı maliyyə risklərini azaltmağa və layihələrin dayanıqlı maliyyələşdirilməsini təmin etməyə imkan verir.

İnfrastruktur tərəfdaşlıq – turizmdə daha bir DÖT formasıdır. Bu model çərçivəsində dövlət və özəl sektor hava limanları, yollar, mehmanxanalar və digər obyektlər kimi turizm infrastrukturunun inkişafında əməkdaşlıq edirlər. İnfrastruktur tərəfdaşlıq turizm xidmətlərinin keyfiyyətinin yaxşılaşdırılması və əlçatanlığına, eləcə də sahəyə əlavə investisiyaların cəlb edilməsinə yardım edir.

Turizmdə uğurlu DÖT layihəsinin nümunələrindən biri – “Regionda turizmin inkişafı” layihəsidir. Bu layihə çərçivəsində dövlət və xüsusi təşkilatlar turizm infrastrukturunun, reklam və marketinqin inkişafı, personalın təlimi və digər istiqamətlərdə əməkdaşlıq edirlər. Layihə regionda turistlərin sayını artırmağa, yeni iş yerləri yaratmağa və regionda iqtisadi vəziyyəti yaxşılaşdırmağa imkan verib.

Turizmdə uğurlu DÖT layihəsinin digər nümunəsi “Ekoloji təmiz turizm” layihəsidir. Bu layihə çərçivəsində dövlət və xüsusi təşkilatlar ekoloji dayanıqlı turizmin inkişafı, ekoloji texnologiyaların tətbiqi və personalın təlimi istiqamətində əməkdaşlıq edirlər. Layihə təbii ehtiyatların qorunub saxlanmasına, ekoloji vəziyyətin yaxşılaşdırılmasına və ekoloji düşüncəyə malik turistlərin cəlb edilməsinə yardım edib.

Turizmdə DÖT-nin inkişafı dayanıqlı inkişafa nail olmağın mühüm istiqamətinə çevrilib. Lakin, aradan qaldırılması zəruri olan bir sıra çağırışlar mövcuddur.

Turizmdə DÖT-nin inkişaf çağırışlarından biri hüquqi və institusional aspektlərlə bağlıdır. Effektiv hüquqi və tənzimləyici mexanizmlərin işlənib hazırlanması, eləcə də turizmdə DÖT-nin inkişafı üçün institusional bazanın yaxşılaşdırılması zəruridir.

İnvestisiyaların cəlb edilməsi turizmdə DÖT-nin inkişafı üçün daha bir çağırışdır. Layihələrə xüsusi investisiyaların cəlb edilməsi mexanizmlərinin işlənib hazırlanması, eləcə də investorlar üçün şəffaflığın və şəraitin etibarlılığının təmin edilməsi zəruridir.

Turizm sahəsində dövlət-özəl sektor tərəfdaşlığı dayanıqlı inkişafa nail olmaq üçün güclü alətdir. Bu, layihələrin gerçəkləşdirilməsi üçün dövlət və xüsusi sektorun resurslarını birləşdirməyə imkan verir, iqtisadi səmərəni, həyata keçirilmə müddətinin azaldılması və investisiyaların cəlb edilməsini təmin edir. Çağırışlara baxmayaraq, turizmdə DÖT-nin inkişafı turizm xidmətlərinin keyfiyyətinin yaxşılaşdırılması, infrastrukturun inkişafı və yeni turistlərin cəlb edilməsi üçün perspektivlər təklif edir. Bu, turizmin dayanıqlı inkişafı üçün əlverişli mühit yaratmağa imkan verəcək [3,s.75].

Müasir dünyada dövlət-özəl sektor tərəfdaşlığı iqtisadiyyatın müxtəlif sahələrində dövlət orqanları və Özəl sektor arasında əməkdaşlığın effektiv mexanizminə çevrilib. Bu sahələrdən biri xidmət, daha dəqiq desək, turizm sektorudur. Turizm sənayesində DÖT xərclərə qənaət və dünya turizm

xidmətləri bazarında rəqabət qabiliyyətinin yüksəldilməsi kimi mühüm faydalar gətirə bilər.

Turizm sənayesində DÖT bazasında layihələrin həyata keçirilməsi bir sıra üstünlüklərə malikdir. Onlardan biri xərclərə böyük qənaətdir. Dövlət çox zaman bu cür layihələrin təşkilatçısı qismində çıxış edir və tərəfdaşlıqda üstün rol oynayır.

DÖT təşkilatlara turizm məhsulu və infrastrukturunun inkişafından turizm istiqamətli marketinqin və reklam kampaniyalarının planlaşdırılmasınadək müxtəlif sahələrdə layihələrdə ortaq olmağa imkan verir. Bundan başqa, DÖT layihələrinin mühüm aspekti servis və xidmətlərin keyfiyyətinin yüksəldilməsidir.

Azərbaycan turizm sənayesi, lider ölkələrdən bir qədər geri qalmasına baxmayaraq, dünya turizm xidmətləri bazarında rəqabət qabiliyyətinin yüksəldilməsi məqsədi ilə DÖT mexanizmlərinin istifadəsi üçün bütün imkanlara malikdir. Azərbaycanın təcrübəsi göstərir ki, regionlarda DÖT-nin tətbiqi sayəsində mövcud problemlərin daha uğurlu şəkildə, keyfiyyətlə və tez həll edilməsi mümkün olur və eyni zamanda büdcə vəsaitinə qənaət təmin edilir.

İnnovativ istiqamətli böyük turizm layihələrinin gerçəkləşdirilməsi DÖT-nin nəticələrini xüsusilə parlaq şəkildə nümayiş etdirir. Lakin, bu sahədə uğur əldə etmək üçün iki vacib şərtə riayət olunmalıdır: dövlət strateji məqsədlərinin dəqiq müəyyən edilməsi və ümumi layihələrin həyata keçirilməsi dövründə dövlət və biznes arasında tərəfdaşlıq qaydalarının müəyyən edilməsi.

Turizmdə uğurlu DÖT layihələrinin nümunələri digər ölkələr və regionlar üçün ilham və nümunə kimi xidmət edə bilər. Bu layihələrdən biri Rusiyanın Krasnodar diyarı regionunda turizm infrastrukturunun inkişafıdır. Bu layihə çərçivəsində xüsusi investorlar regionun turizm potensialının inkişafı üçün dövlət orqanları ilə əməkdaşlıq edirlər.

Turizmdə uğurlu DÖT layihəsinin daha bir nümunəsi ABŞ-da milli parkların yaradılması və inkişaf etdirilməsidir. Dövlət və xüsusi şirkətlər təbii ehtiyatların qorunub saxlanması və turistlərin cəlb edilməsi üçün birgə investisiyalar yatırırlar.

Turizm sənayesində DÖT bir sıra üstünlüklərə malikdir. Birincisi, xərclərə qənaətdir. Dövlət və biznes arasında tərəfdaşlıq maliyyə ehtiyatlarını daha effektiv bölüşdürməyə və büdcə xərclərini optimallaşdırmağa imkan verir.

İkincisi, DÖT dünya bazarında turizm məhsullarının rəqabət qabiliyyətinin yüksəldilməsinə yardım edir. Dövlət və biznesin birgə səyləri innovativ turizm layihələrini işləyib hazırlamağa və gerçəkləşdirməyə, yeni turistləri cəlb etməyə və təqdim edilən xidmətlərin keyfiyyətini yaxşılaşdırmağa imkan verir.

Turizmdə DÖT-nin uğurla həyata keçirilməsi üçün müəyyən şərtlərə riayət edilməlidir. Birincisi, dövlət strateji məqsədlərini dəqiq müəyyən etmək və onlara nail olmaq üçün planlar işləyib hazırlamaq lazımdır. Bu, səyləri konkret vəzifələrə cəmləməyə və dövlət və biznes arasında effektiv qarşılıqlı əlaqəni təmin etməyə kömək edəcək.

İkincisi, ümumi layihələrin həyata keçirilməsi dövründə dövlət və biznes arasında tərəfdaşlıq qaydalarını müəyyən etmək lazımdır. Vəzifələr və məsuliyyətin dəqiq bölüşdürülməsi, eləcə də nəzarət və nəticələrin qiymətləndirilməsi mexanizmlərinin müəyyən edilməsi turizmdə DÖT layihələrini effektiv idarə etməyə imkan verəcək.

Turizm sənayesində dövlət-özəl sektor tərəfdaşlığı turizm xidmətlərinin inkişaf etdirilməsi və keyfiyyətinin yaxşılaşdırılması üçün böyük imkanlar yaradır. DÖT layihələri dövlət və bizneslə birlikdə innovativ və ambisiyalı ideyaları gerçəkləşdirməyə, xərclərə qənaəti təmin etməyə və dünya bazarında rəqabət qabiliyyətini yüksəltməyə imkan verir.

Dövlət strateji məqsədlərinin dəqiq müəyyən edilməsi və dövlətlə biznes arasında tərəfdaşlıq qaydalarının müəyyən edilməsi kimi uğurlu DÖT şərtlərinə riayət etmək vacibdir. Həmçinin bu şərtlərə riayət etməklə turizmdə DÖT layihələrinin həyata keçirilməsinə maksimal nəticə və uğura nail olmaq mümkündür.

Bugünkü reallıqlarda turizmin dayanıqlı inkişaf konsepsiyası müasir tələblərə müvafiq olaraq yenilənməyə ehtiyac duyur. İqtisadi, sosial və ekoloji tərkib hissələrindən başqa, turizmin dayanıqlı inkişafına nail olmaq üçün daha bir mühüm aspektə - *informasiya* və *kommunikasiya*

aspektinə diqqət yetirmək tövsiyə olunur.

İnformasiya və kommunikasiya dəstəyi turizm sahəsində getdikcə daha mühüm olur. Texnologiyaların inkişaf etməsi və yeni rəqəmsal turizm kateqoriyasının meydana çıxması ilə bu, turistlərin gəlişinin təmin edilməsinin və ümumilikdə turizm sahəsinin dayanıqlı inkişafının mühüm amilinə çevrilir.

Turizm potensialının yüksəldilməsi və turizmin dayanıqlı inkişafının əldə olunmasının effektiv üsullarından biri DÖT-dir. Azərbaycanın nümunəsində biz DÖT əsasında turizmin dayanıqlı inkişafının turizm sektorunun effektiv inkişaf alətinə necə çevrilə biləcəyini görürük.

Turizmin dayanıqlı inkişafının mühüm indikatoru turizmin Dayanıqlı inkişaf indeksidir. İndeks turizm sənayesi kontekstində cari qlobal ekoloji və sosial problemləri qiymətləndirir və turizmin inkişaf strategiyaları və planlarının işlənib hazırlanması üçün əsası təmin edir.

Nəticə

Tədqiqatımızın sonunda qeyd etmək lazımdır ki, sosial şəbəkələr turizm istiqamətləri və məhsullarının irəli çəkilməsi üçün informasiya və kommunikasiya həllərində mühüm rol oynayırlar. Sosial şəbəkələrdən alınmış informasiyanın və turistlərin rəylərinin təhlili gələcək turistlərin proqnozlaşdırılan mənzərəsini formalaşdırmağa və turistlərin ehtiyaclarına cavab verən turist məhsullarını yaratmağa imkan verir.

Turizmin dayanıqlı inkişaf elementlərinin təhlili göstərir ki, müasir gerçəkliklər şəraitində dayanıqlı inkişaf konsepsiyası yenilənməyə ehtiyac duyur və informasiya-kommunikasiya təminatını ehtiva edir. Dövlət-Özəl sektor tərəfdaşlığı və turizmin dayanıqlı inkişaf indeksi turizmin dayanıqlı inkişafına nail olmaqda mühüm rol oynayır. Sosial şəbəkələr turizm sahəsində informasiya və kommunikasiya həllərinin mühüm alətidir.

ƏDƏBİYYAT

1. Стратегическая Дорожная Карта относительно развития индустрии туризма в Азербайджанской Республике. 2016, Баку.- 12с.
2. Томпсон А.А., Стрикленд А.Дж. Стратегический менеджмент: концепции и ситуации. М.: ИНФРА-М,2001. -350 с.
3. Щепакин, М.Б., Михайлова, В.М. Сфера услуг как экономическая категория и вид экономической деятельности // Экономика, предпринимательство и право. – 2020. – Том 10. – № 1. – С. 71-88.
4. https://valyuta.az/az/xidmet/18916/iqtisadiyyatda-xidmet-sektorunun-payi-niye-azalib-serh
5. https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/source/stat-yearbook_2024.pdf

Юсиф Исрафил оглы Исмаилзаде
Азербайджанский Университет Кооперации, докторант

Приоритеты перспективного развития сферы услуг в Азербайджане

Резюме

Цель исследования - определение путей перспективного развития сферы услуг в Азербайджанской Республике.

Методология исследования – системный подход, сравнительный анализ.

Практическая ценность исследования – возможность использования его как научного источника в исследованиях, связанных со сферой обслуживания.

Результаты исследования – обобщены перспективные пути развития сферы услуг.

Оригинальность и научная новизна исследования – дано определение и научное обоснование модернизации сферы услуг на основе государственно-частного партнерства, совершенствования структуры экспорта услуг и определения ее целевых показателей.

Ключевые слова: сфера услуг, экспорт, темпы развития, транспортные услуги, государственно-частное партнерство.

Yusif Israfil Ismailzade
Azerbaijan University of Cooperation
PhD student

Priorities of the prospective development of the service sector in Azerbaijan

Summary

Purpose of the study - is to determine the ways of prospective development of the service sector in the Republic of Azerbaijan.

Research methodology - system approach, comparative analysis.

The practical value of the study is the possibility of using it as a scientific source in studies related to the service sector.

Results of the research - the prospective ways of development of the service sector are summarized.

Originality and scientific innovation of the research - the definition and scientific justification of the modernization of the service sector on the basis of public-private partnership, improvement of the structure of service exports and determination of its target indicators are given.

Keywords: service sector, export, development rates, transport services, public-private partnership.

UOT 33.656; 338.49

Şamil Eldar oğlu ƏZİZOV
Heydər Əliyev Mərkəzinin direktorunun köməkçisi,
İqtisad üzrə fəlsəfə doktoru,
ADİU-nun elmlər doktoru üzrə doktorantı
azizov_shamil@yahoo.com
https://doi.org/10.30546/4.71.73001.2024.004.058

BİR KƏMƏR, BİR YOL ÖLKƏLƏRİNİN NƏQLİYYAT VƏ ENERJİÖTÜRMƏ İNFRASTRUKTURU, TİCARƏT ŞƏRAİTİNİN CARİ VƏZİYYƏTİ VƏ DƏYİŞMƏ MEYİLLƏRİ

Xülasə

Bir kəmər, bir yol təşəbbüsünə daxil olan əksər ölkələri əhatə edən nəqliyyata qoyulan investisiyaların məcmu informasiya bazası tapmadığımızdan biz Dünya Bankının KYT-yə daxil olan ölkələr arasında iqtisadi durumuna görə aparıcı olan bir neçə ölkə üzrə təqdim etdiyi məlumat əsasında təhlil aparmaqla kifayətlənirik. Əvvəla, ona görə ki, Azərbaycanın nəqliyyat sektorunun ətraflı analizi gələcəkdəki tədqiqatlarımızın predmetidir. İkincisi, bu ölkələr son illərdə nəqliyyat sektoruna investisiya baxımından 30 ölkə arasında liderdir. Nəhayət, bu qısa təhlildən əldə olunan nəticələr həm Bir kəmər, bir yol təşəbbüsü, həm də Azərbaycanın 2020-ci il Vətən müharibəsindəki qələbəsindən sonra dünyanın aparıcı ölkələrinin regionumuzda fəallaşmasının səbəblərini anlamağa imkan verir.

Açar sözlər: infrastruktur investisiyaları, logistikanın effektivliyi indeksi, nəqliyyat infrastrukturunun keyfiyyəti indeksi, ticarətin əlverişliliyi indeksi, enerjinin ötürülməsi indeksi

JEL code: F43, O18, R42,

Giriş

“Bir kəmər bir yol” təşəbbüsünün (KYT) ölkələrin sosial-iqtisadi durumuna təsiri istiqamətində çoxsaylı tədqiqatlar mövcuddur ki, biz burada onların bir hissəsini - əsasən son onilliyin nəşrlərini araşdırırıq. Bununla belə aşağıda görəcəyimiz kimi, hətta bu nisbətən azsaylı tədqiqatlarda eyni bir məsələ haqqında fərqli, hətta bəzən ziddiyyətli nəticələr ortaya çıxır. Biz bu hallar arasında qəti seçim etmirik və bu çeşidli fikirlərin təqdim olunmasını məqsədəuyğun hesab edirik.

Əvvəla, iqtisadiyyat elmində belə hallar nəinki nadir deyil, hətta artıq təbii kimi qəbul olunur.

İkincisi, iqtisadiyyat kimi mürəkkəb və çoxamilli sistemlərdə müxtəlif yanaşmaların və fərziyyələrin müxtəlif nəticələrə gətirib çıxarması təbiidir.

Nəhayət, mütəxəssislər tərəfindən irəli sürülən çeşidli nəticələr və kəmiyyət qiymətləndirmələri ümumən bu istiqamətdə olan tədqiqatlarda, xüsusən də Azərbaycan üzrə araşdırmalarda daha diqqətli və tənqidi olmağı təşviq edir ki, bu da zəruri və faydalıdır.

KYT ölkələrinin müqayisəli analizi

Nəqliyyata yönəldilən investisiyalar. Dünya Bankının təqdim etdiyi son 2021-ci (və ilk post-pandemik) ilin məlumatına görə özəl sektor da daxil olmaqla nəqliyyat sektoruna ən çox investisiya yatıran ölkə Türkiyədir – 8,2 milyard dollar. İkinci yerdə Çin (6,5 milyard dollar), üçüncü yerdə Hindistan (5,8 milyard dollar), dördüncü yerdə isə Vyetnamdır (1,4 milyard dollar) [1]. Göründüyü kimi növbəti yeri tutan Qazaxıstan Rusiyanı da üstələmişdir. Bu fakt, xüsusən də Türkiyənin həm Çin, həm də Hindistanı qabaqlaması Azərbaycanda da bu sahədə genişmiqyaslı investisiyaların həyata keçirilməsi bir daha KYT ölkələrində logistika infrastrukturunun diqqət mərkəzində olmasını təsdiqləyir. Önəmli olan digər faktlar ondan ibarətdir ki, son 11 il müddətində Türkiyənin nəqliyyat infrastrukturuna investisiyaların artım tempi Çinlə, demək olar ki, eynidir (hər ikisində təqribən 5 dəfə).

Cədvəl 1.

KYT ölkələrində özəl sektorun iştirakı ilə nəqliyyata yönəldilən investisiyalar, mln. cari ABŞ dolları

İllər	Çin	Hindistan	Türkiyə	Rusiya	Vyetnam
2011	1095	17668	1416	4285	0
2014	5009	2932	4743	0	0
2015	2914	2047	43103	1822	0
2016	3470	2623	779	79	5
2020	2789	1862	0	926	0
2021	6505	5823	8222	109	1380
2011-2021-də cəmi	**89205**	**79045**	**71195**	**18225**	**2685**

Mənbə: [1]-in məlumatları əsasında tərtib olunmuşdur.

Türkiyənin bu məsələdə liderliyi faktı da nəzərə alınmaqla, bu, ən azı o deməkdir ki, Türkiyə son illərdə nəqliyyat sektoruna diqqəti əhəmiyyətli dərəcədə artırmışdır. Sözsüz ki, aralıq illəri nəzərə almayan bu nəticə həmin illərin analizi olmadan yanlış qənaətə gətirib çıxara bilər. Odur ki, bu 11 il ərzindəki investisiyaları araşdıraq. Cədvəl 1-dən göründüyü kimi həqiqətən də bu müddət ərzində Türkiyənin məcmu investisiyaları həm Çin, həm də Hindistandan azdır (uyğun olaraq, təqribən 89, 79 və 71 milyard dollar). Amma gördüyümüz kimi, fərq cüzidir, əlavə olaraq, əhali sayını və ərazini nəzərə alsaq, Türkiyənin nəqliyyat sektoruna verdiyi önəmin daha üstün olduğunu görürük.

2011-2021-ci illər ərzində Rusiyanın nəqliyyat sektoruna investisiyaların son illərdə azalmasını görürük, 2011-ci illə müqayisədə isə bu azalma 97,5% təşkil etmişdir.

Logistikanın effektivliyi indeksi (Logistics Performance Index) üzrə təhlil. Dünya Bankı tərəfindən daxil edilən bu indikator da, təəssüf ki, beş KYT ölkəsi – Əfqanıstan, Azərbaycan, Myanma, Pakistan və Türkmənistan üçün hesablanmasa da, bu göstərici üzrə qalan ölkələrin vəziyyəti, şübhəsiz ki, maraqlıdır. Müəyyən mənada Azərbaycana yaxın olan Gürcüstan və Mərkəzi Asiya ölkələrinə aid məlumatlar ölkəmiz haqqında da müəyyən təsəvvür yarada bilər.

Əvvəla, qeyd edək ki, bu indikator 6 komponentin qiymətləndirilməsi əsasında hesablanır, bu subindeksin hər biri yük daşıyan operatorlar arasında aparılan sorğu əsasında qiymətləndirilir [2].

Logistikanın effektivliyinə görə Sinqapur nəinki KYT ölkələri arasında, bütün dünyada liderdir, özü də bu liderlik beş subindeks üzrə də saxlanılır, yalnız beynəlxalq yükdaşımalarında o, ikincidir. KYT ölkələri arasında ikinci olan Çinin dünya üzrə reytinqi 19-dur. Başqa subindekslərlə müqayisədə Çində problem yaradan Gömrük və sərhəd rəsmiləşdirilməsinin effektivliyi və yüklərin vaxtında çatdırılmasının başqa ölkələrlə müqayisədə aşağı bala malik olmasıdır. Üçüncü və dördüncü yerləri Malayziya və Polşa bölüşdürür. Azərbaycanın qonşu ölkələrindən Türkiyə KYT ölkələri arasında 7-ci, dünyada isə 38-ci qrupda, Gürcüstan, Qazaxıstan və Ukrayna, uyğun olaraq, 13-15-ci və 79-cu, Rusiya 17-ci və 88-ci, İran isə 24-cü və 123-cü mövqelərdə yer alır. Belə bir məqam diqqəti cəlb edir ki, Orta marşrut üzrə Azərbaycanın mühüm tərəfdaşı olan Gürcüstanın ən zəif cəhəti infrastrukturun və logistika xidmətlərinin aşağı səviyyəsi (uyğun olaraq, 108-ci və 92-ci qrup ranqı), Qazaxıstanın əsas zəif yeri beynəlxalq daşımalardır (91-ci yer). İstifadə etdiyimiz iki mənbədə Türkiyənin komponentlər üzrə mövqeyi haqqında məlumat təqdim olunmur [3, s. VIII, 4]).

Nəqliyyat infrastrukturunun keyfiyyəti. Logistikanın effektivliyi indeksi nəqliyyat infrastrukturunun keyfiyyətini aqreqatlaşmış şəkildə qiymətləndirir. Nəqliyyatın müxtəlif növləri üzrə bilavasitə yolların, dayanacaqların, stansiyaların, limanların, maşın və avadanlıqların keyfiyyətinin qiymətləndirilməsi üzrə verilənlər The GlobalEconomy.com portalında təqdim olunur (cədvəl 2). Sonuncu belə qiymətləndirmə 2019-cu ildə 141 ölkə üçün aparılmışdır. Bu tədqiqatın önəmi həm də ondadır ki, burada 4 nəqliyyat növündən dəmir yollarından başqa qalanları üzrə Azərbaycan üçün də indekslər hesablanmışdır.

Beləliklə, *avtomobil yollarının* vəziyyətinə görə KYT ölkələri arasında Sinqapur və Malayzi-yadan (dünya üzrə 21-ci yer) sonra üçüncü yer Azərbaycana məxsusdur və ölkəmizin dünyanın 141 ölkəsi arasında 25-ci yerdə olması da fərəhvericidir. Növbəti yerdə və dünyada 32-ci yerdə Türkiyənin olması avtomobil nəqliyyatı üzrə KYT-nin Orta dəhlizinin Xəzər dənizindən qərbə fəaliyyətinin kifayət dərəcədə hazır olduğuna dəlalət edir. Orta dəhlizin nisbətən zəif halqası kimi Qırğızıstan və Qazaxıstan görünür (dünya üzrə 95-ci yer), Türkmənistan və Özbəkistan haqqında isə məlumat yoxdur (cədvəl 2).

Dəmir yoluna görə də KYT ölkələri arasında birinci yerdə Sinqapurdur (dünya üzrə ranqı 5-dir). Növbəti ilk yerlərdə dünya üzrə də reytinqləri yüksək olan Malayziya (dünyada 12-ci yer), Rusiya (dünyada 16-cı) və Çin gəlir. Orta dəhlizə daxil olan digər ölkələrin KYT və dünya üzrə reytinqləri (mötərizədə verilir) belədir: Qazaxıstan (7 və 30), Tacikistan (9 və 35), Gürcüstan(11 və 40), İran (14 və 49), Türkiyə (17 və 54), Qırğızıstan (20 və 73).

Dəniz limanlarına görə də dünya birincisi Sinqapurdur. KYT üzrə növbəti yerlər belə bölüşüb: Malayziya (dünya üzrə 20-ci yer), Azərbaycan (dünyada 22-ci yer), Rusiya (dünyada 46-cı yer), Türkiyə (dünyada 48-ci yer), Çin (dünyada 49-cu yer). Orta dəhlizə daxil olan digər ölkələr belə yerləşmişlər: Gürcüstan (KYT-də 130-cu və dünyada 83-cü yer), İran (KYT-də 15-ci və dünyada 88-cü yer), Qazaxıstan (KYT-də 18-ci və dünyada 100-cü yer), Qırğızıstan (KYT-də 24-cü və dünyada 138-ci yer), Tacikistan (KYT-də 25-ci və dünyada 139-cu yer).

Cədvəl 2.

KYT ölkələri üzrə nəqliyyat infrastrukturunun keyfiyyət indeksləri, 2019-cu il

	Avtomobil yolları		**Dəmir yolu**		**Dəniz limanları**		**Hava nəqliyyatı**	
Ölkələr	**bal**	**ranq**	**bal**	**ranq**	**bal**	**ranq**	**bal**	**ranq**
Azərbaycan	5,2	25			5,1	22	5,8	10
Banqladeş	3,2	107	3,1	61	3,5	92	3,8	106
Çin	4,6	44	4,5	22	4,5	49	4,6	67
Çexiya	3,9	76	4,5	23	3,2	106	5	47
Gürcüstan	3,8	82	3,9	40	3,8	83	4,4	83
Hindistan	4,5	46	4,4	28	4,5	51	4,9	56
İran	3,9	77	3,7	49	3,7	88	3,1	132
Qazaxıstan	3,6	95	4,2	30	3,3	100	4,3	88
Qırğızıstan	3,1	112	2,8	73	1,5	138	3	133
Kamboca					3,6	90	3,7	111
Laos XDR	3,7	86			3	115	4	102
Moldova	2,6	127	3	68	2,3	127	4,4	85
Monqolustan	3,1	113	3,5	53	1,6	137	3,6	116
Malayziya	5,3	21	5,1	12	5,2	20	5,5	26
Pakistan	4	70	3,8	47	4,1	70	4,2	93
Polşa	4,3	57	3,9	43	4,5	54	4,8	64
Rumıniya	3	118	2,8	74	3,9	81	4,6	72
Rusiya	3,5	99	4,9	16	4,7	46	5	51
Sinqapur	6,5	1	5,8	5	6,5	1	6,7	1
Slovakiya	4	72	4	38	3,1	113	3,8	108
Tailand	4,4	56	2,8	75	4,1	73	5	53
Tacikistan	4,5	52	4,1	35	1	139	4,5	79
Türkiyə	5	32	3,5	54	4,7	48	5,4	35
Ukrayna	3	119	4,2	32	3,9	82	4	103
Vyetnam	3,4	104	3,6	52	3,8	85	4	104
Orta qiymət	**4,0**	**74,6**	**3,9**	**42,3**	**3,7**	**80,4**	**4,5**	**77,0**

Mənbə: [5], [6], [7], [8]- in məlumatları əsasında tərtib olunmuşdur.

Hava limanlarındakı vəziyyətə görə də Sinqapur dünya üzrə liderdir. 30 KYT ölkəsi arasında ikinci yerdə Azərbaycandır. Ölkəmizin dünya üzrə də reytinqi çox yüksəkdir – 2019-cu ildə 141 ölkə arasında Sinqapur, Honkonq, Niderland, Finlandiya, Yaponiya, İsveçrə, BƏƏ, Panama və

Cənubi Koreyadan sonra 10-cu yer [8]. KYT-də növbəti ilk yerlər aşağıdakı kimi bölüşmüşdür: Malayziya (dünya üzrə reytinqi 26), Türkiyə (dünyada 35-ci), Çexiya (dünyada 47-ci), Rusiya (dünyada 51-ci). Orta dəhliz ölkələrindən Çin KYT ölkələri arasında 10-cu, dünyada 67-ci, qalan KYT ölkələri, uyğun olaraq, Tacikistan 12-ci və 79-cu, Gürcüstan 13-cü və 83-cü, Qazaxıstan 15-ci və 88-ci, İran 24-cü və 132-ci, Qırğızıstan 25-ci və 133-cü mövqedədir (cədvəl 2).

Ticarətin əlverişliliyi indeksi (Enabling Trade Index – ETI)**.** Bu indikatorun vacibliyi onun ticarət mühiti ilə yanaşı nəqliyyat infrastrukturunu da ehtiva etməsidir. Dünya İqtisadi Forumu tərəfindən irəli sürülən bu indeks 7 sütuna (pillar) əsaslanan 4 subindeksin ədədi ortası kimi hesablanır [9, s. 43-44]:

A. A subindeksi – Bazar əlçatanlığı 2 sütundan ibarətdir: 1) Daxili bazarın əlçatanlığı. 3 göstərici əsasında hesablanır. 2) Xarici bazarların əlçatanlığı. 2 göstərici əsasında hesablanır.

B. B subindeksi – Sərhəddə idarəetmə 1 sütundan ibarətdir: Sərhəddə idarəetmənin səmərəliliyi və şəffaflığı. 13 göstərici əsasında hesablanır.

C. C subindeksi – İnfrastruktur 3 sütundan ibarətdir: 1) Nəqliyyat infrastrukturunun əlçatanlığı və keyfiyyəti. 4 alt sütunda qruplaşdırılmış 7 göstərici əsasında hesablanır. 2) Nəqliyyat xidmətlərinin əlçatanlığı və keyfiyyəti. 6 göstərici əsasında hesablanır. 3) İKT-yə əlçatanlıq və istifadəsi. 7 göstərici əsasında hesablanır.

D. D subindeksi – Əməliyyat mühiti 1 sütundan ibarətdir: Əməliyyat mühiti. 5 göstərici əsasında hesablanır.

Beləliklə, göründüyü kimi, Ticarətin əlverişliliyi indeksinin ərsəyə gətirilməsi üçün 43 göstəricidən istifadə olunur və buna görə də, həm də bizi əsasən sütunlar üzrə analiz maraqlandırdığından biz bu göstəriciləri burada sadalamırıq. Onların tam siyahısını [9, s. 43-44]-də, bütün dünya ölkələri haqqında bu göstəricilərin qiymətlərini [9, s. 50-321]-də, həmçinin sütunların, subindekslərin və ETI-nin hesablama metodologiyasını [9, s. 43-44]-də tapmaq olar. İlkin məlumatların bir hissəsi rəsmi statistikadan, bir hissəsi isə sorğu əsasında yığılır.

Ticarətin əlverişliliyi indeksi sonuncu dəfə 2016-cı ildə 136 ölkə üçün hesablanmışdır, Əfqanıstan, Belarus, Özbəkistan, Myanma və Türkmənistan üçün tədqiqat aparılmamışdır.

Reytinqə görə ilk yerlərdə, bir qayda olaraq, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına üzv olan ölkələr yerləşir. Həm 2016, həm də ondan bilavasitə əvvəl aparılan 2014-cü il tədqiqatlarına görə ETI reytinqinə üzrə Sinqapur liderliyi saxlamışdır. İkinci sütun, yəni xarici bazarlara çıxış meyarından başqa bütün sütunlar üzrə Sinqapur ən yüksək pillələrdədir. Sinqapurun və ümumiyyətlə, inkişaf etmiş ölkələrin xarici bazarlara çıxış məsələsində nisbətən aşağı mövqeləri Ümumdünya Ticarət Təşkilatı (ÜTT) tərəfindən və çoxtərəfli və ikitərəfli ticarət sazişlərində zəif ölkələrə verilən güzəştlərlə, yəni xarici bazarlara çıxışın asanlaşdırılması ilə izah olunur. İkinci və üçüncü yerlərdə, uyğun olaraq, Çexiya və Malayziya gəlir. Növbəti üç mövqedə Orta dəhliz ölkələri yerləşmişdir: ardıcıl olaraq, Gürcüstan, Çin və Azərbaycan. 2014-cü ildəki mövqelərlə müqayisə edəndə görürük ki, bir sıra ölkələrin reytinqi pisləşmişdir. Bizim üçün maraqlı olan Orta dəhliz ölkələrindən Azərbaycanın reytinqi 5 pillə (66-dan 71-ə), Qazaxıstanın reytinqi 5 pillə, Türkiyənin – 11 pillə, Qırğızıstanın – 15 pillə, Rusiyanın – 6 pillə, İranın – 2 pillə aşağı düşmüşdür.

Azərbaycanın ümumən aşağı pillədə olması, bir tərəfdən, onun ÜTT üzvü olmamasıdır. Bunu 1-ci sütuna (Daxili bazara əlçatanlıq) və 2-ci sütuna (Xarici bazarlara əlçatanlıq) görə çox aşağı mövqelər (136 ölkə arasında, uyğun olaraq, 102 və 114-cü yer) də təsdiqləyir. 2014-2016-cı illərdə vəziyyətin daha da pisləşməsi digər tərəfdən 2015-ci ildə manatın kəskin devalvasiyası ola bilər. Bununla bərabər A subindeksinin hər iki sütununa görə Azərbaycan əksər orta dəhliz ölkələrindən irəlidədir. Bir kəmər, bir yol layihəsinin reallaşdırılması baxımından Azərbaycan üçün daha bir önəmli siqnal Nəqliyyat xidmətlərinin əlçatanlığı və keyfiyyətinin (5-ci sütun) aşağı səviyyədə olmasıdır (dünya üzrə 136 ölkə arasında 97-ci yer, KYT ölkələri üzrə 25 ölkə arasında 19-cu yer). Müqayisə üçün qeyd edək ki, Türkiyə dünyada 45-ci, KYT ölkələri üzrə 8-ci, Pakistan 64 və 11-ci, Qazaxıstan, uyğun olaraq, 68 və 12-ci, Rusiya 82 və 15-ci, İran isə 86 və 16-cı mövqelərdə Azərbaycandan irəlidədir.

Enerjinin ötürülməsi indeksi (Energy Transition Index). Azərbaycanın ixracında enerji daşıyıcılarının önəmli paya malik olması, ölkəmizdə alternativ və yaşıl enerji mənbələrinin inkişaf etdirilməsi və bu mənbələr hesabına əldə edilən enerjinin də ixracı strategiyası, həmçinin bu strategiyanın KYT çərçivəsində daha da genişləndirilməsi planları Dünya İqtisadi Forumu tərəfindən təqdim olunan Enerjinin ötürülməsi indeksi (EÖİ) üzrə təhlili aktuallaşdırır.

EÖİ iki subindeksdə (Sistemin səmərəliliyi indeksi və Ötürməyə hazırlıq indeksi) əks olunan 39 göstərici [10, s. 44] əsasında 0-100 şkalasında qiymətləndirilir. Yüksək bal enerji ötürülməsində ölkənin daha yaxşı vəziyyətdə olması deməkdir.

1) *Sistemin səmərəliliyi indeksi* (System performance index – SPI) ölkənin enerji sisteminin səmərəliliyini üç meyarla qiymətləndirir [10, s. 11, 44]:

- İqtisadi inkişaf və artımın dəstəklənməsi bacarığı (hesablamada xüsusi çəkisi 33,33%) 5 göstərici əsasında hesablanır;
- Təhlükəsiz və etibarlı enerji təchizatına çıxış imkanları (hesablamada xüsusi çəkisi 33,33%) 3 göstərici əsasında qiymətləndirilir:
- Enerjinin dəyərinin yaradılması zəncirin bütün halqalarında ekoloji dayanıqlılığın təmin olunması (hesablamada xüsusi çəkisi 33,33%). 4 göstərici əsasında qiymətləndirilir:

2) *Ötürmə hazırlığı indeksi* (Transition readiness index - TRI) 6 meyarla qiymətləndirilir:

- Enerji sisteminin strukturu (hesablamada xüsusi çəkisi 16,67%) (3 göstərici);
- İnsan kapitalı və istehlakçı iştirakı (hesablamada xüsusi çəkisi 16,67%) (2 göstərici);
- İnfrastruktur və innovativ biznes mühiti (hesablamada xüsusi çəkisi 16,67%) (3 göstərici);
- İnstitutlar və idarəetmə (hesablamada xüsusi çəkisi 16,67%) 3 göstərici əsasında;
- Tənzimləmə və siyasi öhdəliklər (hesablamada xüsusi çəkisi 16,67%) (4 göstərici əsasında);
- Kapital və investisiya (hesablamada xüsusi çəkisi 16,67%) (4 göstərici).

KYT ölkələri arasında EÖİ üzrə də lider Sinqapurdur. Onun 115 dünya ölkəsi arasında reytinqi 67 balla 21-dir (cədvəl 3). Onu da qeyd edək ki, ilk 20 yerdə iki ölkədən (Yeni Zelandiya və Uruqvay) başqa qalan mövqelərdə Avropa ölkələri məskunlaşıb və 1-ci yerdə İsveç olmaqla ən yüksək pillələrdə məhz Şimali Avropa ölkələridir [10, s.13]. Azərbaycan 63 balla Slovakiya və Çexiya ilə birgə 5-7-ci yerləri bölüşdürür və Orta dəhliz ölkələri arasında yalnız Gürcüstandan geridədir ki, bu da Gürcüstanın daha əlverişli coğrafi mövqeyi – Qara dəniz vasitəsilə bilavasitə okeana çıxışı ilə izah oluna bilər. KYT Türkiyə ölkələri arasında 10-cu, Çin 12-ci, Rusiya, Tacikistan, Qazaxıstan, Qırğızıstan və İran isə 13, 14, 15, 20 və 22-ci mövqelərdə yerləşiblər (cədvəl 3).

Əksər ölkələrdə Ötürməyə hazırlıq balları Sistemin effektivliyi ilə müqayisədə aşağıdır, yalnız Rumıniya və Çində vəziyyət əksinədir. Ən az fərq Sinqapurda (-0,3%), Tacikistanda (-2,5%) və Qırğızıstandadır (-3.8%). Aydındır ki, Sinqapurdan fərqli olaraq son iki ölkədə bu, Sistemin effektivliyinin də aşağı səviyyədə olmasından irəli gəlir.

Bu iki meyarın ən qeyri-mütənasib olduğu ölkələr Qazaxıstan (-32%), Rusiya (-31%), Banqladeş (-29%) və Monqolustandır (-28%) (cədvəl 3). Bu balların 2021-ci ilə aid olduğunu və 2022-ci ildən enerji daşıyıcılarının satışında Rusiyaya tətbiq olunan çoxsaylı sanksiyaları da nəzərə alsaq, bu qeyri-bərabərliyin daha da artmasını təxmin etmək olar.

Orta dəhliz ölkələrindən qeyri-mütənasibliyin ən az (həm də yuxarıda qeyd etdiyimiz kimi, əks istiqamətdə - 4,7%) olduğu ölkə Çindir. Bu dəhlizdə bu iki subindeksin ballarında qeyri-mütənasibliyin azlığına görə növbəti yerlərdə Gürcüstan (-6,7%), Türkiyə (-11%) və Azərbaycandır - 19%-dir (cədvəl 3). Əfqanıstan, Belarus, Laos XDR, Myanma, Türkmənistan və Özbəkistan üçün EÖİ hesablanmamışdır.

Cədvəl 3.

KYT ölkələri üzrə Enerjinin ötürülməsi indeksi, 2021-ci il

Ölkələr	ranq	bal	Sistemin effektivliyi	Ötürməyə hazırlıq	TRI/SPI, %
Sinqapur	21	67	67,1	66,9	-0,3
Gürcüstan	33	65	67,4	62,9	-6,7
Rumıniya	38	64	62,1	65,7	5,8
Malayziya	39	64	68,5	59,5	-13,1
Slovakiya	43	63	68,3	57,9	-15,2
Azərbaycan	44	63	69,5	56,3	-19,0
Çexiya	45	63	68,2	56,9	-16,6
Tailand	55	60	64,0	55,4	-13,4
Polşa	62	58	63,7	51,8	-18,7
Türkiyə	63	58	60,9	54,2	-11,0
Vyetnam	65	57	61,0	54,0	-11,5
Çin	68	57	55,4	58,0	4,7
Rusiya	73	56	66,0	45,7	-30,8
Tacikistan	75	55	55,7	54,3	-2,5
Qazaxıstan	83	54	64,1	43,4	-32,3
Hindistan	87	53	58,2	47,3	-18,7
Moldova	90	52	58,1	45,5	-21,7
Ukrayna	91	52	58,1	45,5	-21,7
Kamboca	93	52	58,4	44,7	-23,5
Qırğızıstan	94	51	52,3	50,3	-3,8
Banqladeş	97	50	59,1	41,8	-29,3
İran	99	50	55,9	44,8	-19,9
Pakistan	104	49	56,2	41,6	-26,0
Monqolustan	113	44	51,5	37,0	-28,2

Mənbə: [10, s.13]-dəki məlumatların əsasında tərtib olunmuşdur.

Orta dəhlizin Azərbaycandan keçən marşrutunun digər marşrutlarla müqayisəsi

Bu bölmədə biz KYT çərçivəsində mövcud olan 6 dəhlizin müxtəlif meyarlar üzrə müqayisəsini həyata keçiririk.

Biz Azərbaycanın da daxil olduğu ikinci dəhliz daxilində üç alt dəhlizi fərqləndiririk:

1) Çin-Qazaxıstan-Azərbaycan-Gürcüstan-Türkiyə. Zəngəzur hissəsində yol hazır olmadığından və bunun reytinqlərə mənfi təsiri səbəbindən biz hələ Çin-Qazaxıstan-Azərbaycan Zəngəzur-Azərbaycan (yəni Naxçıvan-Türkiyə);

2) Çin-Özbəkistan (və ya Əfqanıstan)-Türkmənistan-Azərbaycan-Gürcüstan-Türkiyə.

3) Çin-Tacikistan(və/və ya Əfqanıstan)-İran-Türkiyə.

Bu cür araşdırmanın bir sıra əsasları var. Bu səbəblərə keçməzdən əvvəl dəhlizlərin qarşılıqlı münasibətinin iki tipinə diqqət yetirmək lazımdır:

- bir-birini tamamlayan dəhlizlər;
- bir-birini əvəzləyən (alternativ) dəhlizlər.

Dəhlizlərin müqayisəsinin zəruriliyini şərtləndirən amillərə gəldikdə isə, belə bir araşdırma KYT-nin reallaşdırılması və yük daşıyıcılarının hansı marşruta üstünlük verməsi və buna görə də konkret dəhlizin rəqabətqabiliyyətliliyinə nail olunması baxımından çox önəmlidir.

Logistikanın effektivliyi üzrə. Müqayisə məqsədilə məxsusi olaraq tərtib etdiyimiz cədvəl 4-dən göründüyü kimi, Çindən cənub və cənub-qərb istiqamətlərinə - Myanmar, Laos, Tailand, Vyetnam, Kamboca, Malayziya, Sinqapur, Kamboca, Laos XDR-ə yönələn, uyğun olaraq, 4-cü, 6-cı və 5-ci dəhlizlər yüksək reytinqlərə malikdir ki, bu da izah olunandır: Çin cənubda yerləşən çoxsaylı su hövzələrinə - Cənub-Şərqi Çin dənizinə, Birma dənizinə, Siam və Benqal körfəzlərinə çıxan dəhlizlərə böyük investisiyalar qoyur. Bunların arasında 4-cü dəhliz 3,7 balla xüsusilə seçilir.

Növbəti iki yer Azərbaycandan keçən iki Orta 1) və 2) dəhlizlərinə məxsusdur və bu dəhlizlərin

balları və reytinqləri KYT üzrə uyğun orta göstəricilərdən yaxşıdır. Azərbaycandan keçən bu dəhlizlərə rəqib olan və İrandan keçən 2.3 dəhlizi bal etibarilə cüzi də olsa, uduzur. Onu da qeyd edək ki, Rusiyadan keçən 3-cü dəhliz sonuncu mövqedədir (cədvəl 4).

Cədvəl 4.

Logistikanın effektivliyi üzrə KYT dəhlizlərinin müqayisəsi, 2023-ci il

